"Azərfarm" əczaçılıq zavodunda istehsal edilən "Fagolin" məlhəminin tərkibində əsas təsiredici maddələrdən biri olan dekspantenolun miqdarı təyini Yüksək Effektivli Maye Xromatoqrafiya (YEMX) üsulu ilə tətbiq edilir. Dərman vasitələrinin qeydiyyatı və ya təkrar qeydiyyatı zamanı normativ sənədlərə əsasən analitik üsulların validasiyası zəruridir.

İşin məqsədi: "Fagolin" məlhəmində dexpantenolun yüksək effektivli maye xromatoqrafiya ilə miqdari təyinat üsulunun bəzi validasiya göstəricilərinin müəyyən edilməsidir.

Tədqiqatın material və metodları.

Reagent və məhlullar. Standart nümunəsi kimi dexpantenol (98,9% təmizliyə malik, *USP/ Rockvılle,reference standard,* seriya nöm- rəsi*: K0I270)* götürülmüşdür. Xromatoqrafiya məqsədilə qatı ortofosfat turşusu (98%, Merck/Almaniya, seriya nömrəsi: K44422173 316) və asetonitrildən (*HPLC Grade*, Merck/ Almaniya, seriya nömrəsi: I674930 308) istifadə edilmişdir.

Matrisa (şərq fıstıq yağı (3%), vazelin yağı (15%), emulqator №1 (8%), qliserin (30%), nipagin (0.1%), nipazol (0.2%), təmizlənmiş su (38.7%), aerosil (8%); Azərfarm MMC), model qarışıq (məlhəməsası və aktiv substansiya) və blank məhlulda (hərəkətli faza) hazırlanmışdır.

Hərəkətli faza - asetonitril və 0.01 M qatı fosfat turşusunun 10:90 nisbətinə uyğun hazırlanır və ultrasəsli su hamamı ilə deqazasiya olunur.

Xromatoqrafik şərait. Eksperimental tədqiqatlar UB-detektorlu HPLC-Agilent-1100 (ABŞ) xromatoqrafında aparılmışdır. Hərəkətsiz faza zorbax SB-C18 borusu, hissəciklərin ölçüsü 5 mkm. Borunun temperaturu 30^0C, həlledicinin verilmə sürəti 1 ml/dəqiqə, nümunə həcmi 20 mkl-dır. Analizin aparılma müddəti 7 dəqiqədir.

Tədqiq edilən məhlulu hazırlamaq üçün 4.0 qr "Fagolin" məlhəmi 100 ml həcmə malik ölçülü kolbaya yerləşdirilir, üzərinə 20 ml hərəkətli faza əlavə edilərək çalxalanmaqla həll edilir, sonra 15 dəq müddətində ultrasəs hamamında saxlanılır, həcmi hərəkətli faza ilə ölçüyə çatdırılır və qarışdırılır. Alınmış məhlul məsamələrinin ölçüsü 0,45 mkm olan ftoroplast filtrdən süzülür.

Standart məhlulu hazırlamaq üçün 200 mq dexpantenol 100 ml həcmə malik ölçülü kolbaya yerləşdirilir, üzərinə 20 ml hərəkətli faza əlavə edilərək çalxalanmaqla həll edilir, sonra məhlulun həcmi hərəkətli faza ilə ölçüyə çatdırılır və qarışdırılır.

Kalibrləmə məqsədilə dexpantenolun 5 sayda (0,06; 0,08; 0,1; 0,12 və 0,14 mq/ml) məhlulları hazırlanmışdır.

Tədqiq edilən məhlul və dexpantenolun standart işçi məhlulunun hər birinin YEMX-da 5 dəfə xromatoqramları çəkilir.

Preparatda dexpantenolun miqdarı (X) aşağıdakı formula əsasən hesablanır.

$$X = \frac{S\, M_s\, V_{1n}\, V_{2n}}{S_o\, M_n\, V_{1s}\, V_{2s}} * 100\%;$$

burada:

S - nümunənin zirvə sahəsinin orta göstəricisi, nisbi vahidlə;

S_o-standartın zirvə sahəsinin orta göstəricisi,nisbi vahidlə;

M_s – standartın çəkisi, mq-la

M_n – nümunənin çəkisi, mq-la

V – həcm, ml-lə

S/N: S (slope)-bucaq əmsalının N (noise)-səsə olan nisbətidir [5,6].

"Fagolin" məlhəmində dexpantenolun yüksək effektivli maye xromatoqrafiya ilə miqdari təyinat üsulunun validasiya göstəriciləri beynəlxalq rəsmi normativ sənədlər əsasında aparılmışdır [7,8,9].

Nəticələr və müzakirə.

Təyinolunma həddi və miqdari təyinolunma həddi: Miqdari təyinat üsulunun təyinolunma həddi və miqdari təyinolunma həddi göstəricilərinin qiymətləndirilməsi zamanı məlum təmizlik dərəcəsinə malik dexpantenoldan istifadə edilir. 100 mq dexpantenol 100 ml-lik ölçülü kolbaya əlavə edilir, üzərinə təxminən 20 ml hərəkətli faza əlavə olunur və tam həll olana kimi çalxalanır, sonra hərəkətli faza ilə ölçüyə çatdırılır. Alınan məhluldan 1 ml götürüb 50 ml-lik ölçülü kolbaya əlavə edilir, üzərinə təxminən 10 ml hərəkətli faza əlavə olunur və çalxalanır, hərəkətli faza ilə ölçüyə çatdırılır,nəticədə 0.02 mq/ml qatılıqlı məhlul alınır. Analojı qaydada 0.0004, 0.0002, 0.0001, 0.00005 və 0.000025 mq/ml qatılıqlı məhlullar hazırlanır və hər bir məhlulun xromatoqramları çəkilir.

Təyinolunma həddi (TOH)

Təyinolunma həddi və yaxud təyin limiti "Fagolin" məlhəmində dexpantenolun təyin oluna bilən ən aşağı miqdarının aşkar edilməsi əsasında müəyyənləşdirilir.

S/N nisbəti təyinolunma həddi üçün təxminən 3.1 olmalıdır.


S/N nisbətinin hesablanması :

Mobil fazanın səsinin orta göstəricisi: 0,144 mAU

TOH-i üçün nümunənin xromatoqrammada siqnal göstəricisi: 0,223 mAU (0.04%) (şəkil1).

Beləliklə:

$$\frac{\square}{\square} = 2 * \frac{0.223}{0.144} = 3.09$$



Şək.1. Təyinolunma həddinin müəyyən edilməsi üçün spektr


Təyinolunma həddinin müəyyən edilməsi üçün araşdırmalar nəticəsində S/N nisbət göstəricisinin 3,09 olduğu müəyyən edilmişdir. Alınan nəticələr normativlərə uyğundur.

Miqdari təyinolunma həddi (MTOH). Miqdari təyinolunma həddi və yaxud miqdari hesablanma limiti "Fagolin" məlhəmində dexpantenolun lazımi dəqiqlik və düzgünlüklə miqdari olaraq təyin oluna bilən ən aşagı miqdarının müəyyən edilməsi əsasında təyin edilir. S/N nisbəti təyinolunma həddi üçün təxminən 10 olmalıdır. S/N nisbətinin hesablanması:

Mobil fazanın səsinin orta göstəricisi: 0,144 mAU, MTOH-i üçün nümunənin

xromatoqrammada siqnal göstəricisi: 0,79 mAU (0,16%) (şəkil 2).

Beləliklə: $\frac{□}{□} = 2 * \frac{0.79}{0.144} = 10.97$



Şək. 2. Miqdari təyinolunma həddinin müəyyən edilməsi üçün spektr

Miqdari təyinolunma həddinin müəyyən edilməsi üçün araşdırmalar nəticəsində S/N nisbət göstəricisinin 10,9 olduğu müəyyən edilmişdir. Alınan nəticələr normativlərə uyğundur.

Sistem uyğunluğu. "Fagolin" məlhəmində dexpantenolun YEMX ilə miqdari təyini üsulunun sistem uyğunluğu göstəricisi eyni homogen seriyanın 5dəfə təkrarlanmış analiz nəticələri arasındakı yaxınlıq dərəcəsinin müəyyən edilməsi əsasında təyin edilmişdir. Metodikaya əsasən tədqiq edilən nümunə və standart dexpantenol məhlulları hazırlanır, sonra YEMX-da xromatoqramları çəkilir və müəyyən olunmuş göstəricilər hesablanır.Alınan nəticələr 1 və 2 saylı cədvəllərdə, həmçinin şəkil 3-də verilmişdir.

Cədvəl 1

Standart dexpantenol məhlulu xromatoqramının nəticələri

Adı, mq/ml	Vaxt, dəq	Zirvə sahəsi, nisbi vahid	Zirvənin hündürlüyü	Nəzəri tarelka	Zirvə sahəsinin nisbi qalığı
dexpantenol 0,1	4,709	2029,9715	270,74	14034	1,059
	4,707	2025,3541	269,10	14022	1,055
	4,711	2033,3596	267,57	14059	1,060
	4,774	2071,3931	266,80	14244	1,067
	4,726	2048,4412	270,36	13786	1,054

Cədvəl 1-in ardı

Adı, mq/ml	Vaxtın orta göstəricisi	Vaxtın standart kənara çıxması	Vaxtın nisbi standart kənara çıxması, %	Sahənin orta göstəricisi	Sahənin standart kənara çıxması	Sahənin nisbi standart kənara çıxması, %
dexpantenol 0,1	4,725	0,028183	0,596422	2041,7039	18,71785	0,916776

Üsulun sistem uyğunluğunun məyyən edilməsi üzrə tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, dexpantenol məhlulu xromatoq-ramında zirvələrdə nəzəri tarelkalar 2000-dən cox, zirvə sahəsinin nisbi qalığı isə 2-dən yuxarı olmamalıdır.

Tətbiq diapazonu. Xəttilik, düzgünlük və dəqiqlik göstəriciləri tətbiq diapazonunda müsbət nəticələr verir. Tətbiq diapazonu 75-125% intervalı arasında təyin edilir. Xəttilik 60-140%, düzgünlük 75-100-125%, dəqiqlik isə 100% qatılıqları intervalında təyin olunur.

Nəticə."Fagolin" məlhəmində dexpantenolun yüksək effektivli maye xromatoqrafiya ilə miqdari təyinat üsulunun bəzi validasiya göstəriciləri, o cümlədən dexpantenolun təyino-lunma həddinin 0.000025 mq/ml, miqdari təyinolunma həddinin 0.0001 mq/ml, həmçinin də sistem uyğunluğunun zirvə sahəsinin nisbi qalığının 2-dən yuxarı olmaması müəyyən edilmişdir. Üsulun müəyyən edilən validasiya


göstəriciləri normativlərə uyğundur və "Fagolin" məlhəminin istehsalı və istifadəsi mərhələlərində keyfiyyətə analitik nəzarəti həyata keçirməyə imkan verir.

Cədvəl 2
"Fagolin" məlhəmində dexpantenol məhlulu xromatoqramının nəticələri

Adı, mq/ml	Vaxt, dəq	Zirvə sahəsi, nisbi vahid	Zirvənin hündürlüyü	Nəzəri tarelka	Zirvə sahəsininn nisbi qalığı
fagolin 0,1	4,760	2065,4157	270,48	13813	1,058
	4,781	2093,1949	270,11	13935	1,062
	4,749	2048,9812	270,45	13749	1,063
	4,722	2052,6387	272,01	13,427	1,059
	4,760	2079,9382	270,58	13813	1,064

Cədvəl 2-in ardı

Vaxtın orta göstəricisi	Vaxtın standart kənara çıxması	Vaxtın nisbi standart kənara çıxması, %	Sahənin orta göstəricisi	Sahənin standart kənara çıxması	Sahənin nisbi standart kənara çıxması, %
4,760	0,012502	0,262625	2068,0337	18,58535	0,898697



Şək. 3.Aktiv substansiyanın (I) və "Fagolin" məlhəminin (II) xromatoqramı. Həlledici sistem: asetonitril və 0.01 M qatı ortofosfat turşusu(10:90)

ƏDƏBİYYAT

1. Əliyev H.M., Əliyev F.İ. Əczaçılıqda analitik üsulların validasiyası //Azərbaycan Əczaçılıq və Farmakoterapiya Jurnalı, 2012, N2, s.5-10.
2. Степанова Э.Ф., Губанова Л.Б., Голова Г.А. Использование валидации при выборе методики количественного определения суммы флавоноидов в геле с экстрактом цветков лабазника вязолистного // Человек и его здоровье, 2008, №1, с.126-129
3. WHO good manufacturing practices for pharmaceutical products: main principles. WHO Technical Report Series, 2014, v.986, p. 90-91
4. Леонтьев Д.А. Валидация аналитических методик и испытаний. Система Фармакопейных стандартных образцов Государственной Фармакопеи Украины // Фармаком, 2002, №1, с. 36-43.
5. Script Series "Quality Assurance". Validation of Analytical Procedures / German Medicines Manufacturers' Association. First English edition, 2009, p. 45-46
6. Narottam P. , Srinivasa R., M.Hadi. HPLC Method development and Validation for the assay of Ceftriaxone sodium injection // International Journal of Pharma Sciences, 2012, N4, p. 84-90
7. The United States Pharmacopeia 36 / National Formulary 31, Chapter, 2013
8. International Conference on Harmonization, Harmonized Tripartite Guideline, Validation of Analytical Procedures, Text and Methodology, Q2(R1), November 2005, p 2-13.
9. Draft Guidance for Industry: Analytical Procedures and Methods Validation for drug and biologics. U.S. Department of Health and Human Services, Food and Drug Administration, Center for Drug Evaluation and Research, Center for Biologics Division of Research, Rockville, MD, 2014, p. 8-12

Резюме

Некторые валидационные показатели ВЭЖХ методики количественного определения декспантенола в мази "Фаголин"

Т.А. Сулейманов, Э.З.Балаева, П.Ф.Гаджибалаев

Проведена валидация ВЭЖХ методики количественного определения декспантенола в мази "Фаголин" и изучены некоторые параметры валидации. Установлены пределы обнаружения 0.000025 мг/мл и количественного определения 0,0001 мг/мл декспантенола в мази. ВЭЖХ методика количественного определения декспантенола в мази "Фаголин" по валидационным параметрам соответствует требованиям нормативных документов и дает возможность проведения контроля качества мази "Фаголин" на стадиях производства и использования.

Summary

Some validation parametrs of the HPLC method for quantative determination of dexpantenol in ointment "Fagolin"

T.A.Suleymanov, E.Z.Balayeva, P.F.Hacıbalayev

Dexpantenol was determined some validation indicators of quantitative methods with HPLC, including limit of detection 0.000025 mg/ml of dexpantenol and limit of quantitation 0.0001 mg/ml as well as the tailing factor of the system suitability is less than 2 in "Fagolin" ointment. The determined validation indicators of methods is suitable for standarts and analytical quality control allows to implement in stages of "Fagolin" ointment production and usage.

Daxil olub: 04.03.2015

TERMİKİ YANIQLAR ZAMANI ANTİOKSIDANT İLƏ ARQOSULFANIN YANAŞI TƏTBİQ EDİLMƏSİNİN AZİNVAZİV TEXNOLOGİYASI

Ş.K.Məmmədov

Yanıq mərkəzi, Bakı

Açar sölzər: termiki yanıqlar, müalicə, antioksidantlar, arqosulfan, azinvaziv texnologiyalar

Ключевые слова: термические ожоги, лечение, антиоксиданты, аргосульфан, малоинвазивные технологии

Keywords: thermal burns, treatment, anti-oxidants, Argosulfan, minimally invasive technology

Təcrid olunmuş termiki travmanın ağırlıq dərəcəsi iki əsas qarşılıqlı asılı olan faktor ilə təyin edilir- yanığın sahəsi və yanğının dərinliyi [1]. MDB ölkələrində yanıqların dərəcəsini təyin etmək üçün IV dərəcəli təsnifatdan istifadə edilir. Bu təsnifata əsasən səthi I, II, IIIA dərəcələr və III və IV dərəcəli dərin (subdermal) yanıqlar ayrılır. Təklif edilən çoxsaylı üsullar içərisindən yanıqların sahəsinin hesablanması üçün çox zaman "doqquzluq qaydasından" istifadə edilir. Bu qaydanın əsaslandığı postulata görə hər bir anatomik nahiyənin sahəsi 9 dəfəlik faiz (yuxarı ətraflar 9%, aşağı ətraflar- 18%, baş və boyun- 9%, arxasəth və bədən 18% üzrə) təşkil edir. Bundan başqa ovuc qaydasından istifadə edilir. Bu qayda ilə ölçüldükdə böyük insanın ovcunun bədən səthinin 1%-ni təşkil etməsinə əsaslanırlar.

Yanıqların 80-90%-ni təşkil edən termiki yanıqlardan başqa kimyəvi və elektrik yanıqlar da ayrılır. Kimyəvi yanıqlar müxtəlif müəlliflərin göstəricilərinə əsasən yanıq travmatizmi strukturunda ümumi sayının 2,5-5,1% təşkil edir [2]. Həmin növün xüsusiyyəti aqressiv maddələrin zədələyici təsirlərin toxumlar ilə birləşdiyi andan başlayır və kimyəvi reaksiya sona yetənə qədər davam edir.

Dəri zədəsinin dərinliyi, yanıqların yayılma dərəcəsi, sağalmanın davametmə müddəti yanığın təbiəti, düşən maddənin miqdarı, onun konsentrasiyası, dəri ilə kontaktın davametmə müddəti, eləcə də reagentin təmizlənməsi və neytrallaşdırılması müddətindən asılıdır [3,4]. Bütün travmaların 1-2,5%-ni elektrik cərəyan ilə zədələnmə təşkil edir. Bu növ zədələnmə həmçinin çoxsaylı çətin proqnozlaşdırılan faktor və şəraitlərdən (cərəyanın qüvvəsi, zədələnmə və s.) asılı olur. Onun zədələyici təsiri bir sıra spesifik effektlərin toplusudur (bioloji, mexaniki, elektrokimyəvi, istilik və s.) [1,4,5].

Beləliklə, kimyəvi yanıqlar və elektrik yanıqlar birlikdə ümumi yanıq travmatizmi

strukturunun 10%-ni təşkil edir, spesifik təkrarsız xüsusiyyətlərə malik olur [1,5,7].

Bir sıra müəlliflərin qeyd etdiyi kimi yanıq həcmi 200 sm, yanıq dərəcəsi III olan xəstələrdə anemiya, hiporoteinemiya, elektrolit balansının pozuntusu müşahidə edilir ki, bu da intensiv terapiyanın aparılamını tələb edir və yara qüsuru böyük olduqca onun əhəmiyyəti bir o qədər çox olur [2,6,8,9].

Hesablanmışdır ki, dərəcəsi II-III AB, 70 kq-lıq çəkisi olan insanın bədən səthinin 10%-ni təşkil edən yanıqlar zamanı maye itgisi orta hesabla sutkada 2,5 l, mayenin buxarlanmasına enerji itgisi 1300 kkal/sut təşkil edir. Bundan başqa geniş yara səthi orqanizmin toxuma parçaları və mikroor- qanizmlərin həyat fəaliyyəti məhsulları ilə intoksikasiya mənbəyinə çevrilərək, immunkompetent faktorların böyük itgisinə səbəb olur [10,11,12,13,14,15].

Sahəsi 15-20% olan və bədən səthinin 10%-dən çoxunu əhatə edən böyük yanıqlardan əziyyət çəkənin travmaya olan ümumi reaksiyasına- yanıq xəstəliyi ilə müşayiət edilir [2,5]. Yanıq xəstəliyinə tutulmuş şəxsin yanıq dərəcəsini təyin etmək üçün inteqral göstəricilər- yanıq ağırlığının Frank indeksindən istifadə edilir. Bu indeks zədə dərəcəsini daha yüksək dəqiqliklə müəyyən etməyə imkan verir. Frank üzrə səthi yanığın hər bir faizi 1 şərti vahidə, dərinliyi isə 3 şərti vahidə ekvivalentdir. Zədə ağırlığının indeksi (ZAİ) aşağıdakı şəkildə hesablanır: I dərəcəli yanığın hər faizi 0,5 şərti vahid (ş.v.),II dərəcə- 1 ş.v., IIIA- 2 ş.v., IIIb-3 ş.v., IV dərəcə- 4 ş.v. üzrə hesablanır.

Termiki yanıq zamanı tənəffüs orqanlarının zədələnməsi yanığın ağırlıq dərəcəsini kifayət qədər dərinləşdirir, çünki travmadan sonrakı erkən dövrlərdə həmin əziyyət çəkənlərdə inkişaf edir: kəskin tənəffüs çatışmazlığı, bronxial keçriciliyinin, ağ ciyər ventilyasiyasının qabarıq pozuntuları, ağ ciyərlərin həyati tutumunun kəskin aşağı düşməsi [16]. Bu pozuntular damar keçiriciliyinin kifayət qədər artması və kəskin plazma itgisi ilə müşayiət olunur, ona görə də tənəffüs yolları pozuntuları olan yanıq xəstələrində zədənın ağırlıq indeksi hesablandıqda ZAİ-yə tənəffüs yolları zədələnmələrinin ağırlıq və dərinlik dərəcəsinə müvafiq olaraq şərti vahidlər əlavə edilir:

-yüngül ağırlıq dərəcəsi- 3ş.v.;
-orta ağırlıq dərəcəsi- 6ş.v.;
-ağır dərəcə- 9 ş.v.

Tənəffüs yollarının termiki- inhalyasiya zədələnmələri zamanı:

-yüngül dərəcə- 10.ş.v.;
-orta dərəcə-20 ş.v.
-ağır dərəcə- 30 ş.v. [1,8,19].

Yanıq xəstəliyinin xarakterik xüsusiyyəti ən müxtəlif orqan və sistem pozuntularının baş verməsindən ibarətdir [4]. Bu pozuntuların patogenetik faktorlarından biri böyük massivli toxuma zədələnmələrinin baş verməsidir ki, bu da qan axınına daxil olan və orada uyğun effektorları aktivləşdirən bioloji aktiv maddələr üçün induktor hesab olunur [17,19]. Bioloji aktiv madələrin başqa mənbəyi birbaşa olaraq termiki agentlərlə zədələnməyə məruz qalmayan, lakin işemiya və sirkulyator hipoksiya vəziyyətlərinə gətirib çıxaran bioloji aktiv birləşmələdir [5,10,13,18].

Yanıq xəstəliyi üçün hipermetabolizm, endotoksikoz, ikincili immundefisiti, poliorqan çatışmazlığı xarakterikdir [1].

Yanmış şəxslərdə hemodinamika pozuntuları sürətlə inkişaf edən hipovolemiya, ümumi periferik damar müqaviməti pozuntusu, ürək zəifliyi, qanın reoloji xassələrinin nəzərəçarpacaq dərəcədə dəyişməsi ilə şərtlənir [4].

Hipovolemiya damar divarlarının keçiriciliyinin nəzərəçarpcaq dərəcədə artması nəticəsində, eləcə də yanıq nahiyəsində yüksək kolloid-osmotik təzyiqin artması hesabına ödemlər nəticəsində baş verir. Bu ödemlərə 2-3 litr və artıq maye toplana bilir. Hipovolemiya ürək atımının aşağı düşməsinə, mərkəzi venoz təzyiqin, ağ ciyər arteriyasında təzyiqin və ümumi sistemli təzyiqin azalmasına səbəb olaraq, periferik qan dövranı pozuntularına gətirib çıxarır [1].

Güclü nosisetiv qıcıqlanma simpatik adrenalin sistemin aktivləşməsinə səbəb olur, nəticədə yanalarda qanında katexolminlərin konsentrasiyası 6-8 dəfə yüksəlir. Dəri damarlarının və dərialtı piy toxumasının generalizə olunmuş spazmı inkişaf edir, əzələ və daxili orqan damarları genişlənir, damarların ümumi periferik müqaviməti artır. Qan dövranın kompensator mərkəzləşməsi və həyati vacib orqanlara böyük həcmli qanın paylaşdırılması nəticəsində perifetik toxumaların hipoksiyası inkişaf edir [5,15].

Yanmış şəxslərdə qanda mayenin nəzərəçarpacaq dərəcədə artması plazma itgisi və onun fiziki-kimyəvi xassələrinin dəyişməsi ilə əlaqələndirilir [4,5,10,14].

Hemokonsentrasiya, qanın koaqulyasiya (hiperkoaqulyasiya) və reoloji xassələrin pozuması toxumlarda sonrakı mikrosirkulyator dəyişikliklərə səbəb olur ki, bu da termiki təsir nahiyəsindəki toxumalarda ikincili nekrozun

baş verməsinə, mədə-bağırsaq traktında eroziya və xoraların, erkən pnevmoniyaların meydana gəlməsinə, qaraciyər- böyrək çatışmazlığı, ürək-damar sistemi çatışmazlığının və başqa ağırlaşmaların inkişaf etməsinə səbəb olur [10,12,14,19]. Yanmış xəstələrdə tənəffüs həcminin azalması və ağ ciyərlərin ümumi tutumunun azalması qismində xarici tənəffüs funksiyası pozuntuları müaşhidə edilir [1,5,6,15]. Əziyyət çəkənlərin qanında və toxumlarında böyük həcmli iltihab mediatorları və kəskin faza zülalları əmələ gəlir.

Sitokin və iltihab mediatorlarının intensiv atımı müdafiə-uyğunlaşma əhəmiyyətinə malik olmayan bir çox orqanlarda iltihaba səbəb olur ki, bu da toxumaların ikincili zədələnməsinə və orqanların struktur- funksional tamlığının pozulmasına səbəb olaraq, əziyyət çəkənlərdə poliorqan çatışmazlığına səbəb olur [12,14,19].

Yanıq şoku vəziyyətində olan yanmış şəxslərdə hemo- və limfodinamika pozuntuları, qaraciyərdaxili qan dövranı, metabolizm, qanın və limfanın turşu-əsaslı müvazinəti pozuntuları, qaraciyər və böyrəyin funksional pozuntuları baş verir ki [2,13,14,19], bu da artıq travmanın birinci saatlarında ölümlə nəticələnə bilər [3,4,7,8,16,17]. Toxuma hipoksiyası yanıq travması zamanı sürətlə inkişaf edərək, mübadilə proseslərində kobud pozuntulara səbəb olur. Ağ ciyərlərdə ventilyasiya- perfuziya nisbətinin pozulması ağ ciyər daxili şuntlamanın artmasına səbəb olur ki, bu da hipoksemiya və hipoksiyanın şiddətlənməsi üçün əsas faktorlardan biri hesab olunur [12,17,18,19].

Ağır kombinə olunmuş yanıq zədələnmələri nəticəsində məhv olan ağ ciyər toxumalarının morfoloji müayinələri zamanı müəyyən edilmişdir ki, alveol partlamaları, qansızmalar və ödem qismində olan patoloji dəyişikliklər hətta yaralanma prosesinin şokəleyhinə terapiyası aparıldıqda belə travmadan 2-4 saat sonra baş verir. Kəskin dövrdə termiki zədələnmə zamanı qanın reoloji xassələrinin kəskin pozulması nəticəsində mikrosirkulyasiyada da pozuntular baş verir [6,17].

Ağ ciyərlərdə qanın oksigenləşməsinin pozulması nəticəsində hemodinamikada baş verən pozuntular xəstənin orqanizmində oksigen nəqli nəzərəçarpacaq dərəcədə aşağı düşür ki, bu da onun vəziyyətinin stabilləşməsi və sağalması üçün həlledici faktor hesab olunur [16].

Hemodinamik pozuntular ilə əlaqədar olaraq baş verən mikrosirkulyator pozuntulardan başqa xəstəliyin inkişafında hemostaz sistemdə baş verən dəyişikliklər də böyük rol oynayır. Sübut edilmişdir ki, ağır termiki travma zamanı orqanizmdə sürtlə DDS-sindrom inkişaf edir. Bu sindrom hipekooqulyasiya və koaqulyasiya tələbatın mərhələlərinin 12 saat ərzində baş verməsinə səbəb olur. Baş verən mikrotromboz nəticəsində daxili orqanların mikrosirkulyator axınının blokadası baş verir ki [5,6], bu da əvvəlcə ağ ciyərlərin interstisial, sonra isə alveolyar ödeminə və poliorqan çatışmazlığı gətirib [1,5,6].

Böyük yanıqlar oksigenin aktivləşmiş formalarının (OAF) meydana gəlməsi və travmadan sonra artıq birinci saatlarda lipidlərin peroksidləşməsinin artması ilə müşayiət olunur [5,17].

Oksigenin sərbəst radikalları davamsız birləşmələr olub, yüksək kimyəvi reaksiya qabiliyyətinə malik olur, oksidləşmə qismində aktiv şəkildə reaksiyaya girir. OAF və LPO məhsulları miokardın yığılma qabiliyyətini pozur, baş beyin damarlarının spazmına səbəb olur və onlarda kapillyarda oksigenin depolaşması ilə əzələlərin genişlənməsinə səbəb olur, endotelial mikrosirkulyator axını zədələyir və endokrin vəzi funksiyasını pozur, böyrək, bağırsaq, qaraciyər və damar endotelləri hüceyrələrində geri dönməz pozuntulara səbəb olur [1]. Yanmış şəxsin qanında OAF-ın yüksək konsentrasiyası ağ ciyər kapillyarlarının konstriksiyasına səbəb olur ki, bu da hipoksemiyanın dərinləşməsinə gətirib çıxarır. LPO proseslərinin aktivləşməsi eritrositlərin plastikliyinin aşağı düşməsinə və onların hemolizinə və anemiyaya səbəb olur.

Yanıq xəstəliyi zamanı yalnız yarası bütün poztunutların mənbəyi hesab olunur. Böyük yanıqlar örtük toxumalarının yerli anatomik dəyişikliklərindən başlayaraq, yanıq xəstəliyinin inkişafı ilə müşayiət olunur, bunun əsas təzahür forması bütün orqanların generalizə olunmuş hüceyrə zədələn- mələridir. Böyük dərin yanıqların artıq birinci sutkalarında qaraciyər, böyrək və miokardın hüceyrələrində degenerativ-toksik zədələnmələr baş verir, sistemli itlihabi reaksiyaya səbəb olur. Məhz onlar, daha dəqiq desək, epidermis və dermanın yüksək temperaturlu agentlər ilə devitalizasiya olunmuş hüceyrələrə toksiki təsir göstərməyə və sərbəst şəkildə mediator cavabları təhrik etməyə qadirlər. Bununla da immun sistemin hüceyrə və humoral halqaları zədələnir [20,21].

Sağlam insan və heyvanlardan fərqli olaraq yanmış dəridə toksinlərin aşkar edilməsi faktına xüsusi əhəmiyyət verilir. Onların spesifikliyi onlar nə mexaniki travmadan sonra aşkar edilmir, nə də başqa genezli iltihab proseslərində aşkar edilmirlər. Yanıq travması nəticəsində toxuma-

ların məhv olması yalnız yanıq xəstəliyi üçün spesifik olan yüksək molekulyar birləşmə törəmələrinin yaranması ilə müşayiət olunur [22].

Toksinlərin yaranması generalizə olunmuş xarakter daşıyır və hətta termik agentin təsiri ilə zədələnməmiş dəri nahiyələrində inkişaf edir. Həyati orqanların funksional aktiv hüceyrələrinə birbaşa zədələyici membran təsirindən başqa yanıq toksinləri mikrosirkulyasiya nahiyəsində endotelin diffuz zədələnməsinə səbəb olur. Damarların keçiriciliyinin pozulması damardaxili mayenin və plazma zülalının intersitisiyaya kənar edilməsinə səbəb olur, bunun nəticəsində əziyyət çəkəndə "üçüncü mühit" adlanan nahiyəsində müəyyən həcmdə maye toplanır [17,23].

Yanıq travmasının artıq ilk saatlarında zədələnmiş toxumalarda toksiki məhsullar yaranır ki, onlar sistemli zədələyici reaksiya patogenezində əsas faktolardan biri hesab olunur [24], poliorqan çatımazlıq və sepsis yanan şəxsin ölümün əsas səbəbləridir [1,5,24].

Beləliklə, yanıq problemi ilə məşğul olan həkimlər aşağıdakı məsələləri həll etməlidir:

-xəstənin ümumi vəziyyətini nəzər alaraq, imkan daxilində qısa müddət ərzində nekrotik toxumaları kənar etmək;

-sürətlə və imkan daxilində maksimal şəkildə yanıq nahiyəsinin bütün sahəsini bağlamaq, dərin yanıq nahiyəsində dəri köçürülməsi olan nahiyələrdə daha yaxşı sağalma və səthi yanıq sahələrində yanıq yarasının sürətli sağalma üçün şəraiti təmin etmək [1];

Adekvat tam ümumi müalicə aparmaqla imkan daxilində sürətlə homeostazın əsas göstəricilərini norma həddinə gətirmək [1,5,6,12,14].

Yanıq travmasının əsas patogenetik halqalarına orqanizmin tam sistem kimi normal fəaliyyətini bərpa edilməsi məqsədilə hazırki dövrə qədər çətin həll olan məsələdir. Bu problemin həll edilməsi üçün ilkin göstəricilər təkcə patogenezin xüsusiyyətlərini nəzərə almaq formlaşdırılmır, həm də patofizioloji əsaslara, müxtəlif yerli və azinvaziv vasitələrin istifadəsinin imkanları və məqsədə- uyğunluğuna müvafiq olaraq, formalaşdırılır. Belə azinvaziv metodlardan biri aşağıintensivlikli lazer şüalanma və onların kombinasiyasıdır.

Lazer təbabəti klinik təbabətin nisbətən gənc sahəsidir, onun son onilliklərdə nailiyyətləri praktik səhiyyənin bir çox sahələrinə, o cümlədən cərrahlığa geniş tətbiq edilmişdir [1,4,6, 11]. Qeyd etmək lazımdır ki, cərrahlıq praktikada əsasən yüksək enerjili lazer cihazlar tətbiq edilmişdir, fizioterapevtik energetik təsir aparatları təbabətin başqa sahələrində də istifadə edilmişdir [3,4,7]. Lakin son illər aşağıenerjili təsir son illər klinik təbabətin başqa sahərlərində, həm də cərrahlığın praktik məsələlərinin həll edilməsi üçün geniş istifadə edilməyə başlanmışdır [2,9,10, 12,13,14].

Aşağı intensivlikli lazer şülanmasının gücünün hədləri 10^{-4} -10^{-1} Vt/sm^2 diapazonundadır, bu diapazon bioloji toxumalarda görünən destruktiv dəyişikliklərə səbəb olmur, lakin onlara fotokimyəvi təsir göstərir. Belə təsir çoxsaylı tədqiqatların fikrincə, biostimulyasiya, toxuma trofikinin aktivləşməsi, sinir təsirlənməsinin normallaşması, mikrosirkulyasiyanın yaxşılaşması, orqanizm immunitetinin sitmullaşdırılması, oksigenə olan tələbatın artması və s. şəklində özünü büruzə verir.

İcmalın bu hissəsində biz hazırki məsələ ilə bağlı olaraq əldə olunan bütün göstəriciləri nəzər-dən keçirməyəcəyik. Bu məsələlərə lazer şüalanmasının nuklein turşularına hüceyrədaxili təsir, mitoxondrilərə, su və elektrolitlərin molekullarının təsir xüsusiyyətləri və incə energetik proseslərə təsir xüsusiyyətləri aiddir, çünki bu məsələlər geniş şəkildə elmi ədəbiyyatda öz əksini tapmışdır. Biz planlaşdırılan tədqiqat çərçivəsində xüsusi maraq kəsb edən klinik tədqiqatlar ilə məhdudlaşırıq.

Son illərin çoxsaylı tədqiqatları mütəxəssislərin müxtəlif patoloji vəziyyətlə zamanı, eləcə də cərrahi praktikada baş verən problemlərin həll edilməsi üçün yeni aşağı enerjili lazer təsirlərinə əsaslanan metodikalardan istifadə olunan artan marağını nümayiş etdirir [16,17, 21].

Orqanizmə aşağı enerjili lazer şüalanmanın ümumi təsirinin mümkün yollarından biri damardaxili təsir, daha dəqiq desək, venadaxili təsir hesab edilir. Hel-neon lazerin köməkliyi ilə hüceyrə daxilində energetik reaksiyalar hüceyrələrin həyat fəaliyyətini gücləndirir. Bu göstəricilər bəzi tədqiqatlarda dolayısı olaraq təsdiq edilmişdir. Belə tədqiqatlarda xronik obstruktiv bronxitin kompleks müalicəsinə venadaxili lazer şüalanması seansları cəlb edilməklə təkcə remissiyanın sürətlə baş verməsi göstərilməmişdir, onlarda həm də remissiyanın davametmə müddətinin uzadılması da göstərilmişdir. Bundan başqa müayinə edilən xəstələrdə venadaxili lazer şüalanmasının aparılması xarici tənəffüs funksiyasınını statistik dürüst yaxşılaşmasına, tənəffüsün həm həcm, həm də sürət göstəricilərinin artmasına səbəb olmuşdur. Yanıq yaralarına gəldikdə isə hazırda yanıq yarasının müalicəsində kompleks fotoditazin ilə aşağı

toksikliyə malik amfifilin polimerlərinin effektiv tətbiqinə həsr edilmiş tək-tək tədqiqatlara rast gəlmək mükündür. Məsələn, 2009-cu ildə S.N.Makoyev tərəfindən [20] histoloji və histokimyəvi müayinələr nəticəsində məlum olmuşdur ki, eksperimental yanıqların fotoditazin ilə fotodinamik müalicəsi ilə kompleks şəkildə dərman vasitələrinin immobilizə olunmş terapiya metodu mikrosikulyator pozuntuların normallaşmasına, makrofaqal və fibroblastik sıradan olan hüceyrə elementlərinin aktiv proliferasiyasına, angio- və kollagenezə səbəb olur və qranulyasiya toxumalarının yetiməsini sürətləndirir. Son illər yanıq yaralarının fotoditazin ilə amfifilin polimerlərinin kompleks fotodinamik müalicəsinin eksperimental cəhətdən əsaslandırılmasına yeni tədqiqatlar [21] aparılmışdır. Yanıq yaraların gəldikcə, patent informasiya göstəricilərinə və bizim əldə etdiyimiz ədəbiyyata əsasən termiki yaznıq yaralarının müalicəsində fotodinamik terapiya ilə kombinə edilmiş şəkildə antioksidant arqosulfanın klinik şəraitdə istifadə edilməsin rast gəlmədik. II-III AB dərəcəli termiki dəri yaralarının müalicəsi məsələlərinə qanın venadaxili lazer şüalanması və yerli fotodinamik terapiya və antioksidant arqosulfanla müalicə anlayışları daxildir. Hazırki tədqiqat işi məhz bu məsələlərə aiddir.

ƏDƏBİYYAT

1. Странадко Е.Ф., Меркичев Н.В., Рябов М.В. Фотодинамическая терапия в лечении злокачественных новообразований различных локализаций. Пособие для врачей. М., 2002,21 с.
2. МакоевС.Н. Лазерная фотодинамическая терапия ожоговых ран: Автореф. дисс… канд. мед. наук. М., 2009, 22с.
3. Ефименко Н.А., Чернеховская Н.Е., Федорова Т.А. и др. Микроциркуляция и способы ее коррекции. М.: Российская медицинская академия последипломного образования, 2003,172 с.
4. Захарченко М.П., Новожилов Г.Н., Положенцев С.Д. и др. Тепловые поражения / Межгос. НИИ реабилитации участников войны. СПб., 2000, 128 с.
5. Мамонтов П.Т. Сравнительная оценка методов стимуляции заживления плоскостных асептических ран: Автореф. дисс. .. канд. мед. наук. М., 2008, 22 с.
6. Гребенник С.Ф. Внутривенное лазерное облучение крови и раневое покрытие «Фолидерм» в комплексном лечении» пострадавших с термической травмой: Автореф. дисс…. М., 2009, 180 с.
7. Гостищев В.К. Некрэктомия: ее возможности и место в гнойной хирургии / 50 лекций по хирургии. М.,2003, с. 342-350
8. Кошелев В.Н., Чалык Ю.В., Сафронов Д.В. Влияние внутривенного лазерного облучения крови (БЛОК) на систему гемостаза при ДВС- синдром / Матер. межд. конф. «Клиническое и экспериментальное применение новых лазерных технологий». Москва-Казань,1995, с.393-394
9. Скуба Н.Д., Стрекаловский В.П., Устинова Т.С. и др. Термическая травма в сочетании ожогов дыхательных путей // Хирургия, 2000, № 11, с.37-41
10. Азимшоев А.М. Лазерная фотодинамическая терапия гнойных ран; с фотосенсибилизатором хлоринового рядя: Автореф. дисс.... канд: мед..наук. М., 2008
11. Алексеев А.А., В. А. Лавров Ожоговая болезнь: Патогенетические принципы и методы лечения //Анналы хирургии, 1996, №3, с.24-28.
12. Бердияров Ш.Т. Комбинированное лечение ожоговых ран с использованием иммобилизованного трипсина и мочевины: Автореф. дисс. … канд. мед: наук. Самарканд, 1990, 20 с.
13. Гейниц А.В., Москвин С.В., Азизов Г.А. Внутривенное лазерное облучение крови. М., 2006, 143 с.
14. Глянцев С.П. Рана, повязка, больной. М., 2005, 203 с.
15. ербенев В.А. Лазеры, низкочастотный ультразвук и иммобилизованные протеиназы в комплексном лечении гнойных заболеваний мягких тканей: Автореф. дисс. .. докт. мед. наук. М., 1990, 30 с.
16. Ефименко Н.А., Шин Ф.Е., Толстых М.П. и др. Современные тенденции в создании биологически активных материалов для лечения гнойных ран//Воен.мед.журн.,2002,№1,с.48-52
17. Попова Е.А. Прогнозирование, профилактика и коррекция эндотоксикозов у ожоговых больных: Автореф. дисс. … докт. мед. наук. СПб, 2000, 48 с.
18. Баткин А.А., Полушин Ю.С., Скорняков В.В. и др. Прогнозирование исхода термической травмы / Сочетанная и множественная механич. травма:Клиника, диагностика, лечение. СПб., 1997, с.54-58.

19.Герасимова Л.И. Лазеры в хирургии и терапии термических ожогов: Руководство для врачей. М.: Медицина, 2000, 224 с.

20.Дадашев А.И. Комплексное лечение ожоговых ран с применением новых биологически активных раневых покрытий и их сочетания с лазернымизлучением: Автореф. дисе. на докт. мед. наук. М.,1999, 23с.

21.Иванцов В.А., Шанин Ю.Н., Сидельников В.О. Комбинированные ожоговые поражения. СПб: СОТИС, 2003, 140 с.

22.Agarwa l.R., Athar M., Bickers D.R., Mukhtar H. Evidence for the involvement of singlet oxygen in the photodestruc-tion by chloroaluminum phthalocyanine tetrasulfonate // Biochem Biophys Res Commun., 1990, v.173, p.34-41

23.Molan P.C. Re-introducing honey in the management of wounds and ulcers-theory and practice // Ost Wound Manag., 2002, v.48(11), p.28-40.

24.Sherman R.A. Maggot versus conservative debridement therapy for the treatment of pressure ulcers // Wound Repair Regen, 2002, v.10(4), p.208-14

Резюме

Применение малоинвазивных технологий в сочетание с антиоксидантом-аргосульфаном при термическом ожоге кожи

Ш.К.Мамедов

Тяжесть изолированной термической травмы определяется двумя основными взаимосвязанными факторами - площадью и глубиной ожога. Для определения степени ожогов в странах СНГ используется IV степенная классификация, согласно которой выделяют поверхностные (дермальные) ожоги I, II, IIIA степени и глубокие (субдермальные) ожоги III и IV степени. данным патентной информации и доступной нам литературы, использование комбинированной фотодинамической терапии в сочетание антиоксидантом с аргосульфаном при термическом ожоге кожи в клинических условиях не применялся. Вопросам лечения термических ожогов кожи II-IIIАБ степени, которые вошли в объем понятия - внутривенное лазерное облучение крови и местная- фотодинамическая терапия ожоговых ран в сочетание антиоксиданта -аргосульфана и посвящено данное исследование.

Summary

The use of minimally invasive techniques in combination with an antioxidant-argosulfanom in thermal burns of the skin

Sh.K.Mamedov

The severity of the isolated thermal injury is determined by two main interrelated factors - area and depth of the burn. To determine the degree burns in the CIS countries use the classification of grade IV, according to which the release surface (dermal) burns I, II, IIIA and deep degree (subdermal) burns III and IV degree. According to the patent information and available literature, the use of a combination of photodynamic therapy in combination with antioxidant argosulfanom in thermal skin burns in the clinical setting has not been applied. On treatment of thermal burns of the skin II-IIIAB degree, which entered the scope of the concept - intravenous laser irradiation of blood and mestnaya-photodynamic therapy of burn wounds in a combination of an antioxidant and -argosulfana devoted to the study.

Daxil olub: 30.03.2015

ÖD DAŞI XƏSTƏLIYI VƏ ONDAN TÖRƏNMIŞ FƏSADLAR

Q.Ş.Qarayev, V.F.Fərəcli, E.Həsənov
Azərbaycan Tibb Universiteti, Elmi Tədqiqat Mərkəzi, Bakı

Açar sözlər: öddaşı xəstəliyi, fəsadlar
Ключевые слова: желчнокаменная болезнь, осложнения
Keywords: cholelithiasis, complications

Öd daşı xəstəliyi xəstələrin həyat keyfiyyətlərini aşağı saldığı və ən əsası isə ölüm şansının yüksəltməsi ilə bağlı olaraq tibbin aktual problemi kimi daim tədqiqat obyekti olmuş və bu gün də olmaqda davam edir. Bu səbəbdən də hepatobiliar sistemin patologiyasının o, cümlədən öd daşı xəstəliyinin etioloji səbəblərinin araşdırılmasına, ondan törənmiş ağırlaşmaların patofizioloji mexanizminin açıqlanmasına, diaqnostika və müalicə tədbirlərinin təkmilləşdirilməsinə dair çox saylı tədqiqatlar aparılmışdır [32,11,44,65,49,48]. Müəyyən edilmişdir ki, öd daşı xəstəliyi hepatobiliar patologiyanin strukturunda öd çıxarıcı sistemin diskineziyasından sonra ön sırada duran xəstəlikdir [16,27,60]. Elə buna görə də buxəstəlik haqqında ədəbiyyatda daha geniş məlumatlar vardır [3,24,36,13].

Н.А.Хохлачева (2009) uzunmüddətli tədqiqatlarının və şəxsi müşahidələrinin nəticəsi olaraq belə qənaətə gəlmişdir ki, öd kisəsi və öd yollarının xəstəlikləri bütövlükdə həzm traktında qeydə alınan xəstəliklərin 80%-ni təşkil edir.

Statistik məlumatlara əsaslanan bir sıra müəlliflər qeyd edirlər ki, öd daşı xəstəliyi dünya əhalisinin 10-15%-nin sosial vəziyyətindən asılı olmayaraq bütün yaş dövrlərində, xüsusilə 40 yaşdan yuxarı şəxslər arasında daha çox təsadüf edilir [34,40,14,42,18].

Katsinelas və onun həmkarlarının müşahidə etdikləri xəstələrin 71,1%-də öd daşı xəstəliyi 40-59 yaş arasında baş vermişdir [55].

K.R.Yusifzadə (2014) öd daşı xəstəliyi diaqnozu ilə klinikaya daxil olan 404 nəfər xəstənin yaş dövrünə əsasən apardığı təhlildən müəyyən olunmuşdur ki, yaş artdıqca öd daşı xəstəliyinə tutulma ehtimalı da artmış olur.

Xəstəlik kişilərə nisbətən qadınlar arasında daha çox təsadüf edir [30,45,53].

Ahıl və qoca yaşlı şəxslərdə öd daşı xəstəliyi fəsadlaşmağa daha çox meyilli olurlar ki, bu da ölüm şansının yüksəlməsinə səbəb olur [46].

Qəbul eilmişdir ki, öd daşı xəstəliyi polietioloji xəstəlikdir. Bu amillər içərisində qeyri-düzgün qidalanmanın, xüsusilə təbii qida vasitələrindən az istifadə edilməsinin xüsusi rol oynadığını qeyd edir [63]. Sinir sistemində baş vermiş müxtəlif funksional pozğunluqlar, oturaq həyat tərzi və s. öd yolları və öd kisəsi patologiyasının inkişafında daha önəmli rol oynayırlar. Bir sıra xəstəliklər o cümlədən, qastrit, duodenit, xora xəstəliyi, enterit, kolit, pankreatit, öd kisəsi və öd yolları xəstəliyinin inkişafına təkanverici amil hesab olunur. Öd daşı xəstəliyinin əmələ gəlməsində müxtəlif fikirlər mövcuddur.

Bir sıra alimlərin fikrincə öd daşı xəstəliyini əmələ gətirən amillər arasında xolestatik sindrom önəmli yer tutur. Belə ki, bu zaman öd turşusunun metabolizminin pozulması və bununla bağlı öddə baş verən qatılaşma konklomeratların əmələ gəlməsi üçün real şərait yaratmış olur [12,18,50].

Öd kisəsi xəstəliyi bir sıra ağırlaşmalar verir ki, bu da xəstəliyin gedişini xeyli mürəkkəbləşdirir. Klinisistlərin müşahidələrinə əsasən ən çox təsadüf olunan ağırlaşmaları sarılıq, xoledoxolitiaz, qaraciyərdaxili öd yollarının zədələnməsi, öd kisəsinin fleoqmonasıdır [7,14].

Mexaniki sarılıq cox zaman öd daşı xəstəliyi zamanı daşların xoledoxa düşməsi ilə əlaqədar olaraq yaranmış obstruksiyanın nəticəsi kimi təzahür edir [28]. İstər xoledoxa düşmüş daş və istərsə də xoledoxun ətrafında inkişaf edən şişin nəticəsində baş vermiş striktura öd axınını çətinləşdirir və hətta tamamilə dayandırır. Öd axınında yaranmış durğunluq nəticəsində mexaniki sarılıq meydana çıxır və kliniki olaraq axoliya ilə müştərək inkişaf edir. Öd durğunluğu dərinləşdikcə axoliya daha da qabarıq şəkil alır.

Zaman keçdikcə patoloji prosesin istiqaməti daha bir səmtə bakteriyaların translokasiyasına yönəlmiş olur. Öd axarına translokasiya olunan bakteriyaların inkişafı zamanı ifraz olunan toksinlər qapı venasından qana sorularaq endotoksikozun başlanmasına rəvac verir. Endotoksikozun inkişafı isə sistemli iltihab prosesinin təkanverici amillərinə çevrilir. Son nəticə olaraq inkişaf edən xolangit ölüm şansını yüksəldir.

V.V.Rıbaçkov və həmkarlarının verdikləri məlumata görə xolangitdən ölüm 4,7-28,5% arasında dövr edir [35].

K.R.Yusifzadənin [46] məlumatına görə öd daşı xəstəliyinin mexaniki sarılıqla fəsadlaşması

ən çox qadınlar arasında təsadüf edir. Onun şəxsi araşdırmalarında qaraciyərdaxili öd yollarının zədələnməsi qadın xəstələrin 81,3±9,8%-ni təşkil etmişdir.

Xolestaz və xolangit kimi ağirlaşmaların aradan qaldırılması xəstəliyin müalicəsinin əsasını təşkil edir. Bu məqsədlə müxtəlif üsullarla icra olunan dekompressiyalar ən optimal müalicə vasitəsi hesab olunur [21].

В.Ф.Касаткин və həmkarları, (2008) hesab edir ki, öd yollarının dreniləşdirmək yolu ilə xolestazın aradan qaldırılması az travmatik müalicə vasitəsi olduğuna görə ölüm şansını da xeyli dərəcədə aşağı salmış olur. Lakin digər müəlliflərin verdikləri məlumata görə öd yollarının drenajından sonra ölüm faizi 2,5-9,5% arasında təsadüf edir [15].

Х.С.Бебезов və həmmüəl. (2006) mexaniki sarılıqla fəsadlaşmış hallarda ölüm faizinin 12,1%-ə qədər yüksəlməsini qeyd edirlər.

Ю.В.Кулезнева və həmmüəl. (2010) isə xəstəliyin qaraciyər- böyrək çatmamazlığı ilə ağirlaşmalarında ölüm faizinin 31%-ə çatmasını göstərirlər.

Ədəbiyyatda verilən məlumatlardan aydın olur ki, ölüm şansının yüksəlməsi fəsadlaşmanın ağirlıq dərəcəsi ilə korrelyativ əlaqə təşkil edir.

Öd daşı xəstəliyinin ən ağır ağırlaşmalarından biri də pankreatitdir. Uzunmüddətli kliniki müşahidələrin təhlilinin nəticələri sübuta yetmişdir ki, öd daşı xəstəliyi zamanı öd çıxarıcı sistemdə baş vermiş spazm öd axınının normal gedişini pozur və nəticədə biliar sistemlə mədəaltı vəzidə olan tarazlıq pozulmuş olur [5,25,39].

Son tədqiqatlar artıq bir mənalı şəkildə sübuta yetirmişdir ki, Oddi sfinktorunun spazmı tək öddası xəstəliyi nəticəsində deyil, mədə-bağırsaq sisteminin digər xəstəlikləri nəticəsində də meydana çıxır.

Вахрушев Я.М., Пеникина И.А. (2007) duodenoqastral reflyuks nəticəsində Oddi sfinktorunda spazmın baş verdiyini müşahidə etmişlər. Onların fikrincə Oddi sfinktorunun spazmına səbəb duodenal möhtəviyyatın mədəyə requrqitasiya etməsidir. Buradan belə bir nəticəyə gəlmək olar ki, hepatibiliar sistemdə baş vermiş hipertenziyanın patogenezində qastro-duodenal zona vacib rol oynayır.

Mədəaltı vəzidə gedən disfunksiya dərinləşdikcə həzm sistemində də müxtəlif dərəcəli pozulmalar müşahidə edilir. Buna səbəb mədəaltı vəzi şirəsinin həzm prosesində yetərsizliyinin yaranmasıdır. Çünki, mədəalti vəzi şirəsi zülalların, nuklein turşularının, karbohidratların və həzm traktına daxil olan bir sıra maddələrin parçalanmasını təmin edir. Ona görə də mədəaltı vəzi şirəsinin həzm traktına normal səviyyədə daxil olmaması adları sadalanan maddələrin parçalanmasını təmin edə bilmir ki, bu da pozulmuş həzm sindromunun meydana çıxmasına şərait yaradır.

Öd daşı xəstəliyinin konservativ müalicəsi çox zaman lazımi nəticəni vermədiyinə görə xolesistektomiya bu xəstəlik üçün radikal müalicə vasitəsi hesab olunur [47,54].

Öd kisəsinin çıxarılması əməliyyatının icrasından sonrakı dövrlərdə də bir sıra fəsadlar inkişaf edir.

Yaranın irinləməsi, eventerasiya, tənəffüsün pozulması, ventral yırtıqlarln formalaşması və s. ağırlaşmalar xəstələrin həyat keyfiyyətlərini aşağı salmaqla bərabər, həm də təkrari cərrahi əməliyyatın aparılmasını tələb edir. Adları sadalanan ağırlaşmalar içərisində postxolesistektomik sindroma daha önəmli yer tutur [46,47, 61,66]. Bu sindromun inkişafı xəstələrin həyat keyfiyyətlərini aşağı salmaqla yanaşı əksər xəstələrdə həzm prosesinin pozulması ilə nəticələnir [39,51].

Bir sıra müəlliflər postxolesistik sindromu pozulmuş həzm sindromu da adlandırırlar [39,4].

Pozulmuş həzm sindromu kliniki olaraq ürəkbulanma, qusma ilə özünü biruzə verir. Sonradan bu əlamətlərə bağırsaqlarda qaz əmələgəlməsinin sürətlənməsi, köp və digər dispeptik əlamətlər də qoşularaq xəstələrin həyat keyfiyyətlərinə ciddi neqativ təsir göstərir.

Beləliklə, öd axınının zəifləməsi nəinki, öd kisəsi və öd yolları sisteminin, eləcə də bütün həzm prossesinin pozulmasına səbəb olur. Ona görə də öd axınının mütəmadi olaraq tənzimlənməsi müalicənin əsasını təşkil edir.

Həzm prosesinin normal gedişini tənzim edən digər vacib amil mədəaltı vəzi şirəsidir. Yuxarıda qeyd olunduğu kimi Oddi sfinktorunun spazmı sayəsində on iki barmaq bağırsağa ödün axması çətinləşdiyi kimi mədəaltı vəzin şirəsinin də adı çəkilən bağırsağa tökülməsində ciddi manea yaranmış olur. Nəticədə bir tərəfdən öd axınının, digər tərəfdən isə mədəaltı vəzin şirəsinin axınında yaranmış çətinlik həzm prosesinin normal gedişini kəskin şəkildə pozmuş olur. Ona görə də həzm prossesinin pozulma səbəbinin aydınlaşdırılmasında vacib amillərdən biri də mədəaltı vəzi şirəsinin axın səviyyəsinin müəyyənləşdirilməsidir. Bu istiqamətdə aparılan tədqiqat işləri haqqında ədəbiyyatda xeyli məlumat vardır. Son illərin tədqiqatları sübuta yetirmişdir ki, mədəaltı vəzi şirəsinin miqdarının müəyyənləşdirilməsində nəcisdə elastaza- 1 fer-

mentinin səviyyəsinin təyin edilməsi vacib rol oynayır.

R.Z.Eminov (2014) daşlı xolesistitli xəstələrdə mədəaltı vəzinin xarici sekretor funksiyasını dəyərləndirmək üçün nəcisdə elastaza- 1 fermentinin fəallığını təyin etmişdir. Müəyyən etmişdir ki, fekal elastaza 1 fermentinin fəallığı kəskin gedişli daşlı xolesistitli xəstələrdə nəzarət qrupa nisbətən 28,1%, pankreatitlə ağırlaşan xəstələrdə isə 60,4% azalmışdır.

Müəllifin fikrincə fekal elastaza- 1 fermentinin fəallığının təyini α- amilaza və lipaza fermentlərinə nisbətən mədəaltı vəzin xarici sekretor qabiliyyətini dəyərləndirən daha həssas markerdir.

Qeyd etmək lazımdır ki, öd daşı xəstəliyinin müxtəlif ağırlaşmalarla çulğalaşması cərrahi əməliyyatın yerinə yetirilməsində müəyyən çətinliklər yaratmaqla yanaşı, əməliyyatdan sonrakı dövrlərə də neqativ təsirini göstərir.

Bu mənfi təsirlərdən irəli gələn ağırlaşmalar 5 qrupa bölünür.

1. Əməliyyat zamanı və əməliyyatdan sonrakı 1-ci gündə.
2. Əməliyyatdan sonrakı erkən ağırlaşmalar (2-7-ci günlərdə ortaya çıxan ağırlaşmalar).
3. Bərpa dövründə baş vermiş ağıraşmalar (8-21-ci günlərdə ortaya çıxan ağırlaşmalar).
4. Gecikmiş ağırlaşmalar (22-30-cu günlərdə ortaya çıxan ağırlaşmalar).
5. Posthospital ağırlaşmalar (30-cu gündən sonra ortaya çıxan ağırlaşmalar).

Öd daşı xəstəliyi və ondan törənən ağırlaşmalardan başqa yanaşı gedən xəstəliklər də vəziyyətini qeyri-qənaətbəxş olmasına səbəb olur. Ədəbiyyat məlumatlarından aydın olur ki, öd daşı xəstəliyi ilə yanaşı gedən patologiyalar çox zaman endokrin sistemi, ürək-damar sistemi və mədə-bağırsaq sistemi ilə bağlı olur [8].

Bir çox tədqiqatçılar bunu öd daşı xəstəliyinə tutulanların yaş dövrünün yüksək olması ilə bağlayırlar [45]. Onların fikrincə insan yaşa dolduqca endokrin sistemində, mədə-bağırsaq traktında və ürək-damar sistemində müxtəlif patologiyalar inkişaf edir ki, həmin xəstəliklər də öd kisəsi xəstəlikləri ilə vəhdət təşkil edir. Lakin bizim fikrimizcə burada bir qədər yanlışlıq da vardır. Çünki, sübuta yetirilmişdir ki, öd kisəsi xəstəliyi zamanı biliar sistemdə yaranmış hipertenziya mədəaltı vəzidə, o isə öz növbəsində həzm traktında yaratdığı disfunksiya ilə həzm sistemi xəstəliyinin əsasını qoymuş olur. Bu qəbildən olan xəstələrdə öd daşı xəstəliyi ilə əlaqədar aparılan cərrahi əməliyyatın öz xüsusiyyəti vardır [27].

Son onillikdə yeni texnologiyaların cərrahlığa tətbiqi sayəsində digər patologiyalarda oldugu kimi, xolisistektomiyanın icra edilməsində laparoskopik cərrahiyyə xüsusi yer almışdır [26,43,48,51].

Onun tətbiqi sayəsində alınmış müsbət nəticələr öd daşı xəstəliyinin ənənəvi üsulla aparılan cərrahi müalicəsini demək olar ki, minimal səviyyəyə endirmişdir [1,33,59].

Öd yollarında laparoskopik cərrahiyyənin tətbiqi sayəsində əməliyyatdan sonrabaş verən fəsadların sayı azalmış, xəstələrin stasionarda qalma müddəti minimuma endirilmiş və bütövlükdə xəstələrin həyat keyfiyyətlərinin yaxşılaşmasına səbəb olmuşdur [38,64,56,60].

Н.С. Османбекова və həmkarları, (2013) öd daşı xəstəliyi münasibətilə cərrahi əməliyyat apardığı xəstələri 3 qrupa bölmüş və onların arasında cərrahi əməliyyatdan sonrakı dövrdə baş vermiş ağırlaşmaları qruplar üzrə təhlil etmişdilər.

1-ci qrupa daxil olan 236 nəfər xəstədə ənənəvi qaydada laparatomik, 2-ci qrupa daxil olan 174 nəfər xəstədə laparoskopik və 3-cü qrupda 366 nəfər xəstədə isə mini laparotomik kəsiklə xolisistektomiya aparılmışdır. Cərrahi əməliyyatın nəticələrini təhlil edərkən aşkar edilmişdir ki, 1-ci qrupa daxil olan xəstələrin 0,5%-də, 3-cü qrupa daxil olan xəstələrin isə 1,1%-də interoperasion fəsadlar baş vermişdir. Cərrahi əməliyyatdan sonrakı dövrdə isə 1-ci qrupa daxil olan xəstələrin 2,3%-də, 3-cü qrupa daxil olan xəstələrin isə 1,6%-də müxtəlif agırlaşmalar qeydə alınmışdır.

Laparotomik kəsikdən fərqli olaraq laparoskopik cərrahi əməliyyat nisbətən az travmatik olduğu üçün qaraciyər- öd yollarına əməliyyatın göstərdiyi zərərli təsir kəskin şəkildə azalmış olur [22,52, 57].

Cərrahi əməliyyatdan sonrakı dövrlərdə fəsadların azalması, xəstələrin erkən reabilitasiyası öd kisəsinin çıxarılması üçün laparoskopik cərrahi əməliyyatın adekvat müalicə vasitəsi kimi qəbul edilməsinə əsas vermişdir [2,58,62].

Lakin bununla yanaşı minimal səviyyədə olsa da laparoskopik xolisistektomiya zamanı da bir sıra ağırlaşmalar baş verir. Cərrahi əməliyyat zamanı öd kisəsi arteriyasının qopmasından irəli gələn və eləcə də, öd kisəsini yatagından çıxaran zaman törənmiş qanaxmalar, öd kisəsi axarının qopması və s. hallar laparoskopiyadan laparotomiyaya keçid zərurətini yaradır.

Laparoskopik cərrahiyyənin tətbiqinin günügündən artması və onun nəticələrinin qiymət-

ləndirilməsindən ortaya gələn müvəffəqiyyətlər öd kisəsinin çıxarıl-masının poliklinika şəraitində icra edilməsi ideyasını meydana gətirdi [43,6].

2 saatlıq glükoza tolerantlıq testi və qlikohemoqlobin HbA1c	Poliuriya/polidipsiya, nokturiya, akantosis niqrikans, ac qarına qlükozanın yüksək olması, təsadüfi qlükozanın >140 mq/dl olması, ac qarına qlükozanın >100 mq/dl olması	
Acqarına lipid profili	Bədən kütləsi artıq olanların hamısında	Triqliserinlər >150 mq/dl olması YSLP <40 olması ASLP ≥160 olması zamanı dırman preparatlarının istifadə olunması
Acqarına insulinin səviyyəsi	Akne, hirsutizm, ikincili amenireya, oliqomenoreyya	İnsulinin səviyyəsinin artması polisistik yumurtalıq sindromunun əlaməti ola bilər
Sərbəst testosteron	Akne, hirsutizm, ikincili amenireya, oliqomenoreyya	İnsulinin səviyyəsinin artması polisistik yumurtalıq sindromunun əlaməti ola bilər
24 saatlıq sərbəst kortizol və kreatinin	Boy artımının azalması, hipertenziya, striya, mərkəzi tip piylənmə	Kortizolun səviyyəsinin artıq olması glükokortikoidlərin artımı zamanı olur.
Kariotip	Genetik stiqmlər	
Flurens hibridizasiya (FISH) genetik analizi	Boydan geri qalma	Bir sıra genetik sindromlarda olur.
DNT müayinə		
Genetik müayinələr	İnkişaf qüsurları	
Polisomnoqrafiya	CO_2 səviyyəsinin artması, ağır xorultu, gün ərzində yuxululuq, apnoye	Yuxu pozgunluqları mütəxəssis ilə müzakirə olunmalıdır.

Differensial diaqnoz: tez-tez rast gələn xəstəliklər

Genetik sidromlar	Daun sindromu
Endokrin	Boy hormonu catışmazlığı, hipoqonadizm, hipotireodizm
Sadə gen mutasiyaları	MC4R genin mutasiyası

Differensial diaqnoz: nadir xəstəliklər

Hipotalamusun xəstəlikləri	Şiş, meneingit, baş beyinin hipoksiyası, başın travması, ROHHAD/ROHHADNET
Genetik sindromlar	Prader-Villi, Bardet-Biedl, Karpenter, Kohen, Alstorm, Olbrayt osteodistrofiyası
Endokrin	Qlükokortikoid artıqlığı ilə əlaqəli
Sadə gen mutasiyaları	Leptin, leptin reseptoru, prohormon konvertaza-1,

	proopimelanokortin (POMC)

Differensial diaqnoz. Uşaqlarda bədən kütləsinin artımı sırf genetik faktorlarla bağlı olmur. Piylənmənin başqa səbəbləri aşağıdakı cədvəldə verilmişdir.

Genetik sindromlar və endokrin mənşəli piylənmə piylənmənin 5%-ni təşkil edir. Piylənmənin bu səsblərini nəzərə almaq lazımdır. Hipotireodizm, boy hormonu catışmazlığı, glükokortikoidlərin artıqlığı piylənməyə səbəb ola bilər. Hipoqonadizmi və testoateronun səviyyəsinin aşağı olan uşaqlarda da piylənmə yarana bilər. Piylənməsi olan əksər uşaqlarda boy artımı yüksək olur və onlarda sümük yaşı pasport yaşı üstələyir. Hormonal pozğunlugu olan uşaqlarda isə boydan geri qalmaqla yanaşı, sümük yaşı da geri qalır [15].

Bir sıra genetik sindromlarda da piylənmə müşahidə olunur. Daha tea rast gələn sindromlardan biri Prader Villi sindromudur. Bu zaman distal nahiyələrin piylənməsi ilə yanaşı olaraq hipoqonadizm, əqli gerilik, boydan geri qalma, hipotoniya olur. Bu sindrom 15-ci xromosomda baş verən dəyişikliklə əlaqəlidir. Barde-Biedl sindromunda postaxsial polidaktiliya, hipoqonadizm, retinit piqmentoza, əqli gerilik, boydan geri qalma piylənmə ilə yanaşı gedir. Bu sindrom 3,15,16-cı xrosomlarda baş verən dəyişikliklərlə əlaqəlidir. Genetik sindromlarda rast gələn piylənmədə boydan və əqli inkişafdan geri qalma olur.

Hipotalamusun müxtəlif səbəblər üzündən zədələnməsi zamanı da cəki kəskin artır. Bu aclıq və toxluq nüvələrinin diskordinasiyası zamanı baş verir. Hipotalamik sindrom zamanı qida axtarma hərəkətləri aktiv olur. Belə xəstələr normal qida qəbulundan sonra da cəkilərini artırılar, cünki onlarda enerjinin sərf olunma mexanizmi zəif olur. Kraniofaringioma hipotalamik sindromla tez-tez assosasiya olunur. Şiş aclıq nüvələrinə bəzən birbaşa təsir edir. Cərrahi yolla bu şişlər götürüldükdən sonra hipotalamusun əzədələnməsi nəticəsində də piylənmə yaranır. Kəllənin müxtəlif səbəblər üzündən zədələnməsi məsələn, travma, meningit, nəticəsində də piylənmə müxtəlif dərəcələrdə ola bilər. Hipotalamik piylənmə ROHHAD/ ROHHADNET sindromlarında da ola bilər [16].

Piylənmənin əksər növləri "idiopatik" və ya "ailəvi" mənşəlidir. Lakin bu hallar əsasən genetik səbəblidir. Cünki onlar bədən ölcülərini təmin edir. Bu genlərin coxu cəki və enerji homeostazını requlyasiya edir. 1p, 2p, 3p, 6p, 7p, və 11q xrosomlarında olan markerlərlə bədən piyi arasında düz korrelyasiya əlaqəsi var.

Piylənmə 10% halda melankortin-4 reseptorunun geninin mutasiyası (MC4R) nəticəsində yaranır. Belə uşaqların 6% -də kəskin piylənmə hələ daha kicik yaşlardam müşahidə olunur. MC4R gen mutasiyası müxtəlif dərəcədə piylənmə formasında özünü büruzə verə bilər. Bu piylənmə uşaqlarda erkən yaşlarda biruzə verir. Bu uşaqlarda piy qatı və sümük yaşı artıq, boy hündür, pubertat normal olur, doguş saxlanılır.

MC4R gen mutasiyası olanların hamısında hiperinsulinizm qeyd olunur və onlarda daim aclıq hissi olur, onlar daim qida axtarırılar. Piylənmə və hiperinsulinizm yaş artıqca stabilləşir. Insulinin səviyyəsinin aşağı düşməsi hiperargiyanı, yəni aclıq hissini azaldır. Digər gen mutasiyaları az rast gəlir. Bu zaman mutasiyalar letpin və onun reseptorlarında baş verir və erkən yaşlarda piylənmə, iştahanın cox olması, hiperinsulinemiya, boydan, cinsiyyətdən geri qalma müşahidə olunur. POMC gen mutasiyasında piylənmə ilə yanaşı olaraq böyrəküsütü vəzi catışmazlığı və qırmızı rənglı baş tüklənməsi olur. Prohormon konvertasiya genin mutasiyasında kicik yaşlardan ağır piylənmə, qlükoza tolerantlığın pozulması, insulin səviyyəsinin aşağı olması, hipoqonadotrop hipoqonadizm və böyrəküsütü vəzi catışmazlığı qeyd olunur [17].

Müalicə. Uşaqlarda piylənməni müalicə etmək cətindir. Cəkinin azalması müalicəyə cətin tabe olur. Qəbul olunan kalorinin azalmasına və enerjinin sərf olunmasını artırmaq lazımdır. Bunun ücün fiziki aktivliyin artırılmalıdır. Inkişaf edən orqanizm ücün lazım oln maddələrin kifayət qədər verilməsinə fikir vermək lazımdır. Ağır piylənmə başlamazdan əvvəl müalicəni başlamaq lazımdır [18].

Həyat şəraitinin dəyişməsi. Qəbul olunan karbohidratların və yağların mıqdarını azaltmaq lazımdır. Yağların miqdarının azaldılmasına xüsusi fikir vermək lazımdır. Cünki onlar mədəbağırsaqdan test sorulur və enerji kimi dərialtında toplanır. Zülalı ərzaqların pəhrizdə artırılması da cəkinin azalmasına səbəb ola bilər. Asan həll olunan şəkərləri, şirniyyatları və şirin suları pəhrizdən cıxarmaq lazımdır. Tərkibində fruktoza olan ərzaqlardan da uzaqlaşmaq lazımdır, cünki fruktoza tərkibli ərzaqlar cəki artımın asəbəb olur. Evdə hər həftə, xəstəxanada isə hər ay cəkiyə nəzarət etmək lazımdır. Piylənməsi olanlar fiziki aktivliyini artırmalıdırlar. Amerika Ürək Assosasiyasının tövsiyələrinə əsasən

uşaqlar gün ərzində 60 dəqiqədən cox fiziki aktiv olmalıdırlar. Televiziyaya baxmaq, kompüter, telefonlardan, planşetlərdən az istifadə etmək də cəkinin azalmasına yardımcı ola bilər [19].

Aşağıdakı cədvəldə cəkinin azaldılması ücün bir necə tövsiyə verilmişdir.

Ailə ilə birlikdə qidalanın.
Asta-asta yeyin, tələsməyin. Doyma hissinin yaranması ücün 20 dəqiqə vaxt lazımdır. Doyana kimi yeməyin.
Qazsız, təmiz suyun miqdarını artırın
Mükafat kimi qida verməyin. Cəza kimi uşağı qıdadan məhrum etməyin
Tevevizora baxa-baxa, kompüterdə oynamaqla eyni vaxta qida qəbul etməyin.
Gün ərzində 2 saatdan cox oturmayın
Hər gün 20-30 dəqiqə piyada gəzin
Ətrafdakı ərazilərdə, dükanlarda, parkda gəzin
Uzaqda olan parklarda gəzin
Lift əvəzinə pilləkəndən istifadə edin

Bədən kütləsinin azaldan dərmanlar və bariatrik cərrahiyə

Piylənməni dərman, cərrahi yollarla müalicə etməyin məhdud göstərişləri vardır. Cəkisi həddən artıq olanlar, pəhrizlə müalicəyə tabe olmayanlarda dərmanla müalicəyə başlamaq olar. Lipaza ingibitoru sayılan Orlistat Amerika Dərman Assosasiyası tərəfindən tövsiyə olunan yeganə preparatdır. Orlistatı 12 yaşdan yuxarı uşaqlarda istifadə etmək olar. Bu preparatın mədud göstərişləri və mədə-bağırsaq tərəfindən əlavə təsirləri vardır. Uşaq və yeniyetmələrdə glükaqonabənzər peptid 1-in reseptor aqonisti olan Exenatide preparatından da ağır piylənmədə istifadə etmək olar. Bədən Kütlə İndeksi 95 persentildən 1-2 dəfə artıq olan, BKİ 35 kq/m^2 artıq olanlar bu preparata göstərişdir. Lakin Exenatide Amerika Dərman Assosasiyası tərəfindən piylənmə ücün istifadəyə icazə verilməyib. Bu preparat doyma hissi yaradır, qanda insulinin səviyyəsini və iştahanı azaldır, bununla da cəkini aşağı düşməsinə səbəb olur. Bu preparatın əlavə təsirininə ürəkbulanma aiddir. Exenatide pankreatid, pankreas xərcəngi və qalxanabənzər vəzi xərcəngi riskini artıra bilər. Ədəbiyyatda bu preparatdan istifadə barəsdə məlumat hələ ki, azdır. Bu preparatlar uzun müddət istifadə olunmalıdır, belə ki, istifadəsi dayandıqda cəki yenidən artır.

Bariatrik cərrahiyə yalnız yeniyetmələrdə və agır dərəcəli piylənmədə, BKİ 35-40 kq/m^2 artıq olanlarda istifadə oluna bilər. Mədə şuntu üsulundan istidafə olunmsı daha effektiv sayılır. Bu zaman BKİ 35% azalır. Bariatrik cərrahiyə yalnız bu üsulla təcrübəsi olan mərkəzlərdə aparılması məsləhət görülür (20).

Uşaqlarda iştahanı kəsən preparatlardan istifadə olunması məsləhət görülmür .

Metabolik sindromun müalicəsi

Pediatriyada metforminin 12-19 yaşlı uşaqlar arasında, ailəsində tip 2 diabeti olanlarda istifadə olunması verilmişdir. Tədqiqatların birində metformin BKİ-ni 1,3%, 11% qanda acqarına qlükozanın səviyyəsini, 38% acqarına qlükozanın səviyyəsini azalması göstərilmişdir. Başqa tədqiqata isə onun triqliserinlərin və total xolesterinin səviyyəsini 8 həftədən sonra azalması da qeyd olunmuşdur. Metformin total günlük maksimum doza 2000 mq istifadə oluna bilər. Əgər onun ürəkbulanma, diarreya, qarında köp və sairə ağırlaşmaları olsa onun dozasını azaltmaq lazımdır. Sonradan isə dozanı tədricən artırmaq olar. Yeməkarası da qəbul oluna bilər [21].

Dislipidemiyanın müalicəsi. Amerika Pediatriya Akademiyası uşaqlarda dislipidemiya zamanı 6 ay ərzində pəhrizdən istifadə olunmasını məsləhərt görür. Əgər bu müddət ərzində nəticə əldə olunmazsa, həyat şəraitini dəyişmək mümkün olmursa 10 yaşdan yuxarı uşaqlarda dərman preparatlarından istifadə etmək olar. Dərman preparatlarına göstəriş ASLP-in 190 mq/dl.-dən yüksək olması, ASLP-in 160 mq/dl.-dən yüksək və ailəsində kardiovaskulyar xəstələr olanlarda, kardiovaskulyar xəstəliyə 2 riskdən artıq olanlarda, ASLP-in 130 mq/dl.-dən yüksək və ailəsində şəkərli diabeti olan uşaqlarada istifadə olunması göstərişdir. Statinlər təyin etməzdən əvvəl qaraciyərin fuksiyası yoxlanılmalıdır. Statinlər kicik dozalarda təyin olunur. 3 aydan bir uşaqlar yenidən müayinədən kecməli, qaraciyərin funksiyası yoxlanılmalıdır. Müalicənin məqsədi ASLP-in 110 mq/dl.-dən aşağı olmasıdır. Əgər ailədə kardiovaskulyar xəstələr, şəkərli diabet varsa məqsəd ASLP-in 160 mq/dl.-dən aşağı salmaqdır.

Triqliserinləri yüksək olan, YSLP aşağı olanlarda isə dərman preparatı kimi omeqa 3 yağ turşusundan, məsələn eikosapentaen turşusundan (EPA) və dokasaheksaen turşusundan (DHA), yəni balıq yağlarından istifadə oluna bilər. Gündəlik doza 1000-2000 mq ola bilər. Əgər xəstələrdə həm YSLP və triqliserinlər artıbsa həm balıq yağından, həm də statinlərdən istifadə oluna bilər.

Niasin (nikotin turşusu) adlanan preparatdan da istifadə etmək olar. Lakin onun effekti statinlərlə müqayisədə zəifdir [22].

Ağırlaşmaların müalicəsi. Metabolik sindromda polisistik yumurtalıq sindromu da ola bilər. Polisistik yumurtalıq sindromunun diaqnostikası 2012-ci ildə Polisistik Yumurtalıq Sindromu Cəmiyyəti tərəfindən Rotredam kriteriyaları verilmişdir. Bu kriteriyalara aşağıdakı əlamətlər aiddir: oliqomenorreya, kliniki və/və ya laborator hiperandogenizm, USM-də polisistik yumurtalıqların aşakarlanması. Kontraseptivlərin və metforminin birlikdə təyin olunması belə xəstələrə yardımcı ola bilər.

Qeyri-alkohol qara ciyər piylənməsi. Qeyri-alkohol qara ciyər piylənməsində metformin 500 mq gündə 2 dəfə və ya Vitamin E 800 mq sutqa ərzində (400 mq 2 dəfə) istifadə olunması effektivlidir. Uşaqılarda 8-17 yaşlar arasında istifadə oluna bilər.

Ağ ciyər ağırlaşmaları. Piylənməsi olan uşaqlarda daha tez-tez bronxial astma və yuxu apnoyeləri rast gəlir. Əgər uşaqlarda bronxial astma yaranarsa onu aqressiv müalicə etmək lazımdır (cədvəl 6). Xəstələrdə səhər başağrıları varsa, gün ərzində yuxulu olursa gecə apnoyelərindən şübhələnmək lazımdır [23].

Cədvəl 6

Müayinənin istiqamatlənməsi

Insulin və glükozanın qeyri normal olması	Akantosis niqrikans, acqarına insulinin qanda yüksək olması, qlükoza tolerantlığının pozulması (>100 mq/dl), qlükoza tolerantlıq testini nəticəsi 2 saatdan sonra >140 mq/dl olamsı, tip 2 diabet (acqarına qlükozanın >126 mq/dl yüksək olması, tolerantlıq testindən 2 saatdan sonra >200 mq/dl olması)
Yumurtalıq hiperandrogenizm	Hirsutizm, akne, oliqomenoreyya, ikincili amenorreya, menarxenin ləngiməsi
Boy hormonu catışmazlığının əlamətləri	Alcaqboyluq, xətti boy inkişafdan geri qalma, İBF-1 və İBF-3 qanda aşağı olması
Hipoqonadizmin əlamətləri	Cinsi inkişafın ləngiməsi, menarxenin ləngiməsi, cinsi inkişafın dayanması
Kortizol artıqlığının əlamətləri	Alcaq boy, xətti boy atımının ləng artması, cinsi inkişafın ləngiməsi və ya dayanması, hipertenziya, ag və ya qırmızı striyalar
Hiperlipidemiya	YSLP ≥190 mq/dl YSLP ≥160 mq/dl + ailədə kardiovaskulıyar xəstənin olması və ya 2 risk faktorunun mövcudluğu (piylənmə, hipertenziya, siqaret cəkmə, ürək damarlarının anomaliyaları,oturaq həyat tərzi) YSLP ≥130 mq/dl + şəkərli diabet

ƏDƏBIYYAT

1. Stephen R.D. Obesity, vascular changes, and elevated blood pressure // J.Am.Coll.Cardiol., 2012, v.60(25), p.2651-2652.

2. Flynn M.A., McNeil D.A., Maloff B. et al. Reducing obesity and related chronic disease risk in children and youth: a synthesis of evidence with ‘best practice’ recommendations // Obes Rev., 2006, v.7, p.7-66.

3. Ogden CL, Carroll MD, Kit BK, Flegal KM. Prevalence of obesity and trends in body mass index among US children and adolescents, 1999-2010 // JAMA, 2012, v.307, p.483-490.

4. Writing Group for the SEARCH for Diabetes in Youth Study Group; Dabelea D, Bell RA, D’Agostino RB Jr, et al. Incidence of diabetes in youth in the United States. // JAMA, 2007, v.8, p.298

5. Li C., Ford E.S., Zhao G., Mokdad A.H. Prevalence of prediabetes and its association with clustering of cardio- metabolic risk factors and hyperinsulinemia among U.S. adolescents: National Health and Nutrition Examination Survey 2005-2006 // Diabetes Care, 2009, v.32, p.342-347.

6. Centers for Disease Control and Prevention. Prevalence of abnormal lipid levels among youths-United States, 1999-2006 // MMWR Morb Mortal WklyRep, 2010, v.29, p.59

7. Manlhiot C., Larsson P., Gurofsky R.C. et al. Spectrum and management of hypertriglyceridemia among children in clinical practice // Pediatrics, 2009, v.123, p.458-465.

8. Patton H.M., Sirlin C., Behling C. et al Pediatric nonalcoholic fatty liver disease: a critical appraisal of current data and implications for future research // Pediatr Gastroenterol Nutr., 2006, v.43, p.413-427.

9. Charlton M.R., Burns J.M., Pedersen R.A. et al. Frequency and outcomes of liver transplantation for nonalcoholic steatohepatitis in the United States // Gastroenterology, 2011, v.141, p.1249-1253.

10. Hernaez R. Genetic factors associated with the presence and progression of nonalcoholic fatty liver disease: a narrative review // Gastroenterol Hepatol., 2012, v.35, p.32-41.

11. Redline S., Tishler P.V., Schluchter M. et al. Risk factors for sleep-disordered breathing in children. Associations with obesity, race, and respiratory problems // Am J Respir Crit Care Med., 1999, v.159, p.1527-1532.

12. Wills M. Orthopedic complications of childhood obesity // Pediatr Phys Ther., 2004, v.16, p.230-235.

13. Hayden-Wade H.A., Stein R.I., Ghaderi A. et al. Prevalence, characteristics, and correlates of teasing experiences among overweight children vs. non-overweight peers // Obes Res., 2005, v.13, p.1381-1392.

14. Schwimmer J.B., Burwinkle T.M., Varni J.W. Health-related quality of life of severely obese children and adolescents // JAMA, 2003, v.289, p.1813-1819.

15. Gortmaker S.L., Must A., Perrin J.M., Sobol A.M. Dietz on fat mass and body mass index in a pediatric twin sample // Pediatrics, 1999, v.104, p.61-67.

16. Dorosty A.R., Emmett P.M., Cowin S.d., Reilly J.J. Factors associated with early adiposity rebound // Pediatrics, 2000, v.105, p.1115-1118.

17. Freedman D.S., Srinivasan S.R., Valdez R.A. et al. Secular increases in relative weight and adiposity among children over two decades // Pediatrics, 1997, v.99, p.420-426.

18. Kimm S.Y., Glynn N.W., Kriska A.M. et al. Longitudinal changes in physical activity in a biracial cohort during adolescence // Med Sci Sports Exerc., 2000, v.32, p.1445-1454.

19.Pasquet P., Apfelbaum M. Recovery of initial body weigh I and composition after long-term massive overfeeding in men // Am J Clin Nutr., 1994, v.60, p.861-863.

20. Friedman J.M., Halaas J.L. Leptin and the regulation ol body weight in mammals // Nature, 1998, v.395, p.763-770.

21. Nakazato M., Murakami N., Date Y. et al. A role for ghrelin in the central regulation of feeding // Nature, 2001, v.409, p.194-198.

22. Batterham R.L., Cowley M.A., Small C.J. et al. Gut hormone PYY(3-36) physiologically inhibits food intake // Nature, 2002, v.418, p.650-654.

23. Van Marken Lichtenbelt W. Brown adipose tissue and the regulation of nonshivering thermogenesis // Curr Oplll Clin Nutri Metab Care, 2012, v.15, p.547-552.

Резюме

Дислипидемия у детей

Г.А. Ахмедов

В данной статье дан обзор нарушения липидного обмена у детей. Гиперлипидемия обнаруживается у детей и взрослых и требует специальных исследований. В статье рассказывается о нормативах липидов у детей, о наследственных дислипидемиях, вторичных дислипидемиях, связь между ожирением и с нарушениями липидного обмена. Подробно описаны клинические признаки и лечение дислипидемий у детей. Нарушения липидного обмена — один из наиболее важных рисков развития атеросклероза. Своевременная и правильная диагностика дислипидемий — необходимые условия рациональной профилактики и терапии атеросклероза. Объектом особого внимания служат больные ишемической болезни сердца , с атеросклерозом мозговых, периферических артерий и аорты. Именно у них в процессе лечения необходимо стремиться достичь целевых уровней ХС ЛНП, ХС ЛВП и ТГ в соответствии с требованиями настоящих рекомендаций. В зависимости от установленной категории риска определяется терапевтическая стратегия, в которой не следует ограничиваться только назначением липидкоррегирующих препаратов, но также принять все необходимые меры по коррекции других рисков.

Summary
Dyslipidemia in Children
G.A.Ahmadov

This article provides an overview of lipid metabolism in children. Hyperlipidemia is found in children and adults, and requires special studies. The article describes the norms of lipids in children of hereditary dyslipidemia, secondary dyslipidemia, obesity due to lipid metabolism disorders. He described in detail the clinical signs and treatment of dyslipidemia in children. Lipid metabolism - one of the most important risk for atherosclerosis. Correct diagnosis of dyslipidemia - necessary conditions of rational prevention and treatment of atherosclerosis. The object of special attention are the patients with coronary heart disease, cerebral atherosclerosis, peripheral arteries and aorta. The course of treatment should strive to achieve target levels of LDL cholesterol, HDL cholesterol and triglycerides in accordance with the requirements of recommendations. Depending on risk category is determined by the therapeutic strategy, which should not be limited to the appointment antilipid drugs, but also to take all necessary measures for the correction of other risks.

Daxil olub: 12.03.2015

ОБЩАЯ ХАРАКТЕРИСТИКА ПОРАЖЕНИЙ НЕРВНОЙ СИСТЕМЫ У МАЛОВЕСНЫХ НОВОРОЖДЕННЫХ В ЗАВИСИМОСТИ ОТ ГЕСТАЦИОННОГО ВОЗРАСТА

Н.Ф.Панахова
Азербайджанский медицинский университет, кафедра Неонатологии, г.Баку

Açar sözlər: yenidoğulan,hestasiya yaşına görə kiçik, sinir sisteminin zədələnməsi, baş beyinə qansızma, periventrikulyar leykomalasiya
Ключевые слова: новорожденный, малый для гестационного возраста, поражение нервной системы, внутричерепное кровоизлияние, перивентрикулярная лейкомаляция.
Keywords: newborn, small for gestational age, nervous system damage, intracranial hemorrhage, periventricular leukomalacia

Гипоксическое поражение головного мозга до настоящего времени остается одной из ключевых проблем в современной перинатальной неврологии [1]. Это обусловлено высокой распространенностью данной патологии, значительным и высоким риском формирования детской инвалидности [2]. В большей степени церебральную патологию у новорожденных определяют младенцы с малой массой тела при рождении [3,4]. В результате ряда неблагоприятных социально-экономических, экологических, медико-организационных факторов сохраняется высокая частота недоношенности и задержки внутриутробного развития (ЗВУР), что составляет в среднем 8-10% всех новорожденных [5]. Основная особенность этих детей- это незрелость органов и систем и, прежде всего центральной нервной системы (ЦНС). На этом фоне гипоксия мозга, являясь практически постоянным спутником недоношенности и ЗВУР, во много раз чаще, чем у доношенных с нормальными антропометрическими данными, обуславливает гибель ребенка [6,7].

Целью исследования явилась оценка неврологического статуса маловесных новорожденных в зависимости от гестационного возраста.

Материалы и методы исследования. Под нашим наблюдением находилось 287 новорожденных различного гестационного возраста (29-41 неделя), разделенные на две группы. В контрольную группу вошли 50 условно-здоровых новорожденных, родившихся у матерей с физиологическим течением беременности и родов в 5 родильном доме им. Ш. Алескеровой. В основную группу включены 237 новорожденных, родившихся от матерей с отягощенным анамнезом, основным

диагнозом которых при поступлении в неонатальные отделения НИИ Педиатрии им. К. Фараджевой явилась перинатальная гипоксическая энцефалопатия. Новорожденные обеих групп в зависимости от гестационного возраста разделены на 3 подгруппы. В 1-ую подгруппу контрольной группы вошли новорожденные, родившиеся на 37-41 неделе гестации (n=15), во 2-ую подгруппу-новорожденные, родившиеся преждевременно на 33-36 недели беременности (n=18), в 3-ю- глубоконедоношенные новорожденные с гестационным возрастом 29-32 недели. В 1-ой подгруппе основной группы объединены новорожденные, родившиеся в срок, на 37-41 неделе беременности (n=82), во 2-ую группу включены младенцы с гестационным возрастом 33-36 недель (n=100), 3-ью подгруппу составили глубоко недоношенные младенцы с гестационым возрастом 32-29 недель (n=55). В каждой подгруппе основной группы выделены младенцы антропометрические данные, которых соответствовали их гестационному возрасту (AGA- appropriate for gestational age) – подгруппа А и малые к гестационному возрасту (SGA- small for gestational age) – подгруппа В.

Критерии исключения:

1) Мертворожденные;
2) Новорожденные с клинической манифестацией TORCH инфекций, подтвержденных лабораторными методами;
3) Врожденные пороки развития;
4) Многоплодная беременность;
5) Полипрагмазия во время настоящей беременности;

Определение гестационного возраста основывалась на дату последней менструации матери и подтверждалась ультразвуковыми методами исследования. Физическое развитие новорожденных и соответствие их антропометрических данных гестационному возрасту оценивали по таблице, разработанной на кафедре неонатологии под руководством профессора Н.А. Тагиева [8].

Диагноз асфиксии при рождении выставлялся на основании критериев, предложенных Американской Педиатрической Академией (оценка по шкале Апгар 5 балов и ниже на 5-ой минуте жизни, уровень pH капиллярной крови менее 7.2) [9]

Оценка состояния нервной системы и тяжесть энцефалопатии проводилась в течении первых 24 часов жизни по шкале, предложенной Сарнат [10].

Всем детям проводили нейросонографическое исследование в динамике неонатального периода с целью объективизации клинических признаков поражения ЦНС и наблюдения за трансформацией выявленных структурных церебральных нарушений. Сканирование проводили через большой родничок над которым располагали датчик 5 и 7.5 МГц для получения изображений в коронарной, сагитальной и парасагитальной плоскостях. Геморрагические изменения оценивали согласно классификации Papille. Одновременно проводили допплерографию церебрального кровотока с определением индекса резистентности в передней мозговой артерии. Статистическую обработку полученных в ходе исследования данных осуществляли с помощью программы SPSS. Количественные данные выражены в виде средней величины (M) и стандартного отклонения (SD). Достоверность различий между сравниваемыми группами проводили с применением критерия Стьюдента

Результаты и их обсуждение. Как видно из таблицы 1 масса тела новорожденных в подгруппах А и В основной группы имеет статистически значимую разницу. Достоверной разницы в отношении пола в подгруппах основной группы не выявлено за исключением новорожденных 3В подгруппы, где преобладающим был мужской пол, составивший 75% младенцев данной подгруппы. В результате анализа данных крупных рандомизированных исследований получены убедительные доказательства того, что в широком диапазоне популяций беременность плодом мужского пола имеет больше шансов закончиться ранее положенного срока.

Оценка степени зрелости по шкале Хоффнер у SGA новорожденных была ниже по сравнению с AGA, но достоверный характер это отличие носило только между 1А и 1В подгруппами основной группы. Сроки госпитализации, а также смертность были выше среди недоношенных детей малых для своего срока гестации ($p<0,05$).

Как видно из рисунка 1оценка по шкале Апгар на 1-ой и 5-ой минутах жизни была достоверно ниже у новорожденных, родившихся раньше срока (2В, 3Аи 3В) в сравнении с доношенными новорожденными ($p<0,05$). Между подгруппами А и В основной группы достоверных различий в оценке по шкале Апгар не выявлено ($p>0,05$). Уровень pH ниже 7,2, являющийся маркером

патологического ацидоза и отражающий тяжесть перинатальной асфиксии был выявлен у новорожденных 3 подгруппы основной группы (рис. 2).

Таблица 1

Общая клиническая характеристика исследуемых групп

Признаки	1-ая подгруппа		2-ая подгруппа		3-ья подгруппа	
	A	B	A	B	A	B
Вес при рождении, г	3113±94,5	1866±133*	2108,3±45,4	1456±97,0*	1639±61,3	1020±77,9
Гестационный возраст, нед.	38,7±0,2	37,7±0,3	34,2±0,1	35,0±0,3	31,9±0,2	31±1,0
Пол (муж)	21(44,68)	16(45,71)	29(42,65)	11(34,38)	19(48,72)	12(75)*
Оценка по шкале Хоффнер, нед.	37±0,5	34,4±0,58*	34,8±0,4	33,3±0,5	32,8±0,4	31,0±4,0
Сроки госпитализации, дни	12±1,8	15±1,5	14,6±2,6	21±4,3*	15,7±2,8	35±3,4*
Неонатальная смертность	-	5(14,28)*	6(8,82)	5(15,63)	3(7,69)	3(18,75)*

Примечание: *-p<0.05 достоверность результатов между подгруппами основной группы. В скобках указаны проценты




Рис.1. Оценка по шкале Апгар в подгруппах основной группы

Примечание: *p<0.05 - между A и B подгруппами; # - по отношению ко 2-ой подгруппе; ¶ - по отношению к 1-ой подгруппе

Клиническая оценка неврологического статуса детей в ранний неонатальный период свидетельствовала о том, что почти половина маловесных детей, независимо от характера поражения головного мозга, находились в тяжелом состоянии, крик у них отсутствовал или был ослаблен, спонтанная двигательная активность (равно как и коммуникабельность) отсутствовала или была снижена. Ведущим синдромом был синдром угнетения ЦНС (47,56% в 1-ой подгруппе, 74% во 2-ой подгруппе, 89,09% в 3-ей подгруппе). Тяжесть гипоксически-ишемической энцефалопатии, оцененная по шкале Сарнат, отличалась в зависимости от гестационного возраста. Так, если в подгруппе доношенных с соответствующими гестации антропометрическими данными (1A) доминировала легкая степень поражения нервной системы, то у маловесных новорожденных преобладала среднетяжелая степень, частота встречаемости которой достоверно (p<0.05)

отличалась у глубоконедоношенных новорожденных (3А и 3В) по сравнению с таковой младенцев 1А подгруппы.




Рис.2. Уровень pH а подгруппах основной подгруппы

Примечание: p<0.05 - ¶ - по отношению к 1-ой подгруппе.




Рис. 3.Оценка степени поражения ЦНС по шкале Сарнат

Примечание: * p<0.05 - между А и В подгруппами; # - по отношению ко 2-ой подгруппе; ¶ - по отношению к 1-ой подгруппе.

При анализе состояния мышечного тонуса, физиологических и сухожильных рефлексов у обследованных новорожденных в первые трое суток жизни, выявлено, что у недоношенных младенцев с перивентрикулярными постгипоксическими поражениями головного мозга преобладали явления угнетения мышечного тонуса, периостальных рефлексов и рефлексов врожденного автоматизма. Восстановление утраченного мышечного тонуса и нервно-мышечное «созревание» у детей исследуемых групп начиналось на второй неделе периода новорожденности. Отставание темпов указанного процесса более, чем на 2

недели (по шкале К. Амиел-Тисен, 1977) от постконцептуального возраста достоверно чаще отмечалось у недоношенных новорожденных 2В, 3А, 3В подгрупп, что возможно обусловлено как незрелостью, так и наличием тяжелого патоморфологического субстрата поражения головного мозга в виде ПВЛ и ВЧК у данной категории младенцев.

Анализ результатов НСГ и допплерографического исследования сосудов головного мозга показал, что отек головного мозга в первые дни жизни наблюдался у половины маловесных детей, а низкие показатели индекса резистивности в группе недоношенных новорожденных отражали застой и полнокровие сосудов головного мозга. Отек паренхимы головного мозга сохранялся до конца 7-х суток только в 3-ей группе младенцев. Диагноз ПВЛ на 3 сутки жизни, в виде повышения эхогенности вокруг боковых желудочков выставлялся с высокой частотой особенно глубоконедоношенным новорожденным малым к гестационному возрасту (75%). Но учитывая, что ореол повышенной эхогенности перивентрикулярной зоны является физиологичным для недоношенных с гестационным возрастом ниже 34-36 недель, повторное ультразвуковое исследование выжившим детям повторно проводилось на 2-ой неделе жизни, т.е. в период, совпадающий по времени с образования псевдокист. Диагноз ПВЛ при этом подтвержден у 18,75% новорожденных.

Высокая частота кровоизлияний у новорожденных основной группы, выявленная при ультразвуковом исследовании свидетельствует о тяжести перенесенной гипоксии. Как видно из рисунка 5 у доношенных новорожденных с нормальными антропометрическими данными доминирует внутричерепное кровоизлияние (ВЧК) 1 степени, в то время как 3-я степень превалирует в подгруппе глубоконедоношенных младенцев малых для гестационного возраста.




Рис 4. Структурные изменения на нейросонограмме у новорожденных основной группы

Примечание: * p<0.05 - между А и В подгруппами; # - по отношению ко 2-ой подгруппе; ¶ - по отношению к 1-ой подгруппе.

Вентрикуломегалия, характеризующая процессы деструктивного характера, также как и ВЧК 3-й степени не наблюдалась ни у одного новорожденного 1А подгруппы. У недоношенных новорожденных во 2-ой подгруппе указанные процессы не выявлялись с высокой частотой, в противоположность глубоконедоношенным, где тяжелые поражения нервной системы осложняли состояние чуть ли ни трети этих детей.

Таким образом, глубокая гестационная незрелость в сочетании с интранатальной асфиксией и неблагоприятными факторами внутриутробного периода, способствующими задержке развития плода, определяют тяжесть церебральных повреждений, нарушающих процессы нервно-мышечного созревания в

постнатальном онтогенезе. Тяжелые органические нарушения в виде ПВЛ, вентрикуломегалии и 3-й степени кровоизлияния не исключают неблагоприятные исходы психомоторного развития и социальной дезадаптации в катамнезе этой категории новорожденных.




Рис 5. Частота встречаемости ВЧК

Примечание: 1. * - между А и В подгруппами; # - по отношению ко 2-ой подгруппе; ¶ - по отношению к третьей подгруппе

ЛИТЕРАТУРА

1. Пальчик А.Б., Шабалов Н.П. Гипоксически-ишемическая энцефалопатия новорожденных. СПб.:Питер, 2001, 224с.

2. Барашнев Ю.И. Перинатальная неврология. М., 2001, 640 с.

3. Кулаков В.И., Антонов А.Г., Байбарина Е.Н. Проблемы и перспективы выхаживания детей с экстремально низкой массой тела на современном этапе // Российский вестник акушера-гинеколога, 2010, № 3, с. 33-39.

4. Байбарина Е.Н., Антонов А.Г., Ленюшкина А.А. Клинические рекомендации по уходу за новорожденными с экстремально низкой массой тела при рождении // Вопросы практической педиатрии, 2006, Т. 1, № 4, с.96-100

5. Полянчикова О.Л. Клинические и метаболические факторы в патогенезе задержки развития плода и выборе акушерской тактики: Автореф. дис … д-ра мед. наук. М., 2010, 44с.

6. Kirmeshi O., Tatli M.M., Tayman C. et al. Subclinical hypoxia of infants with intrauterine growth retardation determined by increased serum S100B protein levels // Turk J Med Sci., 2011, v.41(5), p.795-800.

7. Back S.A. Brain Injury in the Preterm Infant: New Horizons for Pathogenesis and Prevention // Pediatric Neurology, 2015, v.53, p.185-192.

8. Tağıyev N.A. Yarımçıq doğulmuş uşaq. Bakı, 2003, 287c.

9. Agarwal R., Jain A., Deorari A., Paul V.K. Post-resuscitation management of asphyxiated neonates AIIMS- NICU protocols 2007. Division of Neonatology, Department of Pediatrics All India Institute of Medical Sciences Ansari Nagar, New Delhi-110029.

10. Hill A., Volpe J.J. Neurologic Disorders. Neonatology: Pathophysiology and management of the newborn / Avery G. B., Fletcher M. A., MacDonald M. G., eds. Philadelphia- New York: Lippincott-Raven, 1994, p.1117-1138

Xülasə

Hestasiya yaşından asılı olaraq az çəkili uşaqlarda mərkəzi simir sisteminin zədələnməsinin ümumi xarakteristikası

N.F.Pənahova

Müayinənin məqsədi hestasiya yaşından asılı olaraq az çəkili uşaqlarda MSS-nin vəziyyətinin qiymətləmdirilməsindən ibarətdir. Müxtəlif hestasiya yaşına malik olan 287 körpənin nevroloji statusunun qiymətləmdirilməsi aparılımışdır. Fizioloji hamiləlik və doğuşdan olan 50 vaxtında və

vaxtından əvvəl doğulan uşaq kontrol qrupunu təşkil edib, xroniki perinatal hipoksiyaya məruz qalan 237 körpə isə əsas qrupuna daxil olub və hestasiya yaşından asılı olaraq 3 yarımqrupa ayrılıb. Sinir sisteminin klinik qiymətləndirilməsi ilə yanaşı, işemik və hemorragik zədələnmələrin müəyyənləşdiriməsi üçün baş beyinin ultrasəs müayinəsi aparılıb. Perinatal hipoksiyaya məruz qalan körpələrdə MSS-nın zədələnməsinin ağırlıq dərəcəsi ytstasiya yaşı ilə yanaşı uşagın kütləsindəndə asılıdır. Belə ki, hestasiya yaşına görə kiçik dərin dərəcəli vaxtından qabaq doğulanların adaptasiya dövrünün gedişi daha çox ventrikulomeqaliya, baş beyinə ağır dərəcəli qansızmalar və periventrikulyar leykomalyasiya ilə fəsadlaşmışdir.

Summary

General characteristics of the lesions of the nervous system in low birth weight infants depending on gestational age

N.F. Panahova

The Objective of research was evaluate the condition of the central nervous system of low birth weight infants depending on gestational age. Assess the neurological status of 287 infants of different gestational age. 50 full-term and preterm infants born to mothers with physiological pregnancy and birth were included in the control group. 237 infants undergoing chronic fetal hypoxia made up the main group and depending on the gestational age were divided into 3 subgroups. Newborn along with the clinical evaluation of the nervous system carried ultrasound for the detection of ischemic and hemorrhagic brain lesions. It was found that the severity of the nervous system injuries of newborns exposed to perinatal hypoxia depends on the gestational age and the body weight at birth. So, ventriculomegaly, severe intracranial hemorrhage and degree of PVL complicated neonatal period of extremely premature infants small for gestational age with a high frequency.

Daxil olub: 02.04.2015

MƏRKƏZİ SİNİR SİSTEMİNİN PERİNATAL HİPOKSİK-İŞEMIK ZƏDƏLƏNMƏLƏRİ İLƏ VAXTINDAN ƏVVƏL DOĞULAN UŞAQLARDA ERKƏN NEONATAL DÖVRÜN SOMATİK STATUSU GÖSTƏRİCİLƏRİ

S.A.Hüseynova

Azərbaycan Tibb Universiteti, neonatologiya kafedrası

Açar sözlər: hipoksik-işemik ensefalopatiya, perinatal patologiya, yarımçıq doğulmuş, poliorqan çatmamazlığı

Ключевые слова: гипоксично-ишемическая энцефалопатия, перинатальная патология, недоношенные дети, полиорганная недостаточность

Key words: hypoxic-ischemic encephalopathy, perinatal pathology, preterm infant, poly organ insufficency

Mərkəzi sinir siteminin perinatal zədələnmələri müasir dövrün ən aktual tibbi problemlərindən biri olub, təkcə uşaqlar arasında deyil, bütün yaş dövrləri üçün xəstələnmə və ölüm göstəricilərinin artmasında mühüm rol oynayır [1,2,3]. Antenatal və intranatal dövrün qeyri-qənaətbəxş faktorları fetoplasentar sistemin funksional vəziyyətinə müxtəlif cür təsir göstərə bilər. Belə ki, bətndaxili zədələnmələrin ağırlıq dərəcəsi zərərli amilin təsir müddətindən, dölün hestasiya yaşından, hamilə qadının sağlamlıq vəziyyətindən və s. faktorlardan asılı olaraq dəyişir [4,5,6]. Hipoksik amilin davamlı təsiri zamanı ana-cift-döl sisteminin qoruyucu mexanizmləri hesabına ilk növbədə qanın həyati vacib orqanlarda mərkəzləşməsi baş verir [7,8]. Bu zaman tənəffüs sistemi, mədə-bağırsaq traktı, sidik-ifrazat sistemi və digər periferik orqan və sistemlərdə qan dövranının zəifləməsi hesabına baş beyinin qanla təchizatının kompensator olaraq sürətlənməsi baş verir [9]. Qanla zəif təchiz olunan orqanlarda isə davamlı hipoksiya şəraitində hipoksemiya və asidozun davam etməsi müxtəlif dərəcəli disfunksional, bəzən isə üzvi dəyişikliklərə səbəb olmaqla yanaşı patoloji prosesin bir həlqəsi kimi mərkəzi sinir sisteminin zədələnmələrini bir qədər də ağırlaşdırır. Buna görə də ağır dərəcəli hipoksik-işemik ense-

falopatiya zamanı xəstəliyin ağırlığı təkcə beyin zədələnmələri ilə deyil, multi-orqan çatmazlığı əsasında qiymətləndirilir [10,11].

Hazırkı tədqiqatın **məqsədi** bədən kütləsindən asılı olaraq hipoksik-işemik ensefalopatiyası olan vaxtından əvvəl doğulan uşaqların somatik statusunun qiymətləndirilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Elmi tədqiqat işi Azərbaycan Respublikası Prezidenti Yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə reallaşan layihənin tərkib hissəsi olaraq, yenidoğulma dövründən həyatın ilk üç ilini əhatə edərək prospektiv həyata keçirilmişdir. Tədqiqata 2010-2013-ci illər ərzində Azərbaycan Tibb Universitetinin Neonatologiya kafedrasının tədris bazaları olan Ş.Ələsgərova adına 5 saylı doğum evində dünyaya gəlmiş vaxtından əvvəl doğulan uşaqlar daxil edilmişdir.

Tədqiqata 28-36 həftəlik hestasiya yaşında doğulmuş və hipoksik-işemik ensefalopatiya (HIE) riski olan 240 az çəkili uşaq daxil edilmiş və onlar 2 qrupda təsnif olunmuşlar: bədən kütləsi 1500 qramdan yuxarı olan 160 uşaq 1-ci qrupa, bədən kütləsi 1500 qramdan aşağı olan 80 uşaq isə 2-ci qrupa daxil olunmuşdur. Hər iki qrupa aid uşaqlar hestasiya yaşına müvafiq (qəbul olunmuş beynəlxalq abbreviatura üzrə appropriate for gestational age- AGA) və hestasiya yaşından geri qalan (qəbul olunmuş beynəlxalq abbreviatura üzrə small for gestational age- SGA) olmaqla ayrıca iki yarımqrup şəklində tədqiq edilmişdir (AGA 1-ci qrupda n=100, 2-ci qrupda n=50; SGA 1-ci qrupda n=60, 2-ci qrupda n=30).

Uşaqların tədqiqatdan kənarlaşdırılması meyarlarına doğularkən bədən kütləsinin 1000 qramdan aşağı olması, çoxdöllü hamiləlik, ölü doğulma, bətndaxili infeksiyalaşma əlamətləri, anadangəlmə inkişaf qüsurları, hamiləlik müddətində polipraqmaziya aid edilmişdir.

Hamiləlik və mamalıq anamnezinə aid olan müayinələrin göstəriciləri doğum evində xəstəlik tarixindən əldə edilən məlumatlar əsasında retrospektiv müəyyən edilmişdir, doğuşa və yenidoğulmuşun müayinə nəticələri isə prospektiv olaraq əldə edilmişdir.

Uşaqların hestasiya yaşı anaların son aybaşı tarixinə, habelə hamiləlik vaxtı həyata keçirilən ultrasəs müayinəsinin nəticələrinə əsasən müəyyənləşdirilmiş və Ballard şkalasının göstəriciləri əsasında təsdiq olunlmuşdur [12]. Fetal inkişafın ləngiməsi diaqnozu hamiləlik vaxtı dölün antropometrik göstəricilərinin inkişaf dinamikası əsasında müəyyənləşdirilmişdir.

Doğulan kimi bütün körpələrdə asfiksiyanın ağırlıq dərəcəsi Apqar şkalası əsasında qiymətləndirilmişdir. Asfiksiya diaqnozu Amerika Pediatriya Akademiyasının təklif etdiyi meyarlara (həyatın 5-ci dəqiqəsində 5 və daha az balla qiymətləndirmə, kapilyar qanda pH göstəricisinin 7-dən aşağı olması) əsaslanaraq qoyulmuşdur [13].

Neonatal ensefalopatiyanın ağırlıq dərəcəsi yenidoğulmuşun həyatın ilk 24 saatı ərzində Sarnat şkalası ilə qiymətləndirmənin nəticələri əsasında təyin edilmişdir [14]. Yüngül dərəcəli HİE 24 saatdan az davam edən yuxusuzluq, hiperesteziya, oyanıqlıq, ekzoftalm əlamətləri əsasında, orta ağır dərəcəli HİE letargiya, əzələ hipotoniyası, anadangəlmə fiziloji reflekslərin zəif alınması və qıcolma əlamətləri əsasında, ağır dərəcəli HİE isə koma, tənəffüsün zəifləməsi, stimulyasiyaya cavabın olmaması, əzələ tonusunun kəskin azalması, anadangəlmə fiziloji reflekslərin çox zəifləməsi və ya olmaması, vətər reflekslərinin zəifləməsi, və EEQ-də kəskin nəzərə çarpan dəyişikliklərə əsasən müəyyənləşdirilmişdir. Diaqnozu dəqiqləşdirmək üçün bütün uşaqlara həyatın ilk üç sutkasında baş beyinin ultrasəs müayinəsi 5 və 7,5 MHs tezlikli sektor ötürücüləri vasitəsilə həyata keçirilmişdır. Digər orqan və sistemlər tərəfindən olan dəyişiklilər isə ümumi klinik-laborator müayinələr, exokardioqrafiya və qarın boşluğu orqanlarının ultrasəs müayinəsi əsasında müəyyənləşdirilmişdir.

Nəticələr və onların müzakirəsi. Yenidoğulan uşaqların əsas neonatal göstəriciləri 1 saylı cədvəldə göstərilmişdir. Göründüyü kimi, hestasiya yaşına görə kiçik antropometrik ölçüləri olan uşaqlarda aparılan müalicə tədbirlərinə baxmayaraq, neonatal dövrün xəstələnmə göstəriciləri daha yüksək olmuşdur. Bu da onların orqanizminin antenatal dövrdə daha dərin zədələnnəsi və patoloji proseslərin bərpasının daha uzunmüddətli olması ilə əlaqədardır. Erkən adaptasiya dövrünün fəsadlı gedişi ilə əlaqədar SGA yarımqrupuna daxil olan uşaqlarda, xüsusilə 2-ci qrupda hospitalizasiya müddəti daha uzun davam etmişdir ($p<0,05$). Cədvəldən göründüyü kimi, hər iki qrupun SGA yarımqrupunda yenidoğulan uşaqların təkcə antropometrik ölçüləri deyil, Hoffner şkalası ilə qiymətləndirmə zamanı morfoloji və funksional yeişkənlik göstəriciləri də hestasiya yaşından geri qalmışdır. Bədən kütləsi 1500 qramdan aşağı olan uşaqlarda Hoffner şkalası ilə qiymətləndirmənin orta göstəricisi müvafiq yarımqrup ilə müqayisədə statistik dürüst fərqlənmişdir

(p<0,05). Apqar şkalası ilə qiymətləndirmənin nəticələri SGA yarımqrupuna daxil olan uşaqların təkcə antenatal deyil, həm də intranatal dövrün fəsadlı gedişindən xəbər verir. Belə ki, həm 1-ci, həm də 5-ci dəqiqədə aparılan qiymətləndirməyə əsasən bu yarımqrupa daxil olan uşaqlarda perinatal asfiksiya daha çox təsadüf etmişdir, lakin yalnız 2-ci qrupa daxil olan SGA uşaqlarda statistik dürüst fərq müəyyən edilmişdir (p<0,05). Ümumiyyətlə, asfiksiyanın bütün yenidoğulmuşların neonatal və postneonatal sağlamlıq vəziyyətinə əhəmiyyətli təsiri barədə konkret fikir yürütmək çox çətindir. Belə ki, son illər bir çox aparıcı elmi təqiqat mərkəzlərinin araşdırmalarına görə beyin və digər orqanların oksigenlə təchizatının pozulması və qanın turşu-qələvi vəziyyətinin dəyişməsi əsasən hər hansı bir metabolik dəyişiklik və ya bətndaxili infeksiya kimi patoloji proseslərin fonunda inkişaf edir [15]. Perinatatal asfiksiyanın səbəbləri və neyronal zədələnməyə gətirib şıxaran patogenetik mexanizmlər sonuna qədər araşdırılmamış və son illər patoloji prosesin ağırlığına qiymət vermək üçün spesifik xarakterli olmayan zədələnməni xarakterizə edən "hipoksik-işemik ensefalopatiya" terminina daha çox üstünlük verilir [16]. Çox güman ki, doğuşda asfiksiya təkcə intranatal səbəblərlə bağlı olmayıb, bətndaxili xroniki hipoksiya və qeyri-qənaətbəxş antenatal inkişafın nəticəsi olaraq organizmin kompensator-müdafiə qüvvələrinin tükənməsi ilə əlaqədar olmuşdur.

Ante- və intranatal dövrün fəsadlı gedişinin məntiqi nəticəsi kimi, erkən neonatal dövrdə də SGA yarımqrupuna daxil olan uşaqlarda reanimasiya və intensiv terapiya tədbirlərinə daha böyük ehtiyac olmuşdir. Cədvəldən göründüyü kimi, hər iki yarımqrupa daxil olan uşaqlarda satistik dürüst hədlərə çatmasa da, ağciyərlərin süni ventilyasiyası və tam parenteral qidalanma daha böyük tezlikdə tətbiq edilmişdir. Eyni zamanda 1500 qramdan aşağı kütlə ilə doğulan uşaqların 50%-i respirator terapiyaya məruz qalmışdır.

Cədvəl 1

Tədqiqat qruplarına daxil olan yenidoğulmuşların erkən neonatal dövrünə aid əsas göstəricilər

Göstəriciləri	1-ci qrup		2-ci qrup	
	AGA, n=100	SGA, n=60	AGA, n=50	SGA, n=30
Bədən kütləsi, q	2350,2 ±58,7	1927,6±36,5	1355,3±33,6	1110,4±74,3
Hestasiya yaşı	35,7±0,3	35,2±0,5	32,4±0,5	33,1±0,6
Cins (oğlan/qız)	44/56	34/26	25/25	16/14
Hospitalizasiya müddəti	18,6±0,9	24,5±1,3	20,4±1,1	27,9±2,2*
Hoffner şkalası əsasında qiymətləndirmə nəticəsi	34,6±0,4	31,3±0,3	33,8±0,5	29,3±0,5*
Apqar 1-ci dəqiqə	5,24±0,17	5,13±0,1	4,54±0,34	4,11±0,42*
Apqar 5-ci dəqiqə	6,25±0,14	6,00±0,11	5,9±0,21	5,17±0,11*
pH	7,33±0,01	7,21±0,03	7,30±0,01	7,03±0,03
Tənəffüs kisəsi vasitəsilə ventilyasiya	24%, n=24	36,6%, n=22	26%, n=13	50%, n=15
Ağçiyərlərin süni ventilyasiyası	2%, n=2	8,33%, n=5	14%, n=7	23,3%, n=7
Tam parenteral qidalanma##	3%, n=3	10%, n=6	16%, n=8	26,66%,n=8


Qeyd: *göstəricinin müvafiq yarımqrup ilə müqayisədə statistik dürüstlüyü; #əsasən __ gündən çox davam edən ventilyasiya nəzərdə tutulur; ##- gündən cox davam edən tam parenteral qidalanma nəzərdə tutulur

Neonatal dövrün gedişində müxtəlif patoloji proseslərin təzahürünə gəldikdə 1 saylı diaqramdan göründüyü kimi vaxtından əvvəl və az çəki ilə doğulan uşaqlarda hər iki qrupda neonatal dövrün gedişi ayri-ayri orqan və sistemlər tərəfindən olan müxtəlif patologiyalarla ağırlaşmışdır.

Respirator distress sindrom (RDS), konyuqasion sarılıq, fetal kommunikasiyaların persistə etməsi, mədə-bağırsaq tərəfindən olan dispeptik dəyişikliklər və mikrosirkulyator pozulmalar 2-ci qrupa daxil olan uşaqlarda 1-ci qrupa nisbətən daha çox rast gəlmişdir.

Mədə bağırsaq traktı tərəfindən olan dəyişikliklər dedikdə təkrarlanan qusma halları, qidanın evakuasiyasının ləngiməsi və nəcis ifrazının tezləşməsi nəzərdə tutulmuşdur. Mikrosirkulyator pozulmalar isə dəri örtüklərinin mərmərşəkilliyi, ağ ləkə simptomunun üç saniyədən çox davam etməsi, ətrafların periferik sianozu və peroral sianoz əlamətlərinin təzahüru əsasında müəyyənləşdirilmişdir. Hər iki qrupun müvafiq yarımqrupları arasında əksər göstəricilər demək olar ki, oxşar tezliklərdə təsadüf etmişdir. Yalnız tənəffüs pozğunluğu sindromu 2-ci AGA uşaqlarda, mikrosirkulyator pozulmalar isə 2-ci

SGA uşaqlarda qrupun digər yarımqrupuna nisbətən daha cox müşahidə olunmuşdur. Hesab olunur ki, hestasiya yaşına görə inkişaf geriliyi baş verən uşaqlarda uzunmüddətli xroniki hipoksiya və qeyri-qənaətbəxş bətndaxili inkişaf şəraitində kompensator olaraq surfaktant sintezi sürətləndiyi üçün respirator pozulmalar nisbətən yüngül təzahür edir. Lakin AGA yarımqrupları üzrə olan uşaqlarda RDS-in rastgəlmə tezliyini göstəricilərin təhlili göstərir ki, bu patologiya bədən kütləsi və eləcə də hestasiya yaşından əhəmiyyətli dərəcədə asılıdır ($p<0.05$).



Şək. 1. Neonatal dövrün gedişində müşahidə edilən patoloji vəziyyətlər

Qeyd: *-qrupun digər yarımqrupuna nisbətən olan fərqin statistik dürüstlüyü $p<0.05$; #digər qrupun müvafiq yarımqrupuna nisbətən fərqin statistik dürüstlüyü.

SGA yarımqrupuna daxil olan uşaqların əksəriyyətində müşahidə olunan mikrosirkulyator pozulmalar isə dərin metabolik dəyişikliklərin fonunda perinatal patologiyaların daha ağır gedişi ilə əlaqədardır. Çox kicik bədən kütləsi ilə doğulan və hestasiya yaşına müvafiq inkişaf etməyən uşaqlarda mədə-bağırsag traktı tərəfindən olan disfunksional dəyişikliklərin daha yüksək tezlikdə təsadüf etməsi də çox güman ki, bətndaxili xroniki hipoksiya fonunda periferik orqanlarda qan təchizatının zəifləməsi və hipoksemiyanın nəticəsidir.

Beləliklə, aparılmış tədqiqatın nəticələri bir daha təsdiq edir ki, HİE riski olan uşaqlarda perinatal patologiyaların gedişi və ağırlıq dərəcəsi təkcə beyin zədələnmələri ilə əlaqədar olmayıb, poliorqan çatmamazlığının təzahürün-dən asılıdır. Buna görə də, ayrı-ayrı orqanlar tərəfindən olan disfunksional dəyişikliklərin vaxtında aşkar edilib aradan qaldırılması və toxuma perfuziyasının yaxşılaşdırılması istiqa-mətində həyata keçirilən müalicə tədbirləri erkən neonatal dövrün fəsadsız gedişinə böyük təkan verə bilər.

ƏDƏBİYYAT

1. Cowan F., Rutherford M., Groenendaal F. et al. Origin and timing of brain lesions in term infants with neonatal encephalopathy // Lancet, 2003, v.361(9359), p.736-742.
2. Anderson P.J., Doyle L. Executive functioning in school-aged children who were born very preterm or with extremely low birth weight // Pediatrics, 2004, v.114, p.50-57
3. Foulder-Hughes L.A., Cooke R.W. Motor, cognitive and behavioral disorders in children born very preterm // Dev Med Child Neurology, 2003, v.45, p.97-103
4. Slattery M.M., Morrison J.J. Preterm delivery // Lancet, 2002, v.360, p.1489-97.
5. McCormick MC. The contribution of low birth weight to infant mortality and childhood morbidity // N Engl J Med., 1985, v.312, p.82-90.
6. Goldenberg R.L., Cliver S.P., Mulvihill F.X. et al. Medical, psychosocial, and behavioral risk factors do not explain the increased risk for low birth weight among black women // Am J Obstet Gynecol., 1996, v.175, p.1317-24.
7. Chan P.H. Reactive oxygen radicals in signaling and damage in the ischemic brain // J Cereb Blood Flow Metab., 2001, v.21, p.2-14
8. Rossi D.J., Oshima T., Attwell D. Glutamate release in severe brain ischemia is mainly by reversed uptake // Nature, 2000, v.403, p.316-321.
9. Shah P., Riphagen S., Beyene J., Perlman M. Multiorgan dysfunction in infants with post-asphyxial hypoxic-ischaemic encephalopathy // Arch Dis Child Fetal Neonatal.,2004, v.89(2), p.152-5
10. Peeters L.L., Sheldon R.E., Jones M.D. et al Blood flow to fetal organs as a function of arterial oxygen content // Am J Obstet Gynecol., 1979, v.135(5), p.637-646.
11. Phelan J.P., Ahn M.O., Korst L. et al Intrapartum fetal asphyxial brain injury with absent multiorgan system dysfunction // J Matern Fetal Med., 1998, v.7(1), p.19-22.
12. Ballard J.L., Khoury J.C., Wedig K. New Ballard Score, expanded to include extremely premature infants // J. Pediatr., 1991, v.119, p.417-23.
13. Chen Z.L., He R.Z., Peng Q. et al. Clinical study on improving the diagnostic criteria for neonatal asphyxia // Zhonghua Er Ke Za Zhi, 2006, v.44, p.167-72.
14. Sarnat H.B., Sarnat M.S. Neonatal encephalopathy following fetal distress: a clinical and electroencephalographic study // Arc. Neurol., 1976, **33**, p.695-706.
15. Badawi N., Kurinczuk J.J., Keogh J.M. et al. Antepartum risk factors for newborn encephalopathy: the Western Australian case-control study // BMJ, 1998, v.317, p.1549-1553
16. Cowan F., Rutherford M., Groenendaal F. et al. Origin and timing of brain lesions in term infants with neonatal encephalopathy // Lancet, 2003, v.361, p.736-742

Xülasə

Mərkəzi sinir sistemin perinatal hipoksik-işemik zədələnmələri ilə vaxtından əvvəl doğulan uşaqlarda erkən neonatal dövrün somatik statusu göstəriciləri

S.A.Hüseynova

Hipoksik işemik ensefalopatiya (HİE) perinatal dövrün patologiyaları arasında əsas yerlərdən birini tutaraq təkcə mərkəzi sinir sistemi tərəfindən deyil, bir çox digər orqanlar tərəfindən disfunksional dəyişikliklərlə xarakterizə olunaraq erkən adaptasiyanın əhəmiyyətli dərəcədə pozulmaslna gətirib çıxarır. Hazırkı işin məqsədi vaxtından əvvəl doğulan və HİE riski olan uşaqlarda perinatal dövrün nevroloji və somatik göstəricilərinin bədən kütləsindən asılı olaraq analiz edilməsi olmuşdur. Bu məqsədlə 28-36 həftəlik hestasiya yaşında doğulmuş 240 vaxtından əvvəl doğulmuş uşaq bədən kütləsi 1500 qramdan az və 1500 qramdan çox olmaqla iki qrupda tədqiq edilmişdir. Tədqiqatın nəticələri göstərmişdir ki, bədən kütləsi 1500 qramdan aşağı olan uşaqlarda daha iri kütlə ilə doğulan yenidoğulmuşlara nisbətən erkən neonatal dövrün gedişi daha ağır olmuş, onlar arasında reanimasiya və intensiv terapiya tədbirləri daha çox tətbiq edilmişdir. Həmçinin, müxtəlif orqan və sistemlər tərəfindən olan patoloji hallar da dərin yarımçıqdoğulmuşlarda daha çox rast gəlmişdir. Hər iki tədqiqat qrupunda morfo-funksional göstəriciləri hestasiya yaşına müvafiq olmayan uşaqlar

perinatal dövrün patologiyalarının daha ağır gedişi və poliorqan disfunksiyası ilə xarakterizə olunmuşlar. Aparılmış tədqiqatın nəticələri bir daha təsdiq edir ki, HİE riski olan uşaqlarda perinatal patologiyaların gedişi və ağırlıq dərəcəsi təkcə beyin zədələnmələri ilə əlaqədar olmayıb, poliorqan çatmamazlığının təzahüründən asılıdır

Summary

Somatic status of early neonatal period of preterm infants üith perinatal hypoxic-ishcemic injury

S.A.Huseynova

Hypoxic-ischemic encephalopathy (HIE) takes an important place in the structure of perinatal pathologies and associates with dysfunctional changes not only by central nervous system and also by many other organs and systems which lead to complications of early adaptation period. The aim of this study is to analyze neurological and somatic status of preterm infants with a risk of HIE depending on birth weight. 240 newborns with 28-36 weeks of gestation were recruited in study and were classified as newborns weighing more than 1500 grams and less than 1500 grams. It was found more complicated early neonatal period and acute resuscitation interventions in infants weighing less than 1500 grams compared with another group infants. We also determined more severe appearance of perinatal pathologies and poly organ dysfunction in small for gestational age infants of both groups. The results of study confirm that the severity of perinatal pathologies depends not only on brain injury, and also on the appearance of poly organ insufficiency.

Daxil olub: 16.03.2015

AŞAĞI ƏTRAF DAMARLARININ OKKLUZİON XƏSTƏLİKLƏRİNİN DİAQNOSTIKASINDA, MÜALİCƏ ÜSULUNUN SEÇİLMƏSİNDƏ VƏ MÜALİCƏNİN NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ MULTİSPİRAL MÜAYİNƏSİNİN ƏHƏMİYYƏTİ

N.R.Xasayeva

Akademik M. A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Bakı

Acar sözlər: aşağı ətrafların damarlarının okkluzion xəstəlikləri, multispiral KT angioqrafiya

Ключевые слова: окклюзирующие заболевания артерий нижных конечностей, мультиспиральная компьюторно- томографическая ангиография.

Key words: lower extremity arterial occlusive disease, multislicecomputed tomography-assisted angiography.

Aorta və aşağı ətrafların arteriyalarının xronik obliterasiyaedici xəstəliklərinə ümumi əhali arasında 2-3% [2-3], yaşlı əhali arasında isə 5% rast gəlinir və ürək-damar patologiyalarının 20%-dən çoxunu əhatə edir [1]. Arteriyaların xronik obliterasiyaedici xəstəliklərinin 3%-i həyatın 4-cü, 10%-i 5-ci, 20-30%-i 6-cı və 50-70%-i 7-ci onilliyinə təsadüf edir [2-3]. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, obliterasiyaedici xəstəliklərin 81,6%-nin etiologiyasında ateroskleroz durur; qeyri-spesifik aorta-arteriit- 9%, diabetik angiopatiya- 6%, obliterasiyaedici trombangiit-1,4%, Reyno xəstəliyi-1,4% və b. xəstəlikləri- 0,6% halda obliterasiyaedici xəstəliklərə səbəb ola bilər [4-6]. Halhazırda pasiyentlərin müayinəsində angioqrafiyanı qismən əvəz edən ultrasəs dupleks skanerləşməsi, maqnit-rezonans, elektron-şüa spiral və multispiral kompyuter tomoqrafiyası kimi qeyri-invaziv müayinə metodlarından daha geniş istifadə edilir [7-9]. Spiral skanerləşmə klinik praktikada tətbiq olunduqdan sonra damarların keyfiyyətli görüntüsünü almaq mümkün olub [3-11]. Spiral KT müayinənin müddətini sürətləndirməklə bərabər, ilkin müayinələrin nəticələrini cəmləşdirməklə, istənilən qalınlıqda alınan kəsiklərin üçölçülü rekonstruksiyasını aparmaq imkanına malikdir. Spiral KT-nin əsas üstünlüyü ondan ibarətdir ki, müayinəyə məruz qalan anatomik sahənin vəziyyəti hərəkətdən və tənəffüsdən asılı olmadan alınır; kontrastın qan dövranındakı bütün fazalarında görüntüsü əldə edlir və bununla üçhəcmli rekonstruksiyanı yerinə yetirmək mümkün olur

[11,13]. Buraya müayinədən sonra intervallarla aparılan kəsiklərin rekonstruksiya inkanlarını da əlavə etsək onun nə dərəcədə əhəmiyyatli olmasını təsdiq etmiş olarıq.

Çoxmüstəvili rekonstruksiyaların keyfiyyətinin yüksəldilməsi, müayinəyə sərf edilən vaxtın qısaldılması və bununla da müayinə sayının artırıla bilməsi spiral KT-nin təkzibedilməz üstünlüklərindən sayılır [11-15].

Bununla bərabər, indiyə qədər SŞT-nin aparılmasının metodikası, ona göstərişlərin təyini tam işlənməyib və standartlaşdırılmayıb; aşağı ətrafların arteriyalarının okklyuzion xəstəliklərinin damar şəbəkəsinin anatomik xüsusiyyətini və klinik simptomatikanı birlikdə nəzərə almaqla STK müayinəsində aşkar edilən əlamətlər ətraflı təsvir olunmadığından, onların öyrənilməsi istiqamətində elmi-tədqiqat işlərinin aparılmasına böyük ehtiyac vardır.

Tədqiqatda aşağı ətraf arteriyalarının obliterasiyaedici xəstəliklərinin diaqnostikasında multispiral kompyuter tomoqrafiyasının imkanlarının və diaqnostik əhəmiyyətinin qiymətləndirilməsi və pasiyentlərin kompleks müayinəsində həmin metodun yerinin müəyyənləşdirilməsi məqsədilə aparılmışdır.

Tədqiqatın material və metodları. Tədqiqatın əsasını 2008-2014-cü illər ərzində akad. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin Şüa-diaqnostikası və Damar cərrahiyyəsi şöbələrində aşağı ətrafların arterial damarlarının okklyuzif-stenotik xəstəliklərinə (AƏOX) görə müayinə və müalicə edilmiş 165 xəstə cəlb olunmuşdur. Bundan başqa, 12 sağlam könüllünün də müayinəsinin nəticələri əks etdirilmişdir. Xəstələrdən –15 (9%)-i qadın, 150 (91%)-si isə kişi idi. Kontrol qrupa aşağı ətrafların damarlarında hər hansı patoloji proses olmayan və qasıq yırtığına görə müalicədə olan 20 xəstə daxil edilmişdir.


Xəstələrdən 3 nəfərin (1,8%) yaşı- 28-40, 66 nəfərin (40%) yaşı- 41-50, 56 nəfərin (33,9%) yaşı- 51-60, 34 nəfərin (20,6%) yaşı- 61-70, 6 nəfərin (3,7%) yaşı isə 71-dən artıq olmuşdur.

105 (65%) xəstədə 2 və 3 yanaşı gedən xəstəliklər mövcud idi. Ayrılıqda isə 97 (59%) xəstənin anamnezində hipertoniya xəstəliyi, 25(15%) xəstədə şəkərli diabet, 58 (35%) xəstədə piylənmə,77 (47%) xəstədə xronik ürək-damar çatışmazlığı qeyd edilirdi. Bütün xəstələrə kontrastlı multispiral komyuter tomoqrafik angioqrafiya (MSKT A) yerinə yetirmişik. MSKTA zamanı alınana görüntülər xüsusi ədəbiyyatda təsvir edilmiş görüntülərlə və kontrol qrupunda aparılan MSKTA müayinəsinin nəticələri ilə müqayisəli şəkildə qiymətləndirilmişdir. 122 xəstənin (73,9%) aşağı ətraf arteriyalarının obliterasiyaedici xəstəlikləri, 6 xəstədə (3,6%) obliterasiyaedici tromboangit, 25 xəstədə (15,2%) ateroskleroz+şəkərli diabet mənşəli angiopatiya, 5 xəstədə (3%) aşağı ətraf arteriyalarının anevrizması, 3 xəstədə (1,8%) ekstravazal kompressiya və 4 xəstədə (2,4%) qeyri-spesifik aorto-arteriit qeyd edilirdi.1-ci dərəcəli regionar qan dövranı çatışmazlığı (Fonten təsnifatına görə) və ya 1-ci dərəcəli işemiya 3(1,8%) xəstədə, işemiyanın 2-ci A dərəcəsində – 33 (20%) xəstə, 2-ci B dərəcəsi – 51 (31%) xəstədə, 3-cü dərəcəsi – 41 (24,8%) xəstədə və işemiyanın 4-cü dərəcəsi 37 (22,4%) xəstədə mövcud idi. Xəstələrin müayinəsində anamnestik məlumatların toplanması, döş qəfəsinin və qarın boşluğunun icmal rentgenskopiyası, EKQ, klinik və biokimyəvi analizlərin yerinə yetirilməsi, USM, rentgenkontrastlı angioqrafiya, MSKTA və bəzi hallarda MRT tədbiq edilirdi. Xəstələrin 95,7%-nə doppleroqrafiyadan istifadə etməklə USM, 15,8% xəstəyə rentgenkontrastlı angioqrafiya, 19,4%xəstəyə maqnit-rezonanslı tomoqrafiya və 100% xəstəyə multispiral KT müayinəsi aparmışıq.

Kontrast MSKTA müayinəsi xəstələrə cərrahi əməliyyatlardan əvvəl, ondan sonra və dinamik müşaidə zamanı yerinə yetirilmişdir. MSKT TOSHİBA (Yaponiya) firmasının "AQUİLİON MULTİ" (model TSX-101N) multispiral kompüter tomoqrafında aparılmışdır. Bu tomoqrafda rentgenoloji zondun bir dövriyyəsi (0,5 saniyə) ərzində qalınlığı 0,5 mm-dən 10 mm-ə qədər olan 4 kəsik əldə etmək mümkün olmuşdur. MSKT aparılması üçün xəstələrə xüsusi hazırlıq lazım gəlmir. Müayinə protokolu bir neçə fazadan ibarət idi: a) nativ müayinə (kontrast yeridilmədən) fazası: kontrast yeritmədən əvvəl tomoqrafiya 4 mm qalınlığında kəsiklə, Pitç 5,5 olmaqla diafraqma kümbəzindən başlayaraq qamış arteriyalarını əhatə edən bir bölgəni əhatə edirdi. Bu zaman rentgen borusunun fırlanma vaxtı 0,5 saniyə olub, boruda gərginlik 120kV və cərəyanın gücü 300 mA təşkil edirdi; b)arterial faza: arterial fazanın görüntülərini almaq üçün vena daxilinə qeyri-ion xarakterli yod tərkibli kontrast maddə yeritmək lazım gəlir. Kontrast yeritmədən əvvəl qarın aortasında qanın sıxlığını təyin etməkdir; adətən oradakı sıxlıq 52-60 Hausvild (Hu) vahidinə bərabər olur. Sonra kontrastlaşma məqsədilə 300-350 mq/ml Omnipak və ya Ultravist adlı kontrast maddələrdən istifadə edilib. Preparatlar "Medrad" avtomatik inyektoru vasitəsilə dirsək

venasına 3 ml/saniyə sürətlə 100-120 ml həcmində yeridilirdi. Qeyd edilən sürətlə yeridilən kontrast maddə aşağı ətraf arteriyalarının optimal kontrastlaşmasına imkan verir. MSKT angioqrafiyanın zamanında başlanması üçün bolyuslu kontrastı arterial şəbəkədə real vaxt müddətində izlənməsinə imkan verə bilən xüsusi proqramdan istifadə edirdik. Proqram kontrastın proksimal hissələrində görüntüyə gələn anından işə salırdıq. Skanerləşməyə başlamanın vaxtı avtomatik olaraq «SureStart» sistemi vasitəsi ilə təyin olunurdu: belə ki qarın aortasında sıxlıq 120 vahid Hu-ya çatdıqda aparat avtomatik olaraq skanerləşməyə başlayırdı. Skanerləşməyə başlanmaya qədər olan vaxt orta hesabla 20-25 saniyədən çox olmurdu. Kontrastlaşma ilə aparılan skanerləşmə 2-3mm qalınlığında, 5,5 pitç olmaqla davam olunurdu. Skanerə sərf olunan vaxt 356-45 səniyə təşkil edirdi. Bu müddət ərzində 450-520 aksial görüntü çəkilirdi. MSKTA-da alınan məlumatların işlənib hazırlanması Advantage Windows 4.I GE Medical Systems v. Alatoview v.1.42 qrafik stansiyalarının yardımı ilə həyata keçirilmişdir.

Stenoz dərəcəsinin qiymətləndirilməsi. Daralma faizi damarın mənfəzinin diametrinə nisbətdə hesablanırdı. Arteriyanın dəyişikliyə uğramamış hissəsində damarın maksimal diametri və stenoz zonasında aterosklerotik düyünlərdən "azad" hissədə damarın minimal diametri obsolyut həcmlər kimi qəbul edilir (şəkil 1a). Kəsik səthi damarın boylama səthinə perpendikulyar olduqda ölçü aksial kəsiklər üzrə aparılırdı. Damarın aksial kəsiyi onun istiqamətinə görə maili səthdə keçirdisə multiplanar reformasiyalardan istifadə olunurdu (Şək.1d).



a b

Şək. 1. Arteriya mənfəzinin daralmasının faizlə hesablanması: a) aksial kəsikdə; b) multiplanar informasiya vasitəsi ilə

Alınan nəticələrin ststistik işlənməsi. alınmış bütün rəqəm göstəriciləri müasir tövsiyələr nəzərə alınmaqla statistik təhlil edilmişdir. Qruplarda göstəricilər arasındakı fərqi müəyyən etmək üçün qeyri-parametrik üsuldan– Uilkinson (Mann-Uitni) meyarından (U) istifadə edilmişdir.

Alınan nəticələrin müzakirəsi. Kontrol qrupda aparılan MSKTA -da arteriyalar aydın və hamar konturlara malik idi, kontrast preparatla bərabər doldurulmuşdu. Arterial fazaya qan sıxlığı 292±40 Hausfild vahidi təşkil edirdi.


Qeyri-spesifik aortoarteriit (QSAA) olan 4 xəstədə MSKT angioqrafiyasında aşkar edilən areterial dəyişikliklər seqmentar xərakter daşıyaraq magistral arteriyaların mənbəi və onların proksimal hissələri ilə məhdudlaşırdı :qarın aortasının infrarenal hissəsində, daxili və xarici qalça arteriyasının dəliklərinə keçməklə ümumi qalça arteriyası nahiyəsində lokallaşmış, 50%-dən artıq stenotik dəyişikliklər aşkar edilmi, distal arterial yatağında isə dəyişikliklər aşkar olunmamışdır.

Obliterasiyaedici trombangiit (OT) 6 (3,6%) xəstədə müəyyən edilmişdir – xəstələrin hamısı 35-46 yaş arası (orta yaş həddi 42,5 yaş) gənc kişilərdir. OT olan xəstələrdə angioqrafiya zamanı bir qayda olaraq aorta, qalça və bud arteriyalarında elə bir gözə çarpan patoloji dəyişiklik aşkar edilməyib və baldır arteriyaları obliterasiyaya uğrayıb (şəkil 2); arteriyaların distal hissəsinin konturları düzgün olub ateroskleroz üçün xarakterik olan kələ-kötürlük qeyd edilməyib; bu zaman OT üçün xarakterik kollaterrallar da müşahidə edilib.


Obliterasiyaedici ateroskleroz. Müayinə zamanı 122 (73,9%) xəstədə aşağı ətraf arteriyalarının aterosklerotik zədələnməsi aşkar edilmişdir. Bu zədələnmə stenozların, okklüziyaların formalaşmasına və ya aşağı ətrafların magistral arteriyalarının anevrizmatik genişlənmələrinə gətirib çıxarırdı. 122 xəstədən 35 (28,7%)-də aterosklerotik proses aorta-qalça seqmentində lokalizasiya etmişdir. Səthi bud arteriyası (SBA) в 8 (6,6%), qalça arteriyası- 27 (22,1%) halda ateroskleroza cəlb olunurdu. Bunlardan əlavə "İki qat blok" (stenoz>50% və ya aorta-qalça süqmentində okklüziya, SBA okklüziyası- 41 (33,6%) xəstədə və "Üçqat blok" (qalça zədələnməsi, SBA və baldır arteriyalarının okklüziyası- 11 (9%) xəstədə aşkar edilirdi. Aorta-qalça seqmentində aterosklerotik zədələnmə baş vermiş 35 (28,7%) xəstələrin hamısında MSKT arterioqrafiyası vasitəsilə aorta-qalça seqmentinin yüksək keyfiyyətli qörüntülərini əldə edə bilmişik (Şək. 3).



Şək. 2.Obliterasiyaedici trombangiit. Aorta-qalça və bud-dizaltı seqmentləri prosesə cəlb olunmayıb; hər iki arxa qamış arteriyasının və sol ön qamış arteriyasının okklyuziyası görüntüyə gəlir. Aorta-qalça və bud-dizaltı seqmentlərin arteriyaları intaktdır. Hər iki tərəfdən arxa qamış arteriyalarının sol ön qamış arteriyasının okklüziyası (oxla işarə edilib).



Şək. 3. Aorta-qalça seqmentinin kontrastlı multispiral kompyuter tomoqrafiyanın anqioqramması



Şək. 4. Kontrastlı MSKT. Bud-dizaltı seqmentdə bud arteriyasının okklyuziyası (1); Sağ səthi bud (2) və sol dizaltı arteriyanın (3) lokal okklyuziyası

Aşağı ətraf arteriyalarının aterosklerotik zədələnməsi. Arteriya divarları genişlənib və deformasiya edib.

35(28,7%) xəstədə aorta-qalça seqmentində baş vermiş aterosklerotik zədələnmə seqmentin müxtəlif bölgələrində stenozun müxtəlif dərəcəsi ilə aşkar olunurdu: xəstələrin hamısında (35 nəfər) II-ci dərəcəli stenoz ümumi qalça və xarici qalça arteriyasında və 31 xəstədə ümumi bud arteriyasında II dərəcəli stenoz aşkar edilmişdir; xəstələrin 50%-də II-ci dərəcəli stenoz aorta-qalça seqmentində lokalizasiya etmişdir.

II dərəcəli stenoz aorta-qalça seqmentində 35 xəstədə 32 arterial seqmentdə III dərəcəli stenoz olub və aortanın infrarenal hissəsində qeyd edilməyib. Eyni zamanda belə stenoz ümumi və xarici qalça arteriyalarının hərəsində 12 halda və ümumi bud arteriyasında isə 8 xəstədə aşkar edirdik.

IV dərəcəli stenoz 22 seqmentdə: ümumi qalça arteriyasında-5; xarici qalça arteriyasında-9 və ümumi bud arteriyasında- 19 halda təyin edilirdi.

V dərəcəli stenozu 122 xəstəni infrarenal seqmentində 28 halda, ümumi qalça arteriyasında 11 halda, xarici qalça arteriyasında 32 və bud arteriyasında 19 halda aşkar edirdik. Hemodinamika qanunlarına uyğun olaraq patoloji proses əksər halda damarların şaxələnmə bölgələrində inkişaf edirdi. Xarici qalça arteriyasında patoloji dəyişikliyin çox rast gəlməsini də hemodinamiki qanunauyğunluqla izah etmək mümkündür.

Aorta-qalça seqmentində inkişaf etmiş aterosklerotik proseslər regionar qan dövranının müxtəlif dərəcədə pozulmasına səbəb olurdu: 35 xəstədə 2b dərəcəli regionar qan dövranı pozulması – 12(34,3%) xəstədə, 3-cü dərəcəli-13(37,2%) xəstədə və 4-cü dərəcəli regionar qan dövranı pozulması – 10(30,5%) xəstədə qeyd olunurdu.

Aşağı ətraf arteriyalarının okklyuziv xəstəliklərində USM doppleroqrafiyası (USMDQ) ilə aparılan müayinələrin nəticələri 87,1% halda MSKT müayinələri ilə üst-üstə düşür. Diaqnostikada ortaya çıxan fərq USMDQ-nin xeyrinə olmayıb, bir sıra amillərə bağlıdır; buraya anatomik sahədə gedən arteriyalara səs zondunun çata bilməməsi, müayinə aparan həkimin kvalifikasiyası və patoloji prosesin qiymətləndirilməsində tədbiq edilən şkalanın az imkan verməsi kimi faktorları daxil etmək mümkündür.

Beləliklə aorta-bud seqmentinin MSKT müayinəsində kontrastlı angoqrafiya vasitəsi ilə qısa müddət ərzində yüksək dəqiqliklə həmin seqmentin görüntüsünü alaraq onun anatomik vəziyyətini, lokalizasiyasını, okklyuzion-steatonik prosesin yayılma ölçüsünü və inkişaf dərəcəsini təyin etmək mümkündür. MSKT angioqrafiyası vasitəsi ilə alınan təsvirlərdə nəinki magistral damarları, eyni zamanda kiçik diametrli arteriyaların, o cümlədən damarkeçiriciliyi pozulanda inkişaf edən kollateralların görüntüsü alınır.

Bud-dizaltı seqmentin MSKT angioqrafiyasının nəticələri. Aparılan MSKTA zamanı bud-dizaltı seqmentə daxil olan səthi və dərin bud arteriyasının (onun şaxələrinin) və dizaltı


arteriyanın görüntüsünün vəziyyətini təhlil edirdik. Bud-dizaltı seqment üçün orientasiyanı təmin etmək üçün bu bölgədən aldığımız bütün şəkillərdə diz oynağının oynaq boşluğunu horizontal xəttlə işarələyirdik. Arteriyada mövcud olan stenozları həmin xəttə və dərin bud artyeriyasının ümumi bud arteriyasından ayrılan yerinə istinad edərək qeyd edirdik. Angioqrafiyalarda bud-dizaltı seqmentin okklyuziv xəstəliklərindən okklyuziya prosesi birinci yer tuturdu; sonrakı yerlərdə hemodinamik dəyişikliklər, stenozlar və kritik stenozlar dururdular (Şək. 4).

Bizim tədqiqatlarımız aşkar etdi ki, USMDQ-nin nəticələıri ilə kontrastlı MSKT angioqrafiyasının nəticələri arasında 8%-ə qədər uyğunsuzluq mövcuddur. Arterial seqmentlərdən səthi bud arteriyasında 4 xəstədə stenozun səviyyəsi MSKTA-dan fərqli olaraq USMDQ-də qiymətlən- dirilməmişdir; 2 xəstədə isə USMDQ-də stenozun həqiqi səviyyəsi artıq təyin olunmuşdur. USMDQ-də 5 xəstədə dərin bud arteriyasında hemodinamikaya təsir etməyən stenoz aşkar edilməyibdir; 2 xəstədə də hemodinamikaya təsir edən stenoz təyin olunmayıbdır. Dizaltı arteriyanın USMDQ-də 5 xəstədə stenozun dərəcəsi qiymətləndirilə bilinməyibdir; 23 xəstədə olmuşdursa, hiperdiaqnostikaya yol verilibdir. USMDQ-də yol verilən xətalar şkalanın bir göstəricisi səviyyəsindən yüksək deyildi. Kontrastlı MSKT müayinələrinin nəticələrini digər şüa diaqnostika üsulları ilə müqayisə etdikdə kifayət qədər korrelyasiya müşahidə olunurdu. Belə ki, 35 seqmentin kontrastlı müayinəsi USMDQ ilə 91% halda uyğun gəlirdi. 3 xəstədə isə dizaltı arteriyanın kontrastlı MSKT müayinəsində okklyuziya yüksək səviyyəli stenoz kimi qiymət ləndirilmişdir (Şək. 5). Bizim fikrimizcə buna səbəb arteriya diametrində kəskin azalma zamanı siqnalın itməsi olmuşdur.

MRT müayinəsində 75 arterial seqmentin vəziyyəti qiymətləndirilmişdir və onların nəticələri 93% halda MSKT nəticələri ilə korrelyasiya olunurdu. 5 xəstədə MRT müayinəsində stenozun səviyyəsi MSKT-yə nisbətən artıq təyin olunmuş və 2 xəstədə isə stenozun səviyyəsi mövcud olandan aşağı təyin edilmişdir. Beləliklə kontrastlı MSKT müayinəsi vasitəsi ilə bud-dizaltı seqmenti arteriyalarının yüksək keyfiyyətli görüntüləri alınmışdır. Onu da qeyd etmək lazımdır ki, aorta-qalça seqmentinin arteriyalarından bud-dizaltı seqmentinin arteriyalarının diametrı nisbətən azdır. Bununla belə MSKT onların vəziyyətlərini dəqiqliklə təyin etməyə imkan verirdi.



Şək. 5. Sağ dizaltı arteriyasının okklyuziyası olduğu halda yüksək dərəcəli stenozun olması təyin edilmişdir.



Şək. 6. MSKT anqioqramma. Ön (1) və arxa (2) qamış və incik (3) arteriyaları yaxşı görüntü veriblər. Damarlar hamar və konturları dəqiqdir.


Kontrastlı MSKT aşağı ətraf arteriyalarında mövcud olan okklyuzion-stenotik zədələnmələrin uzunluğunu, böyüklüyünü təyin edərək onlar ətrafında inkişaf etmiş kollateral damar şəbəkəsinin dərəcəsini də ortaya çıxarır.

Bud-dizaltı seqmentin müayinəsində digəri şüa-diaqnostika üsullarının nəticələrəri ilə kontrastlı MSKTA-nın nəticəliəri yüksək səviyyədə uyğun gəlir və onlardan daha dəqiqdir.

Baldır arteriyalarının kontrastlı MSKT angioqrafiysının nəticələri. Kontrastlı MSKT angioqrafiya apa rılarkən baldır arteriyalarından ön, arxa qamış və incik arteriyalarının vəziyyətlərini öyrənməyə çalışırdıq (Şək.6).

9 (7,4%) xəstə xaric olmaqla aterosklerotik zədələnməsi olan 122 xəstədən 113 (92,6%)-də baldır arteriyalarının keyfiyyətli angioqrafiyasını ala bildik. Qeyd olunan 9 xəstədə angioqrafiyada venalar kontrastlaşdığından arteriyalar barədə tam fikir söyləmək çətin oldu. Venaların kontrastlaşması tədqiqat işimizin başlanğıc mərhələsinə aiddir. Apardığımız MSKTA təyin etdi ki, baldır arteriyaları içərisində ön qamış arteriyası daha çox patoloji prosesə cəlb olunur-101(36,7%); sonrakı yerləri incik arteriyası-92 (33,5%) və arxa qamış arteriyaları- 82 (29,8%) tuturlar. Baldır artyeriyalarının okklyuzion-steatonik proseslərində qan dövranının hemodinamikasının zəif dərəcədə pozulması (2-ci dərəcəli stenoz)- 88 (32%) xəstədə aşkar edilirdi. 3-cü dərəcəli stenoz- 74 (27%) xəstədə, 4-cü dərəcəli stenoz- 47(17%) xəstədə aşkar edilirdi. Xəstələrin 66 (24%)-da baldır arteriyalarının okklyuziyası mövcud idi. Kontrastlı MSKTA müayinəsində müalicə taktikasının düzgün seçilməsi üçün vacib olan əsas məsələlərdən biri dizaltı arteriyasının şaxələnən (trifurkasiya edən) nahiyəsinin qiymətləndirilməsi idi. Belə ki, baldır arteriyalarının vəziyyəti rekonstruktiv cərrahi əməliyyatın aparılması üçün çox mühüm şərt idi. Baldır arteriyalarından yuxarıda olan arterial seqmentlərinin rekonstrutiv əməliyyatlara uyğun olması hələ belə əməliyyatın yerinə yetirilməsinə zəmanət vermir. Belə ki, okklyuziv-steatonik prosesə tutulan 122 xəstədən 18(6,8%)-də distal arterial seqmentlərin (baldır arteriyalarının) yarasız olmasına görə rekonstruktiv əməliyyat tədbiq edilə bilmədi (Şək.7). 4 xəstədə isə planlaşdırılan rekonstruktiv əməliyyat qeyd olunan səbəbdən amputasiya ilə sonuclandı.

Baldır arteriyalarının kontrastlı MSKTA-nın nəticələri ilə USMDQ nəticələri 87,7% halda uyğun gəlirdi. Beləliklə yuxarıda qeyd edilənlər onu deməyə əsas verir ki, kontrastlı MSKTA baldır arteriyalarının və onların daha kişik diametrli şaxələrinin görüntülərini qısa vaxt ərzində, invaziv olmadan yuüksək keyfiyyətli görüntülərini almağa imkan verir. Aparılan müayinələrin nəticələrini yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, kontrastlı MSKTA aşağı ətraf arteriyalarının okklyuziv xəstəliklərin diaqnostikasında və müalicənin monitorinqində yüksək informativliyə malik müayinə metodudur. Müayinə olunan xəstələrin kliniki gedişini və patoloji prosesin xüsusiyyətini təhlil edərək MSKTA-ya göstərişləri təyin edə bildik: Kontrastlı MSKTA aşağı ətraflarda ilk dəfə ortaya çıxan bütün işemiya hallarında, regionar qan dövranının II-IV dərəcəli çatmamazlığında və okklyuzion–steatonik zədələnmələrin bütün dərəcələrində aparılması məsləhətdir.



Şək. 7. Baldırların kontrastlı MSKTA-sı. Sağ tərəfdə ön və arxa qamış (ox 1 və 2), sol incik (ox 3) arteriyalarının okklyuziyası. Sol tərəfdə arxa qamış arteriyasının zəif silueti alınıbdır (ox 4). Sol –ön qamış arteriyasının lokal stenozu (ox 5) görüntüyə gəlmişdir.

MSKT müayinə tədbiq edilmiş cərrahi və ya konservativ müalicənin monitorinqini aparmaq məqsədi ilə tədbiq olunmalıdır. Çünki kontrastlı MSKTA tədbiq edilən cərrahi korreksiyanın adekvatlığını təyin edə bilən az sayda qeyri – invaziv diaqnostik üsullardan biridir.

Digər üsullarda olduğu kimi, kontrastlı MSKT nin də özünə məxsus məhdudiyyəti mövcuddur: bəzi hallarda damar divarında olan aterosklerotik düyünlərin xüsusiyyətindən asılı olaraq damar divarının viziulizasiyası çətinləşə bilir, artefaktlar ortaya çıxır. Bəzən damarları əhatə edən toxuma-

ların görüntüsü olmadığından (ilk növbədə sümüklərin) angioqrammanın interpretasiyası çətinləşir. Belə hallarda oynaq yarıqlarını orientir kimi götürürdük.

Qeyd olunan cüzi çətinliklərə baxmayaraq MSKT-nin xəstə üçün qeyri–invaziv, təhlükəsiz olması, müayinə üçün hazırlığın tələb olmaması, kontrast maddəyə qarşı ciddi reaksiya yaranmaması və yüksək diaqnostik dəqiqliyi onu aşağı ətrafın arteriyalarının okklyuziv xəstəliklərinin diaqnostikasında və tədbiq edilən müalicənin monitorinqində əvəzolunmaz müayinə üsulu edir. Digər tərəfdən angioqrammaları kollegial tərzdə təhlil edərək şua–diaqnostika mütəxəssisi ilə birgə digər klinisistlərin (cərrah, terapevt və b.) müzakirədə iştrak etməsi MSKTA nın əvəzolunmaz üstünlüklərindən sayılmalıdır.

Nəticələr:

1.Aşağı ətraf arteriyalarının okklyuziv xəstəliklərində tədbiq etdiyimiz nəticəsi 5 balla ölçülən kontrastlı multispiral kompyüter tomoqrafiya damar şəbəkəsində mövcud ola bilən okkluzion- daralma proseslərinin lokalizasiyasını, inkişaf səviyyəsini, onların yayılma məsfəsini təyin etməklə bərabər kollateral damarlanmanın vəziyyətini dəqiqliklə təyin edə bilir.

2.Kontrastlaşma ilə aparılan MRT müayinəsi vasitəsi ilə aşağı ətraf arteriyalarının mənfəzində mövcud olan patoloji dəyişikliklər 89% xəstələrdə damarların mənfəzinin müxtəlif dərəcədə daralması, 95% halda onların konturlarının qeyri-düzgün şəkil alması və 96% halda kollateral damar şəbəkəsinin görüntülərinin müxtəlif intensivlikdə olması ilə xarakterizə edilir.

3.Aşağı ətraf damarlarında baş verən aterosklerotik proseslərdə 92% halda damar boyu onun mənfəzində çoxsaylı "dolma" defektləri və 97% halda müxtəlif intensivlikdə yaranan kollateral şəbəkələr görüntüyə gəlirlər.

4.Kontrastlı MRT müayinəsində obliterasiyaedici tromboangitlər üçün magistral arteriyaların keçiriciliyinin 98% halda normal olması, 96% halda həmin damarların distal hissələrində diffuz zədələnmənin və ətrafında kiçik qıvrımlı kollateralların olması xarakterdir. Qeyri-spesifiki aorta-arteriitlərdə 89,5% halda patoloji proses seqmentar xarakter daşıyaraq 96% halda magistral damarların ağzında və proksimal hissələrində qeyd edilir; belə proseslərdə 98% halda kifayət dərəcədə inkişaf etmiş kollateral şəbəkə mövcud olur.

5.Aşağı ətrafların arteriyalarının obliterrasiyaedici xəstəliklərində aparılan konservativ müalicənin effektliliyi kontrastlı MRT müayinəsində ilkin müyinədən fərqli olaraq kollateral damar şəbəkəsinin görüntüsünün intensivliyinin artması və kapillyarların qıvrımlığının düzlənməsi ilə özünü göstərir. Cərrahi əməliyyatlardan sonra qoyulan şuntların və protezlərin dəqiq vizualisasiyası və onların keçiriciliyinin adekvat olmasını kontrastlı MRT vasitəsi ilə 100% halda dəqiqliklə təyin etmək mümkündür.

6.Tətbiq etdiyimiz modifikasiya olunan kontrastlı MRT müayinəsinin aşağı ətrafların arteriyalarının obliterrasiyaedici xəstəliklərində diaqnostik dəqiqliyi 98,5±1,3%, həssaslığı 99±1,5% və spesifikliyi 86±1,2% təşkil edir.

ƏDƏBİYYAT

1.Асланов А.Д., Логвина О.Е., Куготов А.Г. и др. Опыт лечения критической ишемии нижних конечностей на фоне диффузного поражения артерий // Ангиология и сосудистая хирургия, 2012, №4, с.125-127

2. Гавриленко А.В., Егоров А.А., Молокопой С.Н., Мамухов А.С. Методы хирургического лечения больных облитерирующими заболеваниями артерий нижних конечностей с поражением дистального русла (часть I) // Ангиология и сосуд. хирургия, 2011,№2,с.121-125

3.Синицын В.Е., Глазкова М.А., Мершина Е.А., Архипова И.М. Возможности снижения лучевой нагрузки при проведении МСКТ коронарографии: использование адаптивной статистической итеративной реконструкции // Ангиология и сосуд. хирургия, 2012, №3, с.44-49

4.Michiels J.J., Moosdorff W., Maasland H. et al. Duplex ultrasound, clinical score, thrombotic risk, and D-dimer testing for evidence based diagnosis and management of deep vein thrombosis and alternative diagnoses in the primary care setting and outpatient ward // International Angiology, 2014, v. 33(1), p.1-19

5.Староверов И.Н., Лончакова О.М., Лавлинский С.Н. Лучевые методы диагностики ложных аневризм анастомозов после реконструктивных операций на магистральных артериях // Ангиология и сосудистая хирургия, 2012, том 18, №1, с. 45-49

6.Соколович А.Г., Мызников А.В., Москов Д.В. Ультразвуковая визуализация подколенно-берцового артериального сегмента // Ангиология и сосудистая хирургия, 2003, том 9, №4, 58-65

7.Arslan C., Altan H., Akgün Ö. et al Trace elements and toxic heavy metals play a role in Buerger disease and atherosclerotic peripheral arterial occlusive disease // International Angiology, 2010, v.29(6), p.489-95

8.Султанов Т.Л. Осложнения после реконструктивных операций на магистральных артериях нижних конечностей и методы их коррекции // Ангиология и сосудистая хирургия, 2013, ⅦⅠ1, с.124-127

9.Poredoš P., Jezovnik M. K., Kalodiki E. et al Medical management of patients with peripheral arterial disease // International Angiology, 2015, v.34(1), p.75-93

10.Saedon M., Mt-Isa S., Saratzis A., Leung E., Mahmood A. Outcome of open versus endovascular abdominal aortic aneurysm repair in obese patients: a systemic review and meta-analysis // International Angiology, 2015, v.34(1), p.9-15

11.Ferreira J., Canedo A., Graça S. et al Thrombosed popliteal aneurysm - first manifestation of bilateral popliteal entrapment syndrome // International Angiology, 2010, v.29(1), p.83-6

12.Тодуа Ф.И., Кипиани К.Б., Цивцивадзе Г.Б., Данелия З.А. Мультиспиральная компьютерно-томографическая ангиография в диагностике патологий аорты и артерий нижних конечностей // Ангиология и сосудистая хирургия, 2008, том 14, №2, с.37-42

13.Токлуева Л.Р., Балахонова Т.В., Страздень Е.Ю. и др. Возможности инструментальных методов диагностики нестабильных атеросклеротических бляшек каротидных артерий // Ангиология и сосудистая хирургия, 2013, №3, с.37-4

14.Imaging physicians for radiation safety in adult medical imaging: image wisely. [internet] Reston (VA): American College of Radiology; 2010. [2012 Feb 2]. [3 p]. www.imagewisely. org/Imaging-Professionals/Imaging-Physicians aspx CSRT= 10896925032530525091.

15.Berridge D.C., Kessel D.O., Robertson I. Surgery versus thrombolysis for initial management of acute limb ischaemia // Cochrane Database of Systematic Reviews 2013, v .6.

16. Покровский А.В., Кунцевич Г.И., Дан В.Н. и др. Диагностика окклюзирующих поражений артерий верхних конечностей у больных облитерирующим тромбангиитом // Ангиология и сосудистая хирургия, 2003, Т. 9., № 2, с. 86-94.

17. Heijenbrok-Kal M.H., Kock M.C., Hunink M.G. Lower extremity arterial disease: multidetector CT angiography // Meta-analysis Radiology, 2007, v.245(2), p.433-439

18. Met R., Bipat S., Legemate D.A. et al Diagnostic performance of computed tomography angiography in peripheral arterial disease: a systematic review and meta-analysis // JAMA, 2009, v.301(4), p.415-424

19. Sun Z. Diagnostic accuracy of multislice CT angiography in peripheral arterial disease // Journal of Vascular and Interventional Radiology, 2006, v.17(12), p.1915-1921

Резюме

Роль мультиспиральной компьюторно- томографической ангиографии в диагностике, выборе тактики лечения и мониторинге результатов лечения у больных с окклюзируюими заболеваниями артерий нижных конечностей.

Н.Р.Хасаева

За период 2008-2014 обследованы 165 больных с окклюзирующими заболеваниями артерий нижних конечностей с применением мультиспиральная компьюторно-томографическая ангиография (МСКТА). МСКТ проводилась на мультиспиральном компьютерном томографе. наиболее часто- 122 больных (74%) среди окклюзирующих поражений сосудов нижних конечностей встречался атеросклероз. Неспецифический аорта-артериит выявлен у 4 (2,4%)-х больных, облитирурующий тромбаангит– 6(3,6%), аневризм артерий -у 5(3%), экстравазальная компрессия- у 3 (1,8%) и а терослероз+сахарный диабет –у 15(9%) больных.Проведенные исследовании доказали, что контрастная МСКТА эффективна не только в качественной оценке стенозов и определении выраженности коллатерального кровотока,но и в мониторинге лечения. Быстрое и качественное получение изображения артериального русла большой протяженности и возможность оценки отдельных сосудов в различных плоскостях позволили успешно использовать данную методику в выборе метода оперативного вмешательства и определении эффективности консервативной терапии. Эта методика позволяет осуществлять подбор сосудистых протезов соответствующих диаметров для пораженных артериальных сегментов, а также наглядно демонстрирует результаты

выполненных реконструктивных операций, отражает функционирование наложенных шунтов и протезов. Наглядность получаемых изображений дает возможность в трудных диагностических случаях принимать коллективное решение специалистов лучевой диагностики и врачей-ангиохирургов.

Summary

Role of multislicecomputed tomography-assisted angiography in diagnostics, treatment modality selection, and monitoring of treatment results in the patients with lower extremity arterial occlusive disease

N.R.Khasayeva

During the period from 2008 till 2014, we examined 165 patients with lower extremity arterial occlusive disease using multislicecomputed tomography-assisted angiography (MSCTA). MSCT was performed on the multislice CT scan. Atherosclerosis was the most common among lower extremity vessel occlusive disorders in 122 patients (74 %).Non-specific aortoarteriitis was found in 4 (2.4 %) patients, thromboangiitisobliterans- in 6 (3.6 %), arterial aneurism- in 5 (3 %), extravasal compression- in 3 (1.8 %), and atherosclerosis + diabetes mellitus- in 15(9 %) patients. Conducted studies proved that contrast-enhanced MSCTA is efficient not only for qualitative evaluation of stenosis and identification of collateral circulation intensity but also for treatment monitoring. Quick and qualitative imaging of long arterial bed and possibility for evaluation of separate vessels in different planes, allowed successful application of this method in the selection of operative intervention method and determination of non-surgical treatment efficiency. This method allows selection of vascular prostheses with appropriate diameter in terms of involved arterial segments, and also exhibits the results of conducted reconstructive operations, reflects function of the bypasses and prostheses. Visibility of the obtained images allows making collective decision of radiologists and angiosurgeonsunder settings of complicated diagnostic cases.

Daxil olub: 23.02.2015

QALXANABƏNZƏR VƏZİNİN ERKƏN MƏRHƏLƏLİ VƏ GİZLİ KLİNİK GEDİŞLİ XƏRÇƏNGİNDƏ KLİNİK - MORFOLOJİ PARALLELLƏR (DİFFERENSİAL-DİAQNOSTİK ASPEKTLƏR)

R.M. Zamanov[1], İ.Ə. Həsənov[2]

M. Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi[1],
Mərkəzi Gömrük Hospitalı[2], Bakı, Azərbaycan

Açar sözlər: qalxanabənzər vəzi; latent karsinoma, preoperasion diaqnostika
Ключевые слова: щитовидная железа, латентный рак, предоперационная диагностика
Key words: thyroid, latent cancer, preoperative diagnosis

Qalxanabənzər vəzinin erkən mərhələli və "gizli" klinik gedişli ("simptomsuz") xərçəng təsadüflərinin diaqnostikası və proqnozlaşdırılması endokrin cərrahiyyədə və onkologiyada həlli çətin məsələlərdəndir. Cərrahi əməliyyata hazırlıq dövründə bu və ya digər diaqnostik alqoritm üzrə planlı tədqiqata baxmayaraq, xəstələrin 92,0-97,0%-də "gizli" (simptomsuz) tireoid xərçəngi və ya bədləşmənin erkən mərhələsini yalnız əməliyyatdan sonrakı morfoloji analizdə təyin etmək mümkün olur [1,2,3]. Ancaq həmin xərçəng təsadüflərinin də 24,0-40,0%-də diaqnoz bilavasitə postoperasion müayinədə yox, yalnız klinik zərurətlə əlaqədar materialların təkrar baxışında və ya retrospektiv təhlil zamanı dəqiqləşdirilir [2,3,4]. Nəticədə də postoperasion dövrdə müalicə taktikasında köklü dəyişiklik zərurəti yaranır, proqnoz isə əhəmiyyətli dərəcədə pisləşir. Bununla əlaqəli, erkən mərhələli və "gizli" (simptomsuz) tireoid xərçəngin mümkün diaqnostik əhəmiyyətli klinik, instrumental və laborator göstəricilərinin sistemləşdirilməsi zərurəti qeyd edilir; morfoloji analizlərə isə xüsusi önəm verilir [3,4,5,6]. Ədəbiyyat təhlilinə əsasən, müvafiq işlər azsaylıdır, onların nəticələri ziddiyyətlidir və

sistemli korrelyasion-statistik təhlil edilməmişdir [6,7,8].

Tədqiqatın **məqsədi** qalxanabənzər vəzinin erkən mərhələli və gizli klinik gedişli ("simptomsuz") xərçəngi xəstələrində bəzi anamnestik, klinik, instrumental, laborator və morfoloji göstəricilərin mümkün diaqnostik əhəmiyyətini aydınlaşdırmaqdır.

Tədqiqatın materiallar və metodları. Tədqiqat kompleks xarakterdə olmuşdur. Ümumi klinik, laborator-hormonal, ultrasəs, kompüter tomoqrafik - rentgenoloji, bəzi xəstələrdə - xüsusi analizlər aparılmışdır.

Cərrahi əməliyyatlar 2000-2012-ci illəri, ümumi müşahidə müddəti isə - 1998-2014-cü illəri əhatə etmişdir.

Seçilmiş 562 xəstənin göstəriciləri təhlil olunmuşdur. Tibbi-bioloji statistik təhlillərin şərtlərini nəzərə alaraq [9,10], natamam və qeyri-müəyyən tarixçəli xəstələr tədqiqata daxil edilməmişdir. 2 klinik qrup ayırd edilmişdir: 1) "müqayisə qrupu" - "xoşxassəli" kimi qiymətləndirilmiş tireoid adenoma, zob və tireoidit xəstələri (200 xəstə) və 2) "əsas klinik qrup" - yalnız postoperasion morfoloji müayinədə diaqnozu dəqiqləşdirilmiş, erkən mərhələli və klinik əlamətlərsiz tireoid xərçəng xəstələri (342 xəstə; cədvəl 1).

Cədvəl 1

Qalxanabənzər vəzi düyünləri olan xəstələrin yaş və cins göstəriciləri

SN	Yaş intervalları	Qadın (mütləq say; %)		Kişi (mütləq say; %)		Cəmi (mütləq say; %)	
		ümumi	QVD	ümumi	QVD	ümumi	QVD
1	12-20	70	17	60	8	130	25
2	21-30	575	40	290	16	865	56
3	31-40	1908	122	467	35	2375	157
4	41-50	2002	137	522	31	2524	168
5	51-60	1400	60	259	21	1659	81
6	61-70	850	42	101	11	951	53
7	71 və yuxarı	62	12	90	10	152	22
Yekun		6867	430	1789	132	8656(100,0%)	562(6,5%)

Qeyd: "ümumi" – qalxanabənzər vəzi patologiyaları; QVD – qalxanabənzər vəzi düyünlü böyümələri

Klinik, diaqnostik göstəricilərin kəmiyyət təhlili qeyri-parametrik statistika üsulları ilə, 2 və ya 3 göstəricini qarşılaşdırmaqla, korrelyasiya əmsalını (r) və Pirson kriterisini (χ^2) hesablamaqla P=0,95 ($p<0,05$) etibarlılıq səviyyəsində, "Statistica v.6" və Microsoft Excel proqramlar paketi əsasında aparılmışdır [9,10].

Nəticələr və onların müzakirəsi. Ümumilikdə, hər iki klinik qrup xəstələrində tireoid patologiyanın bu və ya digər əlamətləri, anamnezə əsasən, bir neçə aydan 22 ilə qədər müddətdə mövcud olmuşdur(cədvəl 2).

Cədvəl 2

Anamnez müddətinə və anamnez medianasına görə xəstələrin paylanması

SN	Klinik qrup	Diaqnoz qrupu	Anamnez müddəti (min-max)	Anamnez medianası (M)
I	"Müqayisə"	Zob	1,1-22,0	3,3
		Adenoma	0,7-6,6	9,0
		Qeyri-autoimmun tireoidit	0,8-12,9	7,8
		Autoimmun tireoidit	1,0-7,7	3,9
II	"Əsas"	Karsinoma (summar)	2,9-5,1	2,2

Göründüyü kimi, erkən mərhələli və ya gizli klinik gedişli tireoid xərçəng xəstələrində həkimə müraciətə qədərki dövrdə klinik təzahürlər "silinmiş" vəziyyətdədir, xəstələr bunlara, demək olar ki, əhəmiyyət vermir. Nəticədə də anamnez müddəti (min-max) daha qısa və "anamnez medianası" göstəricisi (M) isə- daha kiçikdir. Xəstələr "cins" əlamətinə görə sistemləş- dirilmişdir. Qadınların sayca çoxluğu hər iki klinik qrupda qeyd edilsə də, "əsas" klinik qrupda, yəni erkən mərhələli və ya gizli gedişli karsinoma xəstələri arasında qadınların miqdar üstünlüyü daha qabarıqdır. Belə ki, əsas klinik qrupdakı 342 xəstədən 283-ü qadınlardır (82,7%; cədvəl 3).

Cədvəl 3

Qalxanabənzər vəzinin "hüdudi bədlikli böyüməsi (G0; C-r in situ)", erkən mərhələli və "gizli" klinik gedişli xərçənginin kəmiyyət səciyyəsi (xəstələrin sayı)

SN	Yaş intervalları	Tireoid patologiya qrupu						Cəmi n=342 (100,0%)	
		"hüdudi bədlikli böyümə (G0; C-r in situ)" n=104		Erkən mərhələli xərçəng, n=218		"gizli" klinik gedişli xərçəng n=20			
		qadın	kişi	qadın	kişi	qadın	kişi	qadın	kişi
1	12-20	4	2	3	3	-	-	7	5
2	21-30	14	3	11	6	1	-	26	9
3	31-40	21	3	43	9	8	2	72	14
4	41-50	24	3	49	5	4	2	77	10
5	51-60	13	1	38	6	1	1	52	8
6	61-70	9	-	33	6	-	-	42	6
7	71 və yuxarı	4	3	3	3	-	1	7	7
Yekun		89	15	180	38	14	6	283 (82,7%)	59 (17,3%)

"Yaş" parametrinə görə sistemli təhlil göstərir ki, "müqayisə" qrupundan fərqli olaraq, erkən mərhələli və gizli klinik gedişli tireoid karsinomada, xəstələrin mütləq əksəriyyəti fəal yaş dövründədir, yəni 31-55 yaşlar arasındadır (cədvəl 3).

"Gizli karsinoma mövcudluğu" (maliqnizasiya) ilə bir sıra klinik-palpator əlamətlər və ultrasəs müayinə nəticələri arasında ikifaktorlu qeyri-parametrik statistik təhlil aparılmışdır. Nəticədə, xəstələrdə aşağıdakı əlamətlərin "erkən mərhələli və (və ya) gizli gedişli tireoid xərçəng" ilə nizamlı korrelyasion əlaqəsi tapılmamışdır və bunların əməliyyata qədərki mərhələdə diaqnostik əhəmiyyəti müəyyən edilməmişdir:

- orqanın böyümə xarakteri: düyünlü, diffuz və ya qarışıq düyünlü-diffuz;
- orqanın palpator böyümə dərəcəsi;
- düyünlü böyümələrin sayı: tək (solid) və ya çox (multinodulyarlıq);
- düyünlü böyümələrin ölçüsü;
- ultrasəs müayinəsində böyümüş zonanın homogenliyi (p>0,11, r=0,013) və ya heterogenliyi (p>0,06, r=0,029);
-xəstələrdə hipertireod (p>0,11, r=0,019), eutireoid (p>0,07, r=0,011) və ya hipotireoid (p>0,06, r=0,14) klinik vəziyyət.

Xüsusi qeyd edirik ki, orqanda düyünlərin təkliyi və ya çoxlu sayı ilə "maliqnizasiya" (gizli karsinoma) arasında statistik-etibarlı əlaqələr tapılmamışdır. Digər sözlərlə, hesab edirik ki, orqanda düyünlərin sayı yox, onların klinik-bioloji mahiyyəti (xoş və ya bəd) daha əhəmiyyətlidir. Bu qənaətiniz son illərin müvafiq ədəbiyyat məlumatları ilə də əsaslandırılır [6,7,8].

Qan zərdabında "tireoid panel" göstəricilərinin əksəriyyətinin də əməliyyata qədərki mərhələdə erkən və gizli gedişli xərçəng diaqnostikasında həlledici rolunun olmadığı aydınlaşdırılmışdır. Belə ki, klinik əlamətlərinə və tireoid panel göstəricilərinə görə, orqanın erkən və ya gizli xərçəngi xəstələrində həm "hiper-", həm də "eu- və hipo-tireoid vəziyyət" mümkündür. Bununla belə, əksər hallarda eurtireoz status əlamətləri daha qabarıqdır (342 xəstədən 192-də; 56,1; şək 1).


Postoperasion-histoloji təhlillər əsas kontingent xəstələrini aşağıdakı kimi qruplaşdırmağa imkan vermişdir (cədvəllər 4,5,6).

Əməliyyata qədər orqanın düyünlü böyümələrinin punksiya yaxmalarının sitoloji təhlil rəyləri də yenidən araşdırılmış, bunlar əməliyyatdan sonrakı planlı histoloji analiz ("qızıl standart") nəticələri ilə tutuşdurulmuşdur. Bu yolla həmin əlamətlərin diaqnostik əhəmiyyəti müəyyən dərəcədə sistemləşdirilmişdir.

Xəstələrin anamnestik, klinik, laborator morfoloji göstəricilərinin kompleks təhlili bizə belə bir nəticəyə gəlməyə əsas verir ki, aşağıdakı göstəricilər diaqnostikada bu və ya digər dərəcədə yönləndirici əhəmiyyətə malikdir:

-qadın cinsi;
-nəsildə tireoid şiş mövcudluğu ("irsi meyillilik");
-orqanın bir payının və ya bir pay+boğaz hissənin lokal böyüməsi;
-ultrasəs, energetik-dopplerografik olaraq qeyri-müəyyən sərhədli düyün (böyümə sahəsi);

-monositlərdə və danəli leykositlərdə sərbəst və peroksid oksidləşmə lipidlərinin 3,0 baldan yüksək sitokimyəvi miqdarı;
-punksion sitoloji müayinədə nüvə polimorfizmi, şırımlı/paycıqlı nüvələr;
-sitoloji müayinədə 4,0‰-dən yüksək proliferativ fəallıq;
-sitoloji müayinədə hüceyrələrin 50,0%-dən çoxunda nüvə/sitoplazma nisbətinin 0,8-dən yüksək olması.



Şək.1. Qalxanabənzər vəzi sükunətdə olan (G0, C-r in situ), erkən mərhələli və "gizli" klinik gedişli xərçəngində orqanın klinik-funksional statusu; n=342

Cədvəl 4
Qalxanabənzər vəzinin hüdudi bədlikli böyüməsinin (G0; C-r in situ) patologiya qrupu üzrə paylanması (xəstələrin sayı)

SN	Yaş intervalları	Tireoid patologiya qrupu						Cəmi n=104	
		"atipik adenoma"		parenximanın məhdud ocaqli maliqnizasiyası		"atipik adenomatoz zob düyünü"			
		qadın	kişi	qadın	kişi	qadın	kişi	qadın	kişi
1	12-20	2	1	2	1	-	-	4	2
2	21-30	11	1	2	1	1	1	14	3
3	31-40	11	1	8	1	2	1	21	3
4	41-50	9	2	13	-	2	1	24	3
5	51-60	5	-	6	-	2	1	13	1
6	61-70	2	-	5	-	2	-	9	-
7	71 və yuxarı	-	-	2	1	2	2	4	3
Yekun		40	5	38	4	11	6	89	15
		45 (43,3%)		42 (40,4%)		17 (16,3%)		104 (100,0%)	

Cədvəl 5
Qalxanabənzər vəzinin erkən mərhələli xərçənginin patologiya qrupu üzrə paylanması (xəstələrin sayı)

SN	Yaş intervalları	Histoloji tip						Cəmi n=218	
		follikulyar		papillyar		medullyar/ parafollikulyar			
		Q	K	Q	K	Q	K	Q	K
1	12-20	1	1	1	1	1	1	3	3
2	21-30	5	3	4	1	2	2	11	6
3	31-40	22	5	18	3	3	1	43	9
4	41-50	26	4	23	1	-	-	49	5
5	51-60	20	5	18	1	-	-	38	6
6	61-70	14	5	19	1	-	-	33	6
7	71 və yuxarı	-	1	3	2	-	-	3	3
Yekun		88	24	86	10	6	4	180	38
		112		96		10		218 (100,0%)	

Qeyd: burada və sonrakı cədvəldə - "Q" – qadın; "K" - kişi

Cədvəl 6

Qalxanvabənzər vəzinin "gizli" klinik gedişli xərçənginin patologiya qrupu üzrə paylanması (xəstələrin sayı)

SN	Yaş inter-valları	Histoloji tip								Metastaz		Cəmi (n=20)	
		Follikul-yar		Papillyar		Medullyar/ parafollikulyar		"Anaplastik"					
		Q	K	Q	K	Q	K	Q	K	Q	K	Q	K
1	12-20	-	-	-	-	-	-	-	-	-	-	-	-
2	21-30	-	-	-	-	1	-			-	-	1	-
3	31-40	2	1	2	1	1	-	2	-	1	-	8	2
4	41-50	2	1	1	-	-	1	1	-	-	-	4	2
5	51-60	-		-				1		-	1	1	1
6	61-70			-				-		-	-	-	-
7	71 və yuxarı			-				-	1	-	-	-	1
Yekun		4	2	3	1	2	1	4	1	1	1	14	6
		6		4		3		5		2		20,0(100,0%)	

Məlumat bazanın retrospektiv təhlili əsasında D.O. Anumba et al. [11] tərəfindən hestasiya yaşı 32 həftədən az olan şübhəli hestasiyalı AH ilə 560 qadınlarda testlərin proqnostik dəyəri müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, gələcəkdə eklampsiyanın inkişafı üçün AT-in və qan serumunda sidik turşusunun təyini proqnostik əhəmiyyət kəsb edir. Müəlliflər hesab edir ki, proteinuriyasız hestasiyalı AH ilə hamilə qadınlarda alanintransaminaza, trombositlər kimi digər parametrlərin təyinində ehtiyac yoxdur, çünki onlar heç bir dəyər təşkil etmir. Eyni zamanda müəyyən olunmuşdur ki, AH ilə hamilə qadınlarda sidik turşusunun miqdarı 357 μmol/l-ə bərabər ya yuxarı olanda embrional nəticə ilə yox, proteinuriya və DAT-lə bağlıdır [22]. M. Mayret-Mesquiti et al. [19] hamiləliyin hipertonik pozulmaların əsasında olan mexanizmlər haqqında daha ətraflı məlumat əldə etmək məqsədilə hestasiya yaşı 7 ay olan 27 AH ilə və 47 AH-sız hamilə qadını müayinə etmişlər. Müəlliflər təyin etmişlər ki, AH ilə qadınlarda nəzarət qrupla müqayisədə bədən çəkisinin indeksi (30.4±1.3 kq/m^2 28,3±0,6 kq/m^2 qarşı, p<0,05), triqliseridlər 363±137 mq/dl 263±80 mq/dl qarşı, p<0.01), nitritlər (19,6±5,2 mmol/l 15,2±5,0 mmol/l qarşı, p<0,01) və qlükoza (92±25 mq/dl 81±10,8 mq/dl qarşı, p<0,05) artmışdır. Triqliseridlər və xolesterinin səviyyələri arasında, oksid azotun heyli azalmış sintezin və qlükozanın artmış sıxlığı arasında dürüstlü mənfi korrelyasiya (p<0.018 və p<0,002, müvafiq olaraq) qeyd edilmişdir. Bundan əlavə, anamnezdə 2 tip şəkərli diabetlə və hestasiyalı AH inkişafı ilə, xüsusilə preeklampsiyaya qarşı, möhkəm assosiasiya aşkar edilmişdir. Müəlliflər hesab edirlər ki, AH inkişaf riskini müəyyən etmək üçün, xüsusən ailəvi 2 tip şəkərli diabeti olan, hamilə qadınlarda plazma nitritləri və serum triqliseridlərin təyini yararlıdır [19].

Beləliklə, AH ana və döl üçün artırılmış riskdir və onların vəziyyətinin əsaslı müşahidə aparmaq üçün səbəb olur.

ƏDƏBİYYAT

1. Авдеева М.В., Щеглова Л.В. Диагностика артериальной гипертензии во время беременности // Сердце, 2006, №4, Т28, с.187-189.
2. Баранова Е.И., Большакова О.О. Прогностическое значение высокого артериального давления в период беременности // Артериальная гипертензия, 2008, Том 14, №1, с.22-26.
3. Верткин А.Л., Тополянский А.В., Талибов О.Б. и др. Место современных бета-адреноблокаторов в лечении артериальной гипертензии и ишемической болезни сердца / Методические рекомендации. М., 2005, 28 с.
4. Диагностика и лечение сердечно-сосудистых заболеваний при беременности. Клинические рекомендации // Кардиоваскулярная терапия и профилактика, 2010, №9(6), 48 с.
5. Добровольская И.В. Клиническое значение комплексной оценки состояния матери и плода при артериальной гипертензии в прогнозировании перинатальных исходов: Автореф. Дис. … канд. мед. наук. М., 2011, 136 с.
6. Лечебно-диагностическая тактика ведения беременных с артериальной гипертонией в России. М.: Рашин Продакшн, 2007, 136 с.
7. Рогоза А.Н., Агальцов М.В., Сергеева М.В. Суточное мониторирование артериального давления: варианты врачебных заключений и комментарии. Н. Новгород: ДЕКОН, 2005, 64 с.
8. Синицын С.П., Чулков В.С., Вереина Н.К. Артериальная гипертензия у беременных с факторами тромбогенного риска: особенности течения различных клинических форм,

состояние органов-мишеней и показатели гемостаза // Артериальная гипертензия, 2009, Т15, №5, с.581-584.

9. Стрюк Р.И., Бакалов С.А., Бунин Ю.А. и др. Диагностика и лечение сердечно-сосудистых заболеваний при беременности. Российские рекомендации // Кардиоваскулярная терапия и профилактика, 2010, № 9(6). Прил. 2.

10. Шехтман М.М., Козинова О.В. Гипертоническая болезнь и беременность // Consilium medicum // Гинекология, 2005, Т.11 №5, с. 19-21.

11. Anumba D.O., Lincoln K., Robson S.C. Predictive value of clinical and laboratory indices at first assessment in women referred with suspected gestational hypertension // Hypertens Pregnancy, 2010, v.29, No2, p.163-179.

12. Arnadottir G.A., Geirsson R.T., Arngrimsson R., Jonsdottir L.S., Olafsson O. Cariovascular death in women who had hypertension in pregnancy: a case-control study // BJOG, 2005, v.112, p.286-292.

13. Bamfo J., Kametas N.A., Chambers J.B., Nicolaides K.N. Maternal cardiac function in fetal growth-restricted small-for-gestational age pregnancies // Ultrasound Obstet. Gynecol., 2007, v.29, p. 51-57.

14. Berks D., Steegers E.A., Molas M. Resolution of hypertension and proteinuria after preeclampsia // Obstet Gynecol., 2009, v.114, No6, p.1307-1314.

15. Brown M.A., Roberts L.M., Mackenzie C. et al. A prospective randomized study of automated versus mercury blood pressure recordings in hypertensive pregnancy (PRAM Study) // Hypertens Pregnancy, 2012, vol.31, No1, p.107-119.

16. Callaway L.K., O'Callaghan M., McIntyre H.D. Obesity and the hypertensive disorders of pregnancy // Hypertens Pregnancy, 2009, v.28, No4, p.473-493.

17. Lowe S.A., Brown M.A., Dekker G. et al. Guidelines for the management of hypertension disorders of pregnancy, 2008, Society of Obstetric medicine of Australia and New Zealand // Aust N Z J Obstet Gynaecol., 2009, v.49, No3, p. 242-246.

18. Madi J.M., Araújo B.F., Zatti H. et al. Chronic hypertension and pregnancy at a tertiary-care and university hospital // Hypertens Pregnancy, 2012, v.31, No3, p.350-356.

19. Mayret-Mesquiti M., Pérez-Méndez O., Rodríguez M.E. et al. Hypertriglyceridemia is linked to reduced nitric oxide synthesis in women with hypertensive disorders of pregnancy // Hypertens Pregnancy, 2007, v. 26, No4, p.423-431.

20. McDonald S.D., Malinowski A., Zhou Q. et al. Cardiovascular sequelae of preeclampsia /eclampsia: a systematic review and meta-analyses // Am Heart J., 2008, v.156, No5, p.918-930.

21. Meloni P., D'Angeli I., Piazze J. et al. First trimester PAPP-A levels associated with early prediction of pregnancy induced hypertension // Hypertens Pregnancy, 2009, v.28, No4, p.361-368.

22. Nabhan A.F., Elsedawy M.M. Tight control of mild-moderate pre-existing or non-proteinuric gestational hypertension // Cochrane Database Syst Rev., 2011, v.7

23. Poon L.C., Kametas N.A., Valencia C. et al. Hypertensive disorders in pregnancy: screening by systolic diastolic and mean arterial pressure at 11-13 weeks // Hypertens Pregnancy, 2011, v.30, No1, p.93-107.

24. Report of the National High Blood Pressure Education program. Working group report on high blood pressure in pregnancy // Am J Obstet Gynecol., 2000, v.183, p.1-22.

25. Tejera E., Areias M.J., Rodrigues A.I. et al. Blood Pressure and Heart Rate Variability Complexity Analysis in Pregnant Women with Hypertension // Hypertens Pregnancy, 2012, vol.31, No.1, p. 91-106.

26. Voigt M., Straube S., Zygmunt M. et al. Obesity and pregnancy - a risk profile // Z. Geburtshilfe Neonatol., 2008, v.212, №6, p. 201-205.

27. Wloch S., Bodzek P., Czuba B. et al. Doppler study of the peripheral flows in early gestation // J. Physiol. Pharmacol., 2008, v.4, No59, p.77-85.

Резюме

Критерии, факторы риска развития синдрома артериальной гипертензии при беременности и тактика ведения беременных

Л.И.Рагимова

В статье представлены современные литературные данные исследования критериев, факторов риска развития АГ у беременных и рассмотрена тактика их ведения. Артериальную

гипертензию у беременных в настоящее время можно рассматривать не только как транзиторное повышение АД, но и как важный прогностический фактор. Это заболевание представляет собой повышенный риск для матери и плода и является причиной для тщательного наблюдения за их состоянием.

Summary

Criteria, risk factors for the syndrome of hypertension in pregnancy and tactics pregnant

L.I.Ragimova

The article presents the current research literature data criteria, risk factors for hypertension in pregnant women and is considered a tactic within their jurisdiction. Hypertension in pregnant women can now be seen not only as a transient increase in blood pressure, but also as an important prognostic factor. This disease is an increased risk for mother and fetus and is the reason for the close monitoring of their condition.

Daxil olub: 15.04.2015

YÜKSƏK ƏMƏLİYYAT-ANESTEZİOLOJİ RİSKƏ MALIK ŞƏXSLƏRDƏ QASTRODUODENAL QANAXMALAR ZAMANI ANTIOKSIDANT-QLUTATİONUN QARACİYƏRDƏKI BƏRPA PROSESLƏRİNƏ TƏSİRİ

Ş.İ.Rəhimli

Azərbaycan Tibb Universiteti, III Cərrahi xəstəliklər kafedrası. Bakı

Açar sözlər: yüksək əməliyyat-anesteziоloji riski, qastroduodenal qanaxmalar, qaraciyər, antioksidant-qlutation

Ключевые слова: высокий операционно-анестезиологический риск, гастродуоденальные кровотечения, печень, антиоксидантный глютатион

Keywords: high operational and anesthetic risk of gastroduodenal bleeding, liver antioxidant glutathione

Təbabətin yüksək sürətlə inkişaf etməsinə, mədənin və onikibarmaq bağırsağın (OBB) xora xəstəliyinin uğurlu konservativ müalicə imkanlarına baxmayaraq, qastroduodenal qanaxmalı xəstələrin sayı artmaqda davam edir, əməliyyat sonrası fəsadların sayının və ölüm hallarının azalmasına meyllilik hiss olunmur. Yanaşı xəstəlikləri olan xəstələrdə xoralı qanaxmanın patogenezində "qarşılıqlı ağırlaşdırma sindromu" aparıcı rol oynayır [4,14]. M. B. Кукош və həmm. [24] fikrincə "qarşılıqlı ağırlaşdırma sindromu"nun əhəmiyyət daşıyan faktorları qan itkisinin dərəcəsi və xüsusilə qanaxmadan sonrakı anemiyanın davametmə müddətidir (əməliyyatın aparılma müddəti). Bununla əlaqədar olaraq, oksidativ stress (OS) nəzəriyyəsinə böyük əhəmiyyət verilir. Oksidativ stress- elə bir patoloji vəziyyətdir ki, bu zaman oksidativ proseslər orqanizmin antioksidant müdafiə (AOM) sistemini üstələyir [1,5,11[.

Orqanizmdə sərbəst radikal reaksiyalarının membranların lipid tərkibini, keçiriciliyini və bir sıra biosintetik prosesləri tənzimləmək üçün zəruri olan fizioloji səviyyəsi mövcuddur. Tənzimləyici sistemlərin pozulması oksigenin aktiv formalarının normadan artıq generasiyasına, OS-in inkişaf etməsi ilə antioksidant sistemin tormozlanmasına gətirib çıxarır, nəticədə ən mühüm molekullar – nuklein turşuları, zülallar və lipidlər zədələnir. OS hüceyrə membranlarının keçiriciliyinin dəyişməsinin, membrana bağlı fermentlərin fəaliyyətinin patogenetik əsasını təşkil edir və son nəticədə hüceyrə metabolizminin ağır pozğunluqlarına gətirib çıxarır [1,7,12,16,17]. Orqanizmdə LPO-nun ilkin məhsullarının (DK) toplanması sitoliz sindromunun meydana çıxmasına səbəb olur. Qanda LPO-nun ikincili məhsullarının, xüsusilə malon dialdehidinin (MDA) miqdarının artması məlum yaz zəifliyi sindromunun formalaşmasına gətirib çıxara bilər və yəqin ki, xora xəstəliyinin (XX) yaz-payız dövrlərində kəskinləşməsini bununla izah etmək olar. Peroksid oksidləşməsinin son məhsulları- şiff əsasları kifayət qədər sıx strukturlar olmaqla, bütün orqan və toxumalarda mikrosirkulyasiyanı pozur [18]. Orqanizmdə LPO məhsullarının (DK, MDA və s.) toplanması ona gətirib çıxarır ki, hüceyrə membranlarının keçiriciliyinin yüksəlməsi və zədələnməsi, MSQ hüceyrələrinin bölünməsinin

və regenerasiyasının tormozlanması baş verir[13].

LPO məhsullarının müxtəlif toxumalarda, plazmada və eritrositlərdə toplanması arasında sıx korrelyasiya (asılılıq) olduğu aşkar edilmişdir ki, bu da digər toxumalarda lipidlərin sərbəst radikal oksidləşməsinin intensivliyinə nəzarət etmək üçün qandan istifadə edilməsinə imkan verir. Mədənin və onikibarmaq bağırsağın xora xəstəliyində və onun ağırlaşmalarında LPO-nun patogenetik rolu sübut edilmişdir [2,3,6,11,12,16, 18,19, 20, 21,22].

Bununla yanaşı orqanizmdə antioksidanlar mövcuddur və onlar fermentativ (superoksid-dismutaza, qlutationperoksidaza, qlutationre-duktaza, katalaza) və qeyri-fermentativ- aşağı molekullu antioksidantlara (qlutation, E vitamini, C vitamini, P-karotin, likopin, D vitamininin kiçik dozaları, uratlar, bilirubin, flavonoidlər) bölünür [8,9].

Bu sistemin komponentləri bilavasitə OAF ilə, yəni müxtəlif biopolimerlərin oksidləşdirici modifikasiyasını törədə bilən faktorlarla qarşılıqlı təsirdə olur. Oksigenin aktiv formalarından hüceyrələrin müdafiə olunmasında əsas rol qlutationa məxsusdur. O, hüceyrələrin həll olan hissəsində- hialoplazmada, mitoxondrilərin matriksində, karioplazmada əsas antioksidantdır [23,24,25].

Qlutation reduksiya olunmuş (GSH) və oksidləşmiş formalarda (GSSG) olur. Plazmanın reduksiya olunmuş qlutationu (GSH)- qaraciyərdən, həmçinin öddən, bağırsaqdan, eritrositlərdən və digər hüceyrələrdən çıxmış qlutationdur. W.A. Kleinman et. al. [27] fikrincə GSH qaraciyərdən ilk növbədə plazma ilə yox, eritrositlərlə daşınır. GSH-ın toxumalarda dövr etməsi plazmada olduğundan daha yavaş baş verir. GSH qandan hepatositlər, limfoid toxuma, ağciyərlər, ürək tərəfindən pis olsa da, hər halda tutulur. Əgər toxumalarda GSH-ın konsentrasiyası yüksəlirsə- bu onun resintezinin nəticəsidir [18]. Hidrogen peroksidin və üzvi hidroperoksidlərin reduksiya olunması OS-in aradan qalxmasının əsasını təşkil edir. Hüceyrədən kənar GSH plazmatik membranın xarici səthinin SH-qruplarını oksidləşmədən və kimyəvi rabitəyə girməkdən qoruyur, bununla da müxtəlif membran proseslərinin həyata keçməsini təmin edir [16]. Metabolizmdən başqa, orqanizmdə GSH, GSSG vəGSR molekullarının hüceyrədən xaric edilmə prosesi mövcuddur.Bir çox hüceyrələrdən: hepatositlərdən, əzələ hüceyrələrindən, limfoid fibroblastlardan, makrofaqlardan və digərlərindən nəql olunma baş verir.

Qlutationtransferazalar (QT) - GSH-ı hidrofob maddələrlə konyuqasiya üçün, onların reduksiyası və izomerləşməsi üçün istifadə edən çoxfunksiyalı zülallar qrupudur [20]. QT başlıca olaraq sitoplazmada, ondan az miqdarda nüvədə və mitoxondrilərdə olur. Membranlarla birləşmiş QT vardır. O, endoplazmatik torun, mitoxondrilərin, peroksisomaların membranlarında və plazmatik membranda yerləşir. DNT-ni, mitoxondriləri və digər həyati mühüm hüceyrə mərkəzlərini zərərli maddələrin təsirindən qorumaqla, QT, hüceyrənin və bütövlükdə orqanizmin davamlılığını yüksəldir [23]. QT qaraciyərdə, böyrəklərdə, mədə-bağırsaq traktında, xayalarda ən yüksək, eritrositlərdə isə ən aşağı aktivliyə malikdir. QT hidroperoksidləri reduksiya edir [15,19], hüceyrələrin hidrogen-peroksid (H_2O_2)tərəfindən induksiyalaşdırılan apoptozunu aşağı salır [19], DNT-nin reparasiyasında, eykozanoidlərin metabolizmində iştirak edir, disulfidləri reduksiya edir, lakin o, "arzuolunmaz reaksiyalar" törədə bilər, məsələn, alkilləşdirici maddələrin aktivləşməsinə [1,3] və allergik reaksiyaların güclənməsinə səbəb ola bilər [5,6].

Qlutation sisteminin əsas fermenti olan qlutationperoksidaza (QPO) bütün hüceyrələrin sitoplazmasında yerləşir. Mədə-bağırsaq traktı divarının QPO-su qida hidroperoksidləri və ya mədə-bağırsaq traktında ksenobiotiklərdən əmələ gələn hidroperoksidlər üçün güclü baryerdir. Plazma QPO-su bədən (orqanizmin) mayeləri ilə təmasda olan toxumalara: xayalarda, böyrəklərdə, kirpikli və plasentada fəaliyyət göstərir. Katalaza QPO-dan fərqli olaraq yalnız qeyri-üzvi hidrogen-peroksidi reduksiya edir. Bu və bir sıra digər səbəblərə görə o nəticəyə gəlmək olar ki, QPO orqanizm üçün katalazadan daha vacibdir. QPO hialoplazmada, mitoxondrilərdə və nüvədə, katalaza isə əsasən peroksisomalarda fəaliyyət göstərir. QPO-nun katalaza ilə müqayisədə H_2O_2-yə kifayət qədər daha çox yaxınlığı H_2O_2-nin daha aşağı fizioloji konsentrasiyalarının metabo-lizmində onun aparıcı rolunu müəyyən edir. Eritrositlərdə katalazanın çatışmazlığına nisbətən QPO-nun çatışmazlığı daha asanlıqla hemolizə gətirib çıxarır. QPO eritrositin yalnız hemolizə qarşı deyil, həm də methemoqlobinin əmələ gəlməsinə və vaxtından əvvəl qocalmaya qarşı rezistentliyini yüksəldir. Hidrogen-peroksidi reduksiya etməklə QPO nəinki bu aktiv maddəni kənarlaşdırır, eyni zamanda üzvi hidroperoksidlərin yaranmasının da qarşısını alır. Üzvi hidroperoksidlərin metabolizmi LPO-nun sonrakı proqressivləşməsinin, ikincili metabolit-

lərin əmələ gəlməsinin qarşısını alır. QPO LPO-nun ikincili məhsullarını zərərsizləşdirmək qabiliyyətinə malik deyildir. Bu, bu prosesdə aparıcı rol oynayan QT-nin funksiyalarından biridir [26]. O, onları qlutationla konyuqasiya yolu ilə metabolizə edir. Belə ki, QPO həm LPO-nun yaranmasının, həm də inkişafının qarşısını alır, o, OAF-dan fermentativ müdafiə sistemində əsas, ən universal funksiyanı yerinə yetirir [9,17,19]. QPO-nun fəaliyyəti GSSG-ni regenerasiya edən QR ilə sıx bağlıdır. Onlar qlutation redoks-siklini həyata keçirən vahid qlutation antioksidant sistemini təşkil edir. Bu sistemin siklinin təkrar olunması üçün NADFN-in olması zəruridir. QPOGSSG-nin əsas miqdarını əmələ gətirdiyi və o da bir çox fermentlərin aktivliyinə təsir göstərdiyi üçün ona bu fermentlərin işinin tənzimləyicisi kimi baxmaq olar [5,9]. Qlutation sisteminin daha bir fermenti qlutationreduktazadır (QR). Hüceyrədə QR əsasən sitozolda yerləşir, amma mitoxondrilərdə, nüvələrdə, mikrosomalarda da olur. QR-in işi həmişə həm peroksidlərin (QPO və QT), həm də disulfidlərin (qlutaredoksin, tiolproteindisulfidoksidoreduktaza, həmçinin QT və tioredoksin) reduksiyası nəticəsində GSH-ı GSSG-yə oksidləşdirən fermentlərlə bağlı olmuşdur [18]. Bundan o nəticə çıxır ki, QR-in əsas bioloji əhəmiyyəti yuxarıda sadalanan fermentləri reduksiya olunmuş GSH ilə təmin etməkdən, başqa sözlə, GSH-ın yüksək səviyyəsini və GSSG-nin aşağı səviyyəsini və deməli, yüksək GSH/GSSG nisbətini saxlamaqdan ibarətdir. GSH özünün əsas funksiyalarını reduksiya olunmuş formada yerinə yetirdiyindən, QR-in aktivliyi çox əhəmiyyətlidir. O, GSH-ın sintezinə tələbatı əhəmiyyətli dərəcədə azaltmağa imkan verir. LPO-nun ikincili məhsulları, məsələn, 4-hidroksinonenal (4-HNE) və digər endogen aldehidlər QR molekulunu inaktivləşdirirlər. Bu, doymamış lipidlərin oksidləşdirici deqradasiyası prosesində müsbət əks əlaqə yarada və bununla da oksidləşdirici zədələnmələri gücləndirə bilər [21].

Eksperimentlərdə müəyyən edilmişdir ki, OS şəraitində MSQ-də antioksidant fermentlərin və GSH-ınaktivliyi əhəmiyyətlidərəcədə aşağıdüşür [1,7,20,22] müəyyən etmişlər ki, XX-nin residivi zamanı damar tonusunun yüksəlməsi, arterial qan axınının azalması və venostaz hesabına mədə divarında qan axını pozulur; LPO proseslərinin güclənməsi də baş verir ki, bu da qastroduodenal zonanın SQ-ınrezistentliyinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır. DasDipaketal [14] soyuqda hərəkətsizlik zamanı siçovullarda MSQ-nin zədələnməsində OAF-ın aparıcı rolunu müəyyən etmişlər. Bu, LPO-nun 50% artmasına, zülal oksidləşməsinin 70% artmasına və MSQ-də qlutationun miqdarının 40% azalmasına səbəb olmuşdur. Eksperimentlərdə müəyyən edilmişdir ki, stressin müxtəlif növləri klinik dəyişikliklərdən başqa, qan zərdabı AOA-nın azalması fonunda LPO-nun reaksiya məhsullarının miqdarının əhəmiyyətli dərəcədə artması ilə xarakterizə olunur. Sübut edilmişdir ki, indol tərkibli antioksidant ituminin istifadə edilməsi LPO göstəricilərinin normallaşmasına və zərdab AOA-nın artmasına, stressdən sonra pozuntuların azalmasına gətirib çıxarır və xora əmələ gəlməsini 17-58% azaldır [8]. OAF əmələ gəlməsinin inhibitorları MSQ-də xora əmələ gəlməsini tormozlamışdır. Süni stresin təsiri altında superoksiddismutaza stimullaşır və mitoxondrilərin QPO-sunun aktivliyi zəifləyir.

Siçan və siçovullar üzərində modelləşdirilmiş kəskin qlutation çatışmazlığı nazik və yoğun bağırsağın selikli və selikaltı təbəqələrində iri limfoid aqreqatların meydana çıxması və onların zədələnməsi ilə müşayiət olunmuşdur. Qlutationun yeridilməsi belə reaksiyaların meydana çıxmasının qarşısını almışdır [16]. Lakin yaşla bağlı olaraq, GSH-ın miqdarı və onunla birlikdə XX olan xəstələrdə MSQ-nin antioksidant müdafiəsi zəifləyir [17].

HP ilə infeksiyalaşmış xəstələrin qan zərdabında MDA-nın səviyyəsi XX olan və HP ilə infeksiyalaşmamış pasientlərdə olduğuna nisbətən əhəmiyyətli dərəcədə yüksəkdir [19]. Müəyyən edilmişdir ki, HP qlutationtransferazanın və GSH-ın hasilatını tormozlayır [14, 19]. Həmçinin HP-nin davamedici olması zamanı superoksiddismutazanın aktivliyinin 2 dəfə tormozlanması qeyd edilmişdir ki, bu da hiperoksidləşməyə gətirib çıxarır [6]. HP-nin eradikasiyası mədənin antral şöbəsinin selikli qişasında sonuncuların səviyyəsinin bərpa olunmasına və bununla da xoranın sağalmasına gətirib çıxarır [2]. Q.Y.Bukanın əldə etdiyi nəticələrə görə mədənin və onikibarmaq bağırsağın HP ilə şərtlənən zədələnmələri zamanı askorbin turşusu, karotin, alfa-tokoferol kimi antioksidantların miqdarı azalır. HP aradan qaldırıldıqdan sonra onların miqdarı normallaşır.

Antioksidant tioktasidin yerli istifadəsi ilə aparılan klinik tədqiqatda onun istifadəsinin XX-nin konservativ müalicənin sonunda kobud çapığın yaranmasının qarşısını aldığı müşahidə edilmişdir [5].

XX-nin gedişinin immun və klinik variantlarla birlikdə AOS-un tədqiqi əsasında xəstəliyin

proqnozunun ən informativ və etibarlı kriteriyalarını ayırmaq olar [22]. Kəskin qan itkisi zamanı həmişə LPO-nun aktivləşməsinin işəsalma mexanizmi olan hipoksiya faktorları və stres-reaksiyalar mövcud olur. Xora mənşəli qastroduodenal qanaxmaları olan əməliyyat olunmuş xəstələrdə LPO məhsullarının səviyyəsi konservativ müalicə zamanı olduğundan 1,5 dəfə yüksəkdir. Aşkar edilmiş pozğunluqlar yəqin ki, hər şeydən əvvəl qan itkisi ilə əlaqədardır. Bu pozğunluqları həm əməliyyata qədər və həm də əməliyyat sonrası dövrdə korreksiya etmək və müalicənin nəticələrini yaxşılaşdırmaq üçün patogenetik müalicə kimi təbii antioksidantlardan (alfa-tokoferol, askorbin turşusu) istifadə etmək təklif edilmişdir [11].

Etibarlı şəkildə müəyyən edilmişdir ki, LPO proseslərinin aktivliyi XX zamanı olduğuna nisbətən xroniki qastritdə geniş iltihab zamanı daha aydın ifadə edilir. Onikibarmaq bağırsağın və mədənin XX arasında LPO-nun aktivliyinə münasibətdə fərq aşkar edilməmişdir [18]. Xoralı piloroduodenal stenoz zamanı qan zərdabında LPO proseslərinin aktivləşməsi baş verir, xüsusilə sub- və dekompensə olunmuş stenozu olan xəstələrdə [8]. Orqanizm səviyyəsində LPO-nun vəziyyəti və qanın AOA-sı praktik olaraq dəyişmir, xora defektinin yerində və onun ətrafında isə LPO məhsullarının əhəmiyyətli dərəcədə artması qeyd edilmişdir [10]. MSQ və OBB-nin xoraətrafı və kənar zonalarında LPO məhsullarının yüksəlmiş səviyyəsi və AOS-un disbalansı xora prosesinin aktiv gedişinə gətirib çıxaran patogenetik faktor ola bilər [8,21]. Eksperimentdə mədənin selikli qişasının zədələnməsi şəraitində OAF-ın generasiyası patogenezdə orqanizmin antioksidant təminatının azalması kimi mühüm rol oynayır [17]. Xoranın inkişafı prosesində xoraətrafı zonanın kənarına polimorfnüvəli leykositlər can atır [10,16,18], onların güclü axını və hipoksiya superoksid anionlar, hidroksil radikalları, hidrogen-peroksid daxil olmaqla sərbəst radikalların əmələ gəlməsini stimullaşdırır [8,14,16,18,20]. Eksperimental şəkildə sübut edilmişdir ki, ödün reflüksü SQ-nin zədələnməsinə gətirib çıxarır, bununla əlaqədar olaraq, MDA-nın konsentrasiyası yalnız zərdabda deyil, həm də qanın leykositlərində artır [1]. J.Tanaka et al. [27] müəyyən etmişlər ki, indometasin siçovullarda periferik qanın polimorf nüvəli leykositlərini aktivləşdirir və onlardan oksigen radikallarının azad olmasını stimullaşdırır. İndometasinin təsiri altında superoksid-dismutazanın və QPO-nun aktivliyi azalmışdır ki, buna LPO-nun güclənməsinin və MSQ-nin sərbəst radikallarla zədələnməsinin patokenetik faktorları kimi baxılır [17,18]. İndometasinlə törədilmiş mədə xorası ilə aparılan eksperimentdə tədqiqatçılar LPO-nun əhəmiyyətsiz dərəcədə yüksəlməsini və MSQ-də qlutationun konsentrasiyasının azalmasını qeyd etmişlər, lakin, mədə boşluğuna HP suspenziyasının yeridilməsi LPO məhsullarının kəskin artmasına və qlutationun konsentrasiyasının azalmasına gətirib çıxarmışdır [15,20].

Bəzi tədqiqatçıların fikrincə [6,11,17] bu patologiya zamanı işemiyanın, stresin inkişafında mühüm, bəlkə də əsas rol LPO-nun aktivləşməsinə məxsusdur. Hipoksiya ksantindehidrogenazanın ksantinoksidazaya çevrilməsini stimullaşdırır, ksantinoksidaza isə ATF-in deqradasiya məhsulu hipoksantindən elektron mənbəyi kimi istifadə etməklə superoksid anionu generasiya edir. Ksantinoksidaza elektronu molekulyar oksigenə daşıyır. Bu zaman hüceyrə sitoplazmasında lizosomal fermentlərin aktivliyi və konsentrasiyası yüksəlir [8,9]. Hipoksiya şəraitində LPO-nun aktivləşməsi mitoxondrial membranın quruluşunun pozulmasına, onların fosfolipid tərkibinin və keçiriciliyinin modifikasiyasına, mitoxondrial fermentlərin inhibə olunmasına, oksidləşmənin və fosforilləşmənin bir-birindən ayrılmasına, subhüceyrə substansiyaların, xüsusilə lizosom membranının yüksək keçiriciliyinə gətirib çıxarır [15,22]. LPO proseslərinin aktivləşməsi orqanizmin AOM göstəricilərinin aşağı düşməsi ilə əlaqədardır [6,7,13].

HP-infeksiyası ilə assosiasiya olunmuş xroniki qastrit və XX zamanı LPO proseslərinin ifadəliliyi və AOM-un pozulması arasında əlaqənin olması sübut edilmişdir [13,14,19,21].

Tədqiqatlarda müəyyən edilmişdir ki, helikobakter infeksiyası LPO-nu stimullaşdırır, AOS-un funksiyasını pozur və bununla da piloroduodenal zonada aktiv iltihabi prosesə kömək edir, XX-nin gedişini ağırlaşdırır. Omeprazol və metronidazolla kompleks müalicə nisbətən qısa müddət ərzində yüksək sağaldıcı təsir göstərir və klinik-morfoloji remissiyaya gətirib çıxarır [12,18]. H_2-histamin reseptorlarının blokatorları OAF-ın generasiyasını tormozlayır və antioksidant aktivlik nümayiş etdirirlər [9,11].

Patogenetik müalicə kimi antioksidantların istifadəsinə dair məlumatlar ziddiyyətlidir [14,20]. Mədənin və OBB-nin xora xəstəliyinin kompleks müalicəsində antioksidant alfa-tokoferolun və və bu xassələri gücləndirən preparatların (askorbin turşusu, metionin)

istifadəsi göstəriş hesab edilir, belə ki, xəstəlik hidroperoksidlərin miqdarının antioksidantları yenidən paylanması ilə yox, ocaqda onların yüksək sərfi ilə və ya sorulma prosesinin pozulması ilə törənən yüksəlməsi fonunda inkişaf edir [5]. Antioksidant qlutationun istifadəsi XX zamanı LPO-nun pozulmasının müsbət korreksiyasına səbəb olur.

Müasir təsəvvürlərə görə orqanizmin qocalmasının, dayaq-hərəkət aparatının, sinir sisteminin, ürək-damar sisteminin bir çox xəstəlik \lərinin əsasında neyroreflektor, neyrohumoral hüceyrə-membran tənzimləmə mexanizmlərinin lipidlərin peroksid oksidləşməsinin erkən aktivləşməsinə və antioksidant sistemin tükənməsinə əsas yaradan mürəkkəb pozulma prosesi durur [7,15]. Bizim fikrimizcə, endoskopik metabolik hemostazın komponentlərinin təsir mexanizmi və yüksək əməliyyat-anesteziоloji riskə malik ahıl və qoca yaşlı şəxslərə münasibətdə onun effektivliyi kifayət qədər öyrənilməmişdir, bununla əlaqədar olaraq, bu preparatların biokimyəvi səviyyədə tədqiqinə cəhd edilməsi barədə qərar qəbul edildi. Lipidlərin peroksid oksidləşməsinin dinamikasının və metabolik hemostaz preparatlarının xassələrinin, xoralı qastroduodenal qanaxmalar zamanı yerli patofizioloji proseslərin hərtərəfli tədqiqinin zəruriliyi bizi bu işi həyata keçirməyə sövq etdi.

ƏDƏBİYYAT

1.Антонов, В.Н. Эндоскопический гемостаз и прогноз рецидива кровотечения при хронических гастродуоденальных язвах: Автореф. дис ... канд. мед. наук. Красноярск,2005,20 с.

2.Асташов В.Л., С.В. Урсов Непосредственные результаты хирургического лечения хронических язв двенадцатиперстной кишки, осложненных кровотечением / Неотложная медицинская помощь. Тез. докл. науч.-практ. конф. М, 1998, с.33-34

3.Асташов В.Л., Калинин А.В. Кровотечения из хронических гастродуоденальных язв // Клинические перспективы гастроэнтерологии, гепатологии, 2002,№1,с.16-23

4.Афендулов С.А., Журавлев Г.Ю. Хирургическое лечение язвенной болезни у женщин. М.: Высшая школа, 2001, 159 с.

5.Бабалич А.К., Фесенко В.П., Шестопалов Д.В. и др. Хирургическое лечение острых желудочно-кишечных кровотечений // Украинский журнал малоинвазивной и эндоскопической хирургии, 2001, Т. 5, №1, с.14-15

6.Балабекова Х.Ш. Факторы риска нагноения ран при экстренных операциях у больных с осложненной язвой желудка и двенадцатиперстной кишки: Автореф. дис ... канд. мед. наук. М, 2006, 24 с.

7.Басыстюк И.И. Диагностика и лечение рецидива гастродуоденального кровотечения в раннем послеоперационном периоде // Вестник хирургии, 1999, Т. 158, №4, с.60-64

8.Башкатова В.Г. Антиокислительная активность липидов крови больных инфарктом миокарда и язвенной болезнью, её взаимосвязь с другими показателями ПОЛ и изменения при корригирующей терапии: Автореф. дис. ...канд. мед. наук. М., 1990, 23 с.

9.Колесниченко Л.С., Кулинский В.И. Глутатионтрансферазы // Успехи соврем. биол., 1989, №2, с.179-194

10.Комаров Ф.И., Серебрянская М.В., Погорелова А.П. Campilobacterpyloriy больных язвенной болезнью и хроническим гастритом: иммунологический ответ// Клинич.мед., 1990, №6, с.100-105

11.Болыпешапов А.А. Закономерности изменений оксидативных и восстановительных процессов при язвенной болезни желудка, двенадцатиперстной кишки и их влияние на исходы хи ругического лечения: Автореф. дис ... канд. мед. наук. Иркутск, 2007, 23 с.

12.Бондаренко Н.М., Хапатько Г.Е., Барвинский В.Н. Ранние рецидивные кровотечения язвенной этиологии // Украинский жур. малоинвазивной и эндоскоп. хирур., 2001, №1, с.21-22

13.Будаев Б.Б. Выбор лечебной тактики при кровотечении из язвы двенадцатиперстной кишки у больных пожилого и старческого возраста:Автореф.дис...канд.мед.наук.СПб,2002, 21с.

14.Бука Г.Ю. Анализ клинической эффективности антисекреторной терапии у больных с послеоперационными рецидивными гастродуоденальными язвами, осложненными кровотечением // Украинский жур. малоинвазивной и эндоскоп. хирур., 2007. Т.11, №2,с40-42

15.Ванюкова О.В., Шаршавицкий Г.А., Морозов О.Д. Особенности тактики и лечения язвенных гастродуоденальных кровотечений у больных пожилого и старческого возраста /Экстренная хирургия в преклонном старческом возрасте. Материалы IX ежегодной итоговой научно- практической конференции по экстренной хирургии. Петрозаводск, 2005, с.7-9

16.Васильева А.А. Клинико-экспериментальное обоснование программированного эндоскопического лечения массивных язвенных гастродуоденальных кровотечений: Автореф. дис ... канд. мед. наук. М, 2004, 142 с.

17.Велигоцкий Н.Н., Комарчук В.В., Трушин А.С. и др. Хирургическая тактика, прогноз и модификация органосохраняющих операций при язвенных кровотечениях // Украинский журнал малоинвазивной и эндоскопической хирургии, 2001, Т. 5, №1, с.48-49

18.Войташевская Н.В. Эзофагогастродуоденоскопия в комплексном лечении больных с язвенным гастродуоденальным кровотечением: Автореф. дис ... канд. мед. наук. М, 2005, 18 с.

19.Гостшцев В.К., Евсеев М.А. Значение антисекреторной терапии в лечении острых гастродуоденальных язвенных кровотечений // Русский мед. журнал, 2004, №24, с.1433-1423

20.Гостищев В.К., Евсеев М.А. Антисекреторная терапия как составная часть гемостаза при острых гастродуоденальных язвенных кровотечениях // Хирургия, 2005, №8, с.52-57

21.КлебановГ.И., Теселкин Ю.О., Бабенкова И.В. Антиоксидантная активность сыворотки крови // Вестник РАМН, 1999, № 2, с.15-21

22.Кузеев Р.Е., Легошин А.П., Юргелис А.В. и др. Применение сандостатина и гистодила при язвенных гастродуоденальных кровотечениях в эксперименте / Проблемы неотложной хирургии. К 90-летию со дня рождения акад. В.И. Стручкова. М., 1998, Т. 6, с. 38

23.Мехманов Ш.Р., Юсупбеков А.А. Новый способ эндоскопической остановки дуоденального язвенного кровотечения / Материалы третьего конгресса ассоциации хирургов имени Н.И. Пирогова. М, 2001, с.156-157

24.Кукош М.В., Власов А.П., Разумовский Н.Н. Лечение язвенных гастродуоденальных кровотечений у больных пожилого и старческого возраста. Н. Новгород: Изд-во НГМА, 2002, 150 с.

25.Курбонов Х.Х. Эндоскопический гемостаз при гастродуоденальных язвенных кровотечениях: Автореф. дис ... канд. мед. наук. Душанбе, 2002, 20с.

26.Kleinman W.A., Richie J.P. Status of glutathione and other thiols and disulfides in human plasma // Biochem. Pharmacol., 2000, v.60, №l, p.19-29

27.Tanaka J.Y., Yasukatsu J. Lipid peroxidation in gastric mucosal lesions induced by indo-methacin in rat // Biol, and Pharm.Bull., 1996, №5, p.716-720.

Резюме

Влияние антиоксидантной глютатиона на восстановительные процессы печени у больных высоко операционно-анестезиологическим риск при гастродуоденальных кровотечений

Ш.И.Рагимли

В статье рассмотрен вопрос влияния антиоксидантной глютатиона на восстановительные процессы печени у больных высоко операционно-анестезиологическим риск при гастро-дуоденальных кровотечений. На наш взгляд, не достаточно изучен вопрос механизмы влияния компонентов эндоскопического метаболического гемостаза у лиц старшего и старческого возраста. Эти анные побудили нас провести исследования в этом направлении.

Summary

Influence of the antioxidant glutathione in the regenerative processes of the liver in patients with high operational and anesthetic risk for gastroduodenal bleeding

Sh.I.Ragimli

In the article the question of the effect of the antioxidant glutathione in the regenerative processes of the liver in patients with high operational and anesthetic risk for gastroduodenal bleeding. In our opinion, it is not enough explored the mechanisms of influence of components of the metabolic endoscopic hemostasis in elderly and senile. This prompted us to conduct research in this area

Daxil olub: 02.03.2015

YÜKSƏK DAĞLIQ ŞƏRAİTİNDƏ YAŞAYAN MƏKTƏBLİ UŞAQLARIN FİZİKİ İNKİŞAFIN SƏVİYYƏSİNİN YAŞ DİNAMİKASINDA XÜSUSİYYƏTLƏRİ

İ.İ. İsayev, M.Ə.Ağayev
Azərbaycan Tibb Universiteti, Terapevtik və Pediatrik propedevtika kafedrası, Bakı

Açar sözlər: dağlıq ərazisi, məktəbli uşaqlar, fiziki inkişaf
Ключевые слова: горная местность, школьники, физическое развитие, масса и длина тела.
Key words: high mountains, schoolchildren, physical development, weight and length of the body

ÜST məlumatına əsasən sağlamlıq orqanizmdə yalnız xəstəliyin, yaxud hər hansı bir inkişaf defektinin yoxluğu deyil, eyni zamanda ətraf mühitlə tarazlaşmış, uyğunlaşmış, tam fiziki, mənəvi və sosial firavanlığın mövcudluğudur [1]. Ətraf mühit təsirlərindən ekoloji cəhətdən ən mürəkkəbi olan yüksək dağlıq şəraiti uşaq orqanizmində homeostazı tənzim edən mexanizmləri səfərbər edərək, ilk mərhələdə onların orqanizmə mənfi təsirini azaldır, ətraf təsirlər davam edər və güclənərsə, daxili uyğunlaşma mexanizmləri gərginləşir və polimorf xarakterli xəstəliklərin yaranmasına zəmin yaradır [2]. Böyüklərdə aparılan tədqiqatlar göstərir ki, yüksək dağlıq şəraitində oksigen çatmazlığına uyğunlaşmaq üçün qaz mübadiləsi çox qənaətlə icra olunur, ağ ciyər paylarında alveolyar ventilyasiya bərabərləşir, alveolların diffuziya qabiliyyəti yüksəlir, qanın yüksək oksigen tutumu ürək-qan-damar sisteminə mötədil fəallıqla işləməyə imkan verir və nəticədə bir sıra üzv və sistemlər tərəfindən funksional və morfoloji xüsusiyyətlər izlənir [3,4].

Vətən alimlərinin daimi nəzər dairəsində olan yaş antropologiyasının müxtəlif aspektlərinin tədqiqi göstərilir ki, uşaqların fiziki inkişaf tempi qeyri-bərabər, siklik, heteroxron, cinsi dimorfizmli, irsi əsaslanmış, ətraf mühitlə əlaqəli baş verir [5,6,7,8]. Uşaq sağlamlığının vacib göstəricisi olan fiziki inkişafın xüsusiyyətlərinin daimi öyrənilməsinə baxmayaraq, bu günədək fiziki inkişafın optimal qiymətləndirmə meyarları terminologiyası, metodika və bioloji əsasları hələ də hazırlanmamış və yüksək dağlıq şəraitində yaşayan uşaqların regional morfofunksional inkişaf göstəriciləri tədqiq olunmamışdur. Bu baxımdan Respublikamızın özünə məxsus coğrafi, meteoroloji, iqtisadi və sosial-məişət durumuna malik olan yüksək dağlıq ərazilərində yaşayan uşaqların sağlamlıq və fiziki inkişaf xüsusiyyətlərinin öyrənilməsi böyük elmi və praktik əhəmiyyət kəsb edir.

Tədqiqatın **məqsədi** Azərbaycan Respublikasının Lerik rayonunun yüksək dağlıq şəraitində yaşayan məktəbyaşlı uşaqların yaşdan və cinsdən asılı olaraq fiziki inkişafın səviyyəsinin öyrənilməsi və informativ qiymət- ləndirmə meyarlarının hazırlanmasıdır.

Tədqiqatın material və metodları. Məqsədimizə nail olmaq üçün Lerik rayonunun yüksək dağlıq ərazilərində yaşayan 6-17 yaşda olan I və II sağlamlıq qrupuna aid 316 məktəbyaşlı uşaq tədqiqata cəlb olunmuşdur. Müayinə olunmuş uşaqlar üç yaş qrupuna ayrılmışdır: kiçik məktəbli qrupuna 6-10 yaşlı 106 məktəbli (56 oğlan və 50 qız), orta məktəbli qrupuna 11-14 yaşlı 98 uşaq (53 oğlan və 45 qız) və böyük məktəbli qrupuna 15-17 yaşlı 112 məktəbli (63 oğlan və 49 qız) daxil edilmişdir. Müayinə zamanı nevropatoloq, kardiorevmatoloq, otolarinqoloq, okulist, infeksionist, stomatoloq, cərrah və digər ixtisasçılarının iştirakı ilə uşaqların fiziki inkişafı, onun harmonikliyi, sinir-psixiki inkişafı, orqanizmin reaktivliyi, orqan və sistemlərin funksional vəziyyəti, xroniki xəstəliklərin və inkişaf qüsurlarının mövcudluğu, ontogenez xüsusiyyətləri (geneoloji, bioloji və sosial anamnez) tədqiq olunmuşdur.

Fiziki inkişaf göstəricilərinin (bədən uzunluğu, bədən kütləsi, döş qəfəsi çevrəsi) yayılma dərəcəsinə görə sərhədləri P_3, P_{10}, P_{25}, P_{75}, P_{90}, P_{97} dəhlizlərə bölünmüşdür. Əlamətin göstəricisi 25-75 sentil hüdudunda (4-cü dəhliz) yerləşərsə fiziki inkişaf "orta", 10-25 persentil dəhlizlər arası (3-cü dəhliz) olguqga- "ortadan aşağı", 75-90 arası (5-ci dəhliz)- "ortadan yuxarı", 3-10 sentil hüdudunda (2-ci dəhliz)- "aşağı", 90-97 sentil hüdudunda isə (6-cı dəhliz) fiziki inkişaf yuxarı hesab olunmuşdur.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Cədvəldə göstərilmiş tədqiqat nəticələrindən aydın olur ki, Lerik rayonunun yüksək dağlıq şəraitində yaşayan uşaqların fiziki inkişafın xüsusiyyətləri yaşdan asılı olaraq dinamik dəyişir. Belə ki, kiçik məktəblilərin fiziki inkişaf səviyyəsi 60,38% halda "orta", 16,98% halda "ortadan aşağı", 8,49% halda "aşağı", 10,38% təsadüfdə "ortadan yuxarı" və yalnız 3,77% halda "yuxarı" səviyyədə olmuşdur.

Əgər P_3-P_{10} və P_{10}-P_{25} persentil dəhlizlərində məktəbli uşaqlar arasında cinsiyyətdən asılı olaraq qızların sayı artıq olmuşsa, "orta" fiziki inkişaf səviyyəsinə uyğun gələn P_{25}-P_{75} dəhlizində oğlanların miqdarı orta hesabla 8,29% üstünlük təşkil edir. Bu yaş qrupunda "ortadan yuxarı" fiziki inkişaf dəhlizində qızların, P_{90}-P_{97} persentil dəhlizində isə oqlanların sayı iki dəfəyə yaxın artıq olmuşdur.

Cədvəl

Yüksək dağlıq şəraitində yaşayan məktəbli uşaqlarda fiziki inkişaf səviyyəsi (%)

Yaş	Cins	P_{3-10}	P_{10-25}	P_{25-75}	P_{75-90}	P_{90-97}
		Aşağı	Ortadan aşağı	Orta	Ortadan yuxarı	Yuxarı
6-10 yaş	Oğlan (n=56)	7,14	16,07	64,29	7,14	5,36
	Qız (n=50)	10,0	18,0	56,0	14,0	2,0
	Cəmi (n=106)	8,49	16,98	60,38	10,38	3,77
11-14 yaş	Oğlan (n=53)	1,89	26,42	5,66	52,83	13,21
	Qız (n=45)	6,67	11,11	22,22	42,22	17,78
	Cəmi n=98	4,08	19,39	13,27	47,96	15,31
15-17 yaş	Oğlan (n=63)	7,94	26,98	20,63	36,51	7,94
	Qız (n=490	16,33	24,49	24,49	24,49	10,20
	Cəmi n=112	11,61	25,89	22,32	31,25	8,93
6-17 yaş	Oğlan (n=172)	5,8	23,26	30,23	31,98	8,72
	Qız (n=144)	11,11	18,06	34,72	26,39	9,72
	Cəmi n=316	8,23	20,89	32,28	29,43	9,18

11-14 yaşlı məktəblilərin məlumatları əvvəlki yaş qrupundan xeyli fərqlənərək, fiziki inkişaf səviyyəsi "orta" səviyyəyə uyğun gələnlərin sayı nəzərə çarpacaq dərəcədə azalmış və 13,27% halda rast gəlinmişdir. Özündən əvvəlki yaş qrupundan fərqli olaraq uşaqların 47,96%-i "ortadan yuxarı" fiziki inkişaf dərəcəsinə uyğun olmuşdur ($P<0,01$).Böyük məktəbli qrupunun uşaqlarında fiziki inkişaf səviyyəsi 22,32% halda "orta" səviyyədə, 25,89% halda "ortadan aşağı", 11,61% halda "aşağı", 31,25% halda "ortadan yuxarı" və yalnız 8,93% halda "yuxarı" səviyyədə olmuşdur. Ümumilikdə oğlanlarda fiziki inkişafın "ortadan yuxarı" olması 31,98% halda rast gəlinirdirsə, qızlarda nisbətən üstünlük "orta" inkişaf səviy- yəsinə uyğun gələnlər arasında olmuşdur- 34,72%. Fiziki inkişafın əsas göstəricilərinin ayri-ayrılıqda tədqiqi göstərdi ki, yüksək dağlıq şəraitdə yaşayan 6-17 yaşlı uşaqların tam əksə- riyyətində boyun uzunluğunun artmasının ləngi- məsi prosesi müşahidə olunmuşdur. Bu zaman kiçik məktəb yaşlı qrupda əgər boyun uzun- luğunun geri qalması fiziki inkişaf səviyyəsinə görə «ortadan aşağı» və «orta» sentil dəhlizlərinə düşən uşaqlarda müşahidə olunurdusa, 12-17 yaşlılarda daha çox «orta» və «ortadan yuxarı», bəzi halda isə «yüksək» sentil dəhlizlərinə düşənlllərdə rast gəlinmişdir. Qeyd olunan geri qalma kiçik məktəb yaşlı oğlanlarda həmyaşıdları qızlara nisbətən statistik etibarlı olmasa da üstün olmuşdur.

Yüksək dağlıq şəraitində yaşayan uşaqlarda sağlamlığın labil və eyni zamanda da həssas meyarlarından sayılan bədən kütləsinin artmasının təhlili müqayisə qrupunun uyğun göstəricilərindən fərqləndiyini aşkar etdi. Əsas qrupa daxil olan kiçik və orta məktəb yaşlı uşaqların tam əksəriyyətində kütlənin defisiti prosesi müşahidə olunmuşdur. Əgər aşağı yaşlı oğlan və qızlarda kütlə çatmazlığı daha qabarıq olmaqla demək olar ki, bütün sentil dəhlizlərini əhatə edirsə, 14 yaşlılarda «orta» və «ortadan yuxarı», 15 yaşlı oğlanlarda isə yalnız «orta» inkişaf səviyyəsinə uyğun gələnlərdə rast gəlinir. Qızlarda 16, oğlanlarda isə 17 yaşdan sonra demək olar ki, tək-tək hallar nəzərə alınmasa kütlədə geri qalma əhəmiyyətli dərəcədə nəzərə çarpmır. Alınmış məlumatların təhlili göstərir ki, yüksək dağlıq şəraitində yaşayan uşaqların müayinəsindən əldə edilmiş parametrlərin P_3–P_{10} və P_{90}–P_{97} sentil dəhlizlərində variabelliyinin artması, «orta» səviyyəyə uyğun P_{25}–P_{75} sentil dəhlizində isə nəzarət qrupu ilə müqayisədə nisbətən məhdudlaşması müşahidə olunur və özündə xronik stress daşıyan uşaqların individual fiziki inkişaf göstəricilərinin məhdud diapozonda tərəddüdü ilə bağlıdır.

Antropoloji məlumatlara əsasən fizioloji olaraq normada oğlanlarda boy sıçrayışı 12-13, qızlarda 11 yaşda baş verərkən yüksək dağlıq şəraitində yaşayan oğlanlarda bu 15, qızlarda isə 14–15 yaşlarında olmuşdur. Müayinə edilən oğlanlarda bədən kütləsi aşağı olmaqla bərabər

14 yaşadək ləng artmış sonralar bir qədər sürətlənmişdir. Qız uşaqlarında da kütlə müqayisə qrupuna nisbətən 12 yaşadək ləng artmış (normada 10 yaşadək), yalnız 12-13 yaşdan başlayaraq mülayim olsa da intensivləşməmişdir (normada 11). Bundan aydın olur ki, yüksək dağlıq şəraitində yaşayan uşaqlarda kütlə bə boyun dinamik fizioloji olaraq artması gecikməklə bərabər eyni zamanda nisbətən ləng gedir və fərdi inkişaf sürərinin pozulmasına gətirib çıxarır. Yalnız sonrakı illərdə müayinəyə cəlb edilmiş uşaqların 20-25%-də həmin inkişaf mərhələsi üçün səciyyəvi olan potensial imkanların-proseslərinin intensivləşməsi hesabına geri qalmalar aradan götürülür ki, bunu uşaq orqanizmində baş verən «homeorezis» fenomeni – böyümə kompensasiyası ilə əlaqələndirmək olar.

Aparılan tədqiqatlar nəticəsində tərtib olunmuş əsas fiziki inkişaf göstəricilərinin sentil cədvəlləri praktiki həkimlər tərəfindən yüksək dağlıq ərazilərində yaşayan uşaqların fiziki inkişafını gündəlik və dispanserizasiya çərçivəsində qiymətləndirmək üçün istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Wold Health Organization. Global recommendations on physical activity for health. Geneva, Switzerland, 2010, 60 p.
2. Похвалин И.Н. Адаптация к гипоксии в условиях высокогорья, 2007, с.10-45.
3. Пермяков И.А. Особенности физического развития и адаптации у детей в условиях антропогенного загрязнения среды обитания тяжелыми металлами. Пермь, 2012, 173 с.
4. Щеплягин Л.Я. Физическое развитие детей в условиях экологического неблагополучия. Смоленск: Универсум, 2005, с. 4-17.
5. Əhmədova L.Ə. Akselerasiyaya uğramış uşaqlarda kardiohemodinamikanın funksional xüsusiyyətləri // Azərbaycan Tibb Jurnalı, 2000, № 3, s. 11-14.
6. Mustafayeva İ.R. Naxçıvan şəhəri şəraitində qızlarda cinsi yetişkənlik dövründə reproduktiv funksiyasının formalaşmasının xüsusiyyətləri. T.e.f.d.... diss.avtoref. Bakı, 2009, 24 s.
7. Talıbova B.V., İsayev İ.İ. Naxçıvan şəhər məktəb yaşlı uşaqların morfometrik inkişafının qiymətləndirilməsi və xüsusiyyətləri // Azərbaycan Tibb Jurnalı, 2010, № 1, s. 139-142.
8. Hüseynova S.Ə. Məcburi köçkün (qaçqın) uşaqların sağlamlığında fiziki inkişaf parametrlərinin və emosional-şəxsiyyət statusunun əhəmiyyəti / K.Y.Fərəcova adına ETPİ-nun 80-illik yubileyinə həsr edilmiş elmi konfransın materialları. Bakı: "MBM" MMC mətbəəsi, 2007, 86-90 s.

Резюме

Особенности возрастной динамики уровня физического развития школьников, проживающих в горной местности

И.И. Исаев, М.А.Агаев

У 316 детей 6-17 лет, проживающих в горных местностях Лерикского района непараметрическим персентильным методом исследована степень изменения показателей физического развития длины тела, массы тела и окружности грудной клетки. Результаты показали, что физическое развитие младших школьников в 60,38% случаев было на «среднем» уровне, в 16,98% «ниже среднего», в 8,49% «низкое», в 10,38% «выше среднего» и лишь в 3,77% случаев «высокое». В среднем школьном возрасте число детей со «средним» уровнем физического развития выраженно уменьшилось до 13,27% случаев. У детей старшего школьного возраста уровень физического развития в 22,32% случаев было «средним», в 25,89% случаев «ниже среднего», в 11,61% «низкое», в 31,25% «выше среднего» и лишь в 8,93% случаев было «высокое». Если физиологически пиковый рост длины тела отмечается у мальчиков в 12-13 лет, а у девочек в 11 лет, то у школьников, находящихся под нашим наблюдением и проживающих в горной местности пиковый рост был отмечен у мальчиков в 15 лет, а у девочек в 14-15 лет. Отмечено, что физиологический динамический рост длины и массы тела у этих детей, наряду с задержкой, замедлен и способствует нарушению индивидуальной скорости развития. Лишь в последующие годы у 20-25% детей отставание исчезает.

Summary

Features of age dynamics of physical development level of schoolchildren living in the high mountains

I.I. Isayev, M.A.Aghayev

In 316 schoolchildren aged 6-17 years, living in high mountainous areas of Lerik region of nonparametric percentile method investigated the degree of change of physical development of the

body length, body weight and chest circumference. The results showed that the physical development of younger schoolchildren in 60,38% of cases was on the "average" level, in 16,98%- "below average", in 8,49%- "low", in 10,38%- "above average" and only in 3,77% of cases- "high". In average school age the number of children with "average" level of physical development significantly decreased to 13,27% of cases. In senior school age's children the level of physical development in 22,32% of cases was "average", in 25,89% "below average", in 11,61%- "low", in 31,25%- "above average" and only in 8,93% of cases - "high". If physiologically peak growth of body length is marked in boys at aged 12-13 years and in girls at aged 11 years, then in schoolchildren which were under our observation, and living in the high mountains, peak growth rate was observed in boys at 15 years and in girls at 14-15 years. It is noted that the physiological dynamic growth of body length and weight in these children, along with a delay, has been slowed and contributed to a violation of the individual rate of development. Only in the following years, in 20-25% of children the lag disappears.

Daxil olub: 28.01.2015

ФАРМАКОЛОГИЧЕСКАЯ КОРРЕКЦИЯ ПРОКСИДАНТНЫХ ЭФФЕКТОВ ГАЛОПЕРИДОЛА

У.М.Меджидова, В.Я.Асметов

Азербайджанский медицинский университет, кафедра фармакологии, г.Баку

Açar sözlər: qaloperidol, farmakoloji korreksiya, peroksidant effektivlik
Ключевые слова: галоперидол, фармакологическая коррекция, проксидантный эффект
Keywords: haloperidol, pharmacological correction, proxidant effect

Экстрапирамидные синдромы- группа двигательных нарушений, возникающих в результате повреждения базальных ганглиев и подкорково-таламических связей. Некоторые эпидемиологические исследования показали, что одну треть всех случаев паркинсонизма можно объяснить использованием лекарственных препаратов. Нейролептики могут вызывать практически весь спектр экстрапирамидных расстройств: паркинсонизм, дистонию, тремор, хорею, акатизию, тики, миоклонию, стереотипии [1,2,3,4].

Патогенез экстрапирамидных побочных реакций сложен и до сих пор полностью не изучен. Появление гиперкинеза при применении нейролептиков, блокирующих $Д_2$-рецепторы, позволяет говорить об угнетении дофаминергической передачи. Помимо того, в ответ на блокаду рецепторов компенсаторно усиливается синтез и высвобождение дофамина, который активирует незаблокированные $Д_1$- или гиперчувствительные $Д_2$-рецепторы. Усиление высвобождения дофамина может быть связано и с блокадой пресинаптических $Д_2$-рецепторов. Одна из важнейших ролей в патогенезе экстрапирамидных синдромов принадлежит нарушению функций дофаминергической и холинергической систем подкорковых ядер, в связи с блокадой нейролептиками дофаминергических постсинаптических рецепторов [7,8,9]. Наряду с изменением функций различных нейротрансмиттерных систем значительную роль в патогенезе экстрапирамидных осложнений нейролептической терапии играют неспецифические факторы. Среди них в последние годы наибольший интерес вызывают процессы перекисного окисления липидов с образованием свободных радикалов. Согласно соответствующей гипотезе, нейролептики, блокируя дофаминовые рецепторы, усиливают метаболизм дофамина и активацию моноамиксидазы, что сопровождается повышенным образованием свободных радикалов. Последние могут оказать повреждающее воздействие на окончание нейронов [12,13,14].

Учитывая выше изложенное, пришли к такому выводу, что верапамил, пирацетам и мексидол в роли корректора побочных эффектов нейролептиков ранее не изучался. Между тем такое исследование оправданно, если учесть данные о роли свободных радикалов в патогенезе нейролептических

экстрапирамидных нарушений и наличие в механизме действия верапамила, пирацетама и мексидола антиоксидантного и мембрано-протекторного компонентов.

Материалы и методы исследования. Опыты проводились на 40 беспородных белых крысах обоего пола массой 180-220г. Изучение влияния верапамила, пирацетама и мексидола на прооксидантный эффект галоперидола проводили на крысах. Верапамил (25мг/кг, Финландия), пирацетам (200 мг/кг, Россия) и мексидол (200мг/кг, Россия) вводили внутрибрюшинно за 30 мин до внутрибрюшинной инъекции галоперидола (0,5 мг/кг, Бельгия).

Для изучения корректорного действия комбинированно применяемых препаратов после их введения спустя 4 часа забивали животных путем декапитации в период между 12 и 14 часами при температуре помещения 22 ± 1^0C. На льду быстро извлекли мозг и выделяли фронтальную кору, стриатум и гипоталамус. Затем выделенные структуры размельчали в гомогенизаторе и определяли содержание диеновых конюгатов, гидроперекиси липидов и малонового диальдегида.

Статистическую обработку результатов и достоверность установленных различий проводили по t-критерию Стьюдента.

Результаты и их обсуждение. Результаты проведенных исследований показали, что галоперидол в дозе 0,5 мг/кг обладал прооксидантным действием усиливая процессы ПОЛ по сравнению с контрольными группами увеличивал содержание диеновых конюгатов гипо- таламусе на 25,5%, фронтальной коре на 48,6%, и полосатом теле на 24,2%. Увеличение отмечались и в соотношении гидроперекиси липидов. Гипоталамусе содержание гидро- перекись липидов увеличивался на 22,7%, фронтальной коре на 29,1%, полосатом теле на 21,6%. Тенденция увеличения содержание малонового диальдегида отмечались на фоне 0,5мг/кг галоперидола, гомогенате подготовленный извлечённого гипоталамуса, фронтальной коры и полосатого тела. Содержание МДА в гипоталамусе увеличивался на 23,3 %, фронтальной коре на 29,9 %, полосатом теле на 20% $p<0,01$.

Для коррекции побочного проксидантного эффекта 0,5 мг/кг галоперидола комбинированного применяемый верапамил 25 мг/кг, пирацетам 200 мг/кг и мексидол 200 мг/кг показал себя в роли мощного корректора и снимал прооксидантный эффект галоперидола. И так комбинированно применяемые препараты оказали на содержание продукт ПОЛ нижеследующим образом. Содержание диеновых конюгатов гипоталамусе нормолизовались и можно сказать, что не различался от контрольных групп. Во фронтальной коре и полосатом теле диеновые конюгаты тоже подверглись изменениям в сторону нормализации. А также нормализации подверглись и гидроперекиси липидов и малоновые диальдегиды. Полученные данные отражены в таблице 1.

Таблица 1

Определение продуктов перекисного окисления липидов (ПОЛ) при совместном применении верапамила (25 мг/кг), пирацетама (200 мг/кг), мексидола (200 мг/кг) и галоперидола (0,5 мг/кг) в разных структурах головного мозга у крыс.

M±m n=10

№ г/п	Гипоталамус		
	ДК	ГП	МДА
Контроль NaCl	2,63±0, 012(2,6-2,7)	1,64±0, 005(1,61-1,66)	1,67±0, 011(1,63-1,74)
Галоперидол	3,23±0, 004(3,21-3,24)**	2,02±0, 008(1,9-92,05)**	2,09±0, 005(2,06-2,11)**
Верапамил 25 мг/кг, Пирацетам 200 мг/кг, Мексидол 200 мг/кг, Галоперидол 0,5 25 мг/кг	2,55±0, 012(2,53-2,56)**	1,55±0, 005(1,50-1,59)**	1,65±0, 006(1,62-1,67)**

Примечание: *- Различия достоверны при $p<0,05$ **- при $p<0,01$

Продолжение Таблицы 1

№ г/п	Лобная доля			Полосатое тело		
	ДК	ГП	МДА	ДК	ГП	МДА
Контроль NaCl	3,18±0, 008(3,15-3,21)	2,39±0, 005 (2,37-2,41)	1,84±0, 005 (1,82-1,87)	1,46±0, 005 (1,43-1,47)	1,13±0, 008 (1,1-1,17)	1,24±0, 004 (1,22-1,25)
Галоперидол	4,11±0, 009(3,03-3,11)**	3,08±0, 009(3,03-3,11)**	2,74±0, 005(2,72-2,77)**	1,77±0, 006(1,75-1,79)**	1,35±0, 02(1,34-1,36)**	1,54±0, 005(1,52-1,56)**
Верапамил, 25 мг/кг, Пирацетам,200 мг/кг, Мексидол, 200 мг/кг, Галоперидол, 0,525 мг/кг	2,39±0, 008 (2,35-2,42)**	2,39±0, 008(2,35-2,42)**	1,82±0, 004 (1,81-1,83)**	1,37±0, 005 (1,35-1,39)**	1,14±0, 006 (1,12-1,16)	1,224 (1,20-1,24)**

Таким образом, полученные результаты показали, что при совместном применении верапамила 25 мг/кг, пирацетама 200 мг/кг, мексидола 200 мг/кг и галоперидола в дозе 0,5 мг/кг наблюдалось выраженное снижение продуктов ПОЛ в разных структурах головного мозга у крыс.

Как известно, что верапамил является ингибитором кальциевых каналов L-типа предотвращает поток ионов кальция и метаболизм дофамина. Нам известно, $Д_2$-рецептор, закодированный в одиннадцатой хромосоме, при возбуждении снижает количество цАМФ и блокирует кальциевые каналы [11,12]. Пирацетам являясь ноотропным препаратом улучшает утилизацию глюкозы и кровоснабжение мозговой ткани предотвращает нарушение метаболизма и приводить к антиоксидантному эффекту [9]. Мексидол является ингибитором свободнорадикальных процессов ПОЛ, активирует супероксиддисмутазу, оказывает влияние на физико-химические свойства мембраны, изменяет состав фосфолипидов, увеличивает текучесть мембраны [4,9,10,11], улучшает энергетический обмен в клетке [6], повышает уровень дофамина в стриатуме [5,6,7].

Можно полагать, что мексидол, обладая антиоксидантными и мембраностабилизирующими свойствами, способен защищать нигростриатные нейроны от повреждений, вызываемых применением галоперидола.

Полученные результаты указывают на целесообразность включения верапамила, пирацетама и мексидола в комплексную патогенетическую терапию психических больных.

Выводы: 1.Галоперидол в дозе 0,5 мг/кг нарушая процессы ПОЛ в разных структурах головного мозга приводить к увеличению содержания диеновых конюгатов, гидроперекиси липидов и малонового диальдегида гипоталамусе, фронтальной коре и полосатом теле. 2şОпределение продуктов ПОЛ в трех структурах головного мозга показало, что комбинированно применяемый верапамил, пирацетам и мексидол на 100% предотвращали прооксидантный эффект галоперидола. В наших предыдущих экспериментах по определению поведенческих и когнитивных реакций на фоне комбинированного применения этих препаратов так же был получен корректорный эффект.

ЛИТЕРАТУРА

1. Асметов В.Я., Бабаев И.И., Воронина Т.А. и др. Антистрессорные эффекты нового мембранопротекторного препарата мексидола при различных экспериментальных ситуациях. Мат. Тезисы докладов научн / Конференция посвящ. 100-летию академика Зульфугарова Мамедова, Баку 2003, с.181-182.

2. Ахмедова А.Р. Влияние некоторых психотропных препаратов на процессы свободнорадикального окисления в модельных системах |/ Журн. Неврологии и психиатрии. Москва 2005, №8, с.54-56.

3. Блестоцкая Л.И., Чайка Л.А., Гошон О.Н. Влияние циннаризина на митохондриальную систему окисления мозга, антиокислительную активность крови и поведение крыс при гипоксии // Экспериментальная и клиническая фармакология, 2003, №6, с.16-19.

4. Козловский В.Л. Является ли феномен каталепсии отражением функциональной активности дофаминергической передачи в фармокологических исследованиях? // Экпериментальная и клиническая фармакология, 2004, №3, с.3-6.
5. Катунина Е.А. Фармакологические способы коррекции двигательных нарушений при болезни Паркинсона:Автореф. докт. … дисс. док.мед.наук.М., 2005, 86.
6. Концевой В.А. Использование церебролизина для лечения затяжных экстрапирамидных осложнений нейролептической терапии // Журн. Невр. и психиатрия, 2004, №8, с.39-44.
7. Подосиновикова Н.П., Петров В.В., Кубарская Л.Г. и др. Различия прооксидантного действия нейролептиков галоперидола и аминазина // Эксп. и клин. фармакол.,2003,№5,с.53-55.
8. Подосиновикова Н.П., Петров В.В., Долго-Сабуров В.Б. Daphina maqna Strans-новая модель для изучения антиоксидантного действия водорастворимых препаратов в эксперименте in vivo // Экспериментальная и клиническая фармакология, 2005, №3, с.68-70.
9. Зозуля Ю.А., Барабой В.А. Сутковой Д.А. Свободнорадикальное окисление и антиоксидантная защита при патологии головного мозга. М.: Знание, 2001.
10. Раевский К.С. Антипсихотические средства от фенотиазинов к атипичным нейролептикам нового поколения // Экспериментальная и клиническая фармакология, 2003, №2, с.6-9.
11. Reynolds G.P. Beyond the dofamine hypothesis the neurochemical pathology of schizophrenia // Br.J.Psychiatry, 1989, v.155, p.305.
12. Sceman P. Dofamine receptors and the dofamine hypothesis of schizophrenia // Synapse, 1987, v.1, p.133.
13. Matsumoto K., Yobimoto K., Huong N.T. et al. Phychological stress-indused enhancement of brain lipid peroxiby Anxiolytic and anxiogenic dregs in mise // Brain.Res.,1999, v.839, p.74-84
14. Moini u., Packer I., Saris N.E. Antioxidant and prooxidant acbixities of alphaeipoic acid // Toxicol. Appl Pharmacol., 2002, v.162, p. 84-90.

Резюме

Фармакологическая коррекция проксидантных эффектов галоперидола

У.М.Меджидова, В.Я.Асметов

Təcrübələr hər iki cinsdən olan çəkisi 180-200 q olan 40 cins olmayan ağ siçoul üzərində aparılmışdır. alınan nəticələrdən məlum olmuşdur ki, psixi xəstələrin müalicəsinə verapamik, pirasetam və meksidolun daxil edilməsi məqsədəuyğundur.

Summary

Pharmacological correction of prooxidant effects of haloperidole.

U.M. Majidova, V.Y.Asmatov

The experiments were conducted on 40 white mongrel rats of both sexes weighing 180-220g. The results indicate the feasibility of incorporating verapamil, piracetam and mexidol in complex pathogenetic therapy of mental patients.

Daxil olub: 21.04.2015

HEMOFİLİK ARTROPATİYALI XƏSTƏLƏRDƏ QƏTRANSIZLAŞDIRILMIŞ NAFTALANLA FONOFOREZİN TƏTBİQİ ZAMANI İMMUN SİSTEMİN GÖSTƏRİCİLƏRİNİN DİNAMİKADA TƏDQİQİ

M.M. Kazımova, E.Ə. Qədimova, L.M. Əhmədova, G.K.Hacıyeva
Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Hematologiya kafedrası və Mərkəzi Elmi-Tədqiqat Laboratoriyası, Bakı

Açar sözlər: hemofilik artropatiya, naftalan, immun sistem
Ключевые слова: гемолифическая артропатия, нафталан, иммунная система
Key words: haemophilic arthropathy, naphthalene , immune status

Hemofilik artropatiyaların müalicəsində prioritet istiqamətlərdən biri qeyri-medikamentoz müalicə metodlarının işlənib-hazırlanmasıdır. Məlumdur ki, hemofiliyalı xəstələrdə dayaq-hərəkət sistemi ağırlaşmalarının müalicəsində qeyri-steroid iltihab əleyhinə preparatlara üstünlük verilir. Müasir dövrdə tibbdə qeyri-medikamentoz texnologiyaların rolu durmadan artır. Bu baxımdan hemofilik artropatiyaların müalicəsində təhlükəsiz və effektiv texnologiyaların axtarışı aktual məsələlərdən olaraq qalır.

Oynaqların funksional vəziyyətini yaxşılaşdıran, iltihabi prosesi aradan götürən, klinik simptomatikanı azaldan faktorlardan biri- təbii müalicəvi vasitə - naftalandır. Naftalanını bioloji təsiri və müalicəvi təsir mexanizmi haqqında məlumatlar ədəbiyyat mənbələrində geniş əks olunmuşdur [1,9]. Revmatik xəstəliklərin bərpaedici müalicəsində naftalanın tətbiqi göstərmişdir ki, naftalanın müalicəvi effekti onun iltihabəleyhinə, ağrıkəsici və spazmolitik təsiri ilə əlaqədardır [2]. Lakin hemofilik artropatiyaların müalicəsində istifadəsi zamanı naftalanın hüceyrəvi və humoral immunitetə göstərdiyi təsir mexanizmi kifayət qədər öyrənilməmiş olaraq qalır.

İşin **məqsədi** naftalanla lokal fonoforezin hemofiliyalı xəstələrin immunoloji statusuna göstərdiyi təsirin effektivliyinin qiymətləndirilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiq olunan qrupa 15 nəfər hemofilik artropatiyalı xəstə daxil edilmişdir.

Müalicənin effektivliyi oynaq sindromunun aşağıda qeyd olunan göstəricilərinə əsasən qiymətləndirilmişdir: açma bucağı, bükmə bucağı, oynağın diametri.

Qeyd olunan qrupda antihemofil faktorla əvəzedici müalicə fonunda lokal olaraq zədələnmiş oynağa qətransızlaşdırılmış naftalanla fonoforez tətbiq olunmuşdur. Müalicə metodikası aşağıdakı kimi olmuşdur: qətransızlaşdırılmış naftalan öncədən su hamamında 36-37^{o} C-yə qədər isidilir, fırça ilə zədələnmiş oynaq nahiyəsinə bərabər surətdə sürtülür (bütün oynaq səthini tutmaq şərtilə) və üzəri örtülür. Prosedurun davam etmə müddəti 20-25 dəqiqədir. Sonra naftalan ilıq su vasitəsilə yuyulub silinir. Müalicə kursu hər gün olmaqla cəmi 10-12 prosedurdan ibarət olmuşdur.

İmmun statusu qiymətləndirmək üçün periferik qanın limfositləri tədqiq olunmuşdur. İmmunoloji tədqiqatlar institutun Mərkəzi Elmi-Tədqiqat laboratoriyasında aparılmışdır. İmmunflüoressensiya metodu ilə, müvafiq FİTC-nişanlanmış monoklonal anticisimlərdən istifadə etməklə, T-limfositlər ($CD3^{+}$), T-helperlər ($CD4^{+}$), sitotoksik supressorlar ($CD8^{+}$), B-limfositlər ($CD19^{+}$), ($CD56^{+}$) və hüceyrə apoptozu markeri ($CD95^{+}$) təyin edilmişdir. Monoklonal anticisimlər paneli OOO "Sorbent", Moskva firması istehsalı olmuşdur. Immuntənzimləyici indeks və ya subpopulyasion indeks $CD4^{+}/CD8^{+}$ timsalında təyin edilmişdir.

Nəticələr variasion statistikanın parametrik və qeyri-parametrik metodları ilə (Microsoft Excel 2007 tətbiqi proqramları paketindən istifadə edilməklə) işlənilmişdir. Orta riyazi əmsal (M) və orta ölçü xətası (m) hesablanmışdır. Qruplar arasında statistik əhəmiyyətli miqdar fərqlərini müəyyən etmək üçün Student kriterisi (t) və ya Vilkokson-Manna-Uitni kriterisi (U) istifadə edilmişdir. $p<0,05$ olduqda fərqlər statistik əhəmiyyətli hesab olunmuşdur.

Tədqiq olunan göstəricilər arasında əlaqə korrelyasiya koeffisientinin (əmsalının) (r) hesablanması sayəsində aşkar edilmişdir Oynaq göstəriciləri ilə humoral immunitet göstəriciləri arasında əlaqənin tədqiqi qoşa korrelyasiya (r) metodu ilə həyata keçirilmişdir. Korrelyasiya (r)

qiymətləndirilərkən müəyyən edilmişdir ki, r<0,3 olduğu halda əlaqə zəifdir, 0,3<r<0,7 olduğu halda əlaqə bir qədər güclü, r>0,7 olduğu halda göstəricilər arasında əlaqə çox güclüdür [4,10].

Tədqiqatın nəticələri və onların müzakirəsi. Immunoloji sistemdə gedən dəyişikliklər periferik qanın T-hüceyrələri və humoral immunitet göstəricilərinə əsasən dəyərləndirilmişdir. Immun sistemin göstəriciləri dinamikada müalicədən öncə və naftalanterapiya kursundan sonra qiymətləndirilmişdir. Qeyd olunan qrupda xəstələrin yaş həddi 4-42 yaş arası olmuşdur, belə ki, xəstələrin orta yaş həddi 21,5±2,4 yaş olmuşdur. Bu qrupda xəstələrin zədələnmiş oynaqlarının sayı orta hesabla 1,3±0,15 olmuşdur. 11 nəfər xəstədə 1 oynaq, 3 nəfər xəstədə 2 oynaq, 1 nəfər xəstədə 3 oynaq zədələnmişdir.

Cədvəl 1

Hemofilik artropatiyalı xəstələrdə naftalanla fonoforez müalicə fonunda oynaq göstəricilərinin dəyişiklikləri (M±m)

Göstəricilər	Müalicədən öncə	Müalicədən sonra	Fərq
Açma bucağı, sm	164,0±2,1	173,0±2,3*	9,0±0,7
Bukmə bucağ, sm	65,3±3,7	54,3±3,8*	11,0±1,5
Oynaq diametri, sm	38,3±0,9	36,3±1,1	2,9±0,8

Qeyd: * - müalicədən öncə və sonrakı göstəricilər arasındakı fərqin statistik dəqiqliyi (p<0,05).

Aparılan müalicə fonunda tədqiq olunan oynaq göstəricilərinin nəticələri Cədvəl 1-də öz əksini tapmışdır. Müalicədən əvvəl açma bucağı 164,0±2,1 sm olmuş, müalicədən sonra isə statistik əhəmiyyətli dərəcədə artmışdır (173,0±2,3; p<0,05), göstəricilər arasındakı fərq 9,0±0,7 sm təşkil etmişdir. Bükmə bucağı müalicədən əvvəl orta hesabla 65,3±3,7 sm, müalicədən sonra isə 54,3±3,8 sm olmuşdur. Bükmə bucağı göstəricisi üzrə müsbət dinamika statistik dürüst təsdiqlənmiş, bu zaman fərq isə 11,0±1,5 sm təşkil etmişdir. Buna bənzər müsbət dinamika həmçinin oynaq diametri göstəricilərində də qeyd olunmuşdur, belə ki, müalicədən öncə oynaq diametri orta hesabla 38,3 ± 0,9 sm, müalicədən sonra 36,3 ± 1,1 sm, fərq isə 2,9 ± 0,8 olmuşdur.

Bu qrupda immunitetin hüceyrə amilləri (əsas immunkompetent hüceyrələrin subpopulyasiyaları) və limfositlərin apoptozu tədqiq olunmuşdur. Tədqiqat monoklonal anticisimlərdən istifadə etməklə lüminissent mikroskopiya vasitəsilə həyata keçirilmişdir.


Hüceyrələrin fenotipləşdirilməsi- səthi markerlərin və müvafiq olaraq hüceyrələrin bu və ya digər subpopulyasiyaya aidiyyatının müəyyənləşdirilməsidir. Immunfenotipləşdirmə- anticisimlə antigen reaksiyasına əsaslanan və qan, sümük iliyi, limfa düyünü, digər toxumalarda spesifik hüceyrə tiplərinin təyini üçün istifadə edilən metoddur.

Hüceyrələrin spesifik antigenlərinə reaksiya verən anticisimlərə xüsusi flüoressent nişan birləşir. Bu nişanı luminissent mikroskopun köməyi ilə aşkar etmək olar. Müasir dövrdə qan və sümük iliyi hüceyrələrinin immunfenotipləşdirilməsi, immundefisitlərin, limfoproliferativ, autoimmun və infeksion xəstəliklərin diaqnostikasında "qızıl standart" hesab olunur.

Məlumdur ki, leykositlər hər bir subpopulyasiyaya xas olan səthi molekulları ekspressiya edir, bunlar da marker-nişan rolunu oynayır. Marker molekulalarının və monoklonal anticisim qruplarının sistemləşdirilmiş nomenklaturası işlənib hazırlanmışdır. Bu monoklonal anticisim qruplarının hər biri CD simvolu ilə (Claster Designation) göstərilən spesifik marker molekulu ilə birləşir. Limfositlərin səthi antigen yığımı differensasiyanın tipi və mərhələsindən, eləcə də, onların funksional vəziyyətindən asılı olduğu üçün monoklonal anticisimlərin köməyi ilə müxtəlif hüceyrə subpopulyasialarını, eləcə də aktiv və qeyri-aktiv hüceyrələri fərqləndirmək mümkündür.

Hüceyrə immuniteti və limfositlərin apoptozu üzrə tədqiqatın nəticələri şəkil 1-də əks olunmuşdur.

Müalicəyə başlamazdan əvvəl mövcud immunoloji pozğunluqlar, hüceyrə faktorlarının immundefisit vəziyyətinin üstünlüyü və immunitetin humoral faktorlarının qismən aktivliyi şəklində biruzə vermişdir (Şəkil 1 və 2). $CD3^+$ hüceyrələrin statistik dürüst azalması müəyyən edilmişdir (p<0,05). Səthi $CD4^+$ markerinə malik T-helperlərin səviyyəsi statistik əhəmiyyətsiz dərəcədə yüksəlmiş və orta hesabla qrupda 38,4 ±1,0 (p<0,05) olmuşdur. $CD4^+$ markerlərinə malik T-limfositlərin miqdarının artması immunoqlobulinlərin aktiv sintez olunmasından xəbər verir. Müalicədən öncə $CD8^+$ səthi markerinə malik T-sitotoksik supressorlarının miqdarının azalması müşahidə olunmuşdur. Qeyd olunan dəyişikliklər subpopulyasion indeks $CD4^+/CD8^+$ nisbətində əks olunmamışdır.



Şək.1.Hemofilik atropatiyalı xəstələrin naftalanla fonofarez müalicəsi fonunda limfositlərin fenotipləşdirilməsi


Şəkil1-də qeyd olunan göstəricilər $CD56^+$ səthi markerinə malik NK-təbii killerlərin statistik əhəmiyyətli artı- mından xəbər verir. Bununla yanaşı, $CD56^+$ hüceyrələrin miqdarının artması onu gösərir ki, T-limfositlərin killer və ya sitolitik funksiyası zəifləməmişdir, lakin $CD8^+$ limfositlərin miqda- rının azalmasını nəzərə alsaq güman etmək olar ki, T-limfositlərin supressor funksiyası zəiflə- mişdir. T-limfositlərin supressor funksiyası patoloji anticisim əmələgəlməni ləngidir, bu funksiyanın çatışmazlığı da müvafiq pozğun- luqlar törədir. $CD95^+$ markeri üzrə limfositlərin apoptoza hazırlıq qabiliyyəti müalicədən əvvəl xəstələrdə sağlam şəxslərə nisbətən statistik əhəmiyyətli dərəcədə zəifləmiş və orta hesabla qrupda 47,3±1,0 ($p<0,05$) təşkil etmişdir. $CD95^+$ konsentrasiyasının azalması hüceyrələrin apoptoz qabiliyyətinin aşağı səviyyədə olmasına dəlalət edir. Bu hüceyrələr sonradan da xəstələrin orqanizmində saxlanılır və prosesin kəskin- ləşməsi və ya xronikləşməsini təmin edir.

Humoral immunitet göstəricilərinin tədqiqatı (şəkil 2) $CD19^+$ fenotipli B-limfositlərin miq- darının nisbətən artmasını göstərmişdir ($p<0,05$).

Bir çox müəlliflər də analoji nəticələr almış və B-limfositlərin aktivləşməsini hemofiliyalı xəstələrdə həyata keçirilən əvəzedici müalicə ilə əlaqələndirmişdir [6].

Immunoqlobulinlərin əsas siniflərinin- IgG, IgA, IgM- öyrənilməsi zamanı disimmunoqlo- bulinemiya aşkar edilmişdir- IgG və IgA anticisimləri azalmış, IgM anticisimləri artmış- dır. Bir çox tədqiqat işlərində göstərilir ki, oynaqların degenerativ-distrofik zədələnmə- lərinin inkişaf etməsi zamanı sinovial qişanını zülal və immunoqlobulin tərkibində dəyişikliklər gedir [6,7,8]. Qonartrozlu xəstələrin sinovial mayesində hər 3 sinifdən olan immunoqlo- bulinin aşkar edilməsi və onların miqdarının qan zərdabı üçün normanın minimal həddinə bərabər olması ədəbiyyat mənbələrində öz təsdiqini tapmışdır.

Tədqiqat zamanı Ig G və Ig A-anticisimlərin səviyyəsinin qan zərdabında azalması aşkar edilmişdir, bu isə immunoqlobulinlərin oynağın iltihab ocağında paylanması ilə əlaqədar ola bilər. Ig M-anticisimlər birincili immun cavabın immunoqlobulinləri hesab olunur və qan zər- dabında onların səviyyəsinin artması iltihabi prosesin inkişafından, prosesə kəskin dövr zülallarının və qlobulin fraksiyalarının cəlb olunmasından xəbər verir. Müalicədən əvvəl qan zərdabında DİK orta miqdarı 82,0±2,2 ş.v. təşkil etmişdir ki, bu da müalicədən sonrakı göstəricilərdən 1,3 dəfə ($p<0,05$) çox olmuşdur. Ümumiyyətlə, orqanizmdən antigenlərin çıxarılmasının effektivliyini əks ertdirən DİK göstəricisi, xəstə qrupun 86,7%-də sağlam qrup göstəricisini üstələmişdir.



Şək.2. Hemofilik atropatiyalı xəstələrin naftalanla fonofarez müalicəsi fonunda humoral immunitet göstəricilərinin dinamikada dəyişiklikləri

Bir çox tədqiqat işlərində hemartrozların sürətlə aseptik immun-iltihabi proses xarakteri aldığı qeyd olunmuşdur. Oynaq möhtəviyyatında neytrofillərin sürətlə limfositlərlə əvəz olunması, bu möhtəviyyatda immunoqlobulinlərin və immun komplekslərin miqdarının artması, əvvəl ekssudatda, sonradan isə qanda revmatoid faktorun əmələ gəlməsi yuxarıda qeyd olunanları sübut edir [3].

Təbii müalicəvi vasitə olan naftalan hemofilik artropatiyalarda klinik simptomatikanı yaxşılaşdırmaq, oynaq funksiyalarını yaxşılaşdırmaq və beləliklə də xəstələrin həyat keyfiyyətini yüksəltmək xüsusiyyətinə malikdir.

Qətransızlaşdırılmış naftalanla fonoforezdən ibarət kompleks müalicə fonunda müsbət klinik effekt alınmışdır.

Aparılmış tədqiqatlar nəticəsində hemofilik artropatiyalı xəstələrdə oynaqlarda gedən iltihabi proseslər fonunda immun sistemdə də ciddi dəyişikliklər müəyyən edilmişdir. Oynaqlarda baş verən dəyişikliklərlə immunitetin humoral amilləri arasında qarşılıqlı əlaqəni aşkar etmək üçün korrelyasion analiz aparılmışdır.

Cədvəl 2

Periferik qanın immunoloji göstəriciləri ilə oynaqların klinik parametrləri arasındakı çoxsaylı korrelyasiyaların əmsalı (r)

Göstəricilər	İg G		İg A		İg M		DİK	
Açma bucağı, sm	-0,3	0,15	-0,47	-0,45	-0,2	-0,14	-0,12	0,11
Bukmə bucağ, sm	-0,2	0,11	-0,34	0,2	0,4	0,33	0,12	-0,37
Oynaq diametri, sm	-0,55	0,38	-0,4	0,28	0,29	0,28	0,04	-0,1

Qeyd: - sol sütun müalicədən öncə, sağ sütun müalicədən sonra korrelyasiya əmsalını göstərir.

Korrelyasion analizdə düz və müsbət əlaqə dedikdə, tədqiq olunan göstəricilərin eyni vaxtda artması (r-müsbət), əks və ya mənfi əlaqə dedikdə isə bir göstərici artdığı halda digər göstəricinin azalması nəzərdə tutulur. Tədqiq olunan qrupda 2 növ korrelyasion əlaqə müşahidə edilir- müsbət və mənfi, eləcə də zəif ($r<0,3$) və nisbətən güclü ($0,3<r<0,7$) əlaqə də aşkar edilmişdir. Korrelyasion analiz nəticələri Cədvəl 2-də qeyd olunmuşdur. Ən böyük korrelyasiya əmsalı oynaq diametri və Ig G göstəriciləri arasında müalicədən əvvəl ($r=-0,55$); müalicədən sonra ($r=0,38$) olmuşdur.

Bununla yanaşı, bükmə bucağı və Ig M göstəriciləri arasında da korrelyasiya qeyd olunmuşdur ($r=0,4$). Bu müsbət korrelyasiya onu göstərir ki, Ig M-anticisimlər sinovial mayedə paylanmır və qanda onun səviyyəsi yüksək səviyyədə saxlanılır (Cədvəl 2).

Bununla belə, Ig A və oynaq diametri göstəriciləri arasında da nisbətən zəif korrelyasion əlaqə qeyd olunur; $r=-0,4$ müalicədən əvvəl və $r=0,28$ müalicədən sonra, yəni bütün müalicə kursu ərzində mənfi korrelyasion əlaqə qeyd olunmuşdur. Lakin müalicə fonunda dinamikada Ig G və oynaq diametri;Ig G və bükmə bucağı; Ig

A və oynaq diametri və Ig A və bükmə bucağı göstəriciləri arasında mənfi korrelyasion əlaqə müsbət əlaqə ilə əvəz olunmuşdur, güman ki, bu da müalicədən sonra immunoqlobulinlərin sinovial mayedə paylanmaması ilə əlaqədardır.

Beləliklə, naftalanla müalicə kursundan sonra zədələnmiş oynaqlarda ağrı sindromunun azalması və tamam itməsi, oynaqda hərəkət həcminin artması müşahidə olunmuşdur.

Naftalanla kompleks müalicədən sonra $CD3^+$-T-limfositlərin miqdarının artması, $CD4^+$ - T-helperlərin miqdarının normallaşması və T-limfositlərin supressor funksiyasının stimullaşması (sonuncu isə anticisim əmələgəlməni ləngidir) müşahidə olunmuşdur. B-limfositlərin, DİK-in səviyyəsinin enməsi və Ig konsentrasiyalarının normallaşması qeydə alınmışdır, bu isə autoimmunlaşma proseslərinin ləngidilməsindən xəbər verir.

ƏDƏBİYYAT

1. Əfəndiyev Z.İ., Qədimova E.Ə. və b. Azərbaycanda hemofiliyalı xəstələrin kliniki-populyasion xüsusiyyətləri, müalicə və profilaktika prinsipləri (Tədris metodik tövsiyələr). Bakı, 1999, 25 s.
2. Бадалов Н.Г. Обессмоленный нафталан и его комплексирование с другими физическими факторами в медицинской реабилитации больных псориатическим артритом: Автореф. диссерт. д.м.н. М., 2003, 34 с.
3. Баркаган З.С. Геморрагические заболевания и синдромы. М.:Медицина,1988, 528 с.
4. Зайцев В.М., Лифляндский В.Г., Маринкин В.И. Прикладная медицинская статистика. – СПб.: ООО «Издательство ФОЛИАНТ», 2003, 432 с.
5. Каргин В.Д., Егорова Н.С., Харченко М.Ф., и др. Патогенетические особенности течения гемофилии. // Гемат. и трансф. 1997, т.42, №3, с. 29-32
6. Лунева С.Н., Матвеева Е.Л., Чепелева М.В., Гасанова А.Г. Взаимосвязь белкового спектра и иммуноглобулинов разных классов в синовиальной жидкости при гонартрозе // Клин. лаб. диаг. 2010 №2, с.21-23
7. Павлова В.Н. Синовиальная среда суставов. М.,1980, 296 с.
8. Петрович Н.С. Клинико-диагн. значение иммунологических исследований синовиальной жидкости: Автореф. дисс. ... к.м.н. Челябинск, 2004, 25с.
9. Садков М.С. и др. Физиотерапевтические методы лечения гемофилических артропатий. 2000.
10. Трухачева Н.В. Математическая статистика в медико-биологических исследованиях с применением пакета Statistica. М.: ГЭОТАР - Медиа, 2012, 384 с.

Резюме

Исследования иммунного статуса в динамике лечения фонофорезом с рафинированным нафталаном у больных гемофилической артропатией

М.М. Кязимова, Э.А. Кадымова, Л.М. Ахмедова, Г.К.Гаджиева

Исследован иммунный статус у 15 больных гемофилической артропатией в динамике лечения фонофорезом с рафинированным нафталанном. После курса лечения фонофорезом с рафинированным нафталаном наблюдалось снижения болевого синдрома, повышение двигательной активйности в суставах. В динамике комплексного лечения фонофорезом с нафталаном повышалось количество $CD3^+$- и $CD8^+$- лимфоцитов, нормализовалось количество $CD4^+$ - клеток. Отмечалась тенденции к нормализации концентраций Ig, B-лимфоцитов и ЦИК, свидетельствующих о снижении аутоиммунных процессов.

Summary

Study of immune status in dynamics of phonophoresis treatment with deresined naphthalene of patients haemophilic arthropathy

M.M. Kazimova, E.A. Kadymova, L.M. Akhmedova, G.K. Hajiyeva

Researched the immune status in patients (n=15) with haemophylic arthropathy in the dynamics of phonophoresis with deresined naphthalene. After the course of phonophoresis treatment with deresined naphthalene was observed a reduction of pain, improved motor in joints. In the dynamics of the complex treatment of phonophoresis with naphthalene improved number of CD3 + and CD8 + lymphocytes normal CD4+ cells. Marked trend towards normalization of Ig concentration, B-lymphocytes and the Circulating immune complexes, indicating a decrease of autoimmune processes.

Daxil olub: 22.04.2015

SALMONELLYOZ KEÇİRMİŞ ERKƏN YAŞLI UŞAQLARDA MƏDƏ-BAĞIRSAQ SİSTEMİNİN DİSFUNKSİYASININ SƏBƏBLƏRİ VƏ MÜALİCƏSİ

R.R.Bəylərova
Azərbaycan Tibb Universiteti, uşaq yoluxucu xəstəlikləri kafedrası, Bakı

Açar sözlər: salmonellyoz, uşaqlar, mədə-bağırsaq sistemi, disfunksiya, müalicə
Ключевые слова: сальмонеллез, дети, желудочно-кишечная система, дисфункция, лечение
Keywords: Salmonella, children, gastrointestinal system dysfunction treatment

Tibb elminin naliyyətlərinə baxmayaraq, halhazırda da uşaqlar arasında kəskin bağırsaq infeksiyaları ilə xəstələnmə halları geniş yayılmışdır. Müxtəlif səbəblərdən kəskin bağır - saq infeksiyaları erkən yaşlı uşaqlar arasında daha çox yayılmışdır [1]. Belə ki, bu yaş uşaqlarda orqanizmin spesifik və qeyri-spesifik müdafiə faktorları- immun sistemin tam yetişməmiş, mədə-bağırsaq sisteminin anatomik və funksional cəhətdən formalaşmamışdır. Eyni zamanda bağırsaq infeksiyaları zamanı düzgün diaqnozun qoyulub vaxtında müalicənin aparılmaması, xəstələrə lazım olmayanda da antibakterial müalicənin təyin edilməsi, sanitar-gigiyenik tədbirlərə əməl olunmaması, qidalanmanın düzgün aparılmaması da erkən yaşlı uşaqlar arasında kəskin bağırsaq infeksiyalarının daha çox yayılmasına səbəb olur [2]. Uzun müddətli, ehtiyac olmadan xəstələrə antibiotiklərin təyin edilməsi davamlı-hospital ştamların əmələ gəlməsinə və mədə-bağırsağın selikli qişasının normal mikroflorasının inkişafının ləngiməsinə və şərti-patogen bakteriyaların çoxalmasına səbəb olur.

Erkən yaşlı uşaqlar arasında yayılan kəskin bağırsaq infeksiyalarından salmonellyoz əsas yeri tutur [3]. Uşaq orqanizminin bu infeksiyaya qarşı yüksək həssaslığı, zəif rezistentliyi xəstəliyin ağır gedişatı, tez-tez residivlərin baş verməsi salmonellyoz infeksiyasının müalicəsinin daimi təkmilləşdirilməsinin vacibliyini sübut edir. Salmonelloz keçirmiş uşaqlarda yenidən təkrari mədə bağırsaq sisteminin disfunksiyası əlamətləri ilə xəstələnmə halları çox tez-tez qeyd olunur [4]. Belə hallarda xəstənin yenidən müalicə olunması əvvəlki müalicəyə nisbətən daha çətin olur. Buna görə də erkən yaşlı salmonellyoz keçirmiş uşaqlar arasında təkrari xəstələnmənin səbəblərinin öyrənilməsi, müalicəsinin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatın material və metodları. Erkən yaşlı salmonelloz keçirmiş uşaqlar arasında təkrari mədə-bağırsaq sisteminin disfunksiyasının səbəblərinin öyrənilməsi və müalicənin təkmilləşdiriməsi məqsədi ilə bakterioloji müayinələr aparılaraq salmonelloz təsdiq olunmuş 54 xəstədə (1-3 yaş arasında) anamnestik və kliniki-laborator və bakterioloji müayinələr aparılmışdır. Müayinələr Ə.F. Qarayev adına 2 saylı klinik uşaq xəstəxanasının III-cü yoluxucu şöbəsində aparılmışdır. Müayinə olunan xəstələrin hamısı xəstəxanada yataraq salmonellyoz diaqnozu ilə müalicə olunmuş, klinik yaxşılaşma ilə evə yazılan və yenidən mədə-bağıraq sisteminin disfunksiyası əlamətləri ilə xəstəxanaya qəbul olunan xəstələr olmuşdur.

Anamnestik məlumata əsasən xəstələr 4 qrupa bölünmüşdür. Birinci qrupa 7(13%) uşaq daxil edilmişdir. Müəyyən olunmuşdur ki, bu xəstələrə evə yazıldıqdan sonra ambulator şəraitdə təyin edilmiş müalicə düzgün aparılmamışdır. İkinci qrupa daxil olan 21(39%) uşaqda isə təyin olunmuş qidalanmanın düzgün aparılmaması səbəbindən yenidən xəstələnmə olmuşdur. Üçüncü qrupa 9(17%) uşaq daxil edilmişdir. Bu xəstədə bəzi dərman preparatlarından düzgün istifadə olunmaması yenidən bağırsaq disfunksiyasının əmələ gəlməsinə səbəb olmuşdur. Dördüncü qrupa aid olan 17(31%) uşaqda müxtəlif xəstəliklər nəticəsində mədə- bağırsaq sisteminin disfunksiyası əlamətləri olmuşdur.

Birinci qrupa daxil olan 5(71%) xəstədə bağırsaq biosenozunun normallaşdırılması üçün təyin edilmiş simbiotiklər, vitaminlər lazımı qədər verilməmişdir, müalicə yarımçıq aparılmışdır. 2(29%) xəstəyə isə tamamilə müalicə aparılmamışdır. İkinci qrupda olan 15 (71%) xəstədə ümumi qidanın (qızardılmış ət, paxlalı qidalar, meyvə şirələri və s.), 6 xəstədə (29%) isə qidanın çox verilməsi nəticəsində, üçüncü qrupda olan 6 xəstəyə (67%) isə peros şəklində antibiotikin verilməsindən sonra, 3 (33%) xəstəyə isə dəmir preparatının verilməsindən sonra bağırsaq disfunksiyası əlamətləri olmuşdur. Dördüncü qrupda isə 12 (71%) xəstədə kəskin respirator virus infeksiyasından sonra, 5(29%) xəstədə isə təkrari yoluxma nəticəsində (bakterioloji müayinədə təsdiq olunmuşdur) bağırsaq disfunksiyası əlamətləri olmuşdur.

Cədvəl
Salmonellyoz keçirmiş uşaqlarda bağırsaq disfunksiyasının səbəbləri

Sıra sayı	Xəstələrin sayı	Bağırsaq disfunksiyasının səbəbləri.	
1	7(13%)	Müalicənin axıra qədər aparılmaması	Ambulartor müalicə yarımçıq aparılıb.
			Ambulator müalicə aparılmayıb.
2	21(39%)	Qidalanmanın düzgün olunmaması	Pəhriz axıra qədər olunmayıb.
			Çox qidalandırılıb.
3	9(17%)	Əlavə dərmanlardan istifadə olunması	Peros antibiotiklər verilib.
			Peros dəmir və hepatopatektorlar verilib.
4	17(31%)	Müxtəlif xəstəliklər nəticəsində	Kəskin respirator virus infeksiyası.
			Təkrari yoluxma.

Qarşıya qoyulan məqsədi həyata keçirmək üçün müayinə olunan bütün xəstələr iki qrupa bölünmüşdür. Birinci qrupa (nəzarət qrupu) bağırsaq infeksiyalarına məxsus bazis terapiya alan 26 xəstə daxil edilmişdir. Bunlardan 7 xəstə yüngül, 11 xəstə orta ağır, 8 xəstə isə ağır formalı bağırsaq disfunksiyası əlamətləri ilə olmuşdur. İkinci qrupa (əsas qrup) isə ümumi bazis terapiya ilə yanaşı immuzinc (immunostimulyator) preparatı alan 32 xəstə daxil edilmişdir. Bu xəstələr-10-yüngül, 13- orta ağır, 9 - ağır formaya aid olmuşdur.

Immuzincin (sirop 100ml) tərkibi exinaseya (70mq) və kəndalaş (35mq) ekstraktları, propolis (6mq), beta qlükan (10mq), zinkdən (2,5mq) ibarətdir. Tərkibində olan exinaseya, kəndalaş və propolis orqanizmə antivirus, antibakterial təsir edərək, leykositlərin sintezini artirmaq, immun cavabı stimulə etmək, makrofaqları aktivləşdirmək, orqanizmin immun müdafiə qabiliyyətini yüksəltmək kimi təsirləri vardır. Sink iştahanı artırır, koqnitiv funksiyaları stimulə edir. Beta-qlükan təbii polisaxariddir, bağırsağın selikaltı qatına keçərək, makrofaqları, T hüceyrələrini aktivləşdirir. Dozası-1-3 yaş-5ml gündə 1dəfə, 3-7yaş 5ml gündə 2dəfə, 7 yaşdan yuxarı-5ml gündə 3dəfə təyin edilir.

İlk günlər hər iki qrupa aparılan müalicə eyni olmuşdur. İmmuzinc preparatı xəstəliyin 2-3-cü günü qusma azalandan sonra təyin olunmuşdur.

Hər iki qrupa aid olan xəstələrdə yüngül, orta ağır və ağır formalar zamanı xəstələrdə klinik əlamətlər müşahidə olunmuşdur. Yüngül formalar zamanı temperatur normal, bəzən 37C, qusmanın sayı sutka ərzində 1-2 dəfə, nəcisin sayı isə 3-4 dəfə, orta ağır və ağır formalar zamanı isə temperatur 38-39C, qusma 6-8 dəfə, nəcisin sayı isə 8-15 dəfə bəzən daha çox olmuşdur.

Müalicənin ilk günləri hər iki qrupa eyni kompleks müalicə (əsas rehidratasion terapiya) aparıldığından xəstələrdə klinik dəyişikliklər eyni olmuşdur. Müalicənin 4-5-ci günlərindən sonra aparılan müşahidələrin nəticəsi göstərmişdir ki, bazis terapiya ilə yanaşı immuzinc preparatı alan xəstələrdə klinik əlamətlər, laborator göstəricilər və bakterioloji müayinələr, yalnız bazis terapiyası alan xəstələrlə müqayisədə tez normallaşmışdır. Bu göstəricilərdə olan fərq orta ağır və ağır formalar zamanı daha qabarıq olmuşdur. Belə ki, əsas qrupa aid olan xəstələrdə nəzarət qrupu ilə müqayisədə ümumi intoksikasiya əlamətlərinin daha tez azalması, iştahın yaxşılaşması, uşağın hərəkətliliyinin aktivliyinin artması müşahidə olunmuşdur. Bağırsağın disfunksiyası əlamətləri- ishal, nəcisdə patoloji qarışıqların azalması, bağırsaq florasının normallaşmasının tezləşməsi nəzarət qrupu ilə müqayisədə əsas qrupda 3-4 gün tez olmuşdur.

Beləliklə, salmonellyoz keçirmiş xəstələrdə təkrari əmələ gələn mədə-bağırsaq sisteminin disfunsiyasının səbəbləri müxtəlifdir. Bu səbəblərdən daha çox rast gəlinən qidalanmanın düzgün aparılmaması (39%) və müxtəlif xəstəliklərlə təkrari xəstələnmə (31%) hallarıdır. Müalicə zamanı bu səbəblərin dəqiqləşdirilməsi və aradan qaldırılması, kompleks müalicə ilə yanaşı bağırsaq mikroflorasını normallaşdırmaq, orqanizmin immun müdafiə qabiliyyətini artırmaq üçün immunostimulyatorlardan istifadə olunması vacibdir.

ƏDƏBİYYAT

1.N.M Hüseynova, N.V. Əzizov, M.K. Qurbanov. Uçaq yoluxucu xəstəliklərinin diferensial diaqnostikası. Dərslik. Bakı, 2014.

2.V.F.Əsgərov, V. F. Uçaykin. Uşaqlarda infeksion xəstəliklər. Bakı, 2008.

3. Bəylərova R.R., Bağırova M.N., Kərimova T.A. Uşaqlarda salmonellyozun müalicə prinsipləri / Allerqologiya, immunologiya və immunoreabilitasiya üzrə IV Azərbaycan milli konqresinin materialları. Bakı, 2012, s.52-55

4. Учайкин В.Ф., Нисевич Н.И., Шамшева О.В. Инфекционные болезни у детей. М. ГэОТАР. Медиа, 2007

Резюме

Причины и лечение желудочно-кишечных дисфункций у малолетних детей перенесших сальмонеллёз

Р.Р.Бейларова

У 54 больных (в возрасте от 1 до 3 лет) у которых сальмонеллёз был подтверждён бактериологическими анализами с целью уточнения причин и усовершенствования методов лечения повторных дисфункций желудочно-кишечного тракта у малолетних детей перенесших сальмонеллёз были проведены анамнестические клинико-лабораторные и бактериологические обследования. Было установлено что, у больных перенёсших сальмонеллёз, причины появления дисфункций желудочно-кишечного тракта разные. Из этих причин наиболее часто встречается не правильный режим питания (39%) и случаи повторных заболеваний различными болезнями (31%). Результаты лечения зависят от уточнения и своевременного устранения этих причин. Нормализация микрофлоры кишечника, повышения способности иммунной защиты организма. С этой целью важно в комплексном лечении использовать иммуностимуляторы .

Summary

Disfunction of digestive system in childrens at younger age after treatment for Salmonellosis

R.R. Baylarova

An examination has been conducted with 54 patients at age between 1-3 to investigate disfunction of digestive system in childrens at younger age after treatment for Salmonellosis by using anamnestic, clinical laboratory and bacteriological diagnostic methods. Study has concluded that after treatment for Salmonellosis, disfunction in digestivesystems has different causes and roots. The majority cases are related with inappropriate nutritional intake (39%), and exposure to different diseases with re-infection(31%). The outcome of treatment in this case is largely depend on correct identification of above mentioned causes and their subsequent elimination. For normalization of intestinal microflora and strengthening of immune system during complex treatments the usage of immunostimulators is crucial.

Daxil olub: 13.03.2015

AŞAĞI BƏDƏN ÇƏKİLİ VƏ EKSTREMAL AZ BƏDƏN ÇƏKİSİ OLAN VAXTINDAN ƏVVƏL DOĞULMUŞLARDA MƏNFİ SONLUQLARIN ƏSAS SƏBƏBLƏRİ VƏ ONLARIN QARŞISININ ALINMASI YOLLARI

S.A.Əliyeva, S.R.Qulamova
Elmi-tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı

Açar sözlər: aşağı bədən çəkili yenidoğulmuşlar, ekstremal az bədən çəkili doğulmuşlarda, vaxtından əvvəl doğulmuşlar, müalicə, intensiv terapiya
Ключевые слова: новорожденные с низкой массой тела, новорожденные с экстремально низкой массой тела, недоношенные, лечение, интенсивная терапия
Keywords: infants with low birth weight infants with extremely low birth weight, prematurity, treatment, intensive care

İnkişafın hazırki mərhələsində qeyri-yetkin doğulan uşaqların da sayı artmaqdadır. Çox az və ekstremal az bədən çəkii ilə doğulan uşaqların gələcək inkişafına mənfi təsir göstərən baş beynin, neyrosensor və ağ ciyər patologiyalarının inkişaf tezliyi doğulma zamanı hestasiya müddətinə əks mütənasib olaraq artmaqdadır. Körpə ölümü aparıcı inteqral demoqrafik göstərici olub, ölkənin inkişaf səviyyəsi, iqtisadi və sosial vəziyyətinin əyani göstəricisidir. Körpə ölümünün azaldılması rezervində erkən neonatal dövrdə itgilərin qarşısının alınması böyük əhəmiyyət kəsb edir [1,2].

Körpə ölümünün azaldılmsaında erkən diaqnostika, profilaktika və hestasiya müddəti bə bədən çəkisi nəzər alınmaqla körpə xəstəliklərinin müalicə metodları, yenidoğulmuşlara qulluq vasitələrinin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir [3,4].

Az bədən çəkili və ekstremal az bədən çəkili u.aqlara qulluqdan danışıldıqda daha çox məsələnini klinik aspketlərinə toxunulur, tibbi-sosial, tibbi-təşkilatı məsələlərə, ana, uşaq və ətraf mühit faktorlarına isə az diqqət yetirilir [5,6].

Yarımçıq doğulmuş uşaqlara qulluq tədqiq edilikdə diaqnostika və tibbi yardım proqramlarının koordinasiyasının effektivliyi və randomizə olunmuş tədqiqatların davam etdirilməsinin aktuallığı məlum olur [7,8].

22-25-ci həftələrdə doğulanlar ümumi doğulanların 23% təşkil edir, daha ağır hallar bunların 25%-də qeydə alınır. Az bədən çəkisi ilə doğulmuş uşaqların akademik davamiyyəti daha aşağı olur ki, bu da mütaliənin çətinliyi və düzgün tələffüzdə çətinlik, riyazi biliklərdə çətinliklə özünü göstərir [9].

Məlumdur ki, koqnitiv disfunksiyalar bir çox faktorların təsiri altında müxtəlif istiqamətlərdə baş verə bilər. Belələrinə sosial-iqtisadi status və valideynlərin savadlılıq dərəcəsi, hər iki valideynin ailədə olması, onların uşağın təlim-tərbiyəsində aktiv iştirak etməsi, irsi mənsubiyyət böyük rol oynayır [10].

28-33-cü həftələrdə doğulan 605 nəfərin funksional nəticələrinin təhlilindən məlum olmuşdur ki, onların əksəriyyəti 20-25 yaşlarında inkişafın çətinliklərini dəf edə bilmişlər. Vaxtından əvvəl doğulmuşlar qrupunda 27% halda, vaxtında doğulmuşlar qrupunda 3% halda neyrosensor funskiya pozuntularının tezliyi üstünlük təşkil etmişdir. Müqayisə olunan qruplarda yuxarı sinifləri qurtarma, ali məktəblərə daxil olma, ailə həyatına başlama və özlərinin uşaqlarının olması faizi fərqli olmamışdır [11].

Vaxtından əvvəl doğulmuşların həyat proqnozuna yardımın təşkilati prinsipləri, təcrübə və texnoloji səviyyə böyük təsir göstərir. Yenidoğulmuş uşağın və ya hamilə qadının ixtisasalaşdırılmış müəssisələrə nəqli imkanlarının olması son illər onların vəziyyətinin nəzərəçarpacaq dərəcədə yaxşılaşmasına təsir göstərmişdir

Vaxtınadn əvvəl doğulmuşların həyatlarının uzaq nəticələrinin təhlilindən məlum olmuşdur ki, ötən illərin əldə olunan texnoloji inkişafının səviyyəsi neontalogiyanın bu istiqamətində tətbiqində böyük irəliləyişlərə səbəb olmuşdur. Hazırda neonatologiyada toplanan böyük miqyaslı bilik və təcrübələr həm müsbət məqamları aşkar etməyə, həm də ciddi səhvləri aşkar edib aradan qaldırmağa imkan verir. Eyni zamanda vaxtından əvvəl doğulmuşların sonluğuna təsir göstərən tibbi yardımın texnologiyalarının dəyişməsinin nəticələrini uzun illərdən sonra qiymətləndirmək mümkün olacaqdır [12,13].

Wilson-Costello D. et al tərəfindən aparılan tədqiqata bədən çəkisi 500-999 qr olan 1478 yenidoğulmuş daxil edilmişdir. Bu tədqiqatda texnologiyaların inkişaf dövrü ilə uzaq katamnez arasında əlaqə göstərilmişdir. 1982-1989-cu illər

ərzində süni ventilyasiya aparatlarının tətbiq edilməsi həmin qrup xəstələrdə letallığı nəzərəçapacq dərəcədə azaltmağa imkan vermişdir [14]. 1990-1999-cu illərdə adi tibbi praktikaya surfaktant terapiyasının, profilkatik antenatal və postnatal kortikosteroidlərin tətbiqi erası olmuşdur. Bu da ekstremal az bədən çəkisi olan uşaqların 20 aylıq yaşında sağqalma fazinin 49%-dən 68%-ə qədər artmasına səbəb olmuşdur. Bununla eyni zamanda bronxial-ağ ciyər displaziyalarının yezliyi artmağa başlamış və 32%-dən 46%- qədər yüksəlmişdir. Neyrotoksik təsirə malik "Deksametazon" preparat ilə postnatal terapiyanın geniş vüsət alması nevroloji pozuntuların artmasına səbəb olmuşdur. Periventrikulyar leykomalasiyalar 2%-dən 6%-ə qədər, serebral iflic isə 8%-dən 13%-ə qədər artmışdır. 2000-2002-ci illərdə ənənəvi praktikaya kortikosteroidlərin daxil edilməsi deksametozun ilə müalicə kursunun məhdudlaşmasına gətirib çıxırmış və sepsisin profilatika tədbirlərinin işlənib hazırlanmasına şərait yaratmışdır. Bu nailiyyətlər ekstremal az bədən çəkisi olan uşaqların sağqalma göstəricisinin 68%-dən 71%-ə qədər artmasına səbəb olmuşdur [15].

Ekstremal az bədən çəkisi ilə doğulan yenidoğulmuşların əlilləşməsinə səbəb olan əsas səbəblər: mədəcikdaxili qansızmalar və bronxial-ağ ciyər displaziyalarıdır. Katamnezdə bronxial-ağ ciyər displaziyalarının tezliyi 50% təşkil edir. Son illərin texnologiyalarında baş verən nailiyyətlər ekstremal az bədən çəkisi olan uşaqların sağqalma göstəricisinin artacağına ümid verir [16].

Bu sahədə əsas nailyyətlərdən biri vaxtından əvvəl doğuşların və yenidoğulmuş uşaqlarda pis proqnozun səbəbi kimi amniotikdaxili infeksiyanın rolunun aşkar edilməsi olmuşdur. Son illərin mənbələrindən məlum olur ki, amniotik infeksiyalar ekstremal az bədən çəkisi olan uşaqların sağqalma göstəricisinə son dərəcə mənfi təsir göstərir. Histoloji cəhətdən təsdiq edilmiş xorioamnionit hestasiya müddətinə tərs mütanisbliyə malikdir. 20-24-cü həftələrdə baş verən doğuşlarda onun çəkisi 66%, 34 həftəlik doğuşda 16%-dir [17].

16-22-ci həftələrdə döl xorioamniotik infeksiyalara sistemli iltihabi cavab verməyə qadir olur. İltihabönü sitokinlərin artması sahibinin orqanizminə zədələyici təsir göstərərək, dölün yüksək xəstələnmə və ölüm dərəcəsinə səbəb olur. Dölün infeksiyası və sistemli iltihabi cavabı yenidoğulmuşlarda periventrikulyar leykomalyasiya, mədəcikdaxili qansızmalara, bornixial- ağ ciylərlərin displziyası və erkən neonatal sepsisə səbəb olur [18,19,20].

Bəzi müəlliflərin göstəricilərinə əsasən bədən çəkisi 1000 qr-dan az olan yenidoğulmuşlarda neonatal sepsisin tezliyi hər 100 nəfərə 36,5 təşkil edir, Bədən çəkisi 1001-1500 qr olan yendoğulmuşlar qrupunda isə hər 100 nəfərə 18,9 təşkil edir.

Amniotikdaxili infeksiyanın yaranmasına səbəb olan risk faktorları çoxsaylıdır, yüksək effektivliyə malik olan profilaktika tədbirləri isə yoxdur. Bakterial vaginoz zamanı antibakterial terapiyanın effektivliyi yüksək olur, bu zaman əsas şərt, xəstəliyin gedişatının hestasiyanın 20-ci həftəsindən başlmasıdır. Bakteriuriyanın müalicə edilməsi onlarda pielonefritin yaranması riskini aşağı salır. 24- və 24-cü həftələrdə təyin edilən vaginal suppozitorilərin tərkibində 200 mq progestreon olur. Bu preparatlar vaxtından əvvəl doğuşların profilkatikasında böyük effektivlik göstərir [21].

Sübutedici təbabətdə az bədən çəkisi olan yenidoğulmuşlara doğum evlərinin reanimasiya şöbələrində respirator dəstəklənmə metodlarının adaptasiyaya müsbət təsir göstərməsi haqqında göstəricilər artmqdadır [22].

Поселок Сулу - Тепе	12 проб Koli indeks 9; 11	Общие колиформы Ps.aeruginosa	24 пробы	E.coli Proteus S.aureus Ps.aeruginosa E.faecalis
Пос.Хырдалан Птичий массив	12 проб Koli indeks 14	Общие колиформы Ps.aeruginosa, Candida spp.	24 пробы	Salmonella spp. E.coli S.aureus Candida spp. L.monocytogenes

Примечание: вода питьевая при норме Koli indeks >3.

ЛИТЕРАТУРА

1. Степанова Н.Ю., Иванов А.В., Латынова В.З. Оценка здоровья населения, проживающего на территории водосбора Куйбышевского водохранилища // Гигиена и санитария, 2011, №3, с.17-20

2. Г.Г.Онищенко Влияние факторов внешней среды на здоровье человека // Иммунология, 2006, №6, с.352-356

3. Суменко В.В., Боков В.М., Лебедькова С.Е. и др. Состояние здоровья у детей в зависимости от уровня и характера антропогенного загрязнения // Гигиена и санитария, 2012, №1, с.67-69

4. Гулиева Г.А. К вопросу микробиологии и вирусологии загрязненных вод // Биомедицина, 2011, №3, с.27-29

5. Чубирко М.И., Пичужкина Н.М., Масайлова Л.А., Ласточкина Г.В. Мониторинг биологического загрязнения объектов хозяйственно-питьевого водоснабжения // Гигиена и санитария, 2011, №3, с.80-81

Xülasə

Müxtəlif mənbələrdən olan sularda bioloji risklərin qiymətləndirilməsi

G.Ə.Quliyeva, N.A.Qurbanlı, Ə.V.Həsənov

Bizim tədqiqatların məqsədi 2015-ci il yay-payız mövsümündə sıx əhalisi olan Sulu-Təpə qəsəbəsi və Xırdalandakı "Quş massivində" müxtəlif mərkəzləşdirilmiş su mənbələrindən götürülmüş içməli suyun keyfiyyət və təhlükəsizliyinə laborator nəzarəti tədqiq etməkdən ibarətdir. Həmçinin Bakı şəhəri Abşeron yarımadasında məişət ərazilərdə və qida bloklarında, yaşayış məntəqələrindən təsərrüfat məşiət- çirkab sularda bakterial flora aşkar edilmişdir. İçməli suyun müayinəsi üçün içməli su nümunələri Ceyran-Batan su anbarından götürülmüşdür. Suyun keyfiyyəti qırılmaz şəkildə su boru şəbəkəsinin sanitar-gigyenik vəziyyətindən asılıdır. Çox zaman onun vəziyyəti qeyri-qənaətbxəş olur. Tərəfimizdən çirkab sularda geniş spektrli mikroorqanizmlər deteksiya olunmuşdur.

Summary

Environmental risk assessment of wateR from different sources

G.A.Gulieva, N.A.Gurbanly, A.V.Hasanov

Task setting of our research was the laboratory control of the quality and safety of drinking water from various sources for centralized water supply during the summer - autumn 2015 built and populated areas Sulu-Tepe, in the village. Khirdalan, "Bird array", as well as the identification of bacterial flora in the household - domestic waste water, which are formed in domestic premises, and nutrition units in the residential complex of Absheron district of Baku. The material for the study of drinking water in the area was selected Jeyran-Batanskogo reservoir from different points of water intake. Drinking water quality is inextricably linked with the degree of reliability of the sanitary water network, often located in poor sanitary condition. We have investigated and detected from wastewater wide range of microorganisms.

Daxil olub: 09.03.2015

ДИАГНОСТИЧЕСКАЯ ЗНАЧИМОСТЬ ПОКАЗАТЕЛЕЙ КРАСНОЙ КРОВИ У НОВОРОЖДЕННЫХ С ЗАДЕРЖКОЙ ВНУТРИУТРОБНОГО РАЗВИТИЯ

С.З.Гараева
Азербайджанский медицинский университет, кафедра детских болезней
II лечебно-профилактического факультета, г.Баку

Açar sözlər: yenidoğulmuşlar, bətndaxili inkişafdan qalma, qırmızı qan göstəriciləri, diaqnostika
Ключевые слова: новорожденные, внутриутробная задержка развития, показатели красной крови, диагностика
Keywords: newborn, intrauterine growth, red blood parameters, diagnostics

Задержка внутриутробного развития (ЗВУР) и ее клинические проявления у новорожденных и детей грудного возраста остаются чрезвычайно актуальной проблемой педиатрии и перинатологии. Неонатальный период – время адаптации ребенка к внеутробным условиям существования – очень важен для формирования состояния здоровья на все последующие годы жизни [1]. Система красной крови наиболее активно участвует в механизмах адаптации плода и новорожденного, как к родовому стрессу, так и к изменившемуся типу дыхания после рождения. Особенно это касается системы эритрона, обеспечивающего функцию тканевого дыхания, основного звена адаптации [3,4].

Показатели крови и динамика их изменений у новорожденных хорошо изучены и стали уже частью референтных данных этого контингента детей. Однако до сих пор нет достоверных сведений о том, как влияют на эти процессы условия эмбриофетогенеза, как система эритрона взаимосвязана с патологическим течением периода новорожденности. Малоизученными остаются показатели красной крови и их связь с особенностями адаптации в раннем неонатальном периоде у детей с ЗВУР. Такая информация очень важна для полноценной экспертной оценки состояния здоровья новорожденных и прогнозирования формирования патологии в будущем [2,5]. По-видимому, характеристика состояния системы эритрона новорожденных детей, особенно с ЗВУР, становление которой в раннем онтогенезе происходит под влиянием многих факторов, приводящих к хронической внутриутробной гипоксии, будет отличаться от имеющихся нормативных данных.

Цель исследования: изучить особенности показателей периферической крови новорожденных с задержкой внутри- утробного развития в раннем неонатальном периоде.

Материалы и методы исследования. Для общего анализа крови было обследована кровь 315 доношенных новорожденных с задержкой внутриутробного развития. В контрольную группу входило кровь 50 доношенных новорожденных, рожденных с нормальными антропометрическими показателями (всего 100 образцов).

Изучались следующие показатели: RBC - количество эритроцитов, HGB - гемоглобин, HCT-гематокрит, MCV- средний объем эритроцитов, MCH - содержание гемоглобина в 1 эритроците, MCHC - содержание гемоглобина в эритроцитах, RDW- ширина распределения гемоглобина по объему. Клинический анализ крови новорожденных и матерей проводили на автоматическом счетчике крови Beckman Koulter. Забор крови производили в специальные контейнеры содержащие антикоагулянты ЭДТА или же гепарин.

Статистическая обработка данных проводилась методом вариационной статистики при помощи программного обеспечения MS Excel-2010. Различия считались статистически значимыми при значении уровня различий сравниваемых величин $p<0,05$.

Результаты исследования. Общий анализ крови у всех обследованных новорожденных проводили дважды – на первый и пятые сутки после рождения. По результатам исследований наблюдалось понижение количества общего гемоглобина на пятые сутки жизни в сравнении с первым сутками жизни, как в контрольной, так и в группе новорожденных с ЗВУР. Однако при сравнении этих результатов в основной и контрольной группах установлено статистически отличающиеся значения общего гемоглобина. В первый и пятый дни жизни средний уровень

общего гемоглобина в контрольной группе составил 17,6±0,2 q/dl и 15,4±0,1 q/dl, соответственно. Тогда как эти же результаты в основной группе составили 13,5±0,1 q/dl и 11,5±0,1 q/dl, соответственно.

Количество эритроцитов в основной группе также отличался от контрольной группы. В основной группе количество эритроцитов было ниже, чем в контрольной группе и составило 4,0±0,04 x10^{12}/л (первый день) и 3,63±0,05 x10^{12}/л (пятый день), соответственно.

Таблица 1

Общий анализ крови новорожденных

Показатели	Основная группа (n=315)		Контрольная группа (n=119)	
	1 день	5 день	1 день	5 день
HGB, г/дл	13,5±0,1 (10 – 17,8) ***	11,5±0,1 (8,8-13,6) ^^^***	17,6±0,2 (15,6 – 19,4)	15,4±0,1 (15 – 16) ^^^
RBC, *10^{12}/л	4,00±0,04 (3,22 – 4,98) ***	3,63±0,05 (2,23-4,64) ^^^***	4,53±0,07 (3,9 – 5,42)	4,32±0,06 (3,64 – 4,9) ^
HCT, %	37,8±0,4 (29,7-52,2) ***	35,6±0,4 (29-50,7) ^^^***	51,5±0,7 (37,8 – 54,7)	45,8±0,3 (41,6 – 49,4) ^^^
MCHC, %	32,9±0,2 (26,8-37,5) ***	32,2±0,2 (26-36) ^***	35,5±1,0 (3,64 – 36,9)	34,9±0,2 (30,1 – 36,2)
MCH, пг	29,8±0,2 (24,4-37,1) ***	29,1±0,2 (24 -34,6) ^***	35,7±0,4 (28,6 – 36,8)	33,3±0,3 (28 – 34,4) ^^^
MCV, мкм^3 (фл)	85,5±0,3 (81,1-94,3) ***	83,7±0,6 (74,2 -128) ^^***	95,9±0,5 (91,8 – 99,9)	94,5±0,3 (92,1 – 97,4) ^^
WBC, *10^9/л	17,2±0,5 (7,2-29,7) **	15,4±0,5 (7,2-29,7) ^^*	14,1±0,6 (9,8 – 23)	12,6±0,7 (8,4 – 20)
мон, %	3,94±0,31 (1-15) *	3,72±0,33 (1-18,9) *	2,52±0,15 (1 – 4)	1,90±0,16 (1 – 4) ^^
пал, %	3,00±0,13 (1-7)	2,91±0,11 (1-6)	3,37±0,19 (2 – 5)	3,26±0,17 (2 – 5)
сегм, %	31,1±0,7 (14-58) ***	29,5±0,6 (17-50) ***	37,9±1,2 (30 – 58)	39,7±1,3 (24 – 50)
лимф, %	27,8±0,9 (10-58) ***	26,1±0,9 (12-56) ***	39,3±1,6 (24 – 53)	36,8±1,7 (20 – 56)
RDW, %	14,3±0,3 (2,5-20,5)	15,1±0,3 (0,5-17,2)	14,1±0,2 (12,2 – 15,4)	15,0±0,1 (14 – 17,2) ^^^
ECS, мм/ч	12,8±0,5 (5-24) ***	11,8±0,4 (5-20) ***	8,0±0,7 (4 – 21)	7,7±0,4 (4 – 11)

Прим.: статистическая значимая разница с показателями: 1. контрольной группы: * – $p_1 < 0,05$; ** – $p_1<,01$; *** – $p_1<0,001$; 2. 1 дня: ^ – $p_0 < 0,05$; ^^ – $p_0 < 0,01$; ^^^ – $p_0 < 0,001$

Уровень гематокрита в группе с ЗВУР статистически был ниже, чем в контрольной группе, и составил 37,8±0,4% на первый день и 35,6±0,4% - пятый день. Тогда как эти же значения для контрольной группы составили: 51,5±0,7% (первый день) и 45,8±0,3% (пятый день), соответственно.

Следует отметить, что в группе новорожденных с ЗВУР наблюдали микроцитоз и гипохромию. Уровни среднего объема эритроцитов (MCV) и средней концентрации гемоглобина в эритроците (MCH) в данной группе статистически отличался от контрольной. В группе новорожденных с ЗВУР средний объем эритроцитов распределился следующим образом: 85,5±0,3 мкм^3 (первый день) и 83,7±0,6 мкм^3(пятый день), соответственно. Учитывая адаптивные свойства эритрона, направленные на сохранение адекватной доставки кислорода к тканям, можно полагать, что внутриутробная хроническая гипоксия, которая в совокупности с другими факторами спровоцировала ЗВУР, оказала влияние и на его кроветворную систему, что выразилось в компенсаторном увеличении среднего содержания гемоглобина в 1 эритроците.

Для гематологического показателя – средняя концентрация гемоглобина в эритроците в группе новорожденных с ЗВУР также наблюдали статистически значимые отличия от контрольной группы. В группе с ЗВУР средняя концентрация гемоглобина в эритроците составила: 29,8±0,2 пг (первый день) и 29,1±0,2 пг (пятый день), что статистически отличался от контрольной группы: 35,7±0,4 пг (первый день) и 33,3±0,3 пг (пятый день), соответственно. Следовательно, у детей с задержкой внутриутробного развития чаще наблюдается микроцитоз и гипохромия эритроцитов, что свидетельствует о наличии эритроцитарной патологии у новорожденного.

Уровень лейкоцитов в общем в группе детей с ЗВУР статистически достоверно превышал уровень таковых в контрольной группе. В первый день рождения у новорожденных с ЗВУР уровень лейкоцитов соответствовал 17,2±0,5x10^9/л, в пятый день-15,4±0,5 x10^9/л, тогда как в контрольной группе количество лейкоцитов была следующей: 14,1±0,6 x10^9/л, в пятый день – 12,6±0,7 x10^9/л.

При анализе лейкоформулы также наблюдали достоверное различие в лимфоцитах, сегментных палочках и в моноцитах. Уровень моноцитов в группе с ЗВУР превышал таковых в контрольной группе. Значительное понижение количества сегментных палочек и лимфоцитов отмечено в основной группе у детей с ЗВУР.

Итак, сравнительный анализ результатов общего анализа крови в основной и контрольной группах новорожденных показал статистически достоверное различие в уровнях общего гемоглобина, гематокрита, среднего содержания гемоглобина в эритроците, среднего объема эритроцитов, в количестве эритроцитов а также в скорости оседания эритроцитов. В динамике раннего неонатального периода к пятым суткам жизни происходит снижение показателей красной крови по сравнению с исходными данными. Вероятно, это связано с тем, что на пятые сутки жизни система кроветворения при задержке внутриутробного развития начинает отражать степень тяжести раннего неонатального периода. Учитывая адаптивные свойства эритрона, направленные на сохранение адекватной доставки кислорода к тканям, можно предположить, что внутриутробная хроническая гипоксия, которая в совокупности с другими факторами спровоцировала задержку внутриутробного развития, оказала влияние и на его кроветворную систему.

Таким образом, такие показатели как RBC, HgB, HCT и MCH в раннем неонатальном периоде у новорожденных с задержкой внутриутробного развития могут дать информацию не только о состоянии основной кислородтранспортной системы организма, но и о зрелости эритропоэза и прогнозе ранней адаптации этого контингента новорожденных детей.

ЛИТЕРАТУРА

1. Бахмутова Л.А., Штепо М.В., Лапеко С.В. и др. Изучение структурно-функционального состояния эритроцита у новорожденных с задержкой внутриутробного развития // Вопросы практической педиатрии, 2006, №4, с.12-13

2. Кошелева Н.Г., Зубжицкая Л.Б., Аржанова О.Н. Система гемостаза и иммуноморфологическое состояние плаценты при наличии в плазме крови антифосфолипидных антител с учетом их класса и исхода беременности // Журн. акуш. и жен. бол., 2004, с. 22-26.

3. Насирова У.Ф., Шарипова М.К., Абдурахманова В.Р. Состояние клеточного энергоообмена у новорожденных с задержкой внутриутробного развития и перинатальным поражением ЦНС // Педиатрия, 2014, №3, с.146-148

4. Филиппов Е.С., Протопопова Н.В., Перфильева Н.А. и др. Особенности общего анализа крови у новорожденных с задержкой внутриутробного развития / Материалы IV международной научно-практической конференции «Актуальные вопросы перинатальной патологии». Иркутск, Гренобль, Улан-Батор, 2003, с.134-135.

5. Hernandez-Andrade E., Figure-Diesel H., Jansson T. et al Changes in regional fetal cerebral blood flow perfusion in relation to hemodynamic deterioration in severely growth-restricted fetuses // Ultrasound in Obstretics and Gynecology, 2008, vol.32, N1, p.71-76

Xülasə

Bətndaxili inkişaf ləngiməsi ilə yenidoğulmuşların qırmızı qan göstəricilərinin diaqnostik əhəmiyyəti

S.Z.Qarayeva

Tədqiqat məqsədi erkən neonatal dövrdə bətndaxili inkişaf ləngiməsi ilə doğulan uşaqların periferik qan xüsusiyyətləri öyrənmək idi. Bu məqsədlə bətndaxili inkişaf ləngiməsi ilə doğulan 315 yenidoğulmuşların qanı müayinə olunub. Yenidoğulmuşların əsas və nəzarət qruplarında ümumi qan analizi nəticələrinin müqayisəli təhlili ümumi hemoglobin, hematokrit, hemoglobin orta məzmun səviyyəsi, korpuskulyar qırmızı qan hüceyrələrinin sayının həcmi, eləcə də eritrositlərin çökmə sürətinin statistik fərqı göstərir. Həyatlarının beşinci günündə müayinə olunan uşaqlarda ilk günlə müqayisədə qırmızı qan göstəricilərinin azalması qeyd olunur. Belə ki, bətndaxili inkişaf ləngiməsi ilə yenidoğulmuşlarda erkən neonatal dövrdə RBC, HGB, HCT və MCH kimi göstəricilər orqanizmin əsas oksigen nəqliyyat sisteminin, eritropoezin yetişkənliyindən və bü qrup uşaqların erkən adaptasiyasının proqnozu haqqında məlumat verə bilərlər.

Summary

The diagnostic value of indicators of red blood cells in newborns with intrauterine growth restriction

S.Z.Garayeva

The aim of research was to study the characteristics of the peripheral blood of newborns with intrauterine growth restriction in the early neonatal period. It was examined the blood of 315 full-term newborns with intrauterine growth restriction. Comparative analysis of the results of general blood analysis in the study and control groups of infants demonstrated a statistically significant difference in the levels of total hemoglobin, hematocrit, the average content of hemoglobin, mean corpuscular volume, in the number of red blood cells as well as erythrocyte sedimentation rate. By the fifth day of life is decrease in red blood cells, compared with the first day. Thus, such parameters as RBC, HgB, HCT and MCH in the early neonatal period in newborns with intrauterine growth retardation can provide information not only on the state of the main oxygen transport system of the body, but also the maturity of erythropoiesis and prognosis of an early adaptation of the birth cohort of children.

Daxil olub: 20.04.2015

VİTAMİNSİZ QİDALANMA ŞƏRAİTİNDƏ SİÇOVUL BEYNİNİN QABIQ VƏ QABIQALTI NEYRONLARINDA MORFOLOJİ DƏYİŞİKLİKLƏRİN XÜSUSİYYƏTLƏRİ

B.M.Abuşov[1], F.B.Əskərov[1], Ə.Ə.Səmədov[2], A.M.Əzimova[1]

AMEA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutu[1],
Bakı Dövlət Universiteti[2], Bakı

Açar sözlər: Vitamin, neyron, morfoloji dəyişikliklər, siçovul.
Ключевые слова: Витамин, нейрон, морфологические изменения, крыса
Keywords: Vitamin, neuron, morphological alterations, rat

Vitaminlər həyati əhəmiyyətli maddələrdir [11]. Belə ki, insan və heyvanlar uzun müddət vitaminlərdən məhrum olunduqda orqanizmdə, o cümlədən mərkəzi sinir sistemində ciddi dəyişikliklər əmələ gəlir. Bu dəyişikliklərin morfoloji aspektlərinin hərtərəfli öyrənilməsi böyük nəzəri və praktiki əhəmiyyətə malikdir. Son zamanlar apardığımız neyromorfoloji araşdırmalar [4] vitaminsiz qidalanma şəraitində siçovulların beyninin qabıq neyronlarında əmələ gələn morfoloji dəyişikliklər barədə xeyli yeni məlumat alınmasına imkan verdi. Lakin normal fizioloji və ekstremal şəraitdə beynin müxtəlif törəmələrində, xüsusən də qabıq və qabıqaltı


strukturlarında baş verən morfoloji dəyişikliklərin müqayisəli şəkildə araşdırılması müasir neyrobiologiyanın əsas istiqamətlərindəndir və ayrı-ayrı strukturların funksional baxımdan qarşılıqlı münasibətinin və beynin plastikliyi kimi mühüm problemin öyrənilməsi sahəsində elmi biliklərin daha da dərinləşməsinə şərait yaradır [1, 10].

Hazırkı tədqiqatımızın əsas **məqsədi** vitaminsiz qidalanma şəraitində siçovulların beyin qabığının limbik və hərəki nahiyələrinin və hipotalamusunun lateral və ventromedial nüvələrinin neyronlarında əmələ gələn morfoloji dəyişikliklərin xüsusiyyətlərinin öyrənilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqatlar klassik neyromorfoloji Nissl metodu [14] ilə aparılmışdır. Təcrübələr zamanı 35 baş 4 aylıq ağ siçovul istifadə olunmuşdur. Heyvanlar hər birində 5 siçovul olmaqla 7 qrupa ayrılmışlar. I qrupa aid heyvanlar vivarium şəraitində saxlanmış, II, III, IV qruplar isə Nikonorow və əməkdaş. resepti [13] əsasında (reseptin tam tərkibi saxlanmaqla) 20, 30, 40 sutka yemləndirilmiş və kontrol kimi öyrənilmişlər. V, VI, VII qrup heyvanlar qeyd edilən reseptdən vitaminlər tam çıxarılmaqla 20, 30 40 sutka yemlənmişlər. Təcrübələrin sonunda heyvanlar dekapitasiya edilmiş və beyinləri tədqiq olunmuşdur.Tədqiqat obyekti olaraq beyin qabığının hərəki və limbik nahiyələri və hipotalamusun lateral və ventromedial nüvələri seçilmişdir. Qeyd olunan strukturların seçilməsi onların qida motivasiyasının neyrofizioloji mexanızmində mühüm rol oynaması ilə əlaqədardır. Strukturların identifikasiyası siçovul beyninin mövcud xəritələrindən [12,15] istifadə olunmaqla həyata keçirilmişdir.

Alınmış elmi faktlar və onlarin müzakirəsi. Vivarium şəraitində yemlənmiş siçovulların beyninin limbik və hərəki qabıqlarının I-II və VI-VII qatlarında əsasən orta diametrli piramidaşəkilli neyronlar yerləşir. III-V qatlarda isə sinir hüceyrələri daha iridir. Qabıq neyronlarının sitoplazmasında iri nüvə mərkəzi mövqe tutur, nüvənin mərkəzində nüvəcik yerləşir. Neyronların sitoplazmasında Nissl maddəsi müxtəlif diametrli danələr və zərrəciklər şəklindədir və sitoplazmada diffuz halda yayılmışdır. Bəzi iri piramidaşəkilli neyronlarda Nissl maddəsi kəsəkciklər şəklində nəzərə çarpır. Odur ki, bu neyronlarda Nissl maddəsinin yüksək konsentrasiyası diqqəti cəlb edir (şək. 1a, b).

Hipotalamusun lateral və ventromedial nüvələrində neyronlar retikulyar tipə aiddir. Lateral nüvədə hüceyrələr xeyli iri olub nisbətən seyrək yerləşir, ventromedial nüvənin neyronları isə nisbətən xırdadır və daha sıx yerləşirlər. Lateral nüvənin neyronları Nissl maddəsi ilə zəngin olduğu halda, ventromedial nüvənin neyronlarının az miqdarda Nissl maddəsinə malik olması diqqəti cəlb edir (şək. 2a, b).




Şək. 1. Vivarium şəraitində 40 sutka qidalandırılmış ağ siçovulun hərəki (a) və limbik qabığının (b) V qatında Nissl maddəsi ilə zəngin iri piramidal neyronlar. x1 000.

Neyronlarda müşahidə olunan morfoloji heterogenlik onların fərqli funksional fəallığının əlaməti kimi qiymətləndirilir [5,6].

20, 30, 40 sutka tam vitamin tərkibli qida almış siçovulların beyin qabığı və hipotalamik nüvələrində yerləşən neyronlarında müşahidə olunan morfoloji dəyişikliklər nüvənin və nüvəciyin ektopiyası və Nissl maddəsinin miqdarının artması şəklində nəzərə çarpır. Müxtəlif ekstremal faktorun təsiri zamanı sinir hüceyrələrində müşahidə olunan belə dəyişikliklərə reparativ dəyişikliklər kimi baxılır [2,5,9].


Vitaminsiz qidalanma müddəti uzandıqca reparativ dəyişikliklərə üğramış neyronların miqdarının artması diqqəti cəlb edir. Belə ki, 20 sutka tam vitamin tərkibli qida almış heyvanların hərəki və limbik qabıqlarında hər görüş dairəsində 2% neyronda reparativ dəyişikliklər qeydə alınır. 30 sutka tam vitamin tərkibli qida almış siçovullarda bu göstərici 3%, 40 sutka bu şəraitdə saxlanmış heyvanlarda isə 4% təşkil edir. Hipotalamik nüvələrin neyronlarında reparativ proseslər xeyli zəifdir və 20, 30, 40 sutka tam vitamin tərkibli qida almış heyvanlarda uyğun olaraq 0,9, 1,3, 1,9% təşkil edir.




Şək. 2. Vivarium şəraitində 40 sutka qidalandırılmış ağ siçovulun hipotalamusunun ventromedial (a) və lateral (b) nüvələrində retikulyar neyronlar. x1000.

20 sutka vitaminsiz qidalanmış heyvanların beyin qabığı və hipotalamik nüvələrinin neyronlarında morfoloji dəyişikliklər reparativ xarakterə malıkdir. Bəzi iri neyronlarda Nissl maddəsinin miqdarı artır, nüvə və nüvəcik ekssentrik mövqe tutur. Hər görüş dairəsində belə neyronlar beyin qabığında 1,1, hipotalamik nüvələrdə isə 0,3% təşkil edir.

30 sutka vitaminsiz qidalanmış heyvanlarda beyin qabığının bir qrup iri piramidaşəkilli neyronlarında Nissl maddəsinin bazal dendrit yaxınlığında yüksək konsentrasiyası diqqəti cəlb edir. Təcrübələrin bu mərhləsində reparativ dəyişikliklərə uğramış neyronların miqdarı 1,2%-dir. Digər bir qrup iri piramidal neyronun sitoplazmasında Nissl maddəsinin miqdarı nisbətən azalır, sitoplazmanın periferik sahəsində müxtəlif həcmli vakuollar müşahidə olunur (şək. 3). Belə neyronların miqdarı 0,9% təşkil edir. Hipotalamik nüvələrdə yalnız reparativ dəyişikliklərə malik neyronlar qeydə alının. Onların miqdarı 0,5% təşkil edir.




Şək. 3. 30 sutka vitaminsiz qidalandırılmış ağ siçovulun hərəki qabığında distrofik dəyişikliklərə uğramış piramidaşəkilli iri neyronlar. x1000




Şək.4. 30 sutka vitaminsiz qidalandırılmış ağ siçovulun hipotalamusunun lateral nüvəsində reparativ dəyişikliklərə uğramış iri retikulyar neyronlar.x1000

Müxtəlif ekstremal faktorun təsiri zamanı sinir hüceyrələrində nəzərə çarpan belə dəyişikliklər distrofik dəyikiliklər hesab olunur [2,5,9].

40 sutka vitaminsiz qidalanmış heyvanların qabıq neyronlarında reparativ xarakterli dəyişik- liklər xeyli zəifləyir (0,3%), distrofik dəyişikliklər isə inkişaf edərək daha çox (4%) neyronu əhatə edir. Bir qrup iri piramidaşəkilli neyronda Nissl maddəsinin miqdarı kəskin şəkildə azalır, sitoplazmada xeyli iri həcmli vakuollar diqqəti cəlb edir, nüvə deformasiyaya uğrayır (şək. 5). Hipotalamik nüvələrdə də reparativ dəyişikliklərə malik neyronlarla yanaşı distrofik dəyişikliklərə uğramış neyronlara rast gəlinir (şək. 6). Reparativ dəyişikliklərə uğramış neyronların miqdarı 0,2, distrofik dəyişikliklərə malik neyronların miqdarı isə 0,4 təşkil edir.



Şək.5. 40 sutka vitaminsiz qidalandırılmış siçovulun hərəki qabığının V qatında distrofik dəyişikliklərə uğramış iri piramidal neyronlar. x1 000.



Şək.6. 40 sutka vitaminsiz qidalandırılmış siçovulun hipotalamusunun lateral nüvəsində distrofik dəyişikliklərə uğramış iri retikulyar neyronlar. x1 000.

Beləliklə, vivarium şəraitində saxlanan heyvanlarla müqayisədə tam vitamin tərkibli qida almış heyvanların baş beyin neyronlarında nəzərə çarpan reparativ dəyişikliklərə optimal qidalanma nəticəsində neyronlarda sintetik proseslərin intensivləşməsinin morfoloji ekvivalenti kimi baxmaq olar. Bu prosesin qabıqaltı neyronlarla müqayisədə qabıq neyronlarında xeyli intensiv olması diqqəti cəlb edir.

20 sutka vitaminsiz qidalanmış heyvanların baş beyin neyronlarında müşahidə olunan reparativ dəyişikliklər bu şəraitdə kompensator proseslərin morfoloji təzahürü kimi dəyərləndirilə bilər. Təcrübələrin 30 və 40 sutkalarında beyin qabığı hüceyrələrində qeydə alınan distrofik dəyişikliklər digər ekstremal faktorların da təsiri zamanı neyronlarda müşahidə olunur və neyronun kompensasiyaedici imkanlarının tükənməsi kimi dəyərləndirilir [3]. Vitaminsiz qidalanma şəraitində neyronlarda nəzərə çarpan polimorfizm sinir hüceyrələrinin beyində yaranmış vitamin qıtlığına fərqli həssaslığının nəticəsidir. Vitaminlər bir sıra fermentlərin fəallıq mərkəzi olduğundan vitaminsiz qidalanma şəraitində sinir hüceyrələrində müşahidə olunan distrofik dəyişikliklərə metabolik prosesləri katalizə edən fermentlərin kəmiyyət və keyfiyyətcə pozulmasının nəticəsi kimi də baxmaq olar. Bizim morfoloji tədqiqatların nəticələri laboratoriyamızda aparılmış biokimyəvi və neyfizioloji tədqiqatların nəticələri ilə tam uyğunluq təşkil edir [7,8].

İstər reparativ, istərsə də distrofik xarakterli morfoloji dəyişikliklərin beyin qabığı neyronlarında qabıqaltı neyronlarla müqayisədə daha sürətlə əmələ gəlməsi və daha çox neyronu əhatə etməsi faktı diqqəti cəlb edir. Bu fakt, görünür, qabıq neyronlarında funksional fəallığın kəmiyyət və keyfiyyət baxımından xeyli yüksək olması ilə əlaqədardır. Bu fakt eyni zamanda struktur plastiklik baxımından qabıq hüceyrələrinin geniş imkanlara malik olması kimi də dəyərləndirilə bilər.

ƏDƏBİYYAT

1.Abuşov B.M. Siçovulların beyninin somnogen törəmələrinin sitoloji quruluşunun müqayisəli tədqiqi |/ ADPU-nun Xəbərləri (Təbiət elmləri seriyası). Bakı, 2007, №6, s.59-65

2.Abuşov B.M., Əskərov F.B. Yağda həllolan vitaminlərsiz qidalanma fonunda siçovulların beyin qabığı neyronlarında morfoloji dəyişikliklərin dinamikası / AMEA-nın A.İ.Qarayev adına fiziologiya İnstitutunun əsərləri külliyyatı "Fiziologiya və biokimyanın problemləri".Bakı:2012, XXX c., s. 17-20

3.Abuşov B.M., Əskərov F.B., Qədimova S.O. 30 sutka vitaminsiz qidalanma zamanı neyronlarda struktur dəyişiklikləri / İdman fiziologiyasının müasir problemləri (konf. mat.). Bakı, 2008, s. 6-11

4.Abuşov B.M., Əskərov F.B., Səmədov Ə.Ə. Vitaminsiz qiralanma şətaitində siçovulların beyin qabığı neyronlarında morfoloji dəyişikliklər // Azərbaycan təbabətinin müasir nailiyyətləri, 2015, № 2, s.204-206

5.Abuşov B.M., Məhərrəmova L.M. Zülal qıtlığı zamanı baş beyin neyronlarında morfoloji dəyişikliklər / AMEA-nın A.İ.Qarayev adına fiziologiya İnstitutunun əsərləri külliyyatı "Fiziologiya və biokimyanın problemləri". Bakı, 2000, XIX c., s.17-20.

6.Абушов Б.М., Аскеров Ф.Б., Сулейманова Л.М. Возрастные особен-ности морфологии структур мозга на фоне белковой депривации / Матер. II Международ. конф. «свободные радикалы, антиоксиданты и старение». Астрахань, 2011, с.30-32

7.Азимова А.М. Влияние безвитаминного питания на активность Mg- и Na,K-АТФаз коры головного мозга, гипоталамуса и продолговатого мозга взрослых белых крыс / Azərbaycan zoologlar cəmiyyətinin əsərləri. Bakı: 2013, № 1, Vc., s.109-115

8.Аскеров Ф.Б., Мовсумов Г.Д., Абушов Б.М. и др. Особенности энегообеспечения и энерготраты мозга при формировании эмоционально-мотивационного состояния на фоне дефицита витаминов / IX Международ. междисциплинар. Конгр. «Нейро-наука для медицины и психологии» (Судак, Крым, Украина, июня 2013 г). М., 2013, с.67

9.Кривицкая Г.Н., Гельфанд В.Б., Попова Э.Н. Деструктивные и репаративные процессы при очаговых поражениях головного мозга. М.: Медицина, 1980, 216с.

10.Вербицкая Л.Б., Воробьева Т.В., Семенченко И.И., Павловская Н.И. Изменения ультраструктуры дендритов в процессе старения // Бюлл.экспер.биол. и мед.,1986, №10, с.474-477

11.Ребров В.Г., Громова О.А. Витамины, макро- и микроэлементы (руководство). – М.: ГЭОТАР-Медиа, 2008, 960с.

12.Светухина М.В. Цитоархитектоника новой коры в отряде грызунов (белая крыса) //Арх. Анат., 1962, т.42. № 2, с.31-44

13.Nikonorow M., Urbanek-Karlowska B., Karlowska K. Protein deficient diets activity of selected enzymes of protein and karbohydrate metabolizm // Toxicology, 1973, N 1, p. 168-179

14.Nissl F. Ультраструктура нервной системы. М.: Мир, 1972, 176 s.

15.Pellegrino L., Pellegrino A., Cushman A.A stereotaxic atlas of the rat brain. N.Y. London: Plenum Press. 1979, 122p.

Резюме

Характеристики морфологических изменений в нейронах корковых и подкорковых структур мозга крыс в условиях безвитаминного питания

Б.М. Абушов, Ф.Б. Аскеров, А.А. Самедов, А.М.Азимова

В данной статье исследуются характеристики морфологических изменений нейронов корковых (лимбической и моторной коры) и подкорковых (латеральной и вентромедиальной ядер гипоталамуса) структур мозга 4-месячных белых крыс, при кормлении безвитаминной пищей в течение 40 дней. Установлено, что по скорости образования и развертывания морфологические изменения в корковых нейронах превышают изменения подкорковых. Этот факт может быть связан с тем, что функциональная активность качественных и количественных показателей в корковых структурах более высокая, чем в подкорковых.

Summary

Characterization of morphological changes in the cortical and subcortical neurons of brain of rats under vitamin-free diet

B.M. Abushov, F.B. Askerov, A.A. Samedov, A.M.Azimova

In the present work the characterization of morphological changes in the cortical (limbic and motor cortex) and subcortical (lateral and ventromedial hypothalamic nuclei) brain structures of 4-month-old rats under feeding vitamin-free diet for 40 days are examined. It has been revealed that morphological changes in the cortical neurons are greatly in excess by rate of formation and development of that in the subcortical ones. It would follow from the fact that functional activity of the mentioned parameters in the cortical structures is higher than in the subcortical ones.

Daxil olub: 27.04.2015

AZƏRBAYCAN ƏHALİSİNİN XƏSTƏLƏNMƏ HALININ DEMOQRAFİK TƏHLİLİ VƏ HƏYATA KEÇİRİLƏN DƏRMAN TƏCHİZATI

N.Q. Xəlilov
Azərbaycan Tibb Universiteti, Əczaçılıq texnologiyası və idarəciliyi kafedrası, Bakı

Açar sözlər: demoqrafiya, xəstələnmə halı, dərman təminatı, səhiyyə
Ключевые слова: демография, здравоохранение, заболевания, снабжение медикаментов.
Keywords: demography, health, case of developing of a disease, medicinal supply

Əhalinin sağlamlıq vəziyyətini xarakterizə edən meyarlardan biri demoqrafik göstəricilərdir. Demoqrafiya əhalinin miqdarı, tərkibi, təkrar istehsalı və dəyişilməsi haqqında elmdir.

Demoqrafiya müstəqil elm olub, əhalinin statistikası və əhalinin dinamikasından ibarətdir. Əhalinin statistikası əhalinin ümümi miqdarı, yaşı, cinsi, peşəsi, təhsili, ailə vəziyyəti, yaşayış yeri, milli tərkibi, əhali sıxlığı, məşğuliyyəti və s. sosial əlamətləri müəyyən edir. Əhalinin dinamikası və ya əhalinin təbii hərəkəti isə doğum, ölüm, uşaq ölümü, təbii artım, evlənmə, boşanma və digər demoqrafik proseslərlə xarakterizə olunur.

Xəstələnmə geniş mənada xəstəliklərin və ya onun ayrı-ayrı qruplarının əhali arasında yayılması deməkdir. Eyni zamanda əhalinin sağlamlıq durumunu müəyyən edən mühüm meyar hesab edilir. Xəstələnmə dərəcəsi öyrənilməsi dedikdə, bütün xəstəliklərin əhalinin yaş, cins, ərazi və peşə qrupları içərisində yayılmasını, dinamikasını, quruluşunu, həkimin, tibb idarələrinin və səhiyyə orqanlarının fəaliyyəti müəyyən edilir.

Xəstələnmə dərəcəsinin azaldılması səhiyyə orqanlarının fəaliyyətinin səmərəliyini və keyfiyyətini xarakterizə edir. Xəstələnmənin öyrənilməsinə tibbi fəaliyyətin bütün xəstəliklərə qarşı mübarizəsi aiddir. Onun obyekti sanitariya-epidemik və müalicə profilaktika idarələrinin, bütün ixtisas həkimlərinin tibbi fəaliyyətinin bilavasitə xidmət hesab edilir Əhalinin xəstələnməsi əsasən 4 üsulla öyrənilir [1].

1.Müalicə -profilaktika idarələrinə müraciət edilməsinə əsasən

2.Tibbi müayinə məlumatlarına əsasən

3.Ölüm səbəblərinin təhlil edilməsinə əsasən

4. Əlillik səbəblərinin öyrənilməsinə əsasən

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanaraq "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2014-2025-ci illər) hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 290 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası"nın məqsəd və prinsiplərinə əsaslanır.

Dövlət Proqramı ölkədə mövcud demoqrafik prosesləri təhlili əsasında bu sahənin gələcək inkişaf istiqamətlərini və həyata keçirilməsi üçün zəruri olan tədbirləri özündə birləşdirir. Son 20 ildə, xüsusilə də son 10 ildə Azərbaycan Respublikasında uğurla həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq, ölkədə demoqrafik vəziyyətin və əhalinin orta illik artım göstəricilərinin yaxşılaşmasına, orta ömür müddətinin uzadılmasına və müsbət miqrasiyaya nail olunmuşdur.

2003-2013-cü illər ərzində ölkə əhalisinin sayı 14% artaraq 2014-cü il 1 yanvar tarixinə 9477.1 min nəfər təşkil etmişdir. Əhalinin 53,2%-i şəhərlərdə, 46,8%-i isə kənd yerlərində yaşayır. Qeyd olunan dövr ərzində şəhər əhalisi 16% və kənd yerlərində yaşayan əhalinin sayı 11% artmışdır. Bu da öz növbəsində ölkədə urbanizasiya proseslərinin sürətlənməsindən xəbər verir.

Ölkədə aparılan demoqrafik siyasət, o cümlədən ana və uşaqların mühafizəsi sahəsində həyata keçirilən tədbirlər nəticəsində körpə və uşaq ölümü göstəricilərində müsbət dinamika müşahidə olunur. Ölkədə qadınların reproduktiv potensialının tədricən azalmasını nəzərə alaraq, Dövlət Proqramının əhatə etdiyi dövr ərzində doğulan uşaqların sayının hazırki səviyyədə saxlanılması əsas prioritet kimi qəbul edilir.

Əhalinin ümumi ölüm səviyyəsinin aşağı düşməsi sahəsində müşahidə olunan müsbət tendensiyalar doğulanda gözlənilən ömür uzunluğunun artmasına səbəb olmuşdur. Əhalinin sağlamlığına və həyat şəraitinin təhlükəsizliyinə bir çox amillər, o cümlədən ölkədə olan ekoloji vəziyyət, qida məhsullarının keyfiyyəti, məişət şəraiti bilavasitə təsir edir. Qeyd olunanlara nail olmaq üçün demoqrafik təkrar istehsalın tərkib hissələrinin (doğum, ölüm, miqrasiya) optimallaşdırılmasına yönələn dolğun, elmi əsas-

landırılmış və səmərəli tədbirlər sisteminin yaradılması tələb olunur.

Azərbaycan Respublikasının davamlı inkişafının təmin edilməsində əsas şərtlərdən biri olan insan kapitalının inkişafı hazırda ön plana çəkilir. Əhalinin demoqrafik təkrar istehsalının əhəmiyyəti ictimai tərəqqinin əsas amillərindən birini təşkil edir və insan kapitalının daşıyıcısı olan insan nəslinin ardıcıl təkrar istehsalından ibarətdir.

Demoqrafik inkişaf kontekstində insan inkişafının davamlılığı dedikdə əhalinin optimal artımı, əhalinin təkrar istehsalının optimal tipi nəzərdə tutulur. Hazırda dünyada müşahidə edilən əhalinin sürətli artımı ətraf mühitə təsirin kəskin artması və insanların ümumi tələbatının çoxalması ilə ifadə olunur ki, bu da yoxsulluğun, iqtisadi geriliyin və ictimai qeyri-stabilliyin artmasına təsir göstərir. Eyni zamanda, inkişaf etmiş ölkələrdə əhali sayının azalması və dünyada gedən yaşlaşma proseslərinin sürətlənməsi əmək resurslarının və davamlı inkişafda mühüm rol oynayan gələcək nəsillərin sayının azalması ilə nəticələnir.

Əhalinin sayının azalması Azərbaycana xarakterik olmasa da geosiyasi və milli maraqlara cavab verən demoqrafik təhlükəsizliyin təmin olunması və gələcək sağlam nəslin inkişafı dövlətimizin inkişafında əsas strateji istiqamətidir. Ölkədə qadınların reproduktiv potensialının tədricən azalmasını (nəsillərin əvəz olunması nəticəsində reproduktiv yaşda olan qadınların sayının dəyişməsini) nəzərə alaraq, Dövlət Proqramının əhatə etdiyi dövr ərzində doğulan uşaqların sayının hazırki səviyyədə saxlanılması əsas prioritet kimi qəbul edilir. Bununla əlaqədar bu sahədə demoqrafik siyasət əhalinin reproduktiv hüquqlarının, doğum səviyyəsinin optimallaşdırılmasını, orta uşaqlıq dərəcəsinin stimullaşdırılmasını, ailə planlaşdırılmasının təkmilləşdirilməsini, əhalinin reproduktiv sağlamlığının möhkəmləndirilməsini tələb edir. Bundan irəli gələrək, ana və uşaqların mühafizəsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Ailə institutunun möhkəmləndirilməsi məqsədilə ailələrin, xüsusilə gənc ailələrin mənzil, məişət və əmək şəraitinin, maddi rifahının yaxşılaşdırılması, ailələrdə uşaqların doğulması və tərbiyə edilməsi üçün sağlam mühitin yaradılması və bu sahələrlə bağlı iqtisadi, sosial, təşkilati, inzibati-hüquq və təbliğat məsələləri üzrə kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bununla yanaşı, valideyn himayəsindən məhrum olmuş uşaqların həyat keyfiyyətinin yaxşılaşdırması və onların sosial müdafiəsinin gücləndirilməsi üzrə tədbirlər müəyyən edilmişdir.

Demoqrafik inkişafın digər vacib aspektlərindən biri ölüm dinamikasıdır. Bu sahədə ölüm göstəricilərinin yaxşılaşdırılması və gözlənilən ömür müddətinin uzadılması real hesab olunur. Müsbət meyllərin gözlənilməsi ilk növbədə bu gün ölkədə qarşıya qoyulan strateji vəzifələrdən birinin- əhalinin sağlamlığının möhkəmləndirilməsi və bu sahədə müvafiq işlərin aparılmasından irəli gəlir.

Əhalinin sağlamlığına və həyatının təhlükəsizliyinə bir çox amillər, o cümlədən ölkədə olan ekoloji vəziyyət, qida məhsullarının keyfiyyəti, məişət şəraiti bilavasitə təsir edir. Qeyd olunanları nəzərə alaraq, Dövlət Proqramı çərçivəsində ekoloji tarazlığın və ətraf mühitin qorunması, ərzaq və qeyri-ərzaq məhsullarının istehsalı, saxlanması, ölkəyə gətirilməsi və satışına nəzarətin gücləndirilməsi, havanın çirklənməsinin azaldılması, içməli suyun keyfiyyətinin artırılması üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasında miqrasiya sahəsində qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, milli təhlükəsizliyin və sabit sosial-iqtisadi, demoqrafik inkişafın təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi üçün ölkə ərazisində əhalinin mütənasib yerləşdirilməsi və qeydiyyat-uçot sisteminin təkmilləşdirilməsi məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun olaraq, əhalinin kəmiyyət və keyfiyyət artımını təmin etmək üçün hərtərəfli şəraitin yaradılması məqsədilə səhiyyə, təhsil, sosial müdafiə sisteminin təkmilləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Qeyd olunanları nəzərə alaraq, Dövlət Proqramının prioritet istiqamətləri aşağıdakılardan ibarətdir:

-Ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği;

-Ailələrə, xüsusilə gənc ailələrə sosial-iqtisadi dəstəyin gücləndirilməsi;

-Əhalinin reproduktiv sağlamlığının möhkəmləndirilməsi, ana və uşaqların mühafizəsinin gücləndirilməsi;

-Əhalinin ölüm və xəstələnmə səviyyəsinin azaldılması;

-Əhalinin həyat şəraitinin təhlükəsizliyinin yüksəldilməsi;

-Miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi;

-Əhali sakinliyi və demoqrafiya sahəsində kadr və elmi potensialın inkişaf etdirilməsi.

Dövlət Proqramının həyata keçirilməsində beynəlxalq qurumların, BMT-nin müvafiq strukturlarının, o cümlədən BMT-nin Əhali Fondunun cəlb olunması nəzərdə tutulur [2].

Demoqrafiya ilə yanaşı səhiyyənin vəziyyətini qiymətləndirmədə iqtisadi səciyyəli iki göstəricidən də istifadə olunur: 1) məcmu daxili məhsuldan səhiyyəyə yönəldilən pay 2) bu xərclərin quruluşu (ambulator və stasionar yardıma, profilaktik işlərə və səhiyyənin digər tədbirlərinə ayrılan pay) səhiyyə ücün ayrılan vəsaitin dövlət büdcəsi xərcləri tərkibində xüsusi çəkis 3,5% təşkil edir. Bu isə inkişaf etmiş dövlətlərlə müqayisədə hələ də aşağı göstəricidir [3].

Əhalinin sağlamlığının möhkəmləndirilməsinə və orta ömür müddətinin uzadılmasına nail olmaq məqsədilə ürək-damar, onkoloji, yoluxucu və digər xəstəliklərin, bədbəxt hadisə, zəhərlənmə və travmalar nəticəsində xəstələnmə və ölüm hallarının azaldılması, profilaktik, müalicə və reabilitasiya işinin təkmilləşdirilməsi, səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, əhaliyə göstərilən tibbi yardımın keyfiyyətinin yüksəldilməsi, əhali arasında sağlam həyat tərzinin yayılması, müalicə sanatoriyalarının və istirahət evləri şəbəkəsinin inkişafı və s. üzrə konkret tədbirlər nəzərdə tutulur.

Azərbaycan Respublikasında iqtisadiyyatın inkişaf etdiyi bir dövrdə əhalinin bütün əmtəələrlə təchiz edilməsində müəyyən irəliləyişlər vardır. Bütün dövlət müəssisələri ilə yanaşı hətta özəl təşkilatlar sahibkarlığın inkişaf perspektivindən istifadə edərək müəyyən əmtəələrlə Respublika əhalisinin təchiz edilməsində böyük rol oynayırlar.

Əhali üçün vacib olan əmtəələrdən biri də dərman vasitələridir. Respublika əhalisinin dərman vasitələri ilə təchiz edilməsində dövlət və hökümət tərəfindən bu məsələnin həlli üçün geniş islahatlar həyata keçirilir. Respublikamızda əhaliyə tibbi xidmətin və dərman xidmətinin təkmilləşdirilməsi sahəsində dövlət səviyyəsində müxtəlif tədbirlər proqramı hazırlanmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 noyabr 2010-cı il və 13 dekabr 2010-cı il tarixlərində qəbul etdiyi qərarlara əsasən nəzərdə tutulan xəstəliklər üzrə 2011-2015-ci illər üçün tədbirlər proqramı təsdiq edilmişdir. Hazırki şəraitdə Ümumdünya Səhiyyə Təşkilatının ayrı-ayrı ölkələrinin Səhiyyə təşkilatlarının qarşısında qoyduğu vəzifələrdən biri də əhalinin əsas dərman vasitələri ilə təmin edilməsidir. Ümumdünya Səhiyyə Təşkilatının qarşıya qoyduğu bu vəzifələri yerinə yetirmək üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyi nəznində İnnovasiya və Təchizat Mərkəzi yaradılmışdır [4]. Qlobal təchizat sisteminin və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının qanunun tələblərinə müvafiq olaraq Səhiyyə Nazirliyi epidemiyaların və digər törənə biləcək təhlükələrin qarşısının alınması üçün öz tədbirlər proqramını hazırlayır və lazım olan dərman vasitələrinin ehtiyatının yaradıl- masını təşkil edir [5].

İnnovasiya və Təchizat Mərkəzi həm də dövlət tədbirlər proqramına uyğun olaraq dərman vasitələrinin sifarişini tərtib edir və onların ehtiyyatını yaradır, dərman vasitələrinin əhaliyə fasiləsiz olaraq çatdırılması üçün proqnozlaşdırma və planlaşdırma fəaliyyətini daha üstün cəhətlərlə həyata keçirir. Əksər ölkələrdə dərman vasitələrinin etibarlı alış praktkasından istifadə edilir. Ümumidünya Səhiyyə Təşkilatının ekspertləri tərəfindən bəyənilmiş və təklif edilmişdir. Əgər dərman vasitələrinin lazimı miqdarda alınmasına maliyyə vəsaiti imkan vermirsə, onda tədarük ediləcək dərman vasitələrinin siyahısına birinci dərəcəli lazım olan dərman vasitələrinin adları salınmalıdır.

Daha üstün dərman vastəsinin seçilməsi və az iqtisadi effektli preparatlarının alış həcminin azaldılması üçün bir sıra metodlardan (VEN) və formulyar sistemdən istifadə olunur. Formulyar sistem-səhiyyədə kompleks idarəetmə metodu sayılır. Bu medodika dərman vasitələrindən istifadə olunmasında və dərman təchizində rasional, təşkilatı, iqtisadi cəhətdən effektiv üsulların işlədilməsinin təmin edilməsi, malik olduğu resurslardan optimal istifadə etməklə, konkret şəraiti nəzərə alaraq, maksimal yüksək keyfiyyətli tibbi yardımın göstərilməsidir. [6].

Hal-hazırda 17 mərkəzləşdirilmiş tibb müəssisələri "Azərbaycan Respublikasının əhalisinə zəmanətli tibbi yardımın təmin edilməsi barədə" 01.12.2005-ci il tarıxli 141№-li əmrində və bu əmrə əlavə olan Azərbaycan Respublikası Səhiyyə nazirliyinin 132№-li 02.10.2008-ci il tarixli əmrində olan əsas dərman vasitələri ilə təchiz edilir [7].

Səhiyyə müəssisələrinin təchizatı Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 130 saylı 22.12.2011-ci il tarixli "Stasionar şəraitdə istifadə olunan ən vacib dərman vasitələri və tibbi ləvazimatların siyahısının genişləndirilməsi

barədə" əmri ilə həyata keçirilir. Dərman vasitələri tender yolu ilə alınır. Dərman vasitələrinin alınması Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi əsas dərman vasitələrinin siyahısına əsasən aparılır [8].

Əsas dərman vasitələrinin sıyahısı Azərbaycan Respublikası Səhiyyə Nazirliyini Farmakoloji və Farmakologiya Ekspert Şurasının 9№-li 20.05.2011-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

ƏDƏBİYYAT

1.Çobanov R.Ə., Xudaverdiyeva H.M., Ələkbərov M.M. və b. Sosial gigiyena və səhiyyənin təşkili Bakı, 2007, 119 s.

2."Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2014-2025-ci illər)

3.Rəcəbli H. Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi. Bakı, 2012, 336 s.

4.Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi haqqında Əsasnamə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 25 dekabr 2009-cu il tarixli 185№ li əmri

5."Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu, Qanunvericilik toplusu-2006, 22 dekabr 2006-cı il №208-IIIQ

6.Vəliyeva N. Məhbubə., Cabbarova A. Şəfiqə. Əczaçılığın idarə olunması və iqtisadiyyatı. Bakı, 2013, 241s.

7."Azərbaycan Respublikasının əhalisinə zəmanətli tibbi yardımın təmin edilməsi barədə" 01.12.2005-ci il tarıxli 141№-li və 132№-li 02.10.2008- ci il tarixli əmrləri

8."Azərbaycan əhalisinə zəmanətli tibbi yardımın təmin edilməsi barədə" Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 130 saylı 22.12.2011-ci il tarixli "Stasionar şəraitdə istifadə olunan ən vacib dərman vasitələri və tibbi ləvazimatların siyahısının genişləndirilməsi barədə" əmri.

Резюме

Демографический анализ состояния заболевания Азербайджанского населения и осуществленное обеспечение лекарством

Н.Г.Халилов

Одним из критериев, характеризующих обстоятельства здоровья населения является демографические показатели. Считается важнейшим критерием, определяющим обстоятельства здоровья населения. Говоря о заболевании, определяется распространение всех заболеваний среди возрастных, половых, территориальных и профессиональных групп населения, их динамику, строение, работу врачей, медицинских учреждений и здравоохранительных органов. В снабжении населения республики лекарственными препаратами, осуществляются широкие реформы со стороны государства и власти для решения этого вопроса. При данных условиях одним из обязательств, поставленных перед Здравоохранительными органами отдельных государств со стороны Всемирной Организации Здравоохранения, является обеспечение населения основными лекарственными препаратами.

Summary

Drug supply implemented with the demographic analysis of the illness case of the Azerbaijani people

N.G. Khalilov

One of the criterias that characterize the people's health condition is their demographic indexes. It is considered as a important criteria which defines the health condition of the population. The development of a disease means spreading, dynamism and structure of all diseases among the age, gender, territorial and professional groups of the population as well as the work of doctors, medical establishments and health authorities. Large reforms are conducted by the state and governement in supply of the Republic's people with medicinal agents for solution of this problem. In the present condition, one of the tasks set forth by the World Health Organization before the health organizations of different countries is to supply the people with key medicinal agents.

Daxil olub: 04.03.2015

KƏSKİN BAĞIRSAQ İNFEKSİYALARININ ERKƏN YAŞLI REKONVALESSENTLƏRİNDƏ BAĞIRSAQ DİSBIOZU VƏ ONUN KORREKSİYASI

S.İ. Əhmədova, G.X. İbrahimova, N.M. Hüseynova, A.A. Qaragözova, S.B.Məmmədov
Azərbaycan Tibb Universiteti, Uşaq yoluxucu xəstəlikləri kafedrası, Bakı

Açar sözlər: bağırsaq disbiozu, bağırsaq mikroflorası, probiotiklər
Ключевые слова: дисбиоз кишечника, микрофлора кишечника
Keywords: intestinal dysbiosis, intestinal microflora

Sağlam şəxslərin bağırsağında 300 növə qədər müxtəlif mikroorqanizm vardır ki, onların böyük əksəriyyəti obliqat mikrofloranın hesabınadır (bifidumbakteriyalar, laktobakteriyalar, qeyri-patogen bağırsaq çöpləri və s.). Bağırsaq florasının 92-95%-i obliqat anaerobların hesabınadır. Bağırsaq mikroflorasının tərkibi fərdidir və uşaq həyatının ilk günləri formalaşır [1,3,8]. Normal mikrofloranın formalaşması üçün vacib faktor ana südüdür, belə ki, ana südünün tərkibində bəzi növ mikroorqanizmlərin lazımi miqdarda toplanması üçün bir sıra maddələr vardır (bifidum faktor, laktoferrin, lizosim və s.). Uşaq həyatının ilk günlərində müxtəlif qeyri-qənaətbəxş faktorlar, xüsusilə mədə-bağırsaq traktında olan patoloji vəziyyətlər bağırsaq biosenozunun çətin korreksiya olunan ağır pozuntularına səbəb ola bilir. Bu dövrdə antibiotiklərin qeyri-rasional istifadəsi mikrofloraya ağır zərbə vurur.

Bağırsaq disbiozu bu və ya digər xəstəliyin ağırlaşması və ya ikincili təzahürü hesab olunur [1,2, 3,5]. Öz növbəsində disbiotik dəyişikliklər əsas xəstəliyin gedişini, müalicənin nəticəsini ağırlaşdırır və insan orqanizmində funksional və morfoloji pozuntuların patogenetik faktoru ola bilər. Disbioz inkişaf etdikdə orqanizmin immun sistemi zəifləyir, infeksion xəstəliklərə həssaslıq yüksəlir. Bağırsaq mikrobiosenozu pozulmuş şəxslər, hətta klinik əlamətlər olmasa da, kəskin bağırsaq infeksiyaların inkişafına və mədə-bağırsaq traktının funksional pozuntularına görə risk qrupuna daxildirlər [8].

Kəskin bağırsaq infeksiyaları (KBİ) xəstələnmə səviyyəsinin yüksəkliyi, gedişinin ağırlığı, ağırlaşmalarına və KBİ törədicilərinin antibakterial maddələrə rezistentliyinin artmasına görə səhiyyənin aktual problemlərindəndir. Ona görə də, problemin hər tərəfli öyrənilməsi, sanogenez və reabilitasiya proseslərinin sürətləndirilməsi vacibdir. Disbioz patogenlərin və simbiontların qarşılıqlı antaqonistlərə görə KBİ-nin patogenezinə daxildir. KBİ zamanı antibakterial terapiya assosiyasiya olunmuş disbiozun inkişafina səbəb olur. KBİ-dən sonra bu 1-3 il saxlanılır.

Cədvəl 1
Bağırsaq biosenozunun tərkibi

Mikrob	Miqdarı	Funksiyaları
Bifidobakteriyalar	1q yoğun bağırsağın möhtəviyyatında 85-98%,109-111 mikrob cisimləri	Süd turşusunun, lizosimin ifrazı,immun sisteminin stimulyasiyası, qida inqridientlərin utilizasiyasını asanlaşdırır, vitamin K,C, bəzi B qrup vitaminlərini sintez edir, D vitamini, dəmirin, kalsiumun sorulmasına kömək edir.
Laktobakteriyalar	1q yoğun bağırsağın möhtəviyyatında 107-108 mikrob cisimləri	Bağırsağın selikli qişasının bərpa proseslərini asanlaşdırır, patogen mikroorqanizmlərin inkişafının qarşısını alır.
Bağırsaq çöplərin qeyri-patogen növləri	1q yoğun bağırsağın möhtəviyyatında 107-108 mikrob cisimləri (0,01%)	Vitamin K və kolisinlər sintez edir

Bağırsaq mikroflorasının kəmiyyət və keyfiyyətinin dəyişməsi, bunun nəticəsində mikrofloranın əsas funksiyalarının pozulması və müəyyən klinik əlamətlərin əmələ gəlməsi bağırsaq disbiozu adlanır.

Uşağın böyüməsini və inkişafını təyin edən faktorlardan biri bağırsaq mikroflorasının (BMF) vəziyyətidir [3,4,8]. İnsan orqanzimində bütün mikroblar birlikdə yaşayır. Təkamül prosesində saprofit mikrob birlikləri orqanizmin əsas funksiyalarının yerinə yetirilməsində əhəmiyyətli rol oynayır.

Ana bətnində sağlam dölün inkişaf etdiyi müddətdə onun bağırsaqları steril olur və

mikroorqanizmlər doğulduqdan bir neçə saat sonra meydana çıxır. Adətən, bu bakteriyalar ananın doğuş yollarından və bağırsağından keçir- müxtəlif növ laktobakteriyalar, eşerixiyalar, sterptokoklar, enterokoklar, stafilokoklar və s.

Bifidobakteriyaların və süd turşusu çöplərinin simbiozu uşaqda normal biosenozun formalaş- ması üçün vacib əhəmiyyət kəsb edir.

Həyatın birinci ili ərzində təbii qidalanan uşaqlarda süni qidalanan uşaqlara nisbətən bifidofloranın formalaşması daha sürətlə gedir [4]. Bu ana südündə olan difidogen faktorların və başqa komponentlərin təsirindən normal bağırsaq mikroflorasının formalaşması, immunqlobulin- lərin, xüsusiən sekretor İgA-ən, makrofaqların, T- və B- limfositlərin, komplement və onun komponentlərinin, lizosimin, interferonun və s. əmələ gəlməsi ilə izah olunur.

Ümumiyyətlə, 1 yaşına qədər tbbi qidalanan uşağın bağırsaq mikroflorası bifidobakteriyaların və laktobakteriyaların yüksək olması (bağırsaq boşluğunun 1 qram tərkibində 10^7-10^{11} mikrob cismi), bağırsaq çöplərinin ümumi miqdarının tərəddüd etməsi (10^6-10^8 mikrob cismi), onlarının sayının tam tam dəyərli aerob bağırsaq şöplərinin (50%-85%), laktoza-mənfi və hemo- litik bağırsaq çöplərinia (4-25%), enterokoklara olan nisbətinin (10^5-10^7) geniş tərəddüd etmələri ilə xarakterizə olunur [8].

3 aydan böyük praktiki sağlam uşaqların bir qismində (5-15%) bağırsaqda protey növlü mikroblar ($<10^3$), başqa şərti-patogen enterobek- tariyalar ($<10^4$), saörofit və epidermal stafilo- koklar (10^4-10^6), mayayabənər göbələrlər (10^4) aşkar olunur.

Süni qidalanmada bir yaşına qədər uşaqlarda lakto- və bifidofloranın azalması ilə yanaşı bakteroidlrəin, bağırsq çöplərinin ümumi miqda- rının, əsasən, şərti-patogen floranın artması qeyd olunur.

Bir yaşdan böyük uşaqlarda qram-müsbət sporogen mikroorqanizmlərin- bakteroidlərin sayı 10^8 qədər artır, laktobakteriyaların isə sayı 10^6 qədər azalır (bağırsaq boşluğunun1 q tərkibində olan mikrob cisimlərinin sayı).

1 q bağırsaq boşluöunun tərkibində olan eşerixiyaların ümumi sayı 10^6-dan 10^8 qədər tərəddüd edir. Bunun 60-80%-ni tam dəyərli bağırsq şöpləri, 5%-ə qədərini laktoza-mənfi enterobekteriyalar, 10%-ə qədərni isə fermentativ xüsusiyyətləri zəif olan bağırsaq çöpləri təşkil edir. Bağırsağın aerob florasının 10-15%-ni aədətən enterokoklar təşkil edir.

Bağırsağın mikroflorası mikroorqanzimdə gedən bütün proseslərdə iştirak edir. Bifidobakteriyaların fəaliyyəti nəticəsində süd, sirkə, qarışqa və kəhraba turşuları yaranır, bu isə bağırsaq pH mühitinin 4,0-3,8-ə qədər azalmasına səbəb olur və nəticədə bağırsaqda çürümə və patogen mikrobların inkişafının və artmasının qarşısını alır.

Bifidobakteriyaların əhəmiyyətli rolu, əsasən, bir yaşına qədər uşaqlarda ondan ibarətdir ki, bu mikroorqanzimlər bağırsaqda olan dəmir və kalsium düzlarının, vitamin D-in absorbsiyası prosesində işitrak edir və beləliklə, anemiya- əleyhinə və raxitəleyhinə xüsusiyyətinə malikdir. Bundan başqa bifidobakteriyalar aminturşu- larının, zülalın, vitamin K-ın, tiaminin, riboflovi- nin və B qrupunu başqa vitaminlərinin, fol, nikotin və patogen turşularının enteral sintezində iştirak edir.

Bifidobakteriyalar südəmər uşaqlarda bağır- sağın peristaltikasına qıcıqlandırıcı təsir edir. Bifidobakteriyaların və süd tuşrusu çöplərinin simbiozu müəyyən funksional rol oynayır: laktobakteriyaların bağırsağın selikli qişasında məskunlaşaraq, onun səthində bifidofloranın inkişafı və çoxalmasına əlverişli mühit yaradır.

Disbakterioz geniş yayılmış xəstəlikdir. Yaşlı əhalinin 90%-də və bir yaşa qədər uşaqların 25%-dən çoxunda aşkar olunur. Bir çox xəstəliklər, o cümlədən xroniki xəstəliklər bağırsağın mikroboisenozunu pozulması ilə əlaqədardır və çox vaxt disbakteriozun nəticəsi hesab olunur.

Disbakterioz 21-ci əsrin əsas sosial bəlası hesab olunur. Problemin aktuallığı disbakte- riozun müalicəsində və onun korreksiyasında daim yeni preparatların axtarışini tələb edir.

Uşaqlarda bağırsaq mikrobiosenozu çox labil və dinamikdir, xarici mühitin müxtəlif faktor- larının təsirindən və makroorqanizmin patoloji vəziyyətindən asılı olaraq daim dəyişir [1,3,5,8]. Uşağın həyatında müxtəlif qeyri-qənaətbəxş faktorlar, xüsusilə mədə-bağırsaq traktının patoloji vəziyyətləri bağırsaq mikrobio- senozu- nun çətin aradan qaldırılan pozuntularına səbəb olur [7].

Bağırsaq mikriobiosenozunun əhəmiyyətli pozulması mədə-bağırsaq traktının yoluxucu xəstəliklərinə səbəb olur ki, bu da sistem və yerli immunitetin göstəricilərinin azalmasına səbəb olur [9].

Disbakteriozun vaxtında müalicə olunmaması orqanizmin bir sıra sistemlərində: həzm, immun, tənəffus və urogenital sistemdə pozğunluqlara səbəb olur [2,9]. Disbakteriozun geniş yayıl- ması mədə-bağırsaq traktının ağır kəskin və xroniki tezliyini və ağırlığını müəyyən edən əsas

amillərdəndir. Belıliklə, formalaşmış disbakterioz qüsurlu patogenetik həlqəni qapayır.

Problemin şübhəsiz əhəmiyyətinə baxmayaraq hal-hazırda kəskin bağırsaq infeksiyalarından sonra yaranan disbakteriozlara həsr olunmuş elmi işlər kifayət qədər deyildir. Bu problemin vaxtında aşkar olunub aradan qaldırılması pediatriyanın aktual problemlərindəndir.

Kəskin bağırsaq infeksiyaları (KBİ) xəstələnmə səviyyəsini yüksəkliyi, gedişinin ağırlığı, ağırlaşmalarina və KBİ törədicilərini antibakterial maddələrə rezistentliyinin artmasina görə səhiyyənin aktual problemlərindəndir. Ona görə də, problemin hər tərəfli öyrənilməsi, sanogenez və reabilitasiya proseslərinin sürətləndirilməsi vacibdir.

Son illər KBİ-nin müalicəsində antibakterial preparatların etiotrop müalicə kimi istifadə olunması məhdudlaşdırılıb. KBİ-in kəskin dövründə, xüsusilə pediatriyada probiotiklərin istifadəsinin səmərəliliyinin öyrənilməsi istiqamətində tədqiqatlar aparılır [6,10,11,12]. KBİ-nin rekonvalessensiya dövründə, sanogenez prosesini sürətləndirmək, postinfeksion funksional pozuntuların və iltihabi xəstəliklərin profilaktikası məqsədi ilə bağırsaq mikroflorasının korreksiyasına həsr olunmuş işlər azdır. KBİ-dən sonra bağırsaq mikroekologiyasını problemlərinin öyrənilməsi, həmçinin probiotik preparatların növündən asılı olaraq aşkar olunmuş disbiotik kənaraçıxma hallarının korreksiyası bizim müayinənin əsas məqsəd və məsələsidir.

Bizim müayinənin **məqsədi** erkən yaşlı uşaqlarda kəskin bağirsaq infeksiyalarının rekonvalessensiya dövründə bağırsaq mikroflorasının vəziyyətinin öyrənilməsi və müxtəlif probiotik preperatlarla disbiozun korreksiyasının effektivliyinin qiymətləndirilməsidir.

Tədqiqatın vəzifələri:

-rekonvalessentlərdə bağırsaq mikroflorasının vəziyyətinin öyrənilməsi;

-kəskin bağirsaq infeksiyalarının rekonvalessensiya dövründə bağırsaq mikroflorasının korreksiyasının əsaslandırılması;

-kəskin bağirsaq infeksiyalarının rekonvalessensiya dövründə Lizoflor C preparatının klinik effektivliyinin öyrənilməsi;

Nozologiyasından asılı olmayaraq kəskin bağırsaq infeksiyası kecirmiş bütün uşaqlarda erkən rekonvalessensiya dövründə bağırsaq disbiozu aşkar olunmuşdur. Xəstəliyin kəskin dövründə istifadə olunan probiotiklər disbiozun inkişafının qarşısını tam ala bilməmişdir, ancaq mikrobiosenoza saxlayıcı təsir göstərir. Xəstəliyin kəskin dövründə antibakterial preparatlar alan uşaqlarda mikrofloranin pozulması daha qabarıq olmuşdur.

Bağırsaq disbiozunun müalicəsi üçün bifidobakteriyalar və laktobakteriyalarla zəngin olan Lizoflor C probiotik preparatından istifadə olunmuşdur.

Lizoflor-C preparatın tərkibində laktobassillər, bifidobakteriyalar, streptococcus therphilus, inulin, vitamin B_{12}, C, fructooliqosaxaridlər, fol turşusu, sink və nəhayət lizosim vardır.

Lizosim enzimləri bakteriyaların hüceyrə divarındaki komponentlərdən N-asetil muramik asit və N-asetil qlikozamin arasındaki B-bağlarını parçalayaraq bakteriya hüceyrəsini lizisə uğradır. Lizosim bağırsağın yerli immunitetini gücləndirir. Fruktooliqosaxaridlər insan orqanizmi tərəfindən metabolizmə məruz qalmayan maddədir. Bağırsaqlarda yalnız normal floraya daxil olan mikroorqanizmlər tərəfindən parçalanır və onlar üçün qidalı mühit təşkil edir. Prebiotik olaraq normal mikrofloranın inkişafini təmin edir, vitamin və mineralların - Zn, Mq, Fe-in sorulmasında iştirak edir. Yoğun bağırsaqda laktobakteriyalar və bifidobakteriyalar tərəfindən enerji kimi istifadə olunur.

Tədqiqtaın material və metodları. Müayinə altında kəskin bağırsaq infeksiyası keçirmiş uşaq 36 olmuşdur. Nəzarət qrupuna ümumi qəbul olunmuş bazis terapiya almış 12 uşaq, əsas qrupa isə bununla yanaşı Lizoflor C preparatı alan 24 uşaq daxil edilmişdir.

Müayinə altında olan bütün uşaqlar kliniklaborator, bakterioloji müayinələrdən və nəcişin disbakterioza görə müayinəsindən keçirilmişdir.

Lizoflor C 1 kapsul gündə 1 dəfə yeməkdən əvvəl təyin olunmuşdur.

Preparat 10 gün müddətinə təyin olunmuşdur.

Kəskin bağırsaq infeksiyası kecirmiş rekonvalessentlərə Lizoflor C preparatının təyin olunması bağırsaq mikroflorasının tez normallaşmasına, klinik əlamətlərin tez bərpa olunmasına səbəb olmuşdur.

Beləliklə:

-Kəskin bağırsaq infeksiyası kecirmiş bütün rekonvalessentlərdə bağırsaq disbiozu aşkar olunmuşdur: 55,5% I dərəcə bağırsaq disbiozu, 45,4% II dərəcə bağırsaq disbiozu;

-Kəskin bağırsaq infeksiyalarının qızğın dövründə antibakterial terapiyadan sonra uşaqlarda bağırsaqda olan disbiotik dəyişikliklər normafloranın geniş spektrli qarışıq pozuntuları ilə xarakterizə olunur - rezident mikroorqanizmlərin əhəmiyyətli dərəcədə azalması və şərtipatogen mikroorqanizmlərin artıb çoxalması;

-Mədə-bağırsaq traktının funksional pozuntularının inkişafının qarşısının almaq və bağırsaq mikrobiosenozunun bərpası üçün korreksiyaedici terapiya lazımdır;

-Kəskin bağırsaq infeksiyası kecirmiş rekonvalessentlərə bifidobakteriyalar və laktobasillər saxlayan Lizoflor C preparatının təyin olunması erkən klinik remissiyaya və bağırsaq florasının tez bərpa olunmasına səbəb olmuşdur.

Cədvəl 2

Müayinə qruplarında bağırsaq disbiozu göstəriciləri

Disbioz göstəriciləri	Uşaqların sayı (n=36)	Faiz göstəricisi (%)
I dərəcə bağırsaq disbiozu	20	55,5
II dərəcə bağırsaq disbiozu	16	45,4
Bifidofloranın defisiti	21	58,35
Laktobasillərin defisiti	17	47, 2
E.coli-nin defisiti (normal fermentativ aktivlikli)	7	19,4
Şərti-patogen floranın artması	12	33,3

Cədvəl 3

Müalicədən sonra bağırsaq florasını tərkib göstəriciləri

Göstəricilər	Müalicədən sonra			
	Əsas qrup (n=24)		Nəzarət qrupu 12 (n=12)	
	Müt.r	%	Müt.r.	%
Bifidofloranın defisiti	2	8,3	2	16,7
Laktobasillərin defisiti	3	12,5	3	25
E.coli-nin defisiti (normal fermentativ aktivlikli)	1	4,16	2	16,7
Şərti-patogen floranın artması	3	12, 5	4	33,3

ƏDƏBİYYAT

1.Ардатская М.Д., Дубинин А.В., О.Н. Минушкин. Дисбактериоз кишечника: современные аспекты изучения проблемы, принципы диагностики и лечения // Тер. архив, 2001, №2, с.67-72

2.Белоусов Ю.В. Гастроэнтерология детского возраста. Харьков, 2000, 527 с.

3.Бережной В.В. Кишечный дисбактериоз у детей // Перинатол. и педиатрия, 1999, №1, с.25-30.

4.Дубовская М.И., Мухина Ю.Г., Нетребенко О.К. Пробиотики и формирование микробиоценоза у детей первого года жизни // Лечащий врач, 2003, №5, с.58-60.

5.Крамарев С.А. Дисфункции кишечника у детей // Med. Amicus, 2004, №2, с.17-18.

6. Няньковский С.Л., Шаевская Х., Заричанский Я. Роль пробиотиков в вскармливании детей, профилактике и лечении заболеваний у детей и взрослых // Современ. педиатр, 2006, №2

7.Парфенов А.И., Г.А.Осипов, П.О.Богомолов и др. Дисбактериоз кишечника. М., 2000

8.Самсыгина Г. А. Особенности становления биоценоза кишечника у грудных детей и кишечный дисбактериоз. М.: РГМУ, 2001.

9.Хавкин А.И. Микробиоценоз кишечника и иммунитет // Рус. мед. жур.,2003,№3, с.122-126.

10.Kaila M., Isolauri E., Sepp E. Fecal recovery of a human Lactobacillus strain (ATCC 53103) GG during dietary therapy of rotavirus diarrhea in infants // Biosc. Microti., 1998, v.17(2), p.149-151

11.Kalliomaki M., Salminen S., Arvilomthi H. Probiotics in primary prevention of atopic disease: a randomised placebo-controlled trial // Lancet, 2001, №7, p.1076-1079

12.Sheen P., Oberhelman R. et al. Short report a placebo-controlled study of Lactobacillus GG colonization in one-two-three-year-old Peruvian children //Am..Trop.Med.Hyg.,1995,v.52, p.389-392.

Резюме

Дисбиоз кишечника у реконвалесцентов острых кишечных инфекций в раннем возрасте и способы его коррекции

С.И. Ахмедова, Г.Х. Ибрагимова, Н.М. Гусейнова, А.А. Гарагезова, С.Б.Мамедов

В периоде ранней реконвалесценции ОКИ, независимо от нозологии, у всех переболевших выявлен дисбиоз кишечника. У лиц, леченных в остром периоде антибактериальными препаратами, нарушения микрофлоры оказались более выраженными. Предложена коррекция дисбиоза кишечника пробиотиком Лизофлор С, в результате чего клинические проявления

дисбиоза купировались в более короткие сроки. Назначение пробиоти-ков после перенесенных ОКИ позволило ускорить санацию кишечника.

Summary

Intestinal dysbiosis in convalescents of acute intestinal infections at an early age and ways of its correction

S.I.Ahmedova, Q.H.İbrahimova, N.M.Husüynova, A.A.Qaragozova, S.B.Mamedov

In the period of an early reconvalescence of all, independently of a nosology, intestinal dysbiosis was revealedat convalescents. At the persons receiving antibacterial preparations in the sharp period, violations of microflora were more expressed. The correction of intestinal dysbiosis by Lizoflor S probiotic was offered, which allowed tostopdisplays of dysbiosis in the shorter terms. Prescription of a probiotic after postponed all allowed to accelerate sanation of intestines.

Daxil olub: 02.03.2015

ПРИМЕНЕНИЕ ПРЕПАРАТОВ ГРУППЫ ЛОРНОКСИКАМ ДЛЯ ПРОФИЛАКТИКИ БРОНХИАЛЬНЫХ СВИЩЕЙ ПОСЛЕ РАДИКАЛЬНЫХ ОПЕРАЦИЙ У БОЛЬНЫХ НЕМЕЛКОКЛЕТОЧНЫМ РАКОМ ЛЕГКОГО

З.А.Сафаров, Т.А.Кулиева

Азербайджанский медицинский университет, Онкологическая клиника

Açar sözlər: ağ ciyərlərin böyük olmayan hüceyrə xərçəngi, bronxial fistul, lornoksikam, profilaktika

Ключевые слова: немелкоклеточный рак легкого, бронхиальные свщи, лорноксикам, профилактика

Keywords: non-small cell lung cancer, bronchial fistulas, lornoxicam, prevention

Несмотря на совершенствование хирургической техники, частота бронхиальных свищей после радикальных рассширенных операций на легком по поводу немелкоклеточного рака все еще остается очень высокой. Летальность при этом составляет до 58% [1]. Многие внутренние факторы (раковая интоксикация, слабость иммунитета, тяжелые гнойно-воспалительные изменения в слизистой бронха у людей злоупотребляющих курением сигарет, сопутствующие заболевания, усуглубляющие течение процесса и снижающие местную сопротивляемость тканей к инфекции), а так же внешние факторы сопровождающие любое травматичное оперативное вмешательство (интраоперационная кровопотеря и инфицирование плевральной полости,длинная культя бронха, погрешности оперативной техники, длительное и обильное накопление экссудата после операции, постоянный кашель, трудность откашливания мокроты) обуславливают актуальность проблемы профилактики бронхиальных свищей в торакальной хирургии. Тяжесть этого осложнения объясняется еще и тем, что дыхательная недостаточность из-за шунтирования воздуха через фистулу культи бронха проявляется на фоне низких показателей иммунитета больного, которое обусловлено исходным заболеванием, эмпиемой плевры и гнойной интоксикацией. Все вышеперечисленные факторы в комплексе нередко дискредитирует даже самые совершенные методы укрывания культи бронха. Следует отметить, что в последние годы в связи с применением в практике торакального хирурга более совершенных механических одноразовых аппаратов для прошивания бронха, а также прошивание культи более современными инертными шовными материалами, частота возникновения бронхиальных свищей значительно уменьшилась.По данным некоторых клиник частота этого грозного осложнения упала до 7-16 % [2-3].

По данным многих авторов риск развития бронхиальных свищей повышается при наличии метастатических измененных бифуркационных и прикорневых лимфоузлов. При их тесном прилегании к стенке бронха бывает трудно сохранить бронхиальные артерии, которые играют главную роль в питании бронхов и всей легочной паренхимы,что и приводит к ухудшению кровоснабжения культи бронха [8]. Кроме того,среди факторов

риска развития бронхиального свища после резекций и пульмонэктомий при раке легкого выделяют сторону выполнения операций. Бронхиальные свищи чаще отмечаются после правосторонних пневмонэктомий и расширенного объем медиастинальной лимфодиссекции. Так, по наблюдениям ряда авторов [8,4.9,], частота развития бронхиальных свищей может возрастать в несколько раз в связи с высоким уровнем лимфодиссекции именно при правосторонних локализация опухоли,так как для удаления доступны не только лимфоузлы корня легкого и средостения на стороне поражения, но и частично контрлатеральные. При этом происходит полное обнажение трахеи, начального отдела левого главного бронха и восходящей аорты. Слева возможна лимфодиссекция корня и частично средостения на стороне поражения, но доступ к лимфоузлам контрлатеральной группы средостения невозможен из-за расположения в левом гемиторакс аорты [11]. Однако в ряде клинических исследований не содержится подтверждения влияния расширенной лимфодиссекции на повышение частоты развития бронхиального свища, хотя и отмечается важность сохранения бронхиальных артерий при выполнении этой процедуры для профилактики развития нарушений кровоснабжения культи бронха и бронхиального свища [12]. По данным многих авторов [9,10,11] при эксперименте на собаках выполнении расширенной лимфодиссекции при правосторонней пневмонэктомии отмечается отсутствие магистрального кровообращения правой половины трахеи и вентральной поверхности левого главного бронха. При этом такое пересечение бронхиальных сосудов во время расширенной лимфодиссекции не обуславливает макро и микроскопического различия в сроках заживления тканей культи бронха, что свидетельствует о развитой коллатеральной и внутриорганной системе кровоснабжения трахеи и главных бронхов [8]. Тем не менее данное исследование не совсем корректно в плане условий развития в культе бронха у больного ,перенесшего пневмонэктомию по поводу лоб- и пульмонэктомию, несостоятельности [7].

Важно отметить и тот факт, что после левосторонней пульмонэктомии культя главного бронха в результате прошивания ее аппаратом УКЛ как бы «убегает» глубоко в средостение и к 4-5 суткам (наиболее опасные в плане возникновения бронхиального свища) облегающие ее ткани средостения успевают сформировать довольно таки прочную соединительнотканную оболочку вокруг культи, а это устраняет возможность и риск развития вторичного бронхиального свища. Совсем различная ситуация складывается справа, когда вследствии особенностей анатомического строения правого гемиторакса создается ничем не прикрытая полость вокруг культи, что и обуславливает высокую вероятность развития бронхиального свища [9,10]. В данной ситуации оголенная культя бронха остается свободной в плевральной полости подвергаясь постоянному воздействию инфицированного экссудата и как следствие этого возникновению несостоятельности бронха. Стоит отметить, что при сильном надсадном кашле который возникает фактически у всех больных с тяжелыми обструктивно- гнойными заболеваниями легких давление в культе бронха составляет около 46 ра, что в сравнениии с давлением в обычном бронхе в 5-6 раз больше.При этом следует учитывать и парциальное давление свободной плевральной полости которое очень низкое в свободной плевральной полости. В результате резкий перепад давлений в двух смежных полостях (культе бронха и плевральной) создают идеальные условия для возникновения бронхиального свища.

Учитывая все выше сказанное, важнейшее значение имеют комплекс мероприятий направленных на профилактику возникновения бронхиального свища. Существуют несколько направлений в разрешении этой главной для всех торакальных хирургов проблемы: 1.совершенствование хирургической техники, глубокое знание хирургами анатомии и топографии корня легкого; 2.внедрение в повседневную практику новых и совершенных технологий, направленных как на облегчение мобилизации легкого, а так же на укрепление линии швов культи бронха (применение сосудистых и бронхиальных стаплеров, новейших типов шовного материала, усовершенствование методов и правильный подбор пластики культи бронха и т.д.); 3.оптимизация методов пред- и послеоперационного ведения больных после резекций легкого; 4.правильная оценка и прогнозирование возможных осложнений со стороны культи бронха в зависимости от стороны операции, объема лимфодиссекции, пластики культи бронха, возраста больного,

сопутствующих заболеваний, стадии опухолевого процесса, гистологической структуры опухоли и т. д.).

Цель исследования. Оценка эффективности профилактического применения в послеоперационном периоде препаратов группы лорноксикам для снижения частоты бронхиальных свищей у больных немелкоклеточным раком легкого после резекций и пневмонэктомий.

Как известно, наложение на ткани различной гистологической архитектоники (бронхи, пищевод, кишечник и т.д.) швов, независимо от структуры шовного материала (шелк, кетгут, викрил, пролин) ведет к возникновению в точке прокола иглы асептического воспаления и микроочагов некроза тканей. Титановые скрепки даже самых совершенных стаплеров и бронхоушивателей так же не гарантируют идеального заживления соприкасаемых тканей в месте наложения анастомоза. Следует отметить, что по мнению некотрых авторов [7,9,11] главной причиной данного вида шовного асептического воспаления, которое наступает на 3-5 сутки после оперативного вмешательства, является активный выброс в зоне инородного материала (нить, скрепка) пересеченными тканями биологически активных веществ-простагландинов (А и Е), серотонина, лейкотриенов, гистамина, лизосомальных ферментов. Концентрация данных веществ в зоне анастомоза возрастает в 3 раза по сравнению с нормальными тканями (454 нмоль/л). Микроскопическая картина срезов тканей с места наложения танталовых скребок аппарата УКЛ- 40 и укрепленных 8-образными швами викрилом на культю главного бронха показана на рис 1.




Рис.1. 4 сутки после оперативного вмешательства




Рис. 2. 13 сутки после операции

На данном рисунке явно видны грубо выраженные дистрофические явления бронхиального эпителияс участками некроза, крупные очаги лимфогистиоцитарной инфильтрации в строме, что является свидетельством обширного участка воспаления в области культи бронха. Ниже представлена (Рис 2) картина в зоне того же анастомоза на 13 сутки после оперативного вмешательства, когда стихают отечность и инфильтрация, а так же дистрофические явления в области шва. Четко видна свежая соединительнотканная полоса формирующегося рубца.

Данный факт является подтверждением того, что самый опасный период в плане возникновения бронхиального свища (не связанного с погрешностями оперативной техники)являются 5-8 сутки после операции, когда под воздействием как внутренних так и внешних факторов, происходит прорезывание швов в зоне асептического воспаления культи с дальнейшим развитием такого грозного осложнения как эмпиема плевры. В этом плане, по данным многих авторов [9,10,11] препараты группы лорноксикам воздействуя на основное звено синтеза простагландинов А, Е, F1 и F2 тем самым ингибирует SOG- 1 и SOG-2, блокируя при этом механизмы стимуляции синтеза медиаторов воспаления.Более того, снижая концентрацию и активность медиаторов агрегации тромбоцитов (Тромбоксан А и Б), данные препараты улучшают микроциркуляцию кровоснабжение в зоне наложения швов, что положительно сказывается на заживлении культи бронха [8,9,10]. Считается, что профилактическое применение препаратов данной группы значительно уменьшает концентрацию данных веществ в области шва бронха (134 нмоль/л), что в

конечном итоге приводит к снижению частоты воспалительных явлений и созданию наиболее благоприятных условий для заживления культи [6,7,8].

Материалы и методы исследования. В онкологической клинике в период с 1998 по 2014 прооперировано 146 больных по поводу немелкоклеточного рака легкого. Оперативное вмешательство в объеме пневмонэктомий, билоб- и лобэктомий выполнено 123 больным (рис.3). Расширенный объем лимфодиссекции произведен был у 56 больных.




Рис. 3. Оперативное вмешательство в объеме пневмонэктомий, билоб- и лобэктомий выполненых 123 больным

У 78 больных культю бронха в основном укрывали жировой клетчаткой перикарда на сосудистой ножке (46 больных), лоскутом перикарда (16 больных), париетальной плеврой (8 больных), оставляли открытой в плевральной полости (8 больных). В основном швы накладывались аппаратом УКБ-40 с укрепленим скребок 8-образными викриловыми швами (фигуры 1 и 2). Для снижения мацерирующего воздействия плеврального экссудата на швы,торакальный дренаж через 9 межреберье подводили к культе бронха и фиксировали его к париетальной плевре тонким кетгутом. Во 2 межреберье устанавливали тонкий микроирригатор с подведением его в область медиальной поверхности отсеченного бронха для местного введения антисептиков (диоксидин).




Рис.4. Наложение швов

Результаты и их обсуждение. Полная несостоятельность культи бронха развился у 6 больных, у 13 больных диагностировали частичную несостоятельность. Профилактически препарат группы лорноксикам (ксефокам) в дозе 8 мг ежедневно внутримышечно был назначен 47 больным в течении 8 суток после оперативного вмешательства. Следует отметить, что кроме хорошего анальгезирующего и противовос-

палительного эффекта, данный препарат абсолютно не угнетает дыхательную функцию, обладает очень коротким периодом полувыведения до 4 часов,что делает его незаменимым для больных с исходной сердечно –сосудистой,почечной и печеночной недостаточностью [13,14]. Контрольная группа больных [33] не получала в послеоперационном периоде данный препарат в связи с высокой аллергической чувствительностью к ацетилсалицилам т.н.» аспириновой астмой», а так же больным с язвенной болезнью желудка и склонностью к кровотечениям (геморрагический диатез). Частота развития бронхиального свища после правосторонней пульмонэктомии достоверно было выше, чем слева. Среди различных возрастных групп так же не отмечено достоверных различий в частоте развития несостоятельности культи бронха. Однако, отмечено достоверное повышение бронхиального свища у больных II и III стадией заболевания (10,7+1,7% и 5,2+0,9% 0,001<p< 0,01) соответственно (таблица 1).

На следующей таблице 2, показана частота появления свища культи бронха у больных получавших препарат ксефокам по сравнению с контрольной группой, которые данный препарат не получали.

Таблица 1

Показатели операций и частот бронхиальных свищей

Стадия заболевания	Количество операций	Количество и частота бронхиальных свищей
T2N0M0 T1N1M0	26 операций	3 больных
T2N0M0 T2N1M0	64 операций	9 больных
T3N0M0 T3N1M0	33 операции	7 больных

Таблица 2

Частота появления свища культи бронха у больных получавших препарат ксефокам

Препарат ксефокам	Количество лоб –и пульмонэктомий	частичная несостоятельность культи бронха	Полная несостоятельность культи бронха
Получавшие в послеоперационном периоде в дозе 8 мг в/м в течении 8 суток	47 больных	1 больной	1 больной
Не получавшие препарат	33 больных	2 больных	4 больных

Как следует из приведенных данных, частота развития бронхиальных свищей достоверно ниже у больных получавших профилактически в послеоперационном периоде препарат группы лорноксикам (ксефокам) (4,3% и 18,4% соответственно 0,0001<p<0,01). Данный факт объясняется тем что, кроме противовоспалительных свойств, препараты данной группы обладают свойством ингибирования адгезии и агрегации тромбоцитов (простагландинов группы тромбоксан ТХА 2 и ТХВ 2). Это ведет к значительному улучшению кровоснабжения, стимуляции процессов микроциркуляции в области швов и скрепок, что и является залогом хорошего заживления культи бронха, появлению здоровой грануляционной ткани. Более детальный анализ этого факта представлен на рисунке [4], где наглядно показана микроскопическая картина срезов с культи бронха у больных не получавших профилактически препарат ксефокам (слева) и получавших его в течении 8 суток (справа). Материал взят при бронхоскопическом исследовании культи послеоперационных больных на 10-13 сутки после операции.

Как видно из представленного микроскопического материала у первой группы больных (а) отмечается слабо выраженная сеть капилляров в области швов [2,3], разросшая интима, утолщение стенок сосудов, сужение их просветов, усиленная гофрировка слоев и стаз форменных элементов крови по ходу рубцовой ткани. У второй группы больных (б) отмечается обильная расширенная сеть капилляров, фактически отсутствие тромбов и форменных элементов крови в просвете сосудов, тонкая интима сосудов, выраженная эластичная мембрана [6,9,10].

Представленный материал свидетельствует о положительной роли препаратов группы лорноксикам в профилактике несостоятельности швов культи бронха. Причем, предлагаемые нами режимы и дозы препарата наиболее оптимальны для больных любого возраста и в сочетании с правильным пред-и послеоперационным ведением, индивидуальным мастерством и опытом хирурга способствует снижению частоты бронхиального свища. Сумарно это выразилось в достоверном (более чем в 2 раза) снижении в нашей клинике с течением времени частоты развития этого грозного осложнения после резекций легкого и пневмонэктомий.




Рис. 5. Картина микроскопического анализа

Выводы: 1.Риск развития бронхиального свища у больных получавших в послеоперационном периоде после радикальных операций по поводу рака легкого препараты группы лорноксикам в 3 раза ниже, чем у больных не получавших его. 2.Совместное применение препаратов группы лорноксикам с тщательным укрытием культи бронха лоскутом перикарда достоверно снижает риск развития несостоятельности бронха. 3.Отмечено достоверное повышение частоты бронхиального свища у больных немелкоклеточным раком легкого II-III стадии после радикальных операций ,по сравнению с начальными стадиями.

ЛИТЕРАТУРА

1.Давыдов М.И. Принципы хирургического лечения опухолей легких в торако-абдоминальной клинике // Вопросы онкологии, 2002, Т 48, № 4-5, с.468-479

2.Давыдов М.И., Полоцкий Б.Е. Рак легкого. М.: Радикс.,1994, с. 219

3.Трахтенберг А.Х.Рак легкого. М.,1987, 303 с.

4.Харченко В.П., Кузьмин Н.В. Рак легкого. М.: Медицина, 1994, с 480.

5.Попович А.Ю. Современная тактика лечения рака легкого / Труды и тезисы научно-практической конференции «Проблемы торакальной хирургии». 2005, с.66- 69.

6.Прценко А.Б., Ивченко Ю.В. Прфилактика и лечение бронхиальных свищей после пульмонэктомии // Вопросы онкологии, 1991, с.108-105.

7.Чичеватов Д.А., Горшенев А.Н. Хирургическая профилактика бронхиальных свищей после резекции легких и пневмонэктомий // Вестник хирургии, 2004, N5, с.126-146.

8.Darling G.E. et al Risk of a right pneumonectomy for lung cancer//Nyppon Koobu,1996,p.433-37

9.Deshamps C., Bernard B., Nichols F.C. Empyema end bronxoplevral fistula after pneumonectomy; factor affectic incidence // Ann.Thoracic surgery, 2001, p.243-345

10.Haracuci B., Koizimi R.T., Comubuci E.R. Analysis of risk factor fistula after pneumonectomy for lung cancer // Nyppon Koubu Geka, 1996, v.44 , p.1835-9

11.Pass B.R., Jonson N.R. et al. Lung Cancer // Pas performed irincipes et Practice. Raven, 1996, 982 p.

12. Sauase B.G. Non small-cell- lung // Cancer, 2001,v. 23, p.216-217

13.Pruss T.P. et all // Prosgraduate Medical Journal, 1990, p.18-21.

14.Mc. Hugh G.A.et all // Anaestheziya, 2002, v.57, p.270 -52

Xülasə

Ağ ciyərin qeyri-xırda hüceyrəli xərçəngi olan xəstələrdə radikal əməliyyatlardan sonra bronxial fistulların profilaktikası üçün lornoksikam qrupundan olan preparatların tətbiqi

Z.A.Səfərov, T.A.Quliyeva

Tədqiqatın məqsədi ağ ciyərin qeyri-xırda hüceyrəli xərçəngi olan xəstələrdə rezeksiya və pnevmonektomiyadan sonra əməliyyatdansonrakı dövrdə bronxial fistulların tezliyinin aşağı salınması üçün lornoksikam qrupundan olan prepartalrın istifadəsinin effektivliyini təyin etməkdən ibarətdir. 146 ağ ciyər rezeksiyasından sonra bronxoplevral fistul xəstəliyinin reprospektiv təhlili aparılmışdır. 34 halda sağ tərəfdə böyük limfodisseksiya aparılmışdır. 123 xəstəyə pnevmonektomiya, bilob- və lobektomiya aparılmnışdır. 56 xəstəyə geniş həcmli limfodisseksiya aparılmışdır. Aparılan tədqiqatlardan məlum olmuşdur ki, ağ ciyərin qeyri-xırda hüceyrəli xərçəngi olan xəstələrdə radikal əməliyyatlardan sonra bronxial fistulların profilaktikası üçün lornoksikam qrupundan olan preparatların tətbiqi müsbət effektivlik göstərir.

Summary

Prophilactic use preparat of lornoksicam group drugs in bronchial stumb on the patient with lung cancer after radical operation.

Z.A.Safarov, T.A.Quliyeva

The aim of research was evaluating the effectiveness of the use of prophylactic postoperative lornoxicam group of drugs to reduce the frequency of bronchial fistulas in patients with small cell lung cancer after resection and pneumonectomy.The retrospective study analysis of the incidence of bronchopleural fistula (BPF) after 146 cases of lung resection was conducted. Extensive lymph node dissection on the right side was performed in 34 cases. Surgery in the amount of pneumonectomy, lobectomy performed bilob- and 123 patients. Advanced volume lymphadenectomy was performed in 56 patients. The presented materials showed effectivnes in prophilactic use preparat of lornoksicam group drugs in bronchial stumb on the patient with lung cancer after radical operation.

Daxil olub: 05.03.2015

YANAQ NAHİYƏSİNİN MÜXTƏLİF DEFORMASİYALARINDA İMPLANTLA KLASSİK VƏ MODİFİKASİYALI BƏRPA ƏMƏLİYYATLARININ NƏTİCƏLƏRİ

V.M.Qələndərov

Azərbaycan Tibb Universiteti, Tədris Cərrahiyyə Klinikası, Bakı

Açar sözlər: bərpaedici əməliyyatlar, implant, kapsulyar kontraktura
Ключевые слова: восстановительная операция, имплант, капсулярная контрактура
Key words: recovery operation, implant, compulsar contracture

Yumşaq toxumaların – yanaq, burun, baldır nahiyəsinin, süd vəzinin və s. müxtəlif deformasiyalarında implantla bərpa əməliyyatlarından sonra ən arzuolunmaz fəsadlaşmalardan biri kapsulyar kontrakturanın formalaşmasıdır. Kapsulyar kontraktura implant ətrafında əmələ gələn birləşdirici toxuma ilə zəngin qalnlaşmadır [2,3, 6,7]. Patoloji anatomik olaraq bu, orqanizmin yad cisimə verdiyi cavab reaksiyası olan proliferativ iltihabın nəticəsidir, ona görə də bu reaksiyanın intensivliyi fərdi xarakter daşımaqla müxtəlif insanlarda müxtəlif intensivlikli ola blər. Bu kapsula qalın olduğu təqdirdə implantın üzərindəki toxumaları deformasiya edərək kosmetik nəticənin pisləşməsinə səbəb olur, həm də müvafiq nahiyyədəki yumşaq toxumaların elastikliyini pozur. Kapsulyar kontraktura bərpa əməliyyatlarından təqribən 20 gün sonra əmələ gəlməyə başlayır, ancaq bəzi fərdlərdə (15-18 % hallarda) daha çox qalınlaşaraq yuxarıda göstərilən problemlərin yaranmasına səbəb olur [1,3,4,5,7]. İmplantla bərpa əməliyyatlarına

çoxsaylı modifikasyalar təklif edilsə də, bu əməliyyatlardan sonrakı fəsadlaşmalar hələ də mövcud olmaqdadır və göstərilən bərpa əməliyyatının nəticələrinə mənfi təsir göstərərək xəstə məmnuniyyətini azaltmaqda davam edir.

Tədqiqatın **məqsədi** yanaq nahiyyəsinin implantla bərpa əməliyyatına bizim tərəfimizdən təklif edilmiş modifikasiyalı əməliyyatla klassik bərpa əməliyyatının nəticələrini müqayisəli qiymətləndirməkdən ibarət olmuşdur.


Tədqiqatın material və metodları. 36 xəstədə yanaq nahiyyəsinin deformasiyalarından sonra bərpa üçün implant tətbiq edilmişdir. Bu xəstələrdən 16-da klassik, 20-da modifikasiyalı əməliyyat icra edilmişdir.

Yanaq nahiyyəsinin deformasiyalarından sonra implantla klassik bərpa əməliyyatının texnikası. Maksillar nahiyyənin sümük və yumşaq toxumalarının hipoplaziyası zamanı buradakı dolğunluğun az olması ciddi kosmetik qüsur əmələ gətirir. Buradakı deformasiyaların bərpasında yanaq implantlarından və piy toxuması inyeksiyasından istifadə edilir. Yanaq nahiyyəsinin deformasiyalarından sonra implantlarla bərpa əməliyyatında ağız boşluğu selikli qişasında nazomaksillar büküşə paralel kəsik aparılır, maksillanın ön divarına doğru yumşaq toxumalar sümüküstlüyündən ayrılır və implant yerləşdiriləcək xüsusi cib hazırlanır. Bu cibin ölçüsü əvvəlcədən müəyyənləşdirilməlidir, yəni tətbiq ediləcək implantın ölçüsünə müvafiq olmalıdır. Belə ki, cibin ölçüsü böyük olduqda onun daxilinə toxuma mayesi yığılma və hematoma əmələgəlmə daha çox müşahidə edilir. Beləliklə, formalaşdırılan bu cibin içərisində implantın kip yerləşməsi diqqətdə saxlanılmalıdır. Cib hazırlanarkən onun daxili səthində zədələnmiş qanaxma verən damarların ucları elektrokoaqulyatorla yandırılır. Aktiv qanaxma olan damarlar isə liqatura ilə bağlanılır. Cibin içərisi diqqətlə təftiş edildikdən sonra implant diqqətlə bu cibin icərisinə yerləşdirilir. Sonra submukoza toxuması impilantı zədələmədən 3,0-4,0 vikril sapla tikilir. Selikli qişa isə isə 3,0 ketqutla tikilir. Bundan sonra müvafiq nahiyyəyə yanağın bayır tərəfindən xüsusi təzyiqedici sarğı qoyulur.

Yumşaq toxumaların müxtəlif deformasiyalarında implantla bərpa əməliyyatlarının modifikasiyası. Kapsulyar kontrakturanın qarşısınını almaq üçün bizim tərəfimizdən xüsusi üsul təklif edilmişdir. Bu üsulun mahiyyəti əməliyyatdan təqribən 25 gün sonra kapsula ilə implantın arasına autogen piy toxuması yeritməkdən ibarətdir- bədənin piyli nahiyələrindən (qarın, sarğı və s.) alınmış piy toxuması xüsusi alətlərlə alınaraq bu nahiyyəyə yeridilir. Autogen piy toxumasının tərkibindəki hüceyrələr, o cümlədən kök hüceyrələri kapsulyar kontrakturanın əmələ gəlməsinə səbəb olan birləşdirici toxumanın inkişafının qarşısını alır.

Nəticələr və müzakirələr. Klassik əməliyyat icra edilmiş xəstələrin hamısında təbii görünüş və dolğunluq əldə edilmiş, lakin 16 xəstənin 6-da kapsulyar kontraktura səbəbindən estetik nəticələr qənaətbəxş olmamışdır (şək. 1).

Ona görə də bu xəstələrdə təkrari əməliyyat-kapsulatomiya icra edilmiş və residivin qarşısını almaq üçün bu nahiyyəyə kortikosteroid (kenakort A) məhlulu yeridilmişdir (şəkil 2).



Şək. 1. Yanaq nahiyyəsinin deformasiyaları zamanı implantla bərpa əməliyyatından sonra müşahidə edilən kapsulyar kontraktura



Şək 2. Yanaq nahiyyəsində kapsulyar kontrakturanı aradan qaldırmaq üçün kapsulatomiya əməliyyatından sonra xəstənin görüntüsü

Xəstələrin 20-də implantla bərpa əməliyyatı modifikasiyalı variantda tətbiq edilmişdir. Kapsulyar kontrakturanın qarşısını almaq üçün yuxarıda qeyd edildiyi kimi əməliyyatdan təqribən 25 gün sonra kapsula ilə implantın arasına bədənin piyli nahiyyələrindən (qarın, sarğı və s.) alınmış autogen piy toxuması yeridilmişdir. Nəticədə kapsulyar kontrakturaların sayı əhəmiyyətli dərəcədə azalmışdır (cədvəl 1). Belə ki, 20 xəstədən 18-də kapsulyar kontraktura inkişaf etməmiş, ona görə də bu xəstələrdə təbii görünüş və dolğunluq əldə edilmişdir. Beləliklə, yanaq nahiyyəsinin deformasiyaları zamanı implantla modifikasiyalı bərpa əməliyyatından sonra müşahidə edilən kapsulyar kontraktura klassik bərpa əməliyyatına nisbətən əhəmiyyətli dərəcədə az rast gəlinmişdir. Kapsula ilə implantın arasına 25 gün fasilələrlə təbii dolğunluq əldə edilənə qədər autogen piy toxuması yeridilmiş və estetik nəticələr daha da yaxşılaşdırılmışdır (şək. 3). Yanaq nahiyyəsinin müxtəlif deformasiyalardan sonra implantla klassik və modifikasiyalı bərpaları zamanı fəsadlaşmaların rastgəlmə tezliyini müəyyənləşdirdikdə məlum olmuşdur ki, kapsulyar kontraktura implantla klassik bərpa olunmuş 16 xəstədən 6-da (37,5%) rast gəlindiyi halda implantla modifikasiyalı bərpa olunmuş 20 xəstədən cəmi 2-də (10%) rast gəlinmişdir ($p<0,05$). Bundan əlavə xəstələrin əksəriyyətində (20 xəstədən 18-də- 90%) ilkin əməliyyatdan sonra yanaq nahiyyəsinin dolğunluq və simmetrikliyi tam təmin olunmuşdur. Müqayisə üçün, implantla lkin klassik bərpa əməliyyatından sonra yanaq nahiyyəsinin dolğunluq və simmetrikliyi 16 xəstədən ancaq 11-də (68,75%) təmin olunmuşdur ($p<0,05$). Göründüyü kimi yanaq nahiyyəsinin dolğunluq və simmetrikliyini təmin etmək üçün təkrar bərpa əməliyyatı klassik əməliyyatdan sonra daha çox hallarda tətbiq edilmişdir. Bundan əlavə modifikasiyalı əməliyyatdan sonra ekssudat və hematoma əmələ gəlməsi də klassik əməliyyata nisbətən azalmışdır.

Cədvəl 1
Yanaq nahiyyəsinin implantla klassik və modifikasiyalı bərpaları zamanı fəsadlaşmaların rastgəlmə tezliyi

Fəsadlaşmalar	İmplantla klassik bərpa (16 xəstə)	İmplantla modifikasiyalı bərpa (20 xəstə)
Kapsulyar kontraktura	6 (37,5%)*	2 (10%)
İlkin əməliyyatdan sonra yanaq nahiyyəsinin dolğunluq və simmetrikliyi	11 (68,75%)*	18 (90%)
Təkrar əməliyyatdan sonra yanaq nahiyyəsinin dolğunluq və simmetrikliyi	16 (100%)	20 (100%)
Ekssudat və hematoma	5 (31,25%)*	2 (10%)

Qeyd: klassik əməliyyatla müqayisədə fərqlər statistik cəhətdən etibarlıdır (* - $p<0,05$).



Şək. 3. Yanaq nahiyyəsində implantla modifikasiyalı bərpa əməliyyatından öncə və sonra xəstənin kosmetik görüntüsü

Beləliklə, yanaq nahiyyəsinin müxtəlif deformasiyalarından sonra implantla bərpa əməliyyatına təklif etdiyimiz yeni modifikasiya fəsadlaşmaların rastgəlmə tezliyini əhəmiyyətli dərəcədə azaldaraq yanaq nahiyyəsinin dolğunluq və simmetrikliyini daha çox hallarda təmin etməsi ilə fərqlənir.

ƏDƏBİYYAT

1. Araco A., Gravante G., Araco F. et al Capsular contracture: results of 3002 patients with aesthetic breast augmentation // Plast Reconstr Surg, 2006, v.118(6), p.1499-1500.
2. Carpaneda C.A. Inflammatory reaction and capsular contracture around smooth silicone implants // Aesthet Plast Surg, 1997, v.21, p.110-114.
3. Coleman D.J., Sharpe D.T., Naylor I.L. et al. The role of the contractile fibroblast in the capsules around tissue expanders and implants // Br J Plast Surg, 1993, v.46(7), p.547-556.
4. Friedman H.I., Friedman A.C., Carson K. The fate of the fibrous capsule after saline implant removal // Ann Plast Surg 2001, v.46, p.215-221.
5. Kamel M., Protzner K., Fornasier V. et al. The peri-implant breast capsule: an immunophenotypic study of capsules taken at explantation surgery // J Biomed Mater Res 2001, v.58, p.88-96.
6. Minami E., Koh I.H., Ferreira J.C. et al. The composition and behavior of capsules around smooth and textured breast implants in pigs. // Plast Reconstr Surg 2006, v.118, p.874-884.
7. Prantl L., Schreml S., Fichtner-Feigl S. et al. Clinical and morphological conditions in capsular contracture formed around silicone breast implants // Plast Reconstr Surg 2007, v.120(l), p.275-284.

Резюме

Результаты операций по восстановлению различных областей щек с помощью модифицированных и класичесических имплантов

В.М.Галандаров

После восстановительной операции имплантом при различных деформациях мягких тканей одно из самых нежелательных осложнений это капсулярная. Быоа проведена сравнительная оценка результатов классической восстановительной операции с новой модификационной операцией, предложенной для восстановительной операции в области щёк. Сущность модификационной операции состоит из расположения аутогенной жировой ткани между имплантом капсулой примерно через 25 дней после операции. Было установлено, что уменьшаясь в значительной степени частота осложнений новых модификационных операций, предложенных для операции по восстановлению имплантом в области щёк, различается тем, что во многих случаях обеспечивается большее наполнение и симметричность в области щёк

Summary

The consequences of restarting operations on various deformation sides of the cheek with modified and classic implants

V.M.Qalandarov

One of the undesirable aftereffect is the formation of compulsar contucture after restore implant surgery on different deformations of soft tissues. The results of classical recovery operation and new modificating operation which offered of implant surgery of cheek are estimated comperatively. The essence of modificating operation is considered to inject the autogen fat tissue into implant by capsules after 25 days operation. Noticed that, the new modificating operation which offered to implant recovery surgeon of cheek, is decreased the the copmplication cases of surgery and differ to provide fullness and symmetry of cheek.

Daxil olub: 05.03.2015

XRONİKİ DESTRUKTİV AĞCİYƏR VƏRƏMLİ XƏSTƏLƏRDƏ KLİNİKİ, LABORATOR, RENTGENOLOJİ MÜAYİNƏ ÜSULLARI.

Ş.M. Vəliyeva, C.M. İsmayılzadə, Z.T. Qurbanova

Azərbaycan Tibb Universiteti, Ağ ciyər xəstəlikləri kafedrası

Açar sözlər: xronik destruktiv ağ ciyər vərəmi, diaqnostika, müayinə metodları, rentgen

Ключевые слова: хронический деструктивный туберкулез легких, диагностика, методы исследований, рентген

Key words: chronic destructive pulmonary tuberculosis, diagnostics, research methods, X-ray

Xroniki destruktiv ağciyər vərəmli xəstələrin müalicəsinin effektivliyinin yüksəldilməsi müasir ftiziatriyanın vacib məsələlərindəndir, beləki, bir tərəfdən xəstələnənlər arasında bu formanın xüsusi çəkisi getdikcə artır, digər tərəfdən kimyəvi terapiya çox az hallarda onların müalicəsinə zəmin yaradır [1,4]. Bu kontingentə daxil olan xəstələrin diaqnozunun qoyulmasında aparıcı yeri kliniki-anemnestik məlumatlarla yanaşı tam həcmli şüa diaqnostikası tutur [2]. Bioloji substratın müasir mikrobioloji tədqiqi də vacib hesab olunur [3,5].

Tədqiqatın material və metodları. Bizim müşahidəmiz altlnda 4 saylı şəhər Vərəm Əleyhinə Dispanserin bazasında yerləşən Azərbaycan Tibb Universitetinin "Ağ ciyər xəstəlikləri kafedrası"nda ambulator və stasionar müalicədə olan 80 nəfər ağ ciyərlərin xroniki destruktiv vərəmi olan xəstə olmuşdur. Tədqiqatımızın əsas qrupunu 60 nəfər xroniki destruktiv ağ ciyər vərəmli xəstə təşkil etmişdir. Qalan 20 nəfər referent qrupa daxil olmuşdur. Pasientlərin əsas yaş həddi 31 yaşdan 50 yaşadək olmuşdur, onlardan 31-i kiş, 12-i qadındır. Əsas qrupa daxil olan xəstələrdə vərəm prosesinin yaranma müddəti 6 aydan 5 ilədək və ya daha çox olmuşdur.

Tənəffüs orqanlarının müxtəlif xəstəliklərinin diaqnostikasında aparıcı yeri tam həcimli şüa diaqnostikası tutmuşdur. Bu metod bizə ağ ciyər toxumasında, kökündə, döşqəfəsidaxili limfa düyünlərində, plevral boşluqda, orta divar orqanlarında, xüsusi ilə bronxial sistemdə və kiçik qan dövranı damarlarında patoloji dəyişiklikləri aşkarlamağa imkan verir.

Eyni zamanda və ya ardıcıl müayinə metodlarının tətbiq olunması (rentgenoskopiya, düz, yan, çəp, köndələn proyeksiyalarda tomoqrafiya, birbaşa böyütməklə tomoqrafiya və rentgenoqrafiya, kompyuter tomoqrafiya, ultrasəs müayinə metodu) bizə rentgenoloji metodun diaqnostik effektivliyini yüksəltməyə imkan verir.

Stasionara daxil olarkən və müalicənin prossesi zamanı bütün xəstələrin bəlğəmindən və ya bronxların yuyuntu suyundan hazırlanmış yaxma vərəm mikobakteriyasına görə tədqiq olunmuşdur, eləcə də Levenşteyn-Yensen (TLÇ) qidalı mühütündə əkmə aparılmış, alınmış kulturada vərəm əleyhinə preparatlara həsaslıq (BacTlK MGİT) təyin olunmuşdur.

Anamnezdən məlum olmuşdur ki, 7 (11,7%) nəfər vərəm xəstəsi ilə konkatı həqiqətən təsdiq edir, onlardan 2 nəfər vərəmli xəstə aşkarlanmış

ocaqda ağ ciyər vərəmi ilə xəstələnmişdir. Müşahidəmiz altında əsas qrupa daxil olan xəstələrin demək olar ki, yarısında (22 nəfər) müxtəlif yanaşı xəstəliklər aşkarlanmışdır. Onların əksəriyyətini (15 nəfər) ürək-damar sistemi xəstəlikləri təşkil edir. Qeyd etmək lazımdır ki, 60 xəstədən 14-də (23,3%) klinikaya daxil olarkən vərəm prosesinin fəsadı kimi xroniki ağ ciyər ürəyi aşkarlanmışdır. Onlardan 12-də kompensasiya olunmuş ağciyər ürəyi, 2 xəstədə sağ mədəcik çatışmazlığı ilə müşayiət olunan qan dövranı dekompensasiyası qeyd olunur.

Klinikaya daxil olarkən, 60 xəstədən 53-də (31,8%) tənəffüs orqanları xəstəliklərinə uyğun olan, əsasən öskürək kimi şikayətlər irəli sürmüşlər. Qeyd etmək lazımdır ki, öskürək müxtəlif xarakterli olmuşdur. Kliniki- rentgenolji şəklə əsasən xəstəliyin stabilləşməsi qeyd olunan 14 (74%) xəstədə bəlğəmsiz öskürək müşahidə edilmişdir. Selikli və irinli bəlğəm ifraz edən xəstələrdə (39 nəfər) müxtəlif dərəcəli nəzərəçarpan və yayılmış endobronxitlər qeyd olunur, I və II dərəcəli ikitərəfli selikli və selikli irinli endobronxit- 24 xəstədə, II-III dərəcəli diffuz irinli endobronxit- 12 xəstədə, iri bronxların lokal birtərəfli zədələnməsi- 3 xəstədə müşahidə olunmuşdur. Bununla yanaşı iri bronxların ödemi şəklində spesifik lokal zədələnməsi selikli qişanın infiltrasiya və hipertrofiyası 5 xəstədə tapılmışdır ki, bu da tərəfimizdən ağ ciyərin spesifik zədələnməsinin bronxlara infiltrativ eksudativ vərəm şəklində fəsadı kimi qiymətləndirmişdir.

Vacib və nəzərəçarpan şikayətlərdən biri də pasientlərin 42-də (70%) qeyd olunan təngənəfəslikdir ki, bu da ağciyər parenximasının spesifik proseslə zədələnməsinin yayılması ilə düz mütənasibdir. Fiziki gərginlik zamanı təngənəfəslik 27 (64,3%) xəstədə qeydə alınmışdır ki, bu da bir qayda olaraq I-II dərəcəli tənəffüs çatışmazlığı olan pasientlərdə daha çox rast gəlinir. Sakitlik zamanı təngnəfəslik 15 (35,7%) xəstədə müşahidə olunmuşdur ki, bu da ağır ürək və tənəffüs çatışmazlığının göstəricisidir.

Daha çox rast gəlinən şikayət qanhayxırma və qanaxmadır. Bu xəstələrin yarısında sutka ərzində 150 ml həcmində, 9 (36%) xəstədə sutka ərzində 500 ml həcmində qanaxma qeydə alınmışdır. İki pasiyentdə qanaxma arroziv xarakterli olmuşdur.

Xəstələrin 19-u (31,7%) döş qəfəsi ağrılarından şikayət etmişdir. Bunlardan 11-də birtərəfli, 9-da ikitərəfli ağrılar olmuşdur ki, bu da vərəm prosesinin xroniki gedişi nəticəsində plevra səhifələrinin spesifik zədələnməsini göstərir. Bundan başqa 12 xəstədə ürək nahiyəsində ağrılar qeydə alınmışdır.

Xəstələrin əksəriyyətində- 48-də (80%)-bədən temperaturunun artması, iştahasızlıq, çəkinin azalması, yuxu pozğunluğu, gecə tərləməsi, zəiflik, psixoemosional labillik kimi intoksikasiya simptomları müşahidə olunmuşdur.

Klinikaya daxil olarkən 42 xəstənin vəziyyəti tərəfimizdən ağır və orta ağır kimi qiymətləndirilmişdir. Xəstəliyin ağırlıq dərəcəsi nəzərəçarpan intoksikasiya simptomları fonunda əsas xəstəliklə bağlı şikayətlərə uyğun olaraq təyin edilmişdir. Fiziki gərginlik zamanı təngənəfəslik qanhayxırma, öskürək, xəstəliyin orta ağır forması təsadüf edilən 40 pasientdə qeydə alınmışdır.

Sakitlik zamanı təngənəfəslik, baldırın və topuqların nəzərəçarpan ödemi, residivverici qanhayxırma və qanaxma, çətin ifraz olunan bəlğəmlə müşayiət edilən əzabverici öskürək əsas xəstəliyi xroniki ağciyər ürəyinin dekompensasiya mərhələsi ilə fəsadlaşan ağır vəziyyətdə olan 2 xəstədə rast gəlinmişdir.

Klinikaya daxil olarkən 46 (76,7%) xəstədə dəri örtüyü və görünən selikli qişalar avazımışdır, akrosianoz müşahidə olunurdu. Baldırın və topuqların periferik ödemi ağır formalı 2 xəstədə müşahidə olunmuşdur. Baxış zamanı 8 xəstədə barmaqların baraban çubuqları formasında dəyişməsi qeydə alınmışdır ki, bu da xəstəliyin uzunmüddətli olduğunu göstərir.

Tənəffüs sisteminin vəziyyətinin qiymətləndirililməsi zamanı 42 (70%) xəstədə tənəffüsün 1 dəqiqədə tezləşərək 23-25-ə çatdığı müşahidə olunmuşdur. Xəstələrin böyük əksəriyyətində auskultasiya zamanı sərt tənəffüs fonunda yaş və quru xırıltılar eşidilmiş, səs titrəmələri vərəm prosesi olan tərəfdə 14 xəstədə zəifləmiş, 5 xəstədə perkutor səsin kütləşməsi müşahidə olunmuşdur. 4 xəstədə zədələnmiş tərəfdə döş qəfəsinin tənəffüs aktından geri qalması müşahidə olunmuşdur.

Xəstələrin əksəriyyətinin (53nəfər) rentgenoloji şəklində xəstəlik fibroz kaverna ilə xarakterizə olunmuşdur. Bu xəstələrdə qeyri-bərabər yayılmış fibroz emfizema sahələri ilə növbələşir. Kaverna ətrafı sahədə, eləcə də ağ ciyərin digər nahiyələrində ağ ciyər toxumasının havalılığının saxlanması ilə fibroz və interstisial dəyişiklik təyin olunmuşdur. 3 xəstədə nazik divarlı kaverna aşkarlanmışdır. Bu xəstələrdə rentgenoloji şəkli yuxarı payın bu və ya digər iki seqmentində məhdud sahədə dairəvi formalı daxili və xarici divarın

konturları dəqiq olan formalaşmış və izolə olunmuş kaverna ilə xarakterizə olunur. KT müayinəsi zamanı kavernanı əhatə edən ağ ciyər toxumasında kiçik ocaqlar, məhdud emfizema sahələri, nazik plevral atmalar aşkarlanmışdır. 3 pasientin müayinəsi dağılma boşluğu ilə yanaşı disseminasiya kimi rentgenoloji dəyişikliklə xarakterizə olunmuşdur. Disseminasiya ocaqları ilə yanaşı perifokal iltihabı olmayan bir və ya bir neçə nazik divarlı şatamplanmış boşluqlar da qeyd olunur. Bir xəstədə sağ ağ ciyərin yuxarı payında massiv xarakterli məhdud qeyri-bərabər kölgəlik sirroz dəyişiklik aşkarlanmışdır. 27 xəstədə kaverna və ocaqların ətrafında müxtəlif dərəcədə nəzərəçarpan eksudativ iltihabi dəyişiklik qeydə alınmışdır və 21 xəstənin rentgenoloji mənzərəsində təzə səpələnmə ocaqları qeyd olunmuşdur ki, bu da prosesin kəskinləşməsinin göstəricisidir. 2 xəstədə damar və bronxların gedişi bouyunca zəif iltihabi reaksiya ilə müşayiət olunan metatuberkulyoz dəyişikliklər tapılmışdır. 14 xəstədə zədələnmiş tərəfdə şəffaflığın azalması effektini verən plevranın qalınlaşması kimi rentgenoloji şəkil xarakterik olmuşdur.

Ürək-damar sisteminə baxış zamanı 28 xəstədə sinus taxikardiyası, 12 xəstədə sinus aritmiyası qeydə alınmışdır. 3 xəstədə ürəyə mexaniki təsir nəticəsində (bitişmələrin dartılması kimi) ekstrasistolik aritmiya müşahidə edilmişdir. Keçiriciliyin ləngiməsi kimi dəyişikik 6 xəstədə qeyd olunmuşdur. Arterial təzyiq 28 xəstədə aşağı, 25 xəstədə normal, 7 xəstədə yüksək olmuşdur.

Qarın boşluğu orqanları tərəfindən dəyişiklik kimi xəstələrdə yanaşı gedən hepatit və qan dövranı çatışmazlığı nəticəsində qaraciyərin böyüməsi nəzərə çarpmışdır.

Xəstələrdə qan tərəfindən periferik qanda retrikulositlərin çoxalması ilə müşayiət olunan qarışıq tipli (meqaflastik və dəmir defisitli) anemiya, eləcə də leykoqrammada müxtəlif kombinasiyada dəyişiklik aşkarlanmışdır. Kimyəvi terapiyanın gedişi boyunca dərman preparatlarının uzunmüddətli qəbulu, qaraciyərin zülal-sintetik funksiyasının pozulmasına gətirib çıxarmışdır. Qanın biokimyəvi göstəricilərinin tədqiqi zamanı 44 xəstədə C-reaktiv zulalın meydana çıxması ilə yanaşı hipoprotenemiya və disprotenimiya, qan zərdabında fibrinogenin miqdarının artması müşahidə olunmuşdur. Müayinə olunan bütün xəstələr basil ifraz edən olmuşdur. Onlardan 32-də (53,3%) bakterioskopiyada hər görmə sahəsində 10-50 VMB olmaqla massiv basil ifrazı aşkarlanmışdır. 25 xəstədə (41,6%) vərəm əleyhinə preparatlara qarşı müxtəlif cür davamlılıq aşkarlanmışdır. Bir vərəm əleyhinə preparata qarşı rezistentlik 7(11,7%) xəstədə, 2 preparata qarşı davamlılıq 8(13,3%), xəstədə, üç və daha çox preparata qarşı davamlılıq 10(16,7%) xəstədə müşahidə olunmuşdur.

Tərəfimizdən daha çox davamlılıq izoniazidə 25(41,3%) xəstədə və sterptomisinə 23(98,3%) xəstədə aşkarlanmışdır.

Nəticə: beləliklə bizim müşahidəmiz altında olan xəstələrin anamnezi, yaşı, və cinsi eləcə də tam həcmli laborator və şüa diaqnotik usullar, döş qəfəsi orqanlarının spesifik zədələnməsi nəticəsində əsas xəstəliyin müxtəlif simptomlarının üzə çıxması xəstəliyin yayılmasını və uzunmüddətli olmasını təsdiq edir, eləcə də yanaşı gedən patologiya vərəm prosesini fəsadlaşdırır.

ƏDƏBİYYAT

1. Васильева И.А. Эффективность химиотерапии больных лекарственно-устойчивым туберкулезом легких. М.: ГУЦНИИТ РАМН,2002, 263 с.
2. Онищенко Г.Г. Эпидемическая ситуация в Российской федерации и меры по ее стабилизации // Проблема туберкулеза, 2013, № 11, с.7.
3. Шилова М.В., Хрулева Т.С. Эффективность лечения больных туберкулезом на современном этапе // Проблема туберкулеза, 2005, № 3, с.3-11
4. Gupta R., Espinal M., Raviglione M. Tuberculosis as a major global health problem in the XXI century, a WHO perspective // Seminars in respiratory and critical med., 2004, v. 24, №3, p.245- 253.
5. WHO Treatment of Tuberculosis: Guidelines of National Programmes. Geneva, 2003, 242 p.

Резюме

Клинико – рентгено - лабораторные методы исследования у больных с хроническим деструктивным туберкулезом

Ш.М.Велиева, Дж.М.исмаилзаде, З.Т.Гурбанова

Таким образом, представленные данные анамнеза, пола и возраста, а так же лучевых и лабораторных методов исследования в полном объеме у наблюдаемых нами больных свидетельствует о распространенности и длительности течения туберкулезного поражения

органов грудной клетки с различными симптомами как основного заболевания, так и сопутствующей и осложняющей туберкулезный процесс патологии.

Summary

Clinical, radiological, laboratory methods of research in patients with chronic destructive pulmonary tuberculosis

Sh.M. Veliyeva, J.M. İsmayilzade, Z.T. Qurbanova

Therefore, the presented data of anamnesis, age and sex, as well as the X-ray and laboratory methods of research in full observed of patients by us indicate the prevalence and daration of tuberculous lesions of the the chest with a diferent of symptoms such as main disease and the concomitant and complicates the tuberculous process of disease.

Daxil olub: 19.03.2015

SÜD VƏZİSI ŞIŞLƏRİNİN İNSTRUMENTAL DİAQNOSTİKASININ MÜASİR VƏZİYYƏTİ

N.V.Qasımov, İ.N.Orucova, G.A.Əhmədova, Ə.S.Əsədov

Azərbaycan Tibb Universiteti*, Bakı*

Açar sözlər: süd vəzisi xərçəngi, mammoqrafiya, USM, elastoqrafiya, doppleroqrafiya, KT, MRT, mammossintiqrafiya, pozitron-emission tomoqrafiya

Ключевые слова: рак молочной железы, маммография, УЗИ, эластография, допплерография, КТ, МРТ, маммосцинтиграфия, позитронно-эмиссионная томография, радиотермография

Key words: breast cancer, mammography, ultrasound, elastography, dopplerography, CT, MRI, mammoscintigraphy, positron-emission tomography, radiotermography

Süd vəzi xərçəngi (SVX) klinik onkologiyanın ən mühüm problemlərindən biri olub, dünyada qadınlar arasında bədxassəli şişlərlə xəstələnmənin strukturunda birinci yeri tutur. Hər il dünyada süd vəzisi xərçəngi diaqnozu ilə 1 milyondan çox xəstə qeydə alınır. Qadınlar arasında bədxassəli şişlərdən ölümün strukturunda süd vəzisi xərçəngi 2-ci yeri tutur. Qeyd etmək lazımdır ki, süd vəzisi şişlərinin 30-dan artıq növü məlumdur və Ümumidünya Səhiyyə Təşkilatının statistikasına görə yaşı 30-dan yuxarı olan hər 2 qadından birində süd vəzisinin bu və ya digər şiş formasına rast gəlinir. Süd vəzi xərçəngi probleminə böyük diqqət ayrıldığına baxmayaraq bu nozologiyadan xəstələnmə və ölüm hallarının azaldılması məsələləri indiyə qədər həll edilməmiş qalır. SVX ilə xəstələnmənin vəziyyətini nəzarətdə saxlamağın mümkünsüzlüyü effektiv birincili profilaktika yollarının olmaması ilə əlaqədardır. Xəstəliyin ölüm göstəricilərinə təsir edə bilməsi ilə əlaqədar erkən diaqnostikası məsələləri çox aktualdır. SVX-nin erkən mərhələlərində dəqiq diaqnostikası vaxtında tibbi yardımın göstərilməsinə kömək etməklə bu xəstəlikdən ölüm hallarının azalmasına gətirib çıxara bilər [1].

Süd vəzisi xərçənginin diaqnostikası bir sıra müayinə üsullarının kompleks istifadəsi əsasında həyata keçirilir. Diaqnostika üçün anamnez, fiziki müayinə (baxış və palpasiya), rentgenoloji üsullar (mammoqrafiya, duktoqrafiya, pnevmosistoqrafiya, kompyuter tomoqrafiyası-KT), ultrasəs müayinəsi (USM), maqnit rezonans tomoqrafiya (MRT), morfoloji (sitoloji və histoloji) və laborator müayinə üsulları aparılır [1].

Şüa diaqnostikası üsulları son illərdə süd vəzisi xərçənginin diaqnostikasında mühüm yerlərdən birini tutur. SVX-nin şüa diaqnostikasının əsasında süd vəzisinin rentgenoqrafik mammoqrafiyası və USM durur [16,19,21].

Mammoqrafiya- süd vəzisinin patoloji dəyişikliklərinin qeydə alınmasında istifadə edilən ən geniş yayılmış şüa diaqnostikası metodudur. Rengenoloji mammoqrafiyanın əsas məqsədi və üstünlüyü SVX-nin erkən- palpasiya edilməyən mərhələsində törəmənin təyin edilməsidir [8].

Mammoqrafiya bu məqsəd üçün nəzərdə tutulmuş qurğuda- mammoqrafda süd vəzisi toxumasının kompressiyası ilə həyata keçirilir. Çəkiliş adətən 2 proyeksiyada- düz və çəp və ya düz və yan proyeksiyalarda aparılır.

Mammoqrafiyanı aybaşı tsiklinin birinci fazasında – 5-12-ci günlər arası həyata keçirmək məqsədəuyğundur. Menopauzada olan qadınlara mammoqrafiyanı istənilən vaxtda yerinə yetirmək olar. Müayinə zamanı ağırlaşmalar və patoloji reaksiya qeydə alınmır. Bir qayda olaraq hər iki süd vəzisinin mammoqrafiyası aparılır, sağlam süd vəzisinin mammoqrafiyası müqayisə üçün əhəmiyyət kəsb edir.

Mammoqrafiya ilə süd vəzisində gedən dəyişikliklərin diffuz və ya ocaqlı olmasını, şiş törəməsini aşkar etdikdə onun ölçüsünü, formasını, strukturunu, sıxlığını və konturlarını, mikrokalsinatları müəyyənləşdirmək, dərinin, gilənin və retromammar sahənin vəziyyətini qiymətləndirmək, qoltuqaltı metastatik limfa düyünlərini aşkar etmək mümkündür [1, 5].

SVX zamanı mammoqrafik mənzərə birincili (birbaşa) və ikincili (dolayı) əlamətlərlə xarakterizə olunur. Birincili əlamətlərə şiş kölgəsinin xarakteri və mikrokalsinatların toplanması aiddir [1]. Süd vəzisi toxumasında mikrokalsinatların toplanması süd vəzi xərçənginin qeyri-invaziv formasından şübhələnməyə əsas verən əlamətlərindən hesab olunur. Lakin bu simptom SVX üçün mütləq patoqnomonik simptom hesab edilmir [14]. İkincili əlamətlərə isə dəri, gilə və şişi əhatə edən toxumalar tərəfindən olan simptomlar aiddir [1].

Mammoqrafiyanın diaqnostik effektliyi bir sıra amillərdən – xəstənin yaşı və süd vəzisi toxumasının rentgenoloji sıxlığından asılıdır. Skrininq rentgenoloji mammoqrafiyanın həssaslığı 40-59 yaşlı qadınlar arasında 77,3%, 70-89 yaşlı qadınlar arasında isə 93,8% təşkil edir. Süd vəzi toxumasının rentgenoloji sıxlığı yüksək olan qadınlarda müayinənin həssaslığı bir qədər aşağı – 55% ola bilər. Spesifiklik göstəricisi bir sıra müəlliflərə görə 40-59 yaş qrupunda 98.7%-dən 70-89 yaş qrupunda 98.8%-ə qədər artır [16, 19, 21]. Rentgenoloji mammoqrafiyanın həssaslığı süd vəzi toxumasının rentgenoloji sıxlığı çox yüksək olan qadınlarda 30% ə qədər azalır [21].

Kontrastsız və kontrastlı mammoqrafiyalar ayırd edilir. Kontrastlı mammoqrafiyalara duktoqrafiya (qalaktoqrafiya) və pnevmosistoqrafiya aiddir.

Duktoqrafiya (qalaktoqrafiya)- süd vəzisi giləsindən ifrazat xaric olduqda, xüsusilə bu ifrazat çoxlu miqdarda və qanlı xarakterdə olduqda və bu zaman palpator olaraq şiş aşkar edilmədikdə tətbiq edilir. Pnevmosistoqrafiya – süd vəzisində sista olduqda, sistadaxili patoloji artımları təsdiq və ya inkar etmək məqsədilə aparılır [1,5].

Mammoqrafiya SVX-ni erkən- klinikaya-qədərki dövrdə aşkar etmək məqsədilə skrininq müayinə kimi də geniş istifadə edilir [5, 8].

Şüa diaqnostika müayinələri zamanı nəticələrin dəyərləndirilməsi üçün BİRADS (Breast İmaging Reporting and Data System) risk kateqoriyalarından istifadə olunur. Bu təsnifat aşağıdakı kimidir:

BIRADS 0- tam olmayan nəticələr, əlavə müayinəyə ehtiyac var.

BIRADS-1- normal vəzi toxuması, zədələnmə əlamətləri qeyd edimir; Taktika: yaşa uyğun skrininq müayinə

BIRADS-2- xoşxassəli dəyişikliklər və ya xoşxasəli törəmə; Taktika: hər 6-12 aydan bir kontrol müayinə

BIRADS-3- xərçəng olma ehtimalının 2%-dən az olması ilə xarakterizə olunan xoşxassəli törəmə; Taktika: 3 aydan sonra kontrol müayinə və ya təyin edilmiş konservativ müalicə kursunun sonunda USM – in təkrar edilməsi

BIRADS- 4 bədxassəliyə 2%-dən yüksək və 95%-dən az ehtimalla şübhəli törəmə; Taktika: biopsiyanın keçirilməsi ilə diaqnozun morfoloji olaraq təsdiqlənməsi

BIRADS-5- bədxassəli 95%və daha yüksək ehtimalla törəmə; Taktika: diaqnozun morfoloji olaraq təsdiqlənməsi

BIRADS-6- xərçəng diaqnozu morfoloji olaraq təsdiq edilmişdir. Kimyəvi terapiya və cərrahi müalicəyə başlanmazdan əvvəl tətbiq edilir [2,10].

Süd vəzisi xəstəliklərinin diaqnostikasında vacib yerlərdən birini USM tutur. Bu müayinənin üstünlükləri şüa yükünün olmaması və təkrar bir neçə dəfə keçirilməsinin mümkünlüyüdür. USM və dopleroqrafiyadan ibarət olan kompleks USM süd vəzisinin xoşxassəli törəmələrinin, o cümlədən maye tərkibli törəmələrinin aşkar ediməsində yüksək həssaslıq (orta hesabla 78%) və spesifikliklə (orta hesabla 95%) xarakterizə olunur. Bundan əlavə metod vaskulyarizasiyanı təyin etməyə və invaziv müdaxilə həyata keçirməyə imkan verir [3, 4, 9]. USM-in SVX-nin skrininq müayinəsində istifadə edilməsi risk qrupuna daxil olan qadınlarda hər 1000 nəfərə bu xəstəliyin aşkarlanmasını 1,1 hal artırmışdır. Lakin SVX-nin aşkarlanmasının artması ilə yanaşı yalançı-müsbət nəticələrin və gərəksiz

biopsiyaların səviyyəsi də yüksəlmişdir [7, 8]. SVX-nin skrininqi çərçivəsində USM yalnız süd vəzisinin rentgenoloji sıxlığı yüksək olan qadınlarda rentgenoloji mammoqrafiya ilə yanaşı metod kimi, hamilə və süd verən qadınlar üçün isə yeganə diaqnostika metodu olaraq yararlıdır. [5]. Ultrasəs müayinəsinin bir üstünlüyü də rentgenneqativ şişlərin əsasən paycıq SVX-nin aşkarlamasıdır. Lakin paycıq SVX üçün xarakterik olan şişin multisentrik və bilateral yayılması zamanı USM effektliyi azalmış olur [10,18]. USM informativliyi piy involyusiyası zamanı şiş və piy toxuması arasında zəif ultrasəs kontrastlığının olması ilə əlaqədar zəifləyir. Bundan əlavə USM qabarıq çapıq dəyişikliklərində, həmçinin in situ SVX-nin diaqnostikasında da informativdir [3,8,14]. Aparılan tədqiqatlardan məlum olmuşdur ki, rentgen mammoqrafiyası zamanı aşkarlanan mikrokalsinatların yalnız 25%-i USM vasitəsilə vizualizasiya olunur [10,14]. Belə hesab edilir ki, USM bir çox mikrokalsinatların, xüsuslə süd vəzilərinin in situ axacaq xərçəngi üçün xarakterik olan mikrokalsinatların diaqnostikasında mammoqrafiyanı əvəz edə biməz [14]. USM vasitəsilə süd vəzisinin palpasiya olunmayan xərçəngini də təyin etmək olar, ancaq onu dəqiqliklə xərçəng adlandırıb xoşxassəli törəmələrədən birmənalı olaraq diferensasiya etmək olmur. Buna görə də müəlliflər mütləq olaraq biopsiyanın keçirilməsinin tərəfdarlarıdırlar, lakin bu gərəksiz biopsiyaların sayını artırır [2,4]. Y.J. Gwak və həmmüəlifləri tədqiqatlar zamanı 63.3% hallarda in situ axacaq xərçəngini USM vasitəsilə təyin etmişlər, bununla yanaşı yalnız 51.6% halda mikrokalsinatlar aşkarlanmışdır. Mikrokalsinatların lokalizasiyası USM-dən əvvəl yerinə yetirilən rentgen mammoqrafiyası vasitəsilə təyin edilmişdir [8, 10]. Hal-hazırda yüksək tezlikli ultrasəs ötürücülərinin köməkliyi ilə (tezlik> 10 Mqh) süd vəzisinin səthi zonalarında yerləşmiş mikrokalsinat yığımlarının təyini mümkündür. Bütün bunlara baxmayaraq hazırki dövrdə süd vəzilərində xoşxassəli və bədxassəli törəmələr arasında diferensial diaqnostika aparmağa kömək edən USM əlaməti və ya əlamətlərin müştərəkliyini əldə etmək mümkün olmamışdır, bu isə yeni USM metodikalarından istifadəni qarşıya məqsəd qoyur [3,8,9].

Doppleroqrafiya süd vəzisi xəstəliklərinin diqnostikasında əsas yerlərdən birini tutur və standart USM-in diaqnostik effektliyini əhəmiyyətli dərəcədə artırır. Bir sıra müəlliflərin fikrincə USM və dopleroqrafiyanın birgə kombinasiyasının həssalığı və spesifikliyi 90% və ondan yuxarı təşkil edir [3, 9].

Bədxassəli şişlərin, xüsusilə SVX-nin öz damar torunu yaratmağa meyilliyi doppleroqrafiya vasitəsilə bəd- və xoşxassəli şişlərin diferensiasiyasının aparılmasının əsas səbəblərindən biridir. Bu xüsusiyyət SVX-ni xoşxassəli törəmələr və süd vəzisinin diffuz xəstəliklərindən ayırmağa imkan verir [3,7,9]. Vaskulyarizasiya xüsusiyyətlərinin interpritasiyası onun keyfiyyət xüsusiyyətlərinin qiymətləndirilməsi və süd vəzisinin intakt zonaları ilə müqayisəsi əsasında qurulur [3,9]. Həm qan damarları həm də süd axarları USM-də B rejimdə hipoexogen tubulyar strukturlu olduqlarına görə doppleroqrafiyadan, həmçinin axacaqdaxili şiş infiltrasiyasının diaqnostikasında damarların axarlardan diferensiasiyası üçün istifadə etmək olar. Bununla yanaşı dopleroqrafiya izoexogen törəmələrin diaqnostikasınının effektivliyini də artırmağa imkan verir [18]. Doppleroqrafiya USM-in B rejimində aşkarlana bilməyən kiçik mikrokalsinatların axtarışı zamanı da yardımçı ola bilər. Lakin buna baxmayaraq doppleroqrafiya vasitəsilə kompakt qrup mikrokalsinatların birincili diaqnostikası çətin yerinə yetirilən məsələ olaraq qalır [3]. Doppleroqrafiya müasir inkişaf mərhələsində yalnız makrovaskulyar şişləri öyrənməyə imkan verir, törəmənin mikrovaskulyar quruluşunun öyrənilməsi böyük çətinliklər doğurur [7,18]. Bundan əlavə W.E. Svensson və başqaları qeyd edirlər ki, doppleroqrafiyanın texniki inkişafına baxmayaraq qan axını əlamətlərinin aşkarlanması heç də həmişə törəmənin bədxassəli olduğunun mütləq əlaməti hesab edilə bilməz. Müəlliflər qan dövranının xarakterinin yüksək diaqnostik əhəmiyyyəti olduğunu qeyd edirlər, belə ki qarışıq qan dövranının (düyündaxili və düyünkənarı) birgə rast gəlinməsi bədxassəli törəmələr üçün xarakterikdir [18]. Bir sıra yeni texnologiyalar, o cümlədən elastoqrafiya, kontrast preparatların tədbiqi, əksin postprossesinq işlənməsinin yeni metodlarının hazırlanması USM-in SVX-nin diferensial diaqnostikasında istifadə imkanlarını genişləndirir [23].

Süd vəzisində törəmələrin kontrast maddələrin köməyi ilə müayinəsi müasir USM-in əhəmiyyətli diaqnostik potensiala malik vacib istiqamətlərindən biridir. Damardaxili kontrastlaşma şişin mikrodamar quruluşunu qiymətləndirməyə imkan verərək, müayinənin diaqnostik qiymətini artırır. Bu metodun əsas çatışmazlıqlarına davamlı olmayan effekt və

kontrastlaşdırmanın dəqiq meyarlarının olmaması aiddir [3].

Elastoqrafiya- yeni USM metodikası olub süd vəzisi toxumasının sərtliyinin dəyişməsini qiymətləndirməyə imkan verir. Elastoqrafiya termini adı altında toxumaların mexaniki xassələrini öyrənən bütün metodlar birləşdirilir. Metod müxtəlif toxuma komponentlərinin mexaniki xüsusiyyətləri arasında fərqin olmasına və bu fərqin mexaniki təsirdən sonra əks etməyin mümkünlüyünə əsaslanır [3,9,17]. Elastoqrafiyanın iki əsas metodundan- real zaman rejimində toxuma elastoqrafiyası və ya keyfiyyət elastoqrafiyası və dəyişən dalğalı elastoqrafiya və ya kəmiyyət elastoqrafiyasından istifadə olunur. Patoloji vəziyyət süd vəzisi toxumasında əhəmiyyətli dəyişikliklərə səbəb olur, bu isə yüksək sıxlığa malik olan sahələrin əmələ gəlməsi ilə əlaqədar manual kompressiya zamanı toxumaların yerdəyişmə qabiliyyətinin azalmasına gətirib çıxarır. Deformasiya əmsalının ölçülməsi imkanları mövcuddur. Dəyişən dalğalı elastoqrafiya manual kompressiyanın olmaması ilə fərqlənir, manual kompressiyanı dəyişən dalğa əvəz edir və bu zaman süd vəzisində patoloji və dəyişikliyə uğramamış toxumalar arasında sərtlik göstəriciləri fərqini ölçmək mümkündür [9,17]. Kəmiyyət elastoqrafiyasının nəticələrinin interpritasiyası üçün törəmənin müxtəlif kateqoriyalarının müvafiq rəngli elastoqrafik mənzərəyə uyğunluğuna əsaslanan təsnifat təklif edilmişdir. Qeyd etmək lazımdır ki, konkret rəng göstəriciləri müxtəlif aparatlarda tədqiq olunan zaman fərqlənir, bu isə informasiyanın işlənməsinin müxtəlif texnologiyaları ilə əlaqədardır. Bunu elastoqramların qiymətləndirilməsi və təsnifatı zamanı nəzərə almaq lazımdır. Daha çox A. Itoh və həmmüəllifləri tərəfindən təklif olunmuş təsnifat istifadə olunur. Bu təsnifata əsasən 5 tip elastoqram ayrılır. İlk 3 tip elastoqramlar xoşxassəli dəyişikliklər, 4-cü və 5-ci tip elastoqramlar isə bədxassəli dəyişikliklər üçün xarakterikdir [9,15,23,25]. Elastoqramların tipləri BIRADS təsnifatının müvafiq kateqoriyaları ilə uyğunlaşdırılır. Lakin A. Itoh təsnifatı və BIRADS kateqoriyaları arasında tam korreliyasiya həmişə mümükün olmur. Bunu bir sıra tədqiqatların nəticələri də təsdiq edir.[23]. Törəmənin ölçüsü və yerləşməsi da elastoqrafiyanın effektivliyinə əhəmiyyətli təsir göstərir [23,24,25,27]. A. Stachs və həmmüəlliflərinin nəticələrinə əsasən, USM-in elastoqrafiya ilə birgə istifadəsi süd vəzisinin bədxassəli və xoşxassəli xəstəliklərin differensial diaqnostikasının həssaslığını azaltmadan spesifikliyinin artmasına səbəb olur [28]. J.H. Lee və həmmüəlliflərinin fikrincə yalnız elastoqrafiya ilə birgə USM ölçüsü 1 sm-dən kiçik olan xoş- və bədxassəli törəmələrin diferensial diaqnostikasının keyfiyyətini artıra bilər [24]. G.M. Giuseppetti və həmmüəlliflərinin fikrincə isə diaqnostik effektivlik o zaman optimal əhəmiyyət kəsb edir ki, törəmələrin ölçüsü 20 mm-dən kiçikdir. Diametri 20 mm-dən böyük olan törəmələrdə elastoqrafiyanın həssaslığı və spesifikliyi azalır. Bəzi müəliflər isə düyünlərinin ölçüsü 1sm-dən kiçik olan süd vəzi xərçənginin diaqnostikasında elastoqrafiyanın yüksək effektli olmasına diqqəti cəlb edirlər [9,17]. Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, süd vəzisi xərşənginin əsas diaqnostika metodları barəsində çoxsaylı informasiyanın olmasına baxmayaraq onlar bir qədər də təzadlı və müxtəlifdirlər.

Şüa diaqnostikasının bir çox metodları süd vəzi xəstəliklərinin aşkarlanmasında əlavə və ya dəqiqləşdirici metodlar kimi istifadə olunurlar. Onlara KT və MRT, radionuklid metodu və bir sıra digər metodları- radiotermoqrafiya və elektrorimpedans mammoqrafiyanı misal göstərmək olar.

Mammoqrafiya aşkar edilmiş düyünün təbiətini birmənalı olaraq əks etdirə bilmirsə və USM gözlənilən nəticəni vermirsə, bu zaman daha böyük həssaslığa malik olan dinamik *maqnit-rezonans tomoqrafiyasından* istifadə edilməsi məqsədəuyğundur [10,22]. MRT süd vəzisinin müasir müayinə metodlarından biri hesab edilir, SVX və bir sıra xəstəliklərin diaqnostikasında dəqiqləşdirici metod kimi istifadə edilir. MRT həmçinin rekonstruktiv əməliyyatlardan, əsasən də implantlarla protezləşdirmədən sonra süd vəzilərinin vəziyyətini qiymətləndirməyə imkan verir. Bu diaqnostik üsul SVX-nin multisentrik formalarının dəqiq diaqnostikasını aparmağa, həmçinin xərçəngin yerli və ya regionar yayılmasını dəqiqləşdirməyə kömək edir. Alınmış nəticələrin işlənməsi zamanı 3D rekonstruksiyasını almaq mümkündür, bu isə şişin süd vəzisi toxumasında fəza lokalizasiyasını müəyyənləşdirməyə imkan verir. MRT-nin informativliyi dinamik kontrast güclənmənin istifadəsi zamanı əhəmiyyətli dərəcədə artmış olur. Standart rentgen mammoqrafiyası və USM-də nəticələri birmənalı olaraq interpretasiya etmək olmadığı halda, MRT-də kontrast maddənin toplanma intensivliyi düyünlü törəmələrin xoşxassəli və bədxassəli təbiətini diferensiasiya etməyə imkan verir [26]. SVX-nin diaqnostikasında MRT dinamik kontrastlaşma ilə də

istifadə olunur. [6,20,30]. Dinamik kontrastlaşma ilə olan MRT invaziv SVX və metastazların diaqnostikasında yüksək həssas (83-100%) metod hesab edilməyinə baxmayaraq spesifik hesab olunmur (29-87%) [6,26,30]. MR-mammoqrafiyanın süd vəzi xərçənginin diaqnostikasında çatışmayan cəhəti mikrokalsinatların aşkar edilə bilməməsidir, bu isə öz növbəsində süd vəzi xərçənginin erkən diaqnostikasının imkanlarını kəskin dərəcədə aşağı salır [20].

Mammossintiqrafiya SVX-nin həssas diaqnostika metodu olub radionuklid diaqnostika metodları qrupuna aiddir. SVX-nin aşkar edilməsinin əsasında onun bədxassəli törəmələrinə yüksək tropluğu olan diaqnostik preparatların paylanmasının vizual mənzərəsinin qiymətləndirilməsi durur. Diffuz mastopatiya zamanı bir sıra müəlliflər radiofarmpreparatın toplanmasının güclənmiş diffuz artmasını qeyd edirlər. Metod iltihab mənşəli limfadenitlə limfa düyünlərinin metastatik zədələnməsi arasında diferensial diaqnostikanı həyata keçirməyə imkan vermir. Bununla əlaqədar mammosintiqrafiyanın SVX-nin skrininq çərçivəsində və dəqiqləşdirici metod kimi istifadəsi bir qədər çətinləşir [28].

Pozitron-emission tomoqrafiya (PET) geniş yayılmış radiofarmpreparat olan -18-flüordezoksiqlükoza ilə həyata keçirilən dəqiqləşdirici metoddur. Müalicənin effektivliyi, residivlərin və uzaq metastazların diaqnostikası üçün PET istifadə oluna bilər. 18-flüordezoksiqlükoza ilə PET zamanı yalançı neqativ hallar törəmənin kiçik ölçüsü ilə (10mm-dən kiçik) əlaqədardır [11].

Radiotermoqrafiya metodu dəridə temperaturun lokal dəyişikliklərinin qiymətləndirilməsnə əsaslanır. Bu göstərici bir sıra müəlliflərin fikrinə görə əsasən SVX zamanı intramammar temperaturun lokal dəyişikliklərinin meyl etmələri ilə korrelyasiya olunur [5]. Qeyri-invaziv və şüa yüklənməsinin olmamasına baxmayaraq bu metod dəqiqləşdirici metod kimi geniş istifadə olunmur, belə ki, onun həssalığı 25%-dir və skrininq üçün yararlı olmayan (85%) spesifikliyə malikdir [13].

Beləliklə, süd vəzisi şişlərinin erkən və diferensial diaqnostikasında instrumental müayinə metodlarının birgə tətbiqi xəstəliyi vaxtında aşkarlamağa kömək edir və bununla da müvafiq müalicə və profilaktika tədbirlərinin görülməsində mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Əmiraslanov Ə.T., Qazıyev A.Y. Onkologiya. Bakı, "Təhsil", 2010, 912 s.
2. Rumack C.M.,Wilson S.R., Charboneau J.W., Levine D. Tanısal Ultrasonografi. // GÜNEŞ TIP KİTABEVLERİ. 2013. S.773-839.
3. Заболотская Н.В., Заболотский В.С. Новые технологии в ультразвуковой маммографии. М.: ООО «Фирма СТРОМ». 2010. 256 с.
4. Зикиряходжаев А.Д., Летягин В.П., Корженкова Г.П., Волченко А.А. Диагностическая ценность ультразвукового исследования при раке молочной железы у женщин молодого возраста // Российский онкологический журнал.,2008. №2, с. 29-30.
5. Линденбратен Л.Д., Королюк И.П., Медицинская радиология. М.: Медицина, 2000
6. Серебрякова С.В., Труфанов Г.Е., Юхно Е.А. Магнитно-резонансная семиотика рака молочной железы // Опухоли женской репродуктивной системы. Маммология. Онкогинекология, 2009, №3-4, с. 20-25.
7. Синюкова Г.Т., Шолохов В.Н., Данзанова Т.Ю. Ультразвуковая томография и допплерография в оценке эффективности лекарственного лечения рака молочной железы. // Sonoace international, 2003, №11, с. 25-28.
8. Терновой С.К., Абдураимов А.Б. Лучевая маммология. М.: ГЭОТАР- Медиа, 2007, 128 с.
9. Труфанов Г.Е.. Рязанов В.В., Иванова Л.И. УЗИ с эластографией в маммологии. СПб.: ЭЛБИ-СПб, 2013, 256 с.
10. American College of Radiology. BI-RADS Breast imaging reporting abd data system. Breast imaging atlas: mammography, breast ultrasound, breast MR-imaging. Virginia. Reston. 2003, 268 p.
11. Benard F., Turcotte E. Imaging breast cancer with single photon computed tomography and positron emission tomography. // Breast Cancer Res., 2005, №7, p. 153-162.
12. Bernardi D., Ciatto S., Pellegrini M. Application of breast tomosynthesis in screening: incremental effect on mammography acquisition and reading time//Br. J.Radiol.,2012,v85,p.1174-8
13. Brkljacic Вю, Miletic Дю, Sardanelli F. Thermography is not a feasible method for breast cancer screening // Coll. Antropol., 2013, v.37, №2, p.589-593.
14. Cox R.F., Morgan M.P. Microcalcifications in breast cancer: Lessons from physiological mineralization // Bone, 2013, v.53. №2, p.437-450.

15. Fleury E.F., Fleury J.C., Piato S., Roveda D.Jr. New elastographic classification of breast lesions during and after compression // Diagn. Interv. Radiol., 2009, v.15, №2, p.96-103.
16. Garcia-Manso A., Garcia-Orellana C.J., Gonzalez-Velasco H.M. et al. Study of the effect of breast tissue density on detection of masses in mammograms. Comput. Math. Methods Med. 2013.
17. Goddi A., Bonardi M., Alessi S. Breast elastography: A literature review // Journal of Ultrasound, 2012, №15, p.192-198.
18. Hamed S.T., Abdo M.H., Ahmed H.H. Breast discharge: ultrasound and Doppler evaluation // J. Egypt Natl. Canc. Inst., 2008, v. 20, №3, p.262-270.
19. Harvey J.A., Gard C.C., Miglioretti D.L. et al. Reported mammographic density: film-screen versus digital acquisition. // Radiology, 2013, v.266. №3, p.752-758
20. Hendrick R.E. Breast MRI Fundamentals and Technical Aspects. N.Y.: Springer, 2008, 251 p.
21. Hollenbeck S., Keely P., Seewaldt V. Mammographic density: intersection of science, the law, and clinical practice // Am. Soc. Clin. Oncol. Educ. Book. 2013, p.63-69
22. Huang W., Fisher P.R., Dulaimy K. et al. Detection of breast malignancy: diagnostic MR protocol for improved specificity // Radiology, 2004, №232, p.585-591
23. Itoh A., Ueno E., Tohno E., et al. Breast disease: clinical application of US elastography for diagnosis. // Radiology, 2006, v.239, p.341-350.
24. Lee J.H., Kim S.H., Kang B.J. et al. Role and clinical usefulness of elastography in small breast masses // Acad. Radiol., 2011, v. 18, p.74-80.
25. Regini E., Bagnera S., Tota D. et al. Role of sonoelastography in characterising breast nodules. Preliminary experience with 120 lesions // Radiol. Med., 2010, v. 115, p.551-562
26. Salem D.S., Kamal R.M., Mansour S.M. Breast imaging in the young: the role of magnetic resonance imaging in breast cancer screening, diagnosis and follow-up // J. Thorac Dis., 2013, №5, Suppl. 1, p.S9-S18.
27. Stachs A., Hartmann S., Stubert J. et al. Differentiating between malignant and benign breast masses: factors limiting sonoelastographic strain ratio, // Ultraschall Med., 2013, v.34, p.131-136.
28. Surti S. Radionuclide methods and instrumentation for breast cancer detection and diagnosis // Semin. Nucl. Med., 2013, v. 43, p. 271-280.
29. Thibault F., Dromain C., Breucq C. et al. Digital breast tomosynthesis versus mammography and breast ultrasound: a multireader performance study // Eur. Radiol., 2013, v.23, p.2441-2449.
30. Wang S.Y., Virnig B.A., Tuttle T.M. et al. Variability of Preoperative Breast MRI Utilization among Older Women with Newly Diagnosed Earlystage Breast Cancer//Breast J.,2013,v.19,p.627-636

Резюме

Современное состояние инструментальной диагностики опухолей молочной железы

Н.В.Касымов, И.Н.Оруджева, Г.А.Ахмедова, А.С.Асадов

Несмотря на то, что проблеме рака молочной железы уделяется много внимания, до сих пор нерешенными остаются вопросы снижения заболеваемости и смертности от данной нозологии. Контролировать рост заболеваемости раком молочной железы не представляется возможным по причине отсутствия эффективных методов первичной диагностики. В последнее годы применение новейших инструментальных методов диагностики (маммография, дуктография, пневмосистография, КТ, УЗИ, МРТ) играет важную роль в ранней диагностики данной нозологии.

Summary

The current state of instrumental diagnostics breast tumors

N.V. Gasimov, I.N.Orujova, G.A.Ahmedova, A.S.Asadov

Despite the fact that the issue of breast cancer are receiving a lot of attention, so far unresolved questions remain to reduce morbidity and mortality from this nosology. To control the growth of breast cancer is not possible due to lack of effective methods of primary diagnostics. In recent years, the use of advanced instrumental methods of diagnostics (mammography, ductography, pneumocystography, CT, ultrasound, MRI) plays an important role in the early diagnosis of this nosology.

Daxil olub: 07.04.2015

UŞAQLARDA BRONXOBSTRUKTİV SİNDROM

H.H.Qabulov, N.H.Sultanova
Azərbaycan Tibb Universiteti, II Uşaq xətəlikləri kafedrası

Açar sözlər: uşaqlar, bronxobstruktiv sindrom
Ключевые слова: дети, бронхообструктивный синдром
Keywords: children, bronchial obstruction

Bronxobstruktiv sindrom (BOS) və ya bronxial obstruksiya sindromu- bronxların mənfəzinin müxtəlif etiologiyalı generalizasiya olunmuş daralması nəticəsində meydana çıxan klinik əlamətlər kompleksidir.

BOS uşaqlarda, xüsusilədə həyatının ilk 3 ili ərzində, kifayət qədər tez-tez rast gəlir. Müxtəlif müəlliflərin məlumatlarına görə, aşağı tənəffüs yollarının yoluxucu xəstəliklərinin fonunda inkişaf edən BOS-un tezliyi erkən yaşlı uşaqlarda 5%-dən 40%-ə qədər təşkil edir. Xüsusi ilə allergik xəstəliklər üzrə ağırlaşmış ailə anamnezi olan uşaqlarda BOS rast gəlmə tezliyi (30-40% hallarda) yüksəkdir [1,2].

Erkən yaşlı uşaqlarda BOS-un inkişaf etməsinə respirator sistemin yaş xüsusiyyətləri: əsasən qatı bəlğəmin sekresiyası, tənəffüs yollarının nisbətən dar olması, yerli immunitetin çatışmazlığı, diafraqmanın quruluş xüsusiyyətləri şərait yaradır. BOS-un inkişafına həmçinin ağırlaşmış allerqoloji anamnez, atopiyaya qarşı irsi meyllilik, mərkəzi sinir sisteminin perinatal patologiyası, raxit, hipotrofiya və s. təsir göstərir. BOS-un inkişafına səbəb olan ətraf mühit amilləri içərisində qeyri-qənaətbəxş ekoloji vəziyyətə daha böyük əhəmiyyət verilir [4, 6].

Bir yaşa qədər olan uşaqlarda BOS-un səbəbi burun-udlağın anadangəlmə anomaliyaları, traxeya-bronxial fistul, qastroezofaqal reflyuks ilə şərtlənmiş aspirasiya ola bilər. Traxeya və bronxların inkişaf qüsurları, respirator distress-sindrom, mukovissidoz, bronx-ağciyər displaziyası, immunçatışmazlığı vəziyyəti, bətndaxili infeksiyalar, passiv siqaret çəkmə də həmçinin bir yaşa qədər uşaqlarda BOS-un səbəblərindən sayılır [3].

İki , üç yaşlı uşaqlar arasında BOS-un yaranmasında təkan verici amil kimi yad cismin aspirasiyası, həlqəvi qurdların miqrasiyası, obliterasiyaedən bronxiolit zamanı, tənəffüs orqanlarının anadangəlmə və irsi xəstəlikləri olan uşaqlarda, ağciyər hipertenziyası ilə müşayiət olunan ürək qüsurları rol oynayır. 3 yaşdan yuxarı uşaqlarda BOS-un əsas səbəbləri bronxial astma, tənəffüs orqanlarının anadangəlmə və irsi xəstəlikləri (mukovissidoz və s.) təşkil edir [5].

BOS zamanı inkişaf edən iltihabı prosessi infeksion, allergik, toksik, fiziki, neyrogen amillər törədilə bilər. Bu sindrom zamanı iltihabın kəskin mərhələsinin əsas mediatoru sayılan İL-1-dir. . O, infeksion və qeyri-infeksion amillərin təsiri zamanı faqositlər və toxuma makrofaqları tərəfindən sintez olunur və bir çox immun reaksiyaları fəallaşdırır ki, bu da tosqun hüceyrələrin qranulalarından periferik qan dövranına 1-ci tip mediatorların (histamin, serotoninvəs.) xaric olunmasına imkan verir. Lakin tosqun hüceyrələrin və bazofillərin deqranulyasiyasını qeyri-immun mexanizmlərdə törədə bilər. Histamindən başqa, iltihabın patogenezində erkən iltihabi reaksiya prosesində hasil edilən 2-ci tip mediatorlar (eykozanoidlər) da mühüm rol oynayırlar. Eykozanoidlərin mənbəyi araxidon turşusu hesab edilir ki, o, hüceyrə membranlarının fosfolipidlərindən əmələ gəlir. Siklooksigenazanın təsiri altında araxidon turşusundan prostoqlandinlər, tromboksan və prostosiklin, lipooksigenazanın təsiri ilə - leykotrienlər sintez olunur [7].

Uşaqlarda daha çox BOS ilə müşayiət olunan xəstəliklərin aşağıdakı qrupları ayırd edilir:

1. Tənəffüs orqanlarının xəstəlikləri (KRX, bronxit, bronxiolit, pnevmoniya; allergik xəstəliklər- bronxial astma; bronx-ağciyər displaziyası; bronx-ağciyər sisteminin inkişaf qüsurları; obliterasiyaedən bronxiolit; traxeyanın, bronxların, yemək borusunun yad cisimləri; mədə-bağırsaq yolunun xəstəlikləri – aspirasion obstruktiv bronxit, qastroezofaqal reflyuks, traxeya-yemək borusu fistulu, mədə-bağırsaq yolunun inkişaf qüsurları, diafraqma yırtığı; ürək-damar sisteminin anadangəlmə və qazanılmış xarakterli xəstəlikləri- kiçik qan dövranının hipertenziyası ilə birlikdə anadangəlmə ürək qüsurları, iri damarların anomaliyaları, anadangəlmə qeyri-revmatik karditlər).
2. Mərkəzi və periferik sinir sisteminin xəstəlikləri (kəllə-onurğa beyni zədələri, uşaq serebral iflici, neyroinfeksiyalar, isteriya, epilepsiya).

3. İrsi xəstəliklər (muovissidoz, malabsorbsiya sindromu, raxitəbənzər xəstəliklər, Kartaqener sindromu və s.).

4. Anadangəlmə və qazanılmış immunçatışmazlıq vəziyyətləri və s.

Bronxoobstruksiyanın etiopatogenezindən asılı olaraq praktiki nöqteyi-nəzərdən BOS-un 4 variantını ayırd etmək olar: 1) infeksion, 2) allergik, 3) obturasion, 4) hemodinamik.

BOS gedişinə görə kəskin (BOS-un klinik əlamətləri 10 günə qədər saxlanır), uzunsürən, residivləşən və fasiləsiz- residivləşən (bronxağciyər displaziyasında, obliterasiya edən bronxiolit zamanı və s.) olur. Ağırlıq dərəcəsinə görə obstruksiyanın aşağıdakı formaları ayırd edilir: yüngül dərəcəli, orta-ağır, ağır və gizli bronxialobstruksiya [8].

BOS-un ağırlıq dərəcəsinin meyarları bunlardır: fıtverici xırıltıların olması, təngnəfəslik, sianoz, yardımçı əzələlərin tənəffüs aktında iştirak etməsi, xarici tənəffüs funksiyasının (XTF) və qanda olan qazların (SpO) göstəriciləri.

BOS-un klinik əlamətləri nəfəsalmanın uzanması, onun fıtverici tembrə malik olması, tənəffüs aktında yardımçı əzələlərin iştirak etməsi ilə özünü biruzə verir. Adətən az bəlğəmli ösürək ilə müşayiət olunur. Kəskin obstruksiya zamanı səsli nəfəsalma, tənəffüs hərəkətlərinin tezliyinin artması, tənəffüs əzələlərinin yorğunluğunun inkişaf etməsi qeyd edilə bilər. Havanın ağciyərlərdə ləngiməsi hipoksemiya ilə müşayiət olunur. Fiziki müayinə zamanı auskultativ olaraq uzun nəfəsvermə və quru fıtverici xırıltılar müəyyən edilir. Erkən yaşlı uşaqlarda kifayət qədər tez-tez yaş, müxtəlif ölçülü (kalibrli) xırıltılar, bronxiolit zamanı isə - ağciyrələrin bütün sahələri üzrə nəfəsalma və nəfəsvermə mərhələsində çoxlu sayda xırda qovuqcuqlu və krepitasiya edən xırıltılar eşidilir. Perkussiya zamanı ağciyərlər üzərin də qutu çalarlı səs meydana çıxır [9].

BOS-un yüngül gedişi üçün auskultasiya zamanı fıtverici xırıltıların olması, sakit vəziyyətdə təngnəfəslik və sianoz olmaması səciyyəvidir. XTF-nin göstəriciləri (1 saniyə ərzində sürətlənmiş nəfəsvermənin həcmi (SNH) və nəfəs vermənin maksimal sürəti) normadan 80% çoxdur .Uşağın əhvalı, bir qayda olaraq, kafidir. Orta dərəcəli BOS sakit vəziyyətdə ekspirator və ya qarışıq xarakterli təngnəfəsliyin, burun-dodaq üçbucağının sianozunun olması, döş qəfəsinin köməkçi əzələlərinin tənəffüsdə iştirak etməsi ilə müşayiət edilir. Distansion xırıltılar məsafədən eşidilir. XTF göstəriciləri normanın 60-80%-ni təşkil edir, PaO_2> 60 mmc. süt., $PaCO_2$< 45 mmc.süt. Bronxial-obstruksiya tutmasının ağır gedişində uşağın əhvalı pisləşir, yardımçı əzələnin iştirakı ilə birlikdə səs- küylü, çətinləşmiş tənəffüs, sianozun olması səciyyəvidir. XTF göstəriciləri normadan 60% aşağıdır, PaO_2< 60 mmc. süt., $PaCO_2$> 45 mmc. süt [7].

Gizli bronxial astma zamanı BOS-un klinik və fiziki əlamətləri müəyyən edilmir, lakin XTF-nin müayinəsi zamanı bronxolitiklərlə aparılan sınaq müsbət (bronxolitikilə inhalyasiyadan sonra SNH_1-nin 12%-dən çox artması) qeydə alınır [1].

Beləki, BOS - müstəqil diaqnoz deyil, hər hansı xəstəliyin simptomokompleksidir, ona görə də onu yaradan bütün nozoloji formaları bronxial astmanın yaranmasında təkanverici amil kimi hesab etmək olar.

Bronxial obstruksiya diaqnozu klinik-anamnestik məlumatlarla yanaşı fiziki və funksional müayinələrin əsasında qoyulur. XTF-nin spiroqrafiya («axın-həcm» əyrisi) və pnevmotaxometriya (pikfloumetriya) metodları ilə öyrənilməsi 5-6 yaşdan yuxarı uşaqlarda həyata keçirilir, çünki 5 yaşa qədər uşaqlar sürətlənmiş nəfəsvermə texnikasını yerinə yetirməyə qadir deyildirlər [1,2,4].

BOS ilə birlikdə inkişaf edən xəstəliyin diaqnostikası məqsədilə klinik-anamnestik məlumatları ətraflı tədqiq etmək lazımdır. Bu zaman ailədə atopiyanın olmasına, əvvəllər keçirilmiş xəstəliklərə, bronxobstruksiyanın residivlərinin olmasına xüsusi diqqət verilməlidir [7].

Respirator infeksiyanın fonunda inkişaf edən və ilk dəfə aşkar edilən yüngül gedişli BOS əlavə müayinə metodlarının aparılmasını tələb etmir. BOS-un residivləşən gedişində müayinə metodları kompleksinə aşağıdakılar daxil edilməlidir:

1. Periferik qanın müayinəsi.
2. Xlamidiya, mikoplazma, sitomeqalovirus və herpes infeksiyanın olmasına görə seroloji testlərin (spesifik IgM və IgG mütləq, IgA müayinəsi – lazım gəldikdə) aparılması.
3. Helmintozların olmasına görətestlər.
4. Allerqoloji müayinə (ümumi IgE, spesifik IgE, dəri skarifikasiya sınaqları).

Tənəffüs yollarından götürülən bəlğəmdə aparılan bakterioloji müayinəvə ZPR-diaqnostika, BOS –mun erkən diaqnostikası üçün yüksək dərəcədə informativdir. Belə ki, yaxmaların müayinəsi əsasən yuxarı tənəffüs yollarının florasını öyrənməyə imkan verir.

Döş qəfəsinin rentgenoqrafiyası aşağıdakı vəziyyətlərdə həyata keçirilir:

- BOS-un ağırlaşmış gedişinə şübhə olduqda (atelektazvəs.);
- Pnevmoniyanın istisna edilməsi;
- yadcismə şübhə olduqda;
- BOS-un residivləşən gedişi (əgər əvvəllər rentgenoqrafiya aparılmayıbsa).

Bununla yanaşı hər bir xəstəyə fərdi yanaşılaraq bronxoskopiya, sintiqrafiya, ağciyərlərin kompyüter tomoqrafiyası, tər sınağı və s.sınaqlar göstəriş olduqda aparılması məsləhətdir [9].

Diferensial diaqnoz: İnfeksion mənşəli BOS çox vaxt erkən yaşlı uşaqlarda tənəffüs yollarının virus və virus-bakterial infeksiyaları zamanı təsadüf edir. KRVİ- sı nəticəsində müşahidə edilən BOS, 5-40% hallarda erkən yaşlı 1000 uşağa 45-50 orta tezliyində rast gəlir. KRX zamanı qeyd edilən bronxialobstruksiyanın inkişafında selikli qişanın ödemi, iltihabi infiltrasiya, hipersekresiya mühüm əhəmiyyət daşıyır.

Mikoplazma mənşəli BOS çox vaxt 10 yaşdan yuxarı uşaqlarda rast gəlir. Mikoplazmanın təsiri nəticəsində yaranan bronxit normal və ya subfebril fonda inkişaf edir, daha çox yüksək temperaturla (lakin toksikozsuz), kiçik bronxların iltihabı ilə (xırda qovuqcuqlu xırıltılar, ağciyərlərin rentgenoqrammasında– bronxit zonasında ağciyər şəklinin kiçik elementlərinin güclənməsi) müşayiət olunur. Bu zaman qeyd olunan xırıltıların asimmetrikliyi səciyyəvidirki, buda çox vaxt pnevmoniyanın olmasından şühə yaradır.

Chl. Trachomatis tərəfindən törədilən xlamidiya BOS-u, birinci yarımilində olan uşaqlarda çox vaxt yüngül təngnəfəslik, toksikoz və hemolitik dəyişiklərlə keçir. Belə ki, ilk olaraq xəstələrdə konyunktivit rast gəlir, öskürək isə göyöskürəyə bənzər xarakter daşıyır. 3 yaşdan yuxarı uşaqlarda və yeniyetmələrdə Chl. pneumoniae ilə törədilən respirator xlamidioz aşağıdakı klinik simptomatika ilə təzahür edir: uzun sürən və resivdivləşən bronxobstruktiv sindrom, subfebril temperatur, kəskin intoksikasiyanın olmaması, astenik vəziyyət (zəiflik, süstlük) [5].

Allergik mənşəli yaranmış BOS zamanı obstruksiya 2 əsas mexanizmlə şərtlənmişdir: bronx ağacının hiperreaktivliyi və selikli qişaların iltihabı. Etioloji amillər qismində müxtəlif allergenlər iştirak edəbilər: məişət allergenləri (ev tozu, bitkilərin və ağacların tozcuqları, kəpək və heyvanların yunu və s.) dərmanlar, qida məhsulları, balıqların akvariumları üçün quru yem və s.. Bununla yanaşı BOS tutmalarını qeyri-spesifik amillər, məsələn, fiziki iş, donma, iqlim şəraitinin kəskin dəyişməsi, qoxular, kimyəvi agentlər, psixi gərginlik də təhrik edə bilər.

Respirator-virus infeksiyası bronxial astmanın (BA) formalaşmasında və gedişində güclü etioloji amil sayılır. Viruslarla induksiya olunmuş BA-nin inkişafının əsas patogenetik həlqəsini, bronxların epitelisində kəskin virus mənşəli kataral iltihabın inkişaf etməsi hesab edilir ki, bu da onun kobud morfofunksional dəyişikliklərini, selikli qişanın ödemini və seliyin hipersekresiyasını, damar keçiriciliyinin artmasını, bronxların hiperreaktivliyini yaradır. Respirator viruslar 90% hallarda uşaqlarda astmanın yaranmasını təhrik edən amil sayılır. 60-90% hallarda aşkar edilən əsas virus - RS-virusu sayılır [10].

Erkən uşaq yaşlarında bronxial astma və obstruktiv bronxitin zamanı yaranmş BOS- nun diferensial diaqnozunu aparmaq üçün artıq bir neçə ildir ki, aşağıdakı klinik simptomokomplekslərdən istifadə edilir (cədvəl 1).

BA üçün yuxarıda sadalanan diaqnostik baxımdan 10 yüksək əhəmiyyətli əlamətdən 4-nün olması 95% ehtimalla bu diaqnozu təsdiq edir.

Yad cisimlərin aspirasiyası nəticəsində qeyd edilən BOS zamanı müşahidə edilən aspirasiyaların böyük qismi (54%) 1 yaşdan 3 yaşa qədər uşaqlar arasında tərəddüd edir. Traxeya-bronx ağacında yad cisimlərin hərəkəti yad cismin həcmindən, formasından, onun səthinin xarakterindən və traxeya-bronx ağacı boyunca yerdəyişməsi imkanından asılıdır. Ədəbiyyat məlumatlarına görə, yad cisimlər çox vaxt sağ ağciyərdə (54%-dən 70%-ə qədər) lokalizasiya edirlər. Klinik simptomların müxtəlifliyinə baxmayaraq, onların arasında tənəffüs yollarında yad cismin müəyyən lokalizasiyası üçün ən səciyyəvi olanlarını seçmək mümkündür. Qırtlaq nahiyəsində yad cismin əsas simptomları inspirator təngnəfəslik, səsin xırıltılı olması və ya afoniya, boğulma hissiyatı sayılır. Larinqoskopiya, traxeoskopiya müayinələri ilə yanaşı, xəstənin düzgün diaqnostikası üçün əsas amillərdən biri anamnezdə tam sağlam olduğu halda xəstəliyin klinikasının qəflətən inkişaf etməsinə dair məlumatın olması köməklik edir [3,8].

Traxeyanın yad cisimləri tənəffüs sisteminin digər orqanlarına nisbətdə çox - 43%-dən 66%-

ə qədər (qırtlaqda lokalizasiya etdikdə 2,9-18%) rast gəlinir. Bu zaman boğulma tutmaları və əzabverici, tutmaşəkilli öskürək nəzərə çarpır.

Cədvəl 1

Bronxial astmanın diferensial diaqnostikası (Y.L.Mizerniçki, 2002)

Diaqnostik baxımdan yüksək əhəmiyyət daşıyan əlamətlər	Bronxial astma	Obstruktiv bronxit
1. Yaş	1,5 yaşdan yuxarı	< 1 yaş
2. BOS başlanması	KRVİ-nin 1-ci sutkası	3-cü günü və daha gec
3. BOS davam etmə müddəti	2 sutkadan az	4 sutka və daha çox
4.Əvvəllər BOS təkrarlığı	2 dəfə və daha çox	1 dəfə və ya ilk dəfə
5.Allergik xəstəliklərə irsi meyliliyi	Bəli	Xeyr
6. Ana xətti üzrə bronxial astmanın olması	Bəli	Xeyr
7.Anamnezdə qida məhsullarına, dərman maddələrinə, profilaktik peyvəndlərə qarşı allergik reaksiyaların olması	Bəli	Xeyr
8.Hamiləlik dövründə ananın yoluxucu xəstəlikləri	Bəli	Xeyr
9.Anamnezdə anada hamiləlik nefropatiyasının olması	Bəli	Xeyr
10.Həddən artıq məişət antigeni ilə yüklənmə, yaşayış yerində nəmişlik, kiflənmənin olması	Bəli	Xeyr

Yad cisim bronxlarda lokalizasiya etdikdə bronxiolların reflektor spazmı baş verir ki, bu da klinik olaraq bronxialobstruksiyanın qəflət ənəmələ gəlməsi ilə özünü biruzə verir. Digər mənşəli bronxialobstruksiyadan fərqli olaraq, perkutor və auskultativ müayinələr zamanı asimmetrik olaraq perkutor səsin qısalması və xırıltıların eşidilməsi müşahidə edilir, tənəffüsün zəifləməsi isə yad cismin hipoventilyasiya törətdiyi zonaya uyğun gəlir. Rentgenoloji müayinədə aspirasiya olunmuş əşyanın kölgəsi, atelektaz, divar aralığının yerdəyişməsi nəzərə çarpır. Əgər yad cisim kiçikdirsə, səs yarığından keçmişdirsə və bronxlardan birində fiksə olunmuşdursa, onda tənəffüs sərbəstdir və uşaq öskürək tutmasından sonra sakitləşir. Bu halda BOS-un inkişafı tədricən baş verə bilər. Müşahidə edilmiş lokal bronxit diffuz bronxitə transformasiya edir ki, bu da diaqnostikanı çətinləşdirir. Bronxun tam obturasiyası zamanı atelektaz inkişaf edir. Diaqnozun qoyulmasına ətraflı toplanmış anamnez kömək edir [9].

Bununla yanaşı aspirasiya mənşəli bronxobstruktiv sindromun əsası nımüxtəlif xəstəliklər və vəziyyətlər təşkil edə bilər: qastroezofaqal reflyuks (QER), traxeya-yeməkborusu fistulu, mədə-bağırsaq yolunun inkişaf qüsurları, diafraqma yırtığı.

Mərkəzi və periferik sinir sisteminin xəstəlikləri zamanı BOS. Kranio-spinal travma, MSS-nin zədələnmələri, hipertenzion-hidrosefaliya sindromu, beynin kobud inkişaf qüsurları olan uşaqlarda udma və sorma aktlarının koordinasiyasının pozulması baş verə bilərki, onun nəticəsində əsasən qidanın aspirasiyası və BOS-uninkişaf etməs imümkündür.

Maddələr mübadiləsinin anomaliyaları zamanı BOS. Bronxobstruktiv sindrom kifayət qədər tez-tez maddələr mübadiləsinin irsi anomaliyaları zamanı meydana çıxır və bronx-ağciyər sisteminin zədələnmələri ilə müşayiət olunur. Çox vaxt BOS mukovissidoz, malabsorbsiya sindromu, raxitəbənzər xəstəliklər, az hallarda - alfa-1-antitripsin çatışmazlığı, mukopolisaxaridoz zamanı qeyd oluna bilər.

BOS müalicəsi ilk öncə onun inkişafına gətirib çıxaran xəstəliyin səbəbinin aradan qaldırılmasına yönəldilməlidir.

Respirator infeksiya zamanı BOS-un müalicəsinin əsas istiqamətlərini bronxların drenaj funksiyasının, iltihabəleyhinə və bronxolitik müalicənin yaxşılaşdırılması üzrə tədbirlər təşkil edir. Bronxobstruksiya tutmasının ağır gedişi oksigen müalicəsinin aparılmasını tələb edir.

İnfeksion mənşəli BOS zamanı bronxolitik müalicə qismində qısa təsirəmalik β_2-aqonistlər, antixolinergik preparatlar, qısa təsirli teofillinlər və onların kombinasiyalarından istifadə edilir. Preparatların inhalyasiya yolu ilə yeridilməsinə üstünlük vermək lazımdır [4].

Kəskin bronxobstruksiyanın intensivliyinin azaldılması üçün seçim preparatı qismində qısa təsirə malik β_2-aqonistlər (salbutamol, fenoterol) istifadə edilə bilər. İnhalyasion yolla tətbiq

etdikdə onlar tez (5-10 dəqiqədən sonra) bronxodilatasiya effekti verir.

Antixolenergik preparatlar asetilxolinin M_3-reseptorlarını blokada edir. Bu qrupa aid olan ipratropium bromidin (atrovent) inhalyasiya formasının bronxodilatasiya effekti inhalyasiyadan 15-20 dəqiqə sonra qeyd edilir. Speyser vasitəsilə bir dəfəyə preparatın 2 dozası (40 mkq), nebulayzer vasitəsilə – sutkada 3-4 dəfə 8-20 damcı (100-250 mkq) inhalyasiya təyin edilir.

Erkən yaşlı uşaqların tənəffüs orqanlarlnda β_2-adrenoreseptorların zəif inkişaf etməsi onların fizioloji xüsusiyyətlərinə əsaslanır. Lakin yaş artdıqca onların sayının artması və mediatorların təsirinə qarşı həssaslığın yüksəlməsi nəzərə çarpır. Bunun əksi olaraq həyatın ilk aylarında M-xolinoreseptorlarına qarşı həssaslıq kifayət qədər yüksək olması müşahidə edilir ki, bununda kombinə olunmuş preparatların yaradılmasına zəmin yaratdığı bir çox ədəbiyyatlarda açıqlanılır [12,13,14].

Müasir dövrdə erkən yaşlı uşaqlarda BOS-un kompleks müalicəsində kombinəolunmuş preparatlara aid olan berodualdan daha çox istifadə edilirki, oda 2 təsir mexanizminə malikdir: ilk olaraq β_2- adrenoreseptorların stimulyasiyasına və daha sonra M-xolinoreseptorların blokadasına təsir edir. Berodualın tərkibində ipratropium-bromid və fenoterolvardır ki, onların bu kombinasiyası sinergik təsir göstərirlər. Preparatın yeridilməsininən yaxşı üsulu nebulayzer sayılır. 5 yaşa qədər uşaqlarda xəstəliyin ağırlıq dərəcəsindən asılı olaraq, birdəfəlik doza orta hesabla sutkada 3-4 dəfə 1 kq bədən çəkisinə 1 damcı təşkil edir. Nebulayzerin kamerasında preparatı 2-3 ml fizioloji məhlulda həll edirlər.

Drenaj funksiyasının yaxşılaşdırılması məqsədilə aktiv oral rehidratasiyanın aparıl- ması, bəlğəmgətirici və mukolitik preparatların istifadəsi, vibrasion masaj və döşqəfəsinin postural drenajını aparmaq nəzərdə tutulur.

Oral rehidratasiya zamanı içmək məqsədilə qələvi mineral sulardan istifadə edilməsi məqsədəuyğundur, mayenin əlavə sutkalıq həcmi uşağın 1 kq-na 50ml-ə yaxın təşkil edir.

Mukolitik və bəlğəmgətirici müalicənin məqsədi bəlğəmin durulaşdırılması və öskürəyin effektivliyinin yaxşılaşdırılmasıdır.

Bronxobstruksiyası olan uşaqlarda qatı bəlğəmli az produktiv öskürək olduqda mukolitiklərin inhalyasiyon (nebulayzer vasitəsilə) və peroral yeridilməsi yolunu birlikdə tətbiq etmək olar. Onlardan ən yaxşısı KRVİ zamanı ambroksol tərkibli preparatlar sayılır. Bu preparatlar dolayı təsirli mukolitiklərə aiddirlər, iltihabəleyhinə təsirə malikdirlər, surfaktantın sintezini artırırlar, bronxobstruksiyanı gücləndirmirlər, praktik olaraq allergik reaksiyalar törətmirlər.

N-asetilsistein kəskin mukolitik effektə malikdir, əsasən xronik bronxobstruktiv proseslərdə tətbiq edilir. Bu tərkibli preparatlar bəlğəmdə qlikoproteinindisulfid əlaqələrini parçalayır ki, bu da onun durulaşmasına gətirib çıxarır. Ancaq bu preparatı uzunmüddət tətbiq etdikdə o, lizosimvə IgA hasilini azaldır, bronxialhiperreaktivliyi yüksəldir. Kəskin respirator infeksiyalar zamanı onun istifadə müddəti 5-7 gün təşkil edir.

Kəskin bronxial sekresiya ilə müşayiət olunan kəskin obstruktiv bronxitlər zamanı karbosist einin istifadəsi daha məqsədəuyğundur. O, bəlğəmin qatılığından asılı olmayaraq, onun reoloji parametrlərini normallaşmasına təsir etməklə mukotənzimləyici effectə malikdir. Bununla yanaşı karbosisteinin mukosiliar daşınmanı yaxşılaşdırır, zədələnmiş səyrici epitelinin bərpa olunmasına kömək edir.

BOS zamanı istifadə olunan qısa təsirli teofillin (eufillin) bronxolitik və iltihabəleyhinə aktivliyə malikdir. Ağır bronxobstruksiya zamanı eufillin venadaxilinə damcı üsulu ilə (fizioloji məhlulda) hər 6 saatdan bir 4-5mq/kq dozada (sutkalıq doza 16-18 mq/kq-a qədər) təyin edilir.

Ağır bronxial obstruksiyası olan uşaqlarda qlükokortikosteroidlərdən nebulayzer vasitəsilə inhalyasiyasıya şəklində istifadə edilir: budesonid suspenziyası (nebulayzer üçün pulmikort suspenziyası 2 ml-lik plastik paketlərdə; 1 ml-də 0,5 mq və ya 0,25 mq dozada). Pulmikort suspenziyasını fizioloji məhlulda həll edilməklə, uşaqlarda 0,25-0,5 mq (1 mq-əqədər) dozada gündə 2 dəfətəyin edilir. Beləliklə, BOS-un müasir müalicəsində bronxolitik və qlükokortikosteroid preparatların birgə istifadə edilməsi prinsipi tətbiq edilir [11].

Respirator infeksiya qeyd edilən uşaqlarda antihistamin preparatlarının tətbiqi uşaqda hərhansı allergik əlamətlər meydana çıxdıqda və ya gücləndikdə, həmçinin remissiya mərhələsində yanaşı gedən allergik xəstəliklər olan uşaqlarda özünü doğruldur.

Uşaqlarda allergik mənşəli BOS-un müalicəsi, bronxial astmanın kəskinləşmələrinin müalicəsi istiqamətində aparılır. Bronxial astma tutmasının aradan qaldırınmasında qısa təsirli inhalyasion β_2-aqonistlər (salbutamol, ventalin, terbutalin, berotek, retafil, durofilin, eufilonq)

daha effektivdir. Bu preparatları portativ dozalaşmış inhalyatorların, toz şəkilində buraxılan inhalyatorların, inhalyasion maskaların köməyi ilə, həmçinin maye formalı bronxospazmolitiklərin inhalyasiya üçün istifadı olunan nebulayzerlərin vasitəsilə orqanizmə yeritmək olar.β_2-aqonistlərin dozalaşmış aerozol şəkilində yeridilməsi 7 yaşdan yuxarı uşaqlarda daha effektivdir. 3-7 yaş arasında və kiçik yaşlarda isə simpatomimetiklərin nebulayzerlərin, speyserlərin vasitəsilə yeridilməsinə üstünlük verilir. Bronxial astma tutmasının aradan qaldırılması üçün 2 dozalaşmış inhalyasion aerozoldan 20 dəqiqə fasilə verməklə 1 saat ərzində 3 dəfə istifadə edilir.Nəticə əldə edilmədikdə uşaq hospitalizasiya olunmalıdır.

Bronxial astmanın ağır olmayan tutmalarının aradan qaldırılması simpatomimetiklərin (salbutamol, klenbuterol, ventolin) peroral istifadə olunması ilə də mümlündür. β_2-aqonistlərin effektivliyi tam olmadıqda onlara birlikdə antixolinerqik təsirli preparatlar (atrovent, ventilat, troventol) inhalyasiya ya damcı şəkilində nebulayzer vasitəsila təyin olunur. Onlardan başqa bu müalicənin effekti tam olmadıqda 4-5 mq/kq dpzasında gündə 4 dəfə eufillin peroral şəkilində təyin olunur.

Aparılan müalicənin effektivliyi az olduqda və daha ağır tutmalarda xəstəyə qlükokortikosteroidlər parenteral olaraq (prednizolon hər kq çəkiyə 1-2 mq, hidrokortizon 5-7 mq) ya suspenziya şəkilində nebulayzer vasitəsi ilə (pulmikort) yeridilir. Pulmikort (budesonid) fizioloji məhlul ilə qarıştırılır və 6 yaşa qədər olan uşaqlarda 500 mkq sutkada, 6-10 yaşında-500-750 mkq, böyük uşaqlara isə sutkada 750-1000 mkq 2-3 dəfə gün ərzində verilir.

Astmatik statusun I-II mərhələsində qeyd olunan BOS zamanı hər 4 saatdan bir inhalyasion β_2-aqonistlər, vena daxili qlükokortikosteroidlər – prednizolon 2-5 mq/kq sutka hesabı ilə, astmatik statusun II-III mərhələsində isə 5-10 mq/kq sutka hesabı iləyeridilir. Eyni zamanda 2,4%-li eufillin məhlulu ilə (5-6 mq/kq birdəfəlik dozada) infuzion terapiya damcı çəkilində aparılır. Eufillinlə uzun müddətli infuzion terapiya zamanı qan zərdabında teofillinin konsentrasiyası nəzarət altına alınmalıdır. Tez-tez kəskinləşmələr olarsa, qısa kursla prednizolon da peroral formada sutkada 1-2 mq/kq çəkiyə istifadə edilir (5-7 gün).

Yuxarıda deyilənləri yekunlaşdıraraq qeyd etmək olar ki, praktiki olaraq hər bir pediator öz təcrübəsində bronxobstruktiv sindrom- funksional və ya üzvi mənşəli bronxial keçiriciliyin pozulması simptomokompleksi ilə qarşılaşır. Nəzərə almaq lazımdırki, BOS heterogendir və bir çox xəstəliklərin təzahürü ola bilər. Ona görə də, müalicəni təyin etməzdən əvvəl ilk olaraq hər bir uşaqda BOS-un səbəbini müəyyən etmək və ona düzgün spesifik müalicə təyin etmək vacibdir.

ƏDƏBİYYAT

1. Əyyubova A.A., Qabulov H.H., Sultanova N.H. Bronxoobstruksiyanın diaqnostikasnda spirometriyanın rolu. Metodik vəsait. Bakı, 2011, s.23
2. Global Atlas oF Asthma. Cezmi A. Akdis, Ioana Agache. Published by the European Academy of Allergy and Clinical Immunology, 2013, p.42-44.
3. Котлуков В.К., Блохин Б.М., Румянцев А.Г. и др. Синдром бронхиальной обструкции у детей раннего возраста с респираторными инфекциями различной этиологии: особенности клинических проявлений и иммунного ответа // Педиатрия, 2006, №3, с. 14-21.
4. Stelmach I., Gorski P., Jerzynska J. et al A randomized, double-blind trial of the effect of treatment with formoterol on clinical and inflammatory parameters of asthma in children //Ann Allergy Asthma Immunol., 2002, v.89(1), p.67-73.
5. Durrani S., Guilbert T.W. Early treatment in preschool children: an evidence-based approach. //Curr Opin Allergy Clin Immunol., 2015, v.15(2), p.175-83.
6. Bacharier L.B., Guilbert T.W. Diagnosis and management of early asthma in preschool-aged children // J Allergy Clin Immunol., 2012, v.130(2), p.287-96
7. Bacharier LB. Management of asthma in preschool children with inhaled corticosteroids and leukotriene receptor antagonists // Curr Opin Allergy Clin Immunol., 2008, v.8(2), p.158-62.
8. Tamesis G.P., Covar RA. Long-term effects of asthma medications in children // Curr Opin Allergy Clin Immunol., 2008, v.8(2). p.163-7.
9. Van Vliet D., Alonso A., Rijkers G. et al. Prediction of asthma exacerbations in children by innovative exhaled inflammatory markers: results of a longitudinal study // Public Library of Science, 2015, v.10(3)
10. Baranov A.A., Balabolkin İ.İ. Uşaq allergologiyası. Moskva, 2006, 687 s.

11.Geppe N.A. Uşaqlarda bronxial astmanın müalicəsində inhalyasion qlükokortikosteroidlər // Pediatriya // Consilium medicum, 2006, N1, s.72-78
12.Grigoryev K.İ., Xan M.A., Grigoryeva O.K. Bronxial astma: GİNA, yeni təşəbbüslər və uşaq pulminoloji praktika // Tibbi yardım, 2007, N3, c.3-8
13.Busse W.W., Rosenwasser I.J. Mechanizm of asthma // J. Allergy Clin. Immunol., 2003, v.111, N3, (Suppl), p.879-804
14.Feeny D. Evaluation of HRQOL in special populations children. Abstracts for Quality of Life Research // Qual. Life Research, 2000, v.9, N3, p.246

Резюме

Бронхообструктивный синдрому детей

Г.Г.Кабулов, Н.Г.Султанова

БОС достаточно часто встречается у детей, особенно у детей первых 3 лет жизни. БОС- не самостоятельный диагноз, а симптомокомплекс какого-либо заболевания, нозологическую форму которого следует установить во всех случаях развития бронхиальной обструкции. Диагноз бронхиальной обструкции ставится на основании клинико-анамнестических данных и результатов физикального и функционального обследования. Дифференциальный диагноз. БОС инфекционного генеза часто имеет место у детей раннего возраста при вирусных и вирусно-бактериальных инфекциях дыхательных путей. Основные направления *терапии БОС при респираторной инфекции*включают в себя мероприятия по *улучшению дренажной функции бронхов, противовоспалительной и бронхолитической терапии*.Резюмируя вышесказанное, можно сказать, что следует учитывать, что БОС является гетерогенным и может быть проявлением многих заболеваний. Поэтому перед назначением лечения важно установить причину БОС у каждого конкретного ребенка и назначить ему правильную соответствующую терапию.

Summary

Bronchial obstructionin children

G.G.Kabulov, N.G.Sultanova

BOS quitecommon in children, particularly in children during the first3years of life.BOS-not an independent diagnosis and the symptomof an illness, nosology form which should be installedin all cases of bronchial obstruction. The diagnosis of bronchial obstructionis placed on thebasis of clinical-anamnestic data and physicaland functional examinations. Differential diagnosis. BOS infectious originis often the casein young children with viralandviral-bacterial infections of the respiratory tract. The main directions of biofeed back therapy for respiratory infection sincludemeasures to improve the drainage function of bronchi, anti-inflammatory and bronchodilator therapy. In summary,we can say that should beborne in mind that the SPU is heterogeneous, and may be a manifest tationof many diseases. The refore, before prescribing treatment, it is important to establish the cause of biofeedback for each individual child, and assign the correct appropriate therapy.

Daxil olub: 23.04.2015

EKSTREMAL AZ BƏDƏN ÇƏKİLİ VƏ ÇOX AZ BƏDƏN ÇƏKİLİ YENİDOĞULMUŞLARIN İNTENSİV TERAPİYASI VƏ İLKİN REANİMASİYA YARDIMININ XÜSUSİYYƏTLƏRİ

S.R.Qulamova, S.A.Əliyeva
Elmi-tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı

Açar sölər: ekstremal az bədən çəkili yenidoğulmuşlar, çox az bədən çəkili yenidoğulmuşlar, intensiv terapiya, reanimasiya
Ключевые слова: новорожденные с экстремально низкой массой тела, новорожденные с очень низкой массой тела, интенсивная терапия, реанимация
Keywords: babies with extremely low birth weight newborns with very low birth weight infants, intensive care, resuscitation

Vaxtından əvvəl doğulma yenidoğulmuş uşaqların ölümü üçün birbaşa səbəblərindən biridir. Vaxtından əvvəl doğulma və çox az bədən çəkisi neonatal ölümün vacib bilvasitə səbəblərindən hesab edilir. Az bədən çəkisi neonatal dövrdə 60-80% hallarda ölümə səbəb olur. Aşağı bədən çəkisinin qlobal yayılma dərəcəsi 15,5% təşkil edir, başqa sözlə dünyada hər il 20 mln az bədən çəkisi olan uşaq dünyaya gəlir. Onların 96,5%-i inkişaf etmiş ölkələrdə doğulur. Bu uşaqların müalicəsi və onlara qulluq təbabətdə xüsusi əhəmiyyət kəsb edən məsələlərdən hesab edilir [1,2].

Az bədən çəkili yenidoğulmuşlara qulluqda həlledici məqam hipotermiyanın profilatikasıdır. Gözlənilən vaxtından əvvəl doğuş zamanı doğuş zalında temperatur 26-28^0 C-dən aşağı olmamalıdır. İstinin mühafizəsi ilə bağlı əsas təbdirlər yenidoğulmuşa həyatın ilk 30 saniyəsində ilkin tibbi yardım çərçivəsində aparılan erkən tədbirlərdən biridir[3].

Bədən çəkisi 1000 q-dan çox olan (28 həftədən çox hestasiya) və az olan (28-ci həftədən az hestasiya) uşaqlara hipotermiyanın profilatikası tədbirlərinin həcmi müxtəlif olur.

28-ci həftədən çox hestasiya müddətində anadan olan uşaqlara daha yetkin uşaqlar kimi tədbirlərin standart həcmi həyata keçilir: dəri örtüyünün qurudulması və quru, isti örtüklərə bələnməsi. Dərin yarımçıq doğulmuşlarda hipotermiyanın yüksək riski nəzərə alınaraq onlara bu tədbirlər daha dəqiqliklə yerinə yetirilir. Uşağın başının yuxarı hissəsi örtük və ya papaqla örtülərək istilik itirilməsindən qorunmalıdır. Artıq qalmış göbək ciyəsinə sıxac qoyulur və qalıq ciyəsinin işlənməsi intensiv terapiya şöbəsində aparılması üçün təxirə salınır. Aparılan tədbirlərin effektivliyinə nəzarət üçün doğuş zalında vaxtından əvvəl doğulmuş bütün uşaqların bədən hərarətinin fasiləsiz monitorinqi keçirilir, bədən hərarəti intensiv terapiya blokuna aparılana qədər fiksə edilir [4,5].

Respirator stabilləşmə metodları. Dərin yarımçıq doğulmuş uşağın spontan tənəffüsü zamanı və ya ağ ciyərlərin süni ventilyasiyası zamanı tənəffüs yollarında fasiləsiz olaraq müsbət təzyiqin yaradılması və dəstəklənməsi vacib elementlərdən biridir. Daimi müsbət təzyiq ağ ciyərlərdə funksional qalıq həcminin yaranmasına imkan verərək, atelektləşməyə mane olur. Tənəffüsün fəaliyyətini aşağı salır. CPAP metodikası sərbəst repirator dəstəklənmə metodikası kimi 27-32 hestasiya həftəsində doğulan və müntəzəm spontan tənəffüsü olan və ürəyin yığılma tezliyi >100 vurğu/dəq. olan uşaqlarda həyatının ilk dəqiqələrində profilaktik məqsədilə aparılır. Doğuş zalında CPAP binazol damcıların, nazal və ya az maskalarının köməkliyi ilə aparılır. Bu hestasiya yaşında olan uşaqlarda tənəffüs yollarına daim artamqda olan təzyiq nəticəsində ağ ciyərlərdə qalıq həcminin stabilləşməsi və respirator simptomatikanın qabarıq reqressi baş verir. Tənəfüs pozuntularının kəskinlik dərəcəsi minimal olduğu halda respirator dəstəkləmənin məqsəduyğunluğu uşaq intensiv terapiya şöbəsinə köçürüldükdən sonra qiymətləndirilir [6,7].

Maska ilə ağ ciyərlərin süni ventilyasiyası keçirilən yenidoğulmuşlara doğulduğu ilk dəqiqələrdə spontan tənəffüsün olmaması və ya < 100 vurğu/ dəqiqə lik bradikardiyanın olması ilə əlaqədar olaraq müntəzəm tənəffüs bərpa olunandan və ÜYT>100 olduqdan dərhal sonra nazal və ya maska CPAP-ın aparılmasına başlamaq lazımdır [6,7,8].

CPAP-ın respirator dəstəklənəməsinin başlanğıc metodu kimi qeyri-effektivlik meyarı dinamikada birinci 10-15 dəqiqədə tənəffüs pozuntularının ağırlıq dərəcəsinin artmasını şərti olarq qəbul etmək olar: köməkçi əzələlərin qabarıq iştirak etməsi, əlavə oksigenləşməyə tələbatın

50-60% olmas. Bu klinik əlamətlər, bir qayda olaraq, respirator pozuntuların ağır gedişatını göstərir ki, bu da uşağın süni ventilyasiyaya keçirilməsini və surfaktantın yeridilməsini tələb edir. Doğuş zalında traxeyaların intubasiyası tələb olunan yenidoğulmuşlara süni ventiyasiya aparmaq, tənəffüsün sonunda qalıq təzyiqin yaradılması PEEP +4-5 sm H_2O lazımdır [9,10].

Süni ventilyasiyanın aparılmasına göstəriş olduqda, "ağ ciyərlərin uzun müddətli havalanması" manevrinin klinik üstünlükləri nəzərə alınır. Bu manevr adətən süni ventilyasiyaya keçirilməzdən əvvəl icra olunur. Məlumdur ki, alveolların daha effektiv açılması və ağ ciyərlədə funksional qalıq hacmin formalaşdırılması üçün birinci nəfəsvermələr böyük təzyiq və uzun müddət tələb edir. "Ağ ciyərlərin uzun müddətli havalanması" manevri "başlanğıc süni nəfəsvemə" olub, 20 sm H_2O təzyiq ilə 15-20 saniyə davam edir. Manevr əl və ya avtomat cihaz ilə aparıla bilər. Nəfəs kisəsi ilə uzun müddətli havalandırmanı aparmaq mümkün deyildir [1,12].

Doğuş zalında surfaktant ilə terapiya. Effektin alınması üçün 100 mq/kq surfaktant yeritmək lazımdır. Baxmayaraq ki, farmakoloji və klinik tədqiqatlarda sübut edilmişdir ki, surfaktantın başlanğıc dozası 200 mq/kq olduqda yarımhəyatın davametm müddəti daha uzun olur və daha qabarıq və sürəli effekt baş verir. 2000-ci ildə qəbul edilmiş surfaktantın yeridilməsi üzrə Avropa tövsiyələrinə uyğun olaraq, poraktant-alfanın başlanğıc 200 m/kq dozada yaxşı effekt verir. Orta- ağır və ya ağrı tənəffüs pozuntularında isə beraktant daha effektivdir. Göstərişlər olduqda surfaktantın uşağın ömrünün ilk 15 dəqiqəsində yeridilməsi daha effektivdir. Doğuş zalında iki əsas yeridilmə metodundan istifadə edilir: intubasiya borusunun yan portundan və kateter vasitəsilə. Bu zaman yeridilmə texnikası praktik olaraq fərqlənmir [13].

Qanın oksigenləşdiriməsinin monitornqinin xüsusiyyətləri və doğuş zalında yarımçıq doğulmuş uşaqların oksigen terapiyasının adekvatlığı. Yarımçıq doğulmuşlara ilkin və reanimasiya yardımının "qızıl standartı" pulsoksimetriya metodu ilə ürək yığlmlaıarını tezliyi və CO_2 göstəricilərinin monitorinqi, eləcə də kalorimetrik metod və ya kapnoqrafiya metodu ilə CO_2-in qeydiyyatı və nəzarətidir. Həmçinin bədənin hərarətinin fasiləsiz olaraq qeydə alınması da tövsiyə olunur [14].

Pulsoksimetriya metodu ilə ürək yığılmalarının tezliyi və CO_2 göstəricilərinin monitorinqi həyatın birinci dəqiqəsindən başlanılır. Müalicə tədbirlərinə başlandıqda pulsoksimetrik ötrücü uşağın biləyinə və sağ çiyninə qoyulur. Əvvəlcə ötürücünün birləşdirilməsi, sonra isə monitorun qoşulması ardıcıllığına xüsusi olaraq diqqət yetirmək lazımdır. Belə olduqda ürək yığılmaları tezliyi göstəricisini maksimal tez ekrana gətirmək mümkündür.

Hestasiyanın müddətindən asılı olaraq yenidoğulmuşların oksigenterapiyası. Spontan tənəffüsdə olan və ÜYT 100 vurğu/dəqiqdən çox olan istənilən uşağa hestasiyanın müddətindən asılı olmayaraq oksigen terapiyasına göstəriş vardır. ÜYT 100 vurğu/dəqiqdən çox olan uşaqlara birinci dəqiqənin sonundan başlayaraq, respirator dəstəklənmədən asılı olmayaraq polsoksimetriya göstəricilərinə istiqamətlənmək lazımdır. Əgər uşaq ilk dəqiqələrdən süni nəfəsverməyə ehtiyac varsa, hestasiyanın 28-ci həftəsinə qədər doğulmuş uşaqların 30-40%nə oksigen terapiyası aparmaq lazımdır. Süni ventilyasiya bir dəqiqə ərzində aparılır, oksigenin konsentrasiyası pulsoksimetriyanın göstəricilərinə əsasən tənzimlənir. Adekvat süni ventilyasiydan sonra ÜYT 60 vurğu/dəqiqədən az olan uşaqlar istisnalıq təşkil edirlər. bu halda ürəyin birbaşa olmayan massajından başlayaraq, O_2-in konsentrasiyası 100%-ə qədər artırılır [15,16]. Qanın oksigeniləşdirilməsinin hədəf göstəriciləri (CO_2 göstəricilərinə əsasən) cədvəl 1-də vrilmişdir.

Cəvəl 1

İlk 10 dəqiqədə dərin yarımçıq doğulmuşlar

Doğulma müddəti	Hədəf göstəriciləri CO_2
1 dəq.	60-65%
2 dəq.	65-70%
3 dəq.	70-75%
4 dəq.	75-80%
5 dəq.	80-85%
10 dəq.	85-95%

Termoneytral mühitin yaradılması. Belə mühitdə istilik mübadiləsi minimal enerji və oksigen itgisi ilə getməlidir. Termoneytral mühitin yaradılması ekstremal az bədən çəkisi olan uşaqlar üçün, xüsusilə vacibdir. Çünki onlarda termo produksiya ehtiyatları son dərəcə az olur, belə olduqda hipotermiya katastrofik vəziyyətlərə gətirib çıxara bilər [17,18].

Az dəbən çəkisi və ekstremal az bədən çəkisi olan uşaqlara qulluq üçün temperaturu və rütubəti tənzimləyən funkiyaları olan inkubatorlardan istifadə edilir. Adekvat termotənzimlənmə indikatoru 36,3-36,9^0 C temperatur hesab olunur.

Ətraf havanın nəmləndirilməsi az bədən çəkisi olan uşaqlara qulluqda əsas məsələlərdən biridir.B irinci həftərlədə rütubəti 95% səviyyəsində (daha az yetkin yendoğulmuşlar üçün 95%-ə qədər) olmalıdır. Daha sonra bədən çəkisi və zərdab elektrolitlərin dinmikasının nəzarəti altında rütubət aşağı salınır. Birbaşa olaraq hestasiyanın müddəti və temperatur-rütubət rejimindən asılı olan epidermal baryer yetişkənliyə çatıdıqdan sonra adətən inkubatorun əlavə rütubətlənməsinə tələbat yaranmır. Yadda saxlamaq lazımdır ki, inkubatorda uzun müddət yüksək rütubət qaldıqda epidermisin yetişməsi prosesi ləngiyir və dərinin hospital mikroorqanizmləri ilə kolonizasiyasına şərait yaranır [19].

Cədvəl 2

Müxtəlif hestasion dövründə olan yenidoğulmuşların inkubatorunda havanın əlavə rütubətlənməsinin rejim və davametmə müddəti

Hestasiya müddəti	< 25 həftə	25-29 həftə	30-34 həftə	35 həftə və daha çox
95%	5 həftə	2 həftə		
80%	2 həftə	2 həftə		
60%	2 həftə	2 həftə	2 həftə	
40%	daha çox	daha çox	daha çox	doğulandan

İntensiv terapiya və reanimasiya klinikasında ventilyasiyanın adekvatlığının və oksigenləşmənin səviyyəsinin qiymətləndirilməsinin "qızıl standartı" arterial qanda qazların təyin edilməsidir. Lakin məhdudiyyətlər vardır.

Qan götürüldükdə prosedur ağrılı ola bilər və ya arterial xəttin təyin edilməsinə çox vaxt tələb oluna bilər. Bundan başqa müayinənin nəticəsinə yeridilən heparin, qanın götürülməsinə tələb olunan vaxt, mümkün hiperventilyasiya və ya yuxuda olduqda qan götürüldükdə ağrı nəticəsində apnoe də təsir göstərə bilər. Arterial qanın qaz tərkibi göstəriciləri uzun müddətli monitorinq üçün istifadə edilə bilməz. Ona görə də qeyri-invaziv monitorlar daha da geniş vüsət alır. Belə monitorlar real zaman miqyasında oksigenləşdirmə və ventilyasiyanı nəzarətdə saxlamağa imkan verir. Onlar arterial kateterlərdən istifadə edilməsi zərurətini aradan qaldırır, kapillyar qandan sınağın götürülməsi tezliyini aşağı salır. Xəstə yenidoğulmuşun müalicəsində əsas məqam onun adekvat oksigenlə təminatına zəmanət verilməsidir. Bu xəstələr üçün də hipoksiya və işemiya eyni dərəcədə təhlükəlidir, baxmayarq ki, yenidoğulmuşlar daha böyük xəstələrə nisbətən hipoksiyaya qarşı daha davamlı olurlar. Eyni zamanda hiperoksiya vaxtından əvvəl doğulmuşlar üçün daha təhlükəlidir. Bu onlarda antioksidant sistemin kifayət qədər inkişaf etməməsi ilə bağlıdır. Məlum olduğu ki, oksigenin nəzərəçarpacaq dərəcədə çox olması beynin qan dövranını aşağı salır. Bundan başqa arterial qanda yüksək səviyyəli oksigenin olması ağ ciyərlər üçün toksiki təsirə malikdir [19,20].

Yenidoğulmuşun dərisində ötürücülərin birləşdirilməsi üçün əlverişli olan nahiyələr. Əgər uşağa əlavə süni ventilyasiya tətbiq edilirsə və arterial qanda qaz tərkibinin tez-tez təyin edilməsinə ehtiyac varsa, göbək kateterinin qurulması məqsədəuyğundur. Yadda saxlamaq lazımdır ki, az bədən çəkisi və ya ekstremal az bədən çəkisi olan uşaqlara göbəkdə arterial kateterin qurulması həkimdən əlavə bacarıq tələb edir və təsrübəli neonataloq tərəfindən aparılmalıdır. Göbək kateterinin qoyulması üçün mütləq şərt dərhal (1saat ərzində) kateterin yerinin rentgenoloji verifikasiyanın aparılmasıdır. İnvaziv manipulyasiya riski faydasından yüksək olduqda (həkimin kifayət qədər təcrübəli olmaması, hemorragik fəsadların yüksək tezliyi, periferik damarların kalibrinin həddindən artıq kiçik olması) göbək kateterinin ekstremal az çəkili uşaqlarda 3 sutkadır. Əks halda 7 günə qədər uzadıla bilər. Yadda saxlamaq lazımdır ki, ömrünün birinci həftəsində göbək kateterinin

qalması kəskin şəkildə infeksiyalaşma təhlükəsi ilə assosiasiya olunur [21].

Beləliklə, ömrünün ilk günlərində damarlara girişin göbək vasitəsilə aparılması öznün doğrultmuşdur.

Az çəkili və ekstremal az çəkili yenidoğulmuşlarda dərinin yüksək buxarlanması nəticəsində, respirator trakt baxımından, böyrəklərin aşağı konsenrasiyalaşma qabiliyyəti, qlükoza məhlullarının infuziyasına qarşı tolerantlığın aşağı olması nəticəsində maye itgisi yüksək olur. nəticədə hiperqlikemiya və osmatik diurez inkişaf edir [22].

Ədəbiyyat göstəricilərinə əsasən bədən çəkisinin tranzitor itgisinin həddi 5-25% arasında tərəddüd edir və daha çox yetişkənlik dərəcəsindən deyil, qulluq şəraiti və infuzion terapiyanın həcmindən asılı olur. Gündəlik praktikada çalışmaq lazımdır ki, ekstremal az bədən çəkisi olan uşaqlarda maksimal çəki itgisi 101-15%-dən çox olmasın [23].

Hiss olunmayan maye itgisinin həcmi birbaşa olaraq hestasiya müddətindən və postnatal yaşdan asılıdır. Belə maye itgisi ilk növbədə dərinin buxarlanması, nisbətən az tənəffüs yollarının selikli qişası ilə bağlıdır. Sutkalıq maye tələbatı əlavə patoloji maye itgisi mənbəsi olduqda müxtəlif olur. Hiss edilməyən maye itgisinin dəyişən faktorları vardır. Bunlardan biri diurezin 2,5-5 ml/(kq/saat) artmasıdır. Ətraf havada kifayət qədər rütubət olmadıqda mayeyə və əlavə infuziyaya olan tələbat da artır.

Ekstremal az bədən çəkisi olan uşaqlarda başqa kateqoriyadan olan uşaqlar kimi mütləq şəkildə hər saat diurez, dəbən çəkisi dinamikası və zərdab natriumun (hipertonik dehidratasiyanın daha həssas indikatoru) səviyəsi qiymətləndirilir.

Ömrünün birinci həftəsində yenidoğuımuşun bədən çəkisini hər 12 saatdan bir ölçmək lazımdır, adekvat hava nəmliyi və duirezin hər saat nəzarəti zamanı çəkiyə sürətli nəzarəti aparmamaq da olar. Zərdabın elektrolit səviyyəsi ekstremal az bədən çəkisi olan uşaqlarda kəskin tərəddüdlər ilə fərqlənir ki, bu da müntəzəm nəzarəti (hər 24 saatdan bir) və vaxtında korreksiyanı tələb edir. Anadan olduqdan dərhal sonra yumaqcıq filtrasiyası və natriumun fraksion ekskresiyası aşağı olur. Nəticədə moliquriya inkişaf edir. Ekstremal az bədən çəkisi olan uşaqlarda birinci 24-48 saatlar ərzində bir qayda olaraq kalium, natrium və xlorun təyin edilməsinə tələbat olmur [24].

Dərin yarımçıq doğulmuşlarda epidermisin travmatizasiyası yüksək infeksiyalaşma riski ilə bağlıdır, ona görə də dəriyə toxunan istənilən manipulyasiyaya tənqidi yanaşmaq lazımdır. Doğum zalında dərinin ənənəvi işlənməsi aparılmır. Daha sonralar göstəriş oldquda dərinin son dərəcə ehmalca işlənməsi mümkündür (xarici çirklənmə, dəri qüsurlarının olması, yataq yarasının olması, invaziv manipulyasiyadan əvvəl antiseptiklərlə işləmə) [20,23].

Texniki səbəblərdən və ya inkubatorda kifayət qədər rütubət olmadığı halda yenidoğulmuşun həyatının birinci həftəsində adi yumşaldıcı vasitələr ilə dərinin işlənməsinə göstəriş vardır.

Yerli aseptiklərlə dəri işləndikdə seçim preparatları sulu məhlullu antiseptiklər və selikli qişaların işlənməsi üçün nəzərdə tutulmuş xüsusi antiseptiklərdir (məsələn, 0,01-0,05%-li sulu xlorheksidin məhlulu). Antiseptiklərin ekspozisiyası 30 s-dən az olmamalıdır, aplikasiya ardıcıl olaraq ikidəfəlik aparılmalıdır. Prosedurlar aparıldıqda dəri antipsetiklərlə və ya dəridən absorbsiyanın qarşısının alınması üçün fizioloji məhlullar ilə tam olaraq yuyulmalıdır [25]. Dərin yarımçıq doğulmuşların dərisinə qulluq üçün tərkibində lanolin və ya vazelin olan yumşaldıcı vasitələrdən istifadə edilir. Sistemli absrobsiyanın mükün olduğu nəzərə alınmaqla preparatın tərkibinə rəngləyicilər, aktiv inqridiyentlər daxil olmamalıdır. Monitorinq üçün sərt hel olan mikrolif toxumalı aşağıprofilli elektrodlardan istifadə etmək lazımdır. Dəriyə temperatur ötrücüsü qoşulduqda, mədə zondu, drenaj və başqa vasitələr qoyulduqda, eləcə də yüksək sürtünmə yerlərində hava keçirici poliuretin-akril adgeziv plyonkalardan və ya atrvamtik plastrlardan istifadə edilməlidir. Adgeziv səthlərdən istənilən vasitə ayrıldıqda əvvəlcə su və steril bitki yağ ilə yumşaldılır [25].

Beləliklə, yuxarıda qeyd olunanlardan məlum olur ki, az çəkili və ekstremal az çəkili yenidoğulmuşlara intensiv terapiya və reanimasiya şöbələrində qulluğun aparılması tibbi personaldan yüksək hazırlıq, lazımi avadanlıqlar və cihazlar tələb edir. Xüsusi olaraq qeyri-invaziv müayinə və müalicə vasitələrinə üstünlük verilməsi məsələsi daim diqqət mərkəzində olmalıdır.

ƏDƏBİYYAT

1. Володин Н.Н., Антонов А.Г, Байбарина Е.Н. и др. Современная модель организации помощи новорождённым на региональном уровне // Вопросы гинекологии, акушерства и перинатологии, 2003, Т. 2, № 4, с.68

2. Курносов Ю.В., Мерзлова Н.Б., Винокурова Л.Н., Шарышев Ю.С. Транспортировка глубоконедоношенных детей из районов Пермского края в первые сутки жизни / Современная перинатология: организация, технологии и качество: материалы V Ежегодного Конгресса специалистов перинатальной медицины. М., 2010, с.37

3. Plank K., Mikulaj V., Stencl J. et al. Prevention and treatment of prematurity in twin gestation // J. Perinat. Med., 2003Ş, vol. 21 (4), p.309-313

4. Курносов Ю.В., Мерзлова Н.Б., Батурин В.И., Борис Г.В. Основные причины инвалидности у детей, рожденных с очень низкой и экстремально низкой массой тела в Пермском крае / Современная перинатология: организация, технологии и качество: материалы I Международного Конгресса по перинатальной медицине и VI Ежегодного Конгресса специалистов перинатальной медицины. М., 2011, с.100

5. Альбицкий В.Ю., Байбарина Е.Н., Сорокина З.Х., Терлецкая Р.Н. Смертность новорожденных с экстремально низкой массой тела при рождении // Общественное здоровье и здравоохранение, 2010, №2, с.16-21. Байбарина Е.Н., Сорокина З.Х., Ермолаева Е.И., Киричок Е.В Совершенствование системы оказания помощи новорождённым на территориальном уровне / Современные подходы к выявлению, лечению и профилактике перинатальной патологии: материалы V съезда РАСПМ. М., 2005, с.31

6. Сорокина З.Х., Байбарина Е.Н. Современная стратегия повышения качества медицинской помощи в неонатоло-гии // Аг-инфо, 2006, № 1,с.11-16

7. Shennan A.T., Millgan J.E., Hoskins E.M. Perinatal factors associated with death or handicap in very preterm infants // American Journal of Obstetrics and Gynecology, 1997, vol.151, p.231-238

8. Albicki V.U., Baibarina E.N., Sorokina Z.H., Terleckaya R.N. Mortality in newborns with extremely low birth weight // Public Health and Health Care, 2010, N2, p. 16-21

9. Volodin N.N. Antonov A.G., Baibarina E.N., et al. Current model of organization of neonatal care at the regional level // Questions of Issues in gynecology, obstetrics and perinatology,2003, vol. 2, p. 68.

10. Kurnosov U.V., Merzlova N.B., Vinokurova L.N., Shary-shev U.S. Transportation of very preterm infants in first day of life from districts of Perm Krai / Resources of V Annual Congress For Perinatal Medicine Specialists: «The modern perinatology: organization, technology and quality». Moscow, 2010, p. 37.

11. Plank K., Mikulaj V., Stencl J. et al. Prevention and treatment of prematurity in twin gestation //J. Perinat. Med., 2003, vol.21 (4), p.309-313.

12. Белозеров Ю.М. Детская кардиология. М.:МЕДпресс-информ,2004,600 с.

13. Крючко Д.С. и др. Транзиторная ишемия миокарда у новорожденных с респираторной патологией // Вопросы практической педиатрии, 2008, №5, с.92-96

14. Сафанеева Т.А. Суточный ритм артериального давления у новорожденных в раннем неонатальном периоде: Автореф. дис… канд. мед. наук. Волгоград, 2007, 27с.

15. Яцык Г.В.и др. Комплексная этапная реабилитация детей с экстремально низкой массой тела //Вопросы практической педиатрии, 2008, №5, с.60

16. Allen MC. Neurodevelopmental outcomes of preterm infants // Curr Opin Neurol., 2008, vol.21(2), p.123-8.

17. Inder TE, Anderson NJ, Spencer C. et al White matter injury in the premature infant: a comparison between serial cranial sonographic and MR findings at term // AJNR Am J Neuroradiol., 2003, vol.24(5), p.805-9

18. Blankenberg FG, Loh NN, Bracci P. et al. Sonography, CT, and MR imaging: a prospective comparison of neonates with suspected intracranial ischemia and hemorrhage // AJNR Am J Neuroradiol., 2000. vol.21(1), p.213-8.

19. Зенков ЛР. Клиническая электроэнцефалография (с элементами эпилеп- то-логии). Таганрог: Издательства ТРТУ; 1996, 358с.

20. Volpe JJ. Neurology of the Newborn. 5th ed. Philadelphia: Elsevier; 2008.

21. Володин Н.Н., Строганова Т.А., Дегтярева М.Г., Рогаткин С.О. Спектральные характеристики ЭЭГ спокойного сна у детей первого месяца жизни как критерии тяжести и прогноза исходов перенесенного перинатального поражения ЦНС // Вопросы гинекологии, акушерства и перинатологиис., 2005, N4(5-6), 33-44

